AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**TARİX İNSTİTUTU**

# ELMİ ƏSƏRLƏR

**2011, cild 39**

# SCIENTIFIC WORKS

**OF THE INSTITUTE OF HISTORY NAS OF AZERBAIJAN**

**2011, volume 39**

# ТРУДЫ

**ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА**

**2011, том 39**

**1947-ci ildən**
**Nəşr olunur**

**39/2011**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur**

Baş redaktor:
**Yaqub MAHMUDOV**
*AMEA-nın müxbir üzvü*

Redaksiya heyəti:
Akad. Nailə **VƏLİXANLI**, akad. Teymur **BÜNYADOV**,
akad. İsmayıl **HACIYEV**, AMEA-nın müxbir üzvü
Nərgiz **AXUNDOVA,** t.ü.e.d. İradə **BAĞIROVA**,
t.ü.f.d. Cəbi **BƏHRAMOV (**baş redaktor müavini**)**,
t.ü.e.d. Həsən **ƏLİBƏYLİ,** İradə **ƏLİYEVA** (buraxılışa məsul),
t.ü.e.d Şahin **FƏRZƏLİYEV**, t.ü.e.d. Qasım H**ACIYEV**,
t.ü.f.d. Hacı **HƏSƏNOV**, r.ü.f.d. Mehri X**ANBABAYEVA**,
t.ü.e.d. Ədalət **QASIMOV,** t.ü.f.d. Nigar **MAKSVELL,**
t.ü.e.d. Adil **MƏMMƏDOV**,
t.ü.f.d. Göhər **MƏMMƏDOVA** (məsul katib),
t.ü.f.d. Elmar **MƏHƏRRƏMOV**, t.ü.e.d. Tofiq **MUSTAFAZADƏ**,
t.ü.f.d. Tofiq **NƏCƏFLİ,** t.ü.e.d. Məryəm **SEYİDBƏYLİ**,
t.ü.e.d. Kərim **ŞÜKÜROV**

ISBN

© AMEA Tarix İnstitutu, 2011

# YUNAN-ROMA VƏ ORTA ƏSR GÜRCÜ MƏNBƏLƏRİNİN MÜQAYİSƏSİNDƏ BUNTÜRKLƏR

**Ellada Bəkirova***
bekirovaella@gmail.com

Azərbaycan xalqının soykökündə özünəməxsus rolu olan tayfalardan biri buntürklərdir. Cənubi Qafqazın orta əsrlər sakinlərindən hesab olunsalar da, əslində, ərazinin ən qədim aborigenlərindən olmuşlar. Orta əsr gürcü mənşəli mənbələrdə buntürklərin adı miladdan öncəki IV əsr hadisələri ilə bağlı əbəs yerə çəkilmir. Tədqiqatçıların bir qrupu, xüsusilə, gürcü tədqiqatçıları onların miladdan öncəki hadisələrdə, məhz indiki Gürcüstan torpaqlarında xatırladılmasını anaxronizm hesab etsələr də, fikrimizcə, bu bəzi əhəmiyyətli məqamları gözardı etməklə məsələyə qərəzli yanaşmadan başqa bir şey deyil. Məsələyə aydınlıq gətirmək üçün ilk növbədə "buntürk" etnoniminə baxaq. Etnonim "*bun-türk*" olaraq iki komponentdən ibarətdir. Sözün ikinci hissəsi aydın olduğundan, əsasən birinci hissə üzərində dayanacağıq. Buradakı "*bun*" komponentini tədqiqatçılar müxtəlif cür izah edirlər. İlk dəfə bu termini M.Brosse izah etmişdir. O, həm bu termini "primitiv türklər" olaraq tərcümə etmiş, həm də onları Keyxosrov tərəfindən qovulan türklər, yəni "Şahnamə"də adı keçən turanlılarla bağlamışdır [19.33]. Buntürklərin "Şahnamə"dəki turanlılar olması fikrinə E.Takaişvili də qismən qatılmışdır. Lakin terminin əvvəlindəki "*bun*" komponentini qədim erməni dilindəki mizraq sözü ilə bağlamış, sözü "mizraqlı türklər" olaraq tərcümə etmişdir [16.1-2]. Lakin buntürk etnoniminin erməni dilində izah olunması fikri ağlabatan görünmür. N.Marr, N.Canaşia onun bu fikrini haqlı olaraq tənqid etmişdilər [10.3].

N.Marr buntürklər terminini avtoxton türklər olaraq açıqlayır. L.Melikset-bek isə termindəki "*bun*" hissəciyini orfoqrafik xəta hesab edərək, buntürklər deyil, huntürklər olduğunu düşünür[14.16; 15. 709-715]. Q.Melikişvili də bir yerdə onları prototürklər, digər yerdə huntürklər olaraq izah etmişdir [10.4]. V.Qabaşvili bu barədə iki mülahizə irəli sürür, birinci mülahizə L.Melikset-bekin nəzəriyyəsini təkrarlayır, ikinci mülahizəsi isə buntürkləri Göytürk xaqanı Bumın xaqanla bağlayır [10.4].

---

* Ellada Abubəkir qızı Bəkirova– AMEA A.A.Bakıxanov adına Tarix institutunun dissertantı

Buntürk terminini G.Tsulaya etnik termin olaraq, yerli, əsl türklər olaraq izah edir, o da "Şahnamə"dəki turanlılarla əlaqələndirməni doğru qəbul edir [2.59-60]. M.Seyidov isə "*bun*" hissəciyini kuman-qırğız-qaraqırğız-kazantatar türkcələrinə kuşak-nəsil mənasını verən "*bun*" sözü ilə bağlayır ki, bu iddia da kifayət qədər maraqlı və ağlabatan görünür.

S.Əliyarlı isə bu etnonimi bunalmış, digər türk tayfalarından ayrı düşmüş kimi izah edir [12.298]. Qədim türk abidələri olan "Kitab-i Dədə Qorqud" dastanında, göytürk abidələrindən Gültiginin abidəsində "*bun*" hissəciyi təqribən eyni məna çalarlarında işlədilmişdir. "Kitab-i Dədə Qorqud"da "Basatın Təpəgözü öldürdüyü boy"da Təpəgözə yemək bişirməsi üçün Bunlu qoca və Yapağlu qoca verilir [8. 99]. "Bəkil oğlu İmran boyu"nda ovda yaralanan Bəkil oğluna belə müraciət edir: "Bəylər bəyi Qazan xanın əlini öpgil, ağ saqqallı babam bunlu degil" [8. 107]. Kültiginin abidəsində isə belə bir ifadə var: "...(Türk xalqı), Ötükəndə oturub karvanlar göndərsən heç bir bunuğ yox (dərdin olmaz)" [9. 218]. T.Hacıyev və E.Əzizov da bu termini "Kitab-i Dədə Qorqud" dastanı ilə bağlamış, lakin bir qədər fərqli şəkildə açıqlamışlar [7. 32]. Müəlliflərin fikrinə görə, buradakı "*bun*" hissəciyi qədim türk dili lüğətlərində "sağır n" ilə yazılan "bon/bön" (dolu, yoğun, qalın) sözüdür. Bu mənada termini "Kitab-i Dədə Qorqud"dakı Qalın oğuzlarla əlaqələndirirlər [7.32-33]. Müəlliflərin fikrinə görə, dastanda Qalın oğuzların yaşadığı ərazi buntürklərin yaşadığı ərazi ilə üst-üstə düşür [7.33].

Beləliklə, buntürk etnoniminin türk dilinin ən qədim lüğətləri ilə etimologiyası göstərir ki, bu ən qədim türk etnoslarından biri olmuşdur.

Bəs bu etnos Cənubi Qafqazda qəfil necə peyda oldu və gürcü tədqiqatçılarının onların antik dövr hadisələri ilə bağlı xatırladılmasını anaxronizm hesab etməsi doğrudurmu? Əvvəlcə mənbələrə nəzər salaq. XI əsr gürcü müəllifi Leonti Mrovelinin "Kartli çarlarının həyatı" əsərində belə bir məlumat var: "O vaxt ki, çar Aleksandr lot törəmələrini qarşısından qaçmağa məcbur etdi və onları yarıqaranlıq ölkəyə göndərdi, onda o, ilk dəfə Kür çayı sahilindəki dörd şəhər və onun ətrafında yaşayan qəzəbli buntürk tayfalarını gördü. Bu şəhərlər Sarkine, Kaspi, Urbnisi, Odzraxe şəhərləri idi. Qalaları isə, böyük qala Sarkine, idarəçi qalası Kaspi, Urbnisi və Odzraxe qalaları idi... Çar onlarla mübarizə aparmağın mümkün olmadığını görüb oradan uzaqlaşdı. Bu vaxt isə buraya xaldeylərdən

aralanan döyüşkən hon tayfaları gəldilər və buntürklərin başçısına vergi ödəmək qarşılığında məskən istədilər və Zanavidə məskən saldılar. Onlar əvəzində vergi ödədikləri yeri idarə etdilər və bura Xerki adlanırdı” [5. 9; 4. 24]. Mənbədə adı çəkilən dörd şəhər Kür çayı sahilində yerləşirdi və əhalisi də buntürklər olaraq göstərilmişdir. Hal-hazırda da həmin ərazidə, dəqiq desək, Kür çayının sol sahilində, Tiflisdən 48 km şimal-qərbə doğru Kaspi adlanan şəhər qalmaqdadır. Bu sözsüz alban-kaspilərə aid olan şəhər olmuşdur. Bu tayfaların Qara dəniz sahillərinədək geniş bir əraziyə yayıldıqları barədə antik mənbələrdə məlumatlar var [13. 393]. Bəzi tədqiqatçıların fikrinə görə, e.ə.V əsrə aid arxeoloji materiallara əsaslansaq, ərazidə kaspilərin çoxluğunu düşünmək imkanımız var. Ə.Ələkbərovun fikrinə görə, bu alban-kaspilər əslində sonrakı türk-xəzərlərdir [13. 393]. Əslində, “Kaspi” və “Xəzər” coğrafi adlarının sinonim olması da təsadüf deyil. Ə.Ələkbərov kaspilərin və xəzərlərin balıqdan yapışqan hazırlaması haqqında antik və orta əsr müəlliflərinin məlumatlarına da diqqət çəkmiş və xəzərlərin tarix səhnəsində yalnız VII əsrdən etibarən peyda olmaları haqqında nəzəriyyəyə yenidən baxılmalı olduğunu vurğulamışdır [13.393]. Beləliklə, Böyük İsgəndərin Qafqazda olub-olmaması məsələsi mübahisəli olsa belə, bu orta əsr gürcü mənbəsində diqqət çəkən cəhət müəllifin haqqında danışdığımız bölgədə gürcü deyil, türk əsilli xalqın yaşadığının göstərilməsidir.

Həm “Gürcüstanın dönüşü”, həm də “Kartli çarlarının həyatı” salnamələrində bu ərazilərdə buntürklər və honların yaşadığı göstərilir. “Kartli çarlarının həyatı” əsərində isə, bir yerdə Makedoniyalı İsgəndərin geri qayıtması, üç aylıq mühasirədən sonra Sarkineni ələ keçirməsi təsvir olunub [3 .27]. Ardınca qeyd olunur ki, “...buntürklər qayalarda açdıqları lağımla mühasirədən çıxıb Şərqə çəkildilər...İsgəndər Sarkineni özü ilə gəzdirdiyi Arian-Kartli şahzadəsi Azaya bağışladı...”[3 .28]. Məhz bu Şərqə çəkilmə prosesini K.Məmmədli Tiflisətrafı ərazi ilə əlaqələndirir, hətta Tiflis şəhərinin buntürklər tərəfindən salına biləcəyi ehtimalını da irəli sürür [20]. Onu da qeyd etmək yerinə düşər ki, buntürklər yaşayan ərazilərdə Armaz şəhəri salınması da e.ə. IV əsrdə yaşamış Azonun xələfi Farnavazla (e.ə. 302-e.ə. 237) əlaqələndirilir [5. 10]. L.Mrovelinin müəllifi olduğu digər bir gürcü mənbəsində də Msxeta və ətraf ərazilərin yenidən inşası məhz çar Farnavazla əlaqələndirilib.

Xatırladaq ki, gürcülərin çar Farnavaza qədərki hökmdarlarının demək olar ki hamısı əfsanəvi xarakter daşıyır. Buna görə də ehtimal etmək olar ki, iberlərin Msxeta ətrafına gəlib çıxması məhz çar Farnavazın hakimiyyəti illərindən sonra başlamışdır. İberlər orta əsr gürcü mənbələrində buntürklər olaraq qeyd olunan xalqın Şərqə istiqamət götürməsindən sonra bu əraziləri mənimsədilər. Bu ərazilərin arxeologiyasının, Samtavro, Qomareti, Bebnisi, Dvanidən əldə olunmuş antropoloji nümunələrin məhz bu səbəbdən iberlərlə, müasir gürcülərlə bağlılığı yoxdur. Burada yenə də "buntürk" ifadəsinin özünə qayıtmaq lazımdır, bu dəfə "türk" hissəciyinə. Tədqiqatçılar antik dövrdə bu ərazidə türk etnosunun və türk ifadəsinin mövcudluğunu inkar etsələr də, qeyd etmək vacibdir ki, antik dövr mənbələrində türk ifadəsinə rastlanması səbəbindən (Böyük Plinin, Pomponi Melanın əsərlərində "tyrkae", "tirk" şəklində), bu dövrdə bu ərazilərdə türklərin yaşaması ehtimalı da mümkündür. Gürcü qaynaqlarındakı "türk" kəlməsinə də əslində bugünkü mənası ilə baxmaq lazımdır. Ş.Mesxia türklərin Kartlinin əhalisinin bir hissəsini təşkil etməsi barədə bir mənbə əldə etmiş, lakin onların mənşəyi barədə açıqlama verməmiş, bu barədə susmuşdur [10.6-7]. G.Tsulaya da bununla qismən razılaşaraq "islamöncəsi türklərin yad qövmlərlə inanılmaz dərəcədə iç-içə yaşaya biləcəyini" dilə gətirmiş, türklərin Kartlidə yaşaya biləcəyini rədd etməmişdir [3.58]. Bütün bu söylənən fikirlər sübut edir ki, gürcü müəllifləri özləri də buntürklərin türklərlə əlaqəsini, ən qədim dövrlərdən Gürcüstanın şərq hissəsində gürcü olmayan əhali qrupunun yaşadığını qəbul edirlər. Lakin orta əsrlər dövrünün mənbələrində adları daha çox çəkilən tayfanın antik dövr hadisələri ilə bağlı xatırladılması onları tərəddüddə buraxır. Bu ondan qaynaqlanır ki, həmin müəlliflər antik müəlliflərin həmin bölgə haqqında məlumatlarını diqqətdən qaçırır, ya da bilərəkdən tədqiqata cəlb etmirlər. Antik müəlliflərdən Strabon İberiyanın dağlıq hissəsinin əhalisi barədə məlumat verərkən yazırdı ki, "...dağlıq hissədə sadə adamlar və döyüşçülər məskunlaşıb, onlar özlərinə qohum və qonşu olan skif və sarmatların adətləri ilə yaşayırlar. Hər hansı təhlükəli vəziyyət yarandıqda onlar həm öz aralarından, həm də skif və sarmatlar arasından on minlərlə döyüşçü çıxara bilirlər" (*Strabo.XI.2.20*; 6.474). Bu məlumatdan aydın olur ki, İberiyanın dağlıq hissəsində skif və sarmatlarla qonşu və qohum olan xalq yaşayırdı. Yəni onların iberlərlə deyil, skif-sarmatlar-

la qohumluğu vardı. Burada D.Bakradzenin buntürklərin skiflərlə qohum olması barədə mülahizəsini yadımıza salmalıyıq [11.132]. Mənbədən göründüyü kimi skif-sarmatlarla qohumluğuna işarə edilən xalqla buntürklərin yaşadığı ərazi üst-üstə düşür, ona görə antik mənbədə sözügedən xalqın orta əsr mənbələrində buntürklər olaraq qeyd olunması mülahizəsi şübhəsiz qəbul oluna bilər. Təhlükəli vəziyyət yarandıqda onların bir-birinə yardım etməsini, hətta albanlara da eyni səbəblə yardım etmələrini Strabonun başqa bir qeydi təsdiqləyir. Antik müəllif yazırdı ki, "...köçərilər yadellilərlə mübarizədə albanlara və iberlərə həmin səbəblərdən kömək edirdilər" (*Strabo.XI.4.5*; 6.476). M.Xəlilovun fikrinə görə, Strabon "qohumluq və qonşuluq"dan başqa bir səbəb göstərmədiyinə görə, onların qohum və qonşu olduqları üçün bir-birlərinə yardım etdiyi aydın olur [18.26]. Həmçinin, qeyd etmək lazımdır ki, alban tarixçisi M.Kalankatlı da albanların şimal tayfaları ilə qohumluğuna işarə etmişdir (*M.Kal. I.2.4*; 1.15). Məlum olduğu kimi, M.Kalankatlı "şimal xalqları" adı altında Ön Qafqaz çöllərində yaşayan erkən orta əsr türk tayfalarını nəzərdə tutmuşdur [17.27].

Həmçinin, antik müəlliflər tərəfindən alban adının bəzən ümumi mənada işlədildiyini, ümumi mənada albanlara aid edilən tayfaların içərisində skiflərlə qohumluğu birbaşa göstərilən tayfaların olduğunu nəzərə alsaq, yenə də bu ərazidə yaşayan tayfanın buntürklər olduğunu qəbul etməli olacayıq. Bu ərazidə müxtəlif vaxtlarda aparılan arxeoloji qazıntılar da bunu bir daha təsdiqləyir. Gürcüstanın xüsusilə şərq ərazilərində tarixi e.ə.VIII əsrdən əvvələ gedib çıxan çoxlu sayda skiflərə aid tapıntılara rast gəlinmişdir ki bu mövzu hələ də mübahisəyə açıqdır. Hətta bəzi gürcü müəllifləri danışılan dövrdə skiflərin Şərqi Gürcüstan üzərində siyasi hakimiyyətinin olmasını da düşünürlər [10;47].

Bütün bu deyilənlərdən belə məlum olur ki, orta əsr gürcü mənbələrinin haqqında danışdığı "buntürklər" mif deyil. Bu antik dövrdə bu ərazidə yaşamış skif və sarmat əsilli əhali idi, hansı ki albanlarla qohum, qonşu idi, orta əsr gürcü mənbələri isə onları buntürklər olaraq qeyd etmişdilər. Beləliklə, ən qədim dövrlərdən başlayaraq Gürcüstan Respublikasının şərq ərazilərində skif əsilli, türk əsilli əhali qrupu yaşamışdır. Sonrakı dövrlərdə Gürcüstanın şərqində türk etnosunun çəkisi artdığı səbəbindən bu bölgə "Didi Türkoba", yəni "Böyük Türküstan" adlandırıldı, Gürcüsta-

nın qərbi isə, "Kartveloba", yəni "Gürcü obası". Hal-hazırda da bu bölgənin arxeologiyası, antropologiyası, etnoqrafiyası gürcü əhali qrupundan daha çox müasir azərbaycanlılara yaxındır.

Beləliklə, orta əsr gürcü müəlliflərinin antik dövrdə Şərqi Gürcüstan ərazisində türk əsilli əhalini qeydə alması anaxronizm deyil, gürcü müəlliflərinin qeyd etdiyi tayfalar bu dövrdə həmin bölgədə yaşamış olan skiflərlə qohumluğu göstərilən albanlar ola bilər.

## MƏNBƏLƏR ƏDƏBİYYAT


1. M.Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban səlnaməsi / tərc. Z.Bünyadov, Bakı : Elm,1993, 272 s.
2. Летопись Картли. Перевод, введение и примечания Г.В.Цулая. -Тбилиси, 1982
3. Мровели Л. Жизнь картлийских царей.//пер. с древнегрузинского, предисловие и комментарии Г.В.Цулая. Моска : Наука, 1979, 104 с.
4. Мровели Л. Жизнь картлийских царей. Москва: Директ-Медиа, 2010, 246 с.
5. Обращение Грузии // Пер. с древнегруз. Э.Такайшвили, ред. М.Чхартишвили [Ред. колл. Ш.В.Дзидзигури, М.Д.Абашидзе, З.Н.Алексидзе и др.], Тбилиси: Изд. Мецниереба, 1989, 184 с.
6. Страбон. География в 17 книгах / Перевод, статья и комментарий П. А. Стратановского. М.: Наука, 1964. 941 с.
7. Hacıyev T.İ., Əzizov E. Buntürklər kimdir? "Ulduz" jurnalı, 1989, № 2, s.89.
8. Kitab-i Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
9. Şükürlü Ə.C. Qədim türk yazılı adidələrinin dili. Bakı:Maarif, 1993, 336 s.
10. Alasania G. Gürcüler ve islam öncesi türkler. Trabzon: KTÜ yayınları, 2013, 198 s.
11. Bakradze D. Gürcüstan tarixi. Tb. 1889, 260 s.(gürcü dilində)
12. Hacıyev F.V. Gürcüstan coğrafiyasında əski türklər: buntürklərdən qarapapaqlara // I Uluslararası Uzak Asyadan Ön Asyaya Eski türkçe bilgi şöleni, Afyonkarahisar, 18-20 kasım 2009, 297-307 s.
13. Алекперов А. Один из древних тюркских этносов Передней Азии-кадусии // Tarix və Gerçəklik, 2010, I cild, s.12-36
14. Марр Н. Я.Ипполит. Толкование Песни Песней. Спб.1901, 69 с.
15. Меликсет-бек Л. К истории появления гуннов в восточном Закавказье // Докл. АН. Азерб.ССР, XIII, 1957, с.709-715
16. Тревер К. В. Очерки по истории культуре Кавказской Албании (IV в.'до н.э. - VII в. н.э.) М.;Л.: Изд-во АН СССР, 1959, 391 с.
17. Халилов М. О происхождении албанского погребального ритуала "убитые враги".// Azərbaycan arxeologiyası, 2002, №3-4, с.26-34
18. Халилов М. Сарматия-Кавказская Албания : границы, контакты // Античная цивилизация и варварный мир. Новочеркасск-1992, с.68-75
19. Brosset M. Histoire de la Georgie, S. Petersbourg, İmprimerie de L´Academia İmperiale des science, 1849, I v., 694 p.
20. Məmmədov K. Danışan tarix-Tiflis
21. http://www.youtube.com/watch?v=NfPWe6q0bb4

**E.Bekirova**

**BUNTURKS - COMPARISON OF ANCIENT GRECO-ROMAN AND MEDIEVAL GEORGIAN SOURCES**

**SUMMARY**

This abstract is about the ancient tribes of Bunturks. They were one of the oldest populations of the South Caucasus. Medieval Georgian sources mentioned that they lived in the territories of the Eastern Georgia. In this abstract author related Bunturks with Scythians who lived in that region in ancient times.

**E.A.Bekirova**

**БУНТЮРКИ В СРАВНЕНИЕ ГРЕКО-РИМСКИХ И СРЕДНЕВЕКОВЫХ ГРУЗИНСКИХ ИСТОЧНИКОВ**

**РЕЗЮМЕ**

В данной статье на основе информации из греко-римских и средневековых грузинских источников даются сведения о племенах бунтюрков. Бунтюрки были одними из древнейших племен Южного Кавказа. Средневековые грузинские источники отмечали, что они жили на территории Восточной Грузии. В статье сравнивается информация греко-римских и средневековых источников о скифах и бунтюрках, проживавших в Восточной Грузии.

# İBN HÖVQƏLIN “KITAB SURƏT ƏL-ARD” ƏSƏRI AZƏRBAYCAN HAQQINDA

**Ramil AĞAYEV***

**Açar söz:** Azərbaycan, dövlət, şəhər, əhali, ticarət

Azərbaycan tarixinin VII-IX əsrlərlə bağlı bağlı olmuş müxtəlif məsələlərinin öyrənilməsi üçün ərəb dilində yazılmış tarixi və coğrafi əsərlərin müstəsna əhəmiyyəti vardır. Əbülqasim Məhəmməd ibn Hövqəlin “Kitab surət al-ard” (“Yerin təsviri kitabı”) əsəri bu cür qaynaqlardan biridir. Həmin əsər elm aləmində “Kitab əl-masalik va-l-məmalik” (“Yollar və məmləkətlər kitabı”) adı ilə də məşhurdur.

Ərəb Xilafətində tarixi və coğrafi əsərlərə böyük maraq böyük imperiyanı idarə etmək üçün tələb olunan əməli biliklərə artan ehtiyacdan yaranmışdı (22, 20-21).

İbn Hövqəl səyahətinə 331/945-ci ildə başlamış və onu 367/977-ci ildə tamam-lamışdır (33, 3). İbn Hövqəl 340/950-ci ildə öz sələfi Əl-İstəxri ilə görüşmüş və Əl-İstəxrinin xahişi ilə onun “Kitab məsalik əl-məmalik” (“Dövlətlərin yolları haqqında kitab”) əsərini redaktə edərək öz məlumatlarını da buraya əlavə etmişdir (3, 21-22; 9, 5-6; 10, 103; 23, 101;). İbn Hövqəlin əsəri əl-İstəxrinin əsərinə çox oxşayır, lakin onun eyni, təkrarı deyildir (10, 103).

İbn Hövqəlin əsəri “ərəb coğrafiya ədəbiyyatının zirvəsini təşkil edir” (23, 101). Həmin əsərin üç variantı məlumdur. Onun birinci variantı İstanbulun Topqapı sarayında saxlanılan əlyazması nüsxəsidir. Əsərin ikinci variantı de Quyenin “Ərəb coğrafiyaşünaslarının kitabxanası” toplusunun ikinci cildinə daxil edilmiş əlyazması nüsxəsidir. Bu əsərin üçüncü variantı isə XII əsrə aid olan Paris əlyazması nüsxəsidir ( 34, III).

İbn Hövqəlin əsərinin iki mükəmməl nəşri məlumdur. 1873-cü ildə de Quye Hollandiyanın Leyden şəhərində həmin əsəri ilk dəfə nəşr etdirmişdir (34, III). 1939-cu ildə isə J. H. Kramers bu əsəri həmin şəhərdə, Brill mətbəəsində ikinci dəfə nəşr etdirmişdir (30). 1967-ci ildə həmin əsər 1939-cu il nəşri əsasında yenidən çap edilmişdir (29). Əsərin ikinci

---

* Ramil Əyyub oğlu Ağayev – t.ü.f.d. AMEA A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi

nəşri İstanbulun Topqapı sarayındakı 3346 saylı əl-yazması nüsxəsi əsasında həyata keçirilmişdir. Həmin nüsxə 479/1086-cı ilə aiddir (34, III). J.H.Kramers G. Viyetlə birlikdə bu əsəri fransız dilinə də tərcümə etmiş, onun haqqında məqalələr yazmışdır (33, 371). Əsərin bu, tam nəşrlərindən əlavə onun 1800-cü ildə Londonda W. Quseley tərəfindən ingilis dilinə, 1842-ci ildə De Slane tərəfindən, 1845-ci ildə isə M. Amari tərəfindən fransız dilinə tərcümə olunmuş natamam nəşrləri də məlumdur (23, 102). Əsərin ikinci hissəsi fars dilinə tərcümə olunmuş və Tehranda çap olunmuşdur (33).

Bu əsərin ikinci hissəsindən Mavərənnəhr və Mərkəzi Asiya türkləri ilə bağlı olan hissələri türk dilinə tərcümə olunmuşdur (24, 162-173; 207-245).

Bir sıra Azərbaycan tarixçiləri və şərqşünasları öz tədqiqatlarında digər ərəb coğrafiyaçılarının əsərləri ilə yanaşı, İbn Hövqəlin əsərinə də müraciət etmiş və onun əhəmiyyətini xüsusi olaraq qeyd etmişlər. Belə tədqiqatlar sırasında ilk növbədə Z. M. Bünyadovun (3; 17), M. X. Şəriflinin (9), S. B. Aşurbəylinin (16), N. M. Vəlixanlının (10; 11; 112; 13; 18) əsərlərini xüsusilə, qeyd etmək lazımdır. Azərbaycan tarixi ilə bağlı olan bir sıra ümumiləşdirici kitablarda da İbn Hövəlin verdiyi məlumatlardan istifadə edilmişdir (1; 2). Bu əsər bir sıra ölkələrin tarix-çiləri tərəfindən də araşdırılşmış, bu və ya digər şəkildə tədqiqata cəlb olunmuşdur (19; 20; 21; 22; 23; 24; 31; 32). Əsərin Azərbaycan tarixi ilə bağlı olan mühüm hissələri de Quyenin Leyden nəşri əsas götürülməklə, N.A.Karaulov tərəfindən rus dilinə (20), N.M.Vəlixanlı tərəfindən Azərbaycan dilinə tərcümə olunmuşdur (10).

Tədqiaqt zamanı son dövrlərdə nəşr edilən, bu və ya digər şəkildə araşdırılan mövzu ilə səsləşən əsərlərə də müraciət edilmişdir (4; 5; 6; 7; 8; 15).

İbn Hövqəlin əsəri 2 hissədən ibarətdir. Azərbaycanla bağlı məlumatlar əsasən, əsərin ikinci hissəsindədir. Buradakı 2 paraqrafda ("Ərminiyyə, Azərbaycan və Arran" və "Xəzər dənizi") verilmiş məlumatlara istinadən Azərbaycanın tarixi coğrafiyası, dövlətçiliyi, şəhərləri, əhalinin məşğuliyyəti və. s haqqında müəyyən fikirlər irəli sürmək olar (30, 331-357; 386-399). Birinci hissədə Azərbaycanla bağlı məlumatlar "Dünya atlası" adlanan paraqrafda verilmişdir (29, 5-17).

Müəllifin həyat və yaradıcılığından bəhs etmiş müəlliflər əsasən, onun haqqında ümumi məlumat verməklə kifayətlənmişlər (22, 198-208; 31, 352) C. Zidan onun hicri tarixilə IV əsrdə yaşadığını və "orta səviyyəli coğrafiyaçı" olduğunu qeyd etməklə kifayətlənmişdir (28, 379.) G.L. Strenc İbn Hövqəlin əsərinin 367/977-ci ildə tamamlandığını qeyd etmişdir (32, 13). Müəllifin dəqiq doğum və ölüm tarixi məlum deyildir.

İbn Hövqəlin yazdığına görə o, iki dəfə Azərbaycana gəlmiş, Gürsurə bazarındakı ticarətlə tanış olmuşdur. O, öz əsərində Azərbaycanın sərhədləri, şəhərləri, əhalisi, ticarəti, yolları, bazarları, pulları, habelə Saci və Salari dövlətləri haqqında ətraflı məlumat verir (9, 6).

**Azərbaycan ölkəsi və dövlətçiliyi haqqında.**

Müəllif "Ərməniyyə, Azərbaycan və Arran" adlı paraqrafda Azərbaycan dövlətçiliyi ilə bağlı olan çox mühüm məlumat verir: فلنرجع الى حد بلد الروم غربآ فنصف ما صاقبها الى آخر الأسلام فى حد المشرق، والذى أبتدى به ارمنيه والران واذربيجان و قد جعلتها اقليمآ واحدآ لأنها مملكة انسان واحد فيما شاهدته سائر عمرى و ما نقلت الأخبار به لمن تقدمنى كا بن أبى الساج و مفلح غلامه و ديسم ابن شاذلويه و المرزبان بن محمد المروف بالسلار انفآ و سالفآ لمثل الفضل ابن يحيى و عبد الله بن مالك الخزاعى و غيرهما.

Tərcməsi: "İndi də biz qərbə doğru Rum ölkəsinin sərhədlərinə qayıdaq, onun şərq sərhədlərində və qonşuluğunda olan İslam ucqarlarını təsvir edək. Onun təsvirinə Ərminiyyə, Arran və Azərbaycan ölkələrindən başlayıram. Mən onlara vahid iqlim kimi yanaşıram. Çünki mənim gördüyümə görə bu iqlim bir şəxsin hakimiyyəti altındadır. Əldə edilmiş məlumatlara əsasən, son zamanlarda İbn Əbu Sac, onun qulamı Müflih, Deysəm ibn Sədluye və Salar kimi tanınmış Mərzban ibn Məhəmməd kimiləri orada hakimiyyətdə olmuşlar. Keçmişdə isə Fəzl ibn Yəhya, Abdullah ibn Malik Xəzai və başqaları oranın hakimi olmuşlar (30, 331).

İbn Hövqəl öz əsərində iqlimin xəritəsini də təqdim etmişdir (xəritə 1).

Müəllif bir qədər sonra öz fikirini daha da dəqiqləşdirərək "həmin hökmdarların məhz Azərbaycan hökmdarları olduğuna" işarə edir. Zənimizcə, bu, həmin dövrün Azərbaycan dövlətçiliyi ilə bağlı olan çox mühüm faktdır. Yəni, biz həmin dövlətləri bu gün yalnız tarixi corafiyaya, tarixi məntiqə əsaslanmaqla deyil, gerçək faktlara istinad etməklə "Azərbaycan dövlətləri" adlandıra bilərik. Müəllif yazır ki, Qafqaz dağlarında və ətraf ərazilərdə xırda hökmdarlar vardır. O, bu fikrini aşağıdakı söz-

lərlə davam etdirir: وكان أكسر هؤلأ الملوك عليهم كالضرائب القائمة واللوازم تحمل فى كل سنة الى ملوك أذربيجان.

Tərcüməsi: “Bu hökmdarların əksəriyyəti hər il Azərbaycan hökmdarlarına müəyyən miqdarda daimi vergi və digər ləvazimatlar aparırlar” (30, 348).

Müəllif başqa bir yerdə “qırmız” adlı bitkidən bəhs edir: و هذه الفؤة فى جميع بلد الران من حد باب الأبواب الى تفليس و قرب نهر الرس الى نواحى خزران وهى مملكة تحت يد صاحب اذربيجان.Tərcüməsi: “Bu qızılboya (boyaqotu) Bab əl-Əbvab hüdudlarıdan Tiflisədək bütün Arran ölkəsində, ər-Rass çayı yaxınlığından Xəzərlərin nahiyələrinədək Azərbaycan hökmdarının hakimiyyəti altında olan bütün ərazilərdə vardır” (30, 347). Göründüyü kimi, müəllif Azərbaycan dövlətinin hüdudlarının şimalda Dərbəndədək, qərbdə Tiflisədək uzandığını qeyd etmişdir.

İbn Hövqəl əsərinin “Xəzər dənizi” adlanan paraqrafında Azərbaycan ölkəsi və onun hüdudları ilə bağlı olan dəyərli məlumat verir. Belə ki, o Xəzər dənizinin ətrafındakı ölkələri şimaldan cənuba doğru təsvir edərkən Arran və Şirvan ərazilərinin məhz Azərbaycanın tərkibində olduğuna işarə edir. Müəllifin təsvirinə diqqət yetirək: و كتب موازيأ لساحل البحر الأعلى الغزية ثم يلى ذلك موازيأ للساحل الخزر ثم اذربيجان ثم الجيل ثم طبرستان.

Tərcüməsi: “Dənizin yuxarı hissəsində sahilboyu “əl-quziyyə” yazılmışdır, onun ardınca isə sahilboyu əl-Xəzər, Azərbaycan, Cil, Təbəristan gəlir (30, 386).

Xəritəyə diqqətlə baxdıqda (xəritə 2) məlum olur ki, Dərbəndə qədər Xəzər ölkə-sini sərhədləri, Dərbənddən Cilin (Gilanın) sərhəddindəki Simranadək isə Azərbaycan ölkəsinin sərhədləri uzanır. Bu xəritədə Bab əl-Əbvab (Dərbənd), Kür və Araz çayları, Muğan ərazisi məhz Azərbaycanın tərkibində göstərilmişdir.

İbn Hövqəl bu iqlimə daxil olan üç ərazidən ən mükəmməlinin Azərbaycan olduğunu da xüsusilə, qeyd etmişdir: و أكمل هذه النواحى اذربيجان

Tərcüməsi: “Bu nahiyələrdən ən mükəmməli Azərbaycandır” (34, 334).

Əsərin bəhs edilən iqlimlə bağlı olan hissəsini diqqətlə oxuduqda belə bir qənaətə gəlmək olar ki, müəllif bəhs edilən paraqarafın adının “Ərminiyyə, Azərbaycan və Arran” adlandığını sanki unutmuş və bütün iqlimdən yalnız Azərbaycan kimi bəhs etmişdir.

İrəli sürdüyümüz fikirlərin doğruluğuna tam əmin olmaq üçün əsərin birinci his-səsindəki “Dünya atlası” adlanan birinci paraqrafa müraciət edək. Müəllif burada bir sıra ölkələrin təsvirini verdikdən sonra qeyd edir: ثم تلوتها بصورة اذربيجان و شكلت ما فيها من الجبال و الطرق و الآنهار العذبة كا لرس و الكر الى أن رسمت بحيرة خلاط و بحيرت كبوذان و كلتاهما غيرمتصلتين بشى من البحار و أثبت فيها جبل القبق.

Tərcüməsi: “Sonra Azərbaycanın xəritəsini dərc etdim, oradakı dağları, yolları, Kür və Araz kimi şirin sulu çayları, həmçinin Xilat və Kəbuzan göllərini də təsvir etdim. Bu göllərin hər ikisi heç biri dənizlə birləşmir, elə oradaca mən Qabq dağını göstərdim.” (33, 7).

Göründüyü kimi, İbn Hövqəl burada Azərbaycan hüdudlarını faktiki olaraq olduğu kimi təsvir edir (xəritə 3). Onun şimal sərhədlərini Qafqaz dağları, qərb sərhədlərini isə Van gölünün hüdudları ilə əlaqələndirir. İbn Hövqəlin sələfi Əl-İstəxri də Azərbaycanın hüdudları ilə bağlı məlumat vermişdir. Lakin o, daha irəli gedərək onun sərhədlərinin cənubda Ta-roma, Dinəvərə, Zəncana qədər uzandığını, qərbdə isə Dəclə çayının sahillərinə çatdığını göstərmişdir (27, 112). IX-X əsrlərdə yaşamış bəzi müəlliflər öz əsərlərində “Arran” məfhumundan ümumiyyətlə, istifadə et-məmiş, yalnız “Azərbaycan” coğrafi anlayışı ilə kifayətlənmişlər. Məsə-lən, əd-Dinəvəri şimaldan gələn xəzərlərin Arrana deyil, Azərbaycana daxil olduqlarını qeyd edir (30, 79).

X əsrdən sonra yaşamış bir sıra müəlliflərin əsərlərində də Azərbay-canın şimal sərhədlərinin Dərbəndə qədər uzandığı göstərilmişdir (8).

**Dövlət idarələri haqqında.** İbn Hövqəl öz əsərində dövlət idarəçi-liyi haqqında da məlumat verir. İlk növbədə qeyd etmək lazımdır ki, müəl-lifin adlarını çəkdiyi şəhərlərin bir çoxu siyasi-inzibati mərkəzlər olmuşdur. Ərdəbildən bəhs edən müəllif burada hökmdar sarayının, hərbi düşərgənin və dövlət divanlarının yerləşdiyini qeyd edir (30, 334). Lakin o, göstərir ki, hökmdar sarayı, divan, xəzinə əvvəl Marağa şəhərində olmuş və Əbülqasim Yusif ibn Əbu Sac onları Ərdəbilə köçürmüşdü (30, 335).

İbn Hövqəl qeyd edir ki, Bərdədə gözəl və geniş cümə məscidi vardır. Əməvilər dövründə xilafət xəzinəsi Misirdə saxlanıldığı kimi, burada da nahiyyənin xəzinəsi (beyt ül-mal) Bərdədəki cümə məscidində saxlanılırdı (30, 338-339). Ümumiy-yətlə, iqlimdə “beyt ül-malın” saxla-nıldığı və “dar ül-imarətin” yerləşdiyi 3 şəhər var idi. Bərdə və Ərdəbil həmin şəhərlər sırasında idi (30, 342).

**Şəhərlər və onların yolları haqqında.** Müəllif Arrandakı şəhərlər haqqında məlumatların təqdimatına Bab əl-Ələbvabdan başlayır. İbn Hövqəl Arrandan əslində, Azərbaycan tərkibində olan bir vilayət kimi bəhs edir və onun Dərbənddən Araz çayınadək olan əraziləri əhatə etdiyini göstərir. Müəllif Arranın şəhərlərini ardıcıllıqla təqdim edir. Əvvəlcə, o, şimaldan qərbə doğru Lahican, Qibsi, Qəbələ, Şəki və Tiflis şəhərlərini qeyd edir. Daha sonra isə əsərdə Dərbənd-Bərdə yolu üzərində yerləşən Şabran, Şamaxı, Bərdic, Bərdə şəhərlərindən bəhs olunur. İbn Hövqəl Bərdədən Tiflisə qədər uzanan yolun üzərində Gəncə, Şəmkir, Xunan, əl-Qələ şəhərlərinin olduğunu göstərir. (30, 333). Ər-Ras çayı (Araz çayı) üzərində Varsan şəhərinin yerləşdiyini qeyd edən müəllif daha sonra Bərdədən Ərdəbilə uzanan yol üzərində Bərzənd şəhərinin olduğunu göstərir. İbn Hövqəl yalnız bundan sonra Araz çayından cənubdakı Azərbaycan şəhərlərinin təsvirinə başlayır. Ərdəbildən Dəbilə uzanan yolun üzərində Meymənd, Əhər, Ruzqan şəhərlərinin yerləşdiyini yazan müəllif Ərdəbildən Bidlisə istiqamətlənən yol üzərində olan daha çox şəhərdən bəhs edir. Sərah, Marağa, Daxerqan, Təbriz, Səlmas, Xoy, Bərkəri, Mərənd, Miyanə, Cəbravan, Xunəc şəhərləri də İbn Hövqəlin xəritəsində öz əksini tapmışdır (30, 334). İbn Hövqəlin verdiyi məlumatlara əsasən həmin dövrdə iki Təbriz və iki Naxçıvan şəhəri mövcud olmuşdur (xəritə 1).

Şəhərlərdən ümumi şəkildə bəhs etmiş müəllif daha sonra onlardan "birinci" və "ikinci" dərəcəli olanları xüsusilə qeyd edir. Məlum olur ki, Azərbaycanın cənubunda həmin dövrdə ən mühüm sənətkarlıq, elm və mədəniyyət mərkəzləri Ərdəbil, Marağa və Urmiya şəhərləri olmuşdur (34, 334-335).

Azərbaycanın şimalında isə  başlıca şəhərlər Bərdə, Dərbənd və Tiflis şəhərləri idi (34, 337-340). İbn Hövqəl göstərilən mühüm şəhərlər haqqında ətraflı məlumat verir. O, digər şəhərlərin, o cümlədən, "Miyanəc, Xunəc, Daxerqan, Xoy, Səlmas, Mərənd, Təbriz, Bərzənd, Varsan, Beyləqan, Muğan və Cəbravan şəhərlərinin kiçik və iqtisadi cəhətdən bir-birinə yaxın olduğunu qeyd edir" (34, 336).

İbn Hövqəlin Bərdə şəhəri haqqındakı verdiyi məlumatlar əsasən onun keçmişinə aiddir. Çünki müəllifin Bərdədə olduğu günlərdə şəhər öz keçmiş əzəmətini artıq itirmiş və 944-cü ildə rusların qarətçi yürüşünə

məruz qalmışdır (10, 122). Bir qədər sonra isə buraya gürcülərin soyğunçu yürüşləri olmuşdur (30, 339).

Şəhərlər haqqında məlumat verən müəllif onlar arasındakı məsafələri də göstərmişdir (30, 349-354). Bu məsələ ilə bağlı olaraq tarixi ədəbiyyatda kifayət qədər məlumat verildiyinə görə biz bu məqalədə onun üzərində dayanmayacağıq (3, 159-162; 18, 66-73; 9, 336-339).

**Müdafiə tikililəri haqqında.** Müəllif şəhərlər haqqında məlumat verərkən oradakı dövlət üçün mühüm əhəmiyyət kəsb edən inzibati binalardan, şəxsi evlərdən, karvansaralradan, hamamlardan, hücumlardan qorunmaq üçün zəruri olan qala divarlarının çəkilməsindən və xəndəklərin qazılmasından da bəhs etmişdir.

Ərdəbil şəhərindən bəhs edən İbn Hövqəl binaların gildən və bişmiş kərpicdən inşa edildiyini, şəhərin ətrafında möhkəm qala divarlarının olduğunu yazır. Lakin 331/941-ci ildə Mərzban ibn Məhəmmədin əmri ilə onun qala divarları dağı-dılmışdır (30, 334).

Həmin dövrdə Maraga şəhərinin də möhkəm qala divarları olmuşdur. Həmin qala divarları isə Yusif ibn Əbu Sac tərəfindən dağıdılmışdır (9, 335). Onun dağıdılması səbəbini izah etməyə çalışan müəllif yalnız “onun dağıdılması Mərzban ibn Məməmməd tərəfindən Ərdəbil divarlarının dağıdılması kimidir” yazmaqla kifayətlənir (30, 335). İbn Hövqəl həmin dövrdə Təbrizin “Azərbaycanın ən abad şəhəri olduğunu” qeyd etsə də, onun qala divarları haqqında heç bir məlumat vermir. Lakin o, Təbrizdən kiçik olan Xoy və Səlmas şəhərlərinin möhkəm qala divarlarına malik olduğunu qeyd edir. Xoy şəhərinin qala divarları bişmiş kər-picdən, Səlmasın qala divarları isə daşdan olmuşdur (30, 336).

İbn Hövqəl Dərbənd səddindən daha çox bəhs etmişdir. O, həmin səddin daş və qurğuşundan hörüldüyünü qeyd edir. Dərbənd şəhərinin özünün də möhkəm qala divarları var idi. Bu qala divarları isə daşdan, bişmiş kərpicdən ibarət idi (30, 339).

İbn Hövqəl Tiflis şəhərinin düşmənləri çox olan sərhəd şəhəri olduğunu qeyd edərək, onun ətrafında iki qala divarı olduğunu və həmin divarların gildən hörüldüyü-nü göstərir. Həmin dövrdə şəhərin üç giriş qapısı olmuşdur (30, 340).

**Çaylar, göllər və dağlar haqqında.** İbn Hövqəl Azərbaycanın ayrı-ayrı şəhərlərindən bəhs edərkən həmin bölgələrdə bir çox “axar suların və

kiçik çayların" olduğunu qeyd edir. Lakin o, Azərbaycanda olan böyük çaylardan üçünü – Kür (əl-Kürr), Araz (ər-Ras və ya Rass) və Səbidrud (Səfidrud) çaylarını xüsusilə qeyd edir. İbn Hövqəl bu çaylardan yalnız Kürün və Arazın gəmiçilik üçün yararlı oldu-ğunu göstərir (30, 345). Müəllif Kür çayını böyüklüyünə görə Kiçik Zab və Ceyhan çayları ilə müqayisə edir. İbn Hövqəl bildirir ki, Araz çayı suyunun bolluğuna görə Kür çayı ilə eynidir. O, yazır ki, Səfidrud çayı Ərdəbillə Zəncan arasındadır və gəmiçilik üçün yararlı deyil, kiçikdir (34, 345). O, həmin çayların suyunun şirin və içməli olduğunu və hər iki çayın Xəzər dənizinə töküldüyünü qeyd edir. Lakin eyni zamanda Arazın Varsan qapılarına çatdıqdan sonra iki qola bölündüyünü və onlardan birinin Kürə qovuşduğunu, digərinin isə dənizə töküldüyünü bildirir. İbn Hövqəl Azərbaycan ərazisindən axan Araz çayının "Qurani-Kərimin" 25-ci surəsi olan "Furqan" surəsinin 38-ci və 39-cu ayələrində adı çəkilən "həmin Rass çayı" olduğunu qətiyyətlə qeyd edir: "Bu həmin Rassdır ki, Allah-taala onun xalqı barəsində nələr etdiyini xatırlatmışdır. Əgər hər bir kəs bu əraziyə diqqət yetirsə, Varsan şəhərindən keçərkən çayın hər iki sahili ilə aşağı-yuxarı qalxsa, onun üzərində dağılmış – onlardan bəziləri xarabalıqlardır – altı üstünə çevrilmiş şəhərlərin izlərini görə bilər. Bu da Allah-taalanın "Biz Ad, Səmud və Rass əhlini və onların arasında olan bir çox nəsilləri (məhv etdik) və onların hər birinə ibrət olsun deyə misallar çəkdik, (sonra) onları yerli-dibli yox etdik" (25, 363) sözlərini təsdiq edir" (30, 345). "Qurani Kərimin" 50-ci surəsi olan "Qaf" surəsinin 12-ci ayəsində də "Araz əhlinin" (أصحب ألرس) məhv edilməsindən bəhs olunmuşdur (25, 518).

İbn Hövqəl Azərbaycanda olan göllər arasında Urmiyanı xüsusilə qeyd edir və onun "Kəbudan" (Kəbuzan) gölü kimi tanındığını göstərir. Lakin onun sələfi əl-İstəxri bu gölü məhz "Urmiya" adlandırmışdır (27, 111) Ümumiyyətlə, həmin gölün adı ilə bağlı müxtəlif fikirlər mövcuddur (32, 171). İbn Hövqəl gölün suyunun duzlu olduğunu, burada heç bir canlının yaşamadığnı, gəmilərin üzdüyünü qeyd edir.

İbn Hövqəl Azərbaycanda olan dağlardan bəhs edərkən Qabq (Qafqaz), Əhər və Savalan dağlarının adlarını qeyd edir. Bundan başqa o, Ərminiyyədən bəhs edərkən əl-Haris və Hüveyrs dağlarının adlarını da çəkir.

Savalan dağı haqında bəhs etmiş müəllif onun Ərdəbilin yaxınlığında yerləşdiyi-ni, böyük və uca dağ olduğunu yazır. Müəllifə görə Savalan da-

ğına qalxmaq və en-mək üçün 3 fərsəxə yaxın məsafəni qət etmək lazımdır (30, 335).

**Azərbaycan əhalisi, onun dili və sosial tərkibi haqında.** İbn Hövqəl öz əsərində iqlim haqqında bəhs edərkən burada yaşayan əhali, onun tərkibi, dili haqında da müəyyən məlumat verir. Lakin onun bu məlumatları bir qədər pərakəndə haldadır və bəzən qəti fikir söyləməyə imkan vermir. Burada əhali başlıca ərəb mənbələrinə xas olan tərzdə "müsəlman" və "qeyri-müsəlman" kateqoriyalarına bölünür və onun etnik tərkibi məsələsinə diqqət yetirilmir. Azərbaycan və Arran haqqında məlumat vermiş müəllif əsasən yerli əhalinin həyat tərzi, bu və ya digər şəhərlərin əhalisinin özünəməxsus səciyyəvi xüsusiyyətləri barədə dəyərli faktlar göstərir. O, bəzi hallarda ərəb rəsmi dairələrinin köçürməs siyasətinə də işarələr edir.

Yerli əhalinin etnik tərkibini arxa plana keçirmiş İbn Hövqəl ərazidə yayılmış dil-lər haqqında müəyyən məlumatlar verir. O, bu məqamda dilləri etnik mənsubiyyətlə deyil, coğrafi məkanların adları ilə bağlayır. Məhz buna görə də müəllif Azərbaycan əhalisinin dilindən bəhs edərkən Azərbaycanda "azəri", Arranda isə "aran" ("arani") dilində danışıldığını göstərir (30, 348-349). Təəssüf ki, müəllif bu dillərin hansı etnosa məxsus olduğuna, hansı dil ailəsinə mənsub olmasına dair məlumat vermir. O, həmdə bəhs etdiyi bütün iqlimdə fars dilinin müştərək dil kimi yayıldığını və ərəb dilində də danışıldığını qeyd edir. Müəllif habelə, göstərir ki, burada fars dilində danışanlar ərəb dilini başa düşmürlər. Ərəb dilində yalnız "tacirlər və əmlak sahibləri" yaxşı anlayırlar (30, 347). Əslində burada söhbət ümumişlək danışıq dilindən deyil, həmin ərazilərdə müxtəlif dillərdə danışan əhali arasında ünsiyyət vasitəsinə çevrilmiş, əsasən hakim dairələr və əmlak sahibləri arasında işlədilən fars dilindən gedir. Əl-Müqəddəsi də bildirir ki, buradakı fars dili onun Xorasan ləhcəsi idi və bu dildə yalnız tacirlər və əmlak sahibləri danışa bilirdilər (10, 134). Bərdə bölgəsində "aran" ("arani") dilində danışılırdı (30, 349). Müəllifə görə Qafqaz dağlarında və ətraf ərazilərdə yaşayan əhali 300-dən çox dildə danışır. O, qeyd edir: "Əvvəl bu məlumata inanmırdım və Ərdəbil yaxınlığındakı Savalan dağında hər birinin azəri və fars dillərindən başqa, özlərinə məxsus bir dildə danışan çoxsaylı kəndləri görənədək bu məlumatı inkar edirdim (30, 347). Qafqaz dağları və ətraf ərazilərdə müxtəlif

dillərdə danışıldığını göstərən İbn Höqəl müasir oxucunu çaşdırıraq yazır: و يجمع الكثير منهم لسان واحيد

Tərcüməsi. "Onların əksəriyyətinin ümumi bir dili vardır" (30, 349).

Təəssüf ki, müəllif bu dilin hansı dil olduğunu qeyd etmir.

İbn Hövqəlin əsərində Azərbaycanda yaşayan ərəb mənşəli əhali haqqında da müəyyən məlumatlara təsadüf etmək olar. İbn Hövqəl qeyd edir ki, Daxərqan, Təbiz və Uşnu-Azəriyyəyədək (30, 337) və ətraf ərazilər "bəni Rudiniyyə mülkləri" kimi məşhurdur. O, fikrini davam etdirərək bildirir ki, onlar ərəblərdən olmuş, lakin sonralar zəmanə onlardan üz çevirmiş, məğlub və qəhr olmuş, izləri itmiş, cüzi məlumatdan başqa onlardan bir əsər qalmamışdır (30, 337). Bu fakt ərəb rəsmi dairələrinin köçürmə siyasətindən və buraya köçürülmüş ərəblərin sonralar yerli əhali ilə qaynayıb-qarışaraq assimilyasiyaya uğramasından xəbər verir.

İbn Hövqəlin əsərində Azərbaycan ərazisində yaşayan bəzi etnik azlıqlardan da bəhs edilir. Məsələn, o, Uşnu şəhərinin Urmiyanın tabeliyində olduğunu və onun bir tətəfində Hədbaniyə kürdlərinin yaylaqlarının yerləşdiyini, onların öz sürü-lüərini orada otardıqlarını qeyd edir (30, 336). Bundan sonra o, Uşnu şəhərini məhz "Uşnu-Azəriyyə" adlandırır (30, 337).

İbn Hövqəl öz əsərində əhalinin sosial tərkibi ilə bağlı ötəri məlumatlar verir. Bir sıra hallarda onlardan şəhər və kənd əhalisi kimi bəhs edir, varlı və yoxsul əhali kateqoriyalarını fərqləndirir.

İbn Hövəlin əsərindən Azərbaycan əhalisinin əksəriyyətinin artıq İslam dinini qəbul etdiyi məlum olur. Müəllif demək olar ki, bütün şəhərlərdə cümə məscidlərinin olduğunu yazır. O, belə məscidlərin hətta Dvin (30, 337), Tiflis (30, 340), Dəbil (30, 342) kimi şəhərlərdə də olduğunu bildirir. Göstərilən 3 şəhərdə xristianlar tədricən üstünlük qazanırdılar. Digər məşhur şəhərlərdə isə xristian əhalidən demək olar ki, bəhs olunmur. Əsərdə yalnız ara-sıra Qafqaz dağlarından və Dərbənddən şimala doğru müəyyən ərazilərdən bəhs edilərkən "kafir ərazilər", "kafir ölkələr" kimi anlayışlara təsadüf edirik. İbn Hövqəl, gürcüləri "kafir" adlandırır və məhz onların tez-tez yuxarıda adları çəkilən Dvin (30, 337) və Tiflis (30, 340) şəhərlərinə hücum etdiyini göstərir.

İbn Hövqəl bütün iqlimdə İslamın hakim dinə çevrildiyini yazmaqla yanaşı, buradakı məzhəblərə və təriqətlərə də diqqət yetirmişdir. Onların

bir çoxu "hədis" (sünnü), "əl-qəvl bi-l-haşv", "əl-batiniyyə" məzhəblərinin tərəfdarı idi (10, 114).

Ölkədə tibb elminə bələd olan bacarıqlı həkimləri öz gözləri ilə gördüyünü yazan müəllif, əhalinin məntiq elmini-allahsızlıq adlandırdığını, dialektikanın isə inkişaf yolunda mane hesab etdiklərini xüsusi qeyd etmişdir (30, 349).

**Əhalinin həyat tərzi və məişəti.** İbn Hövqəl Azərbaycanın bi sıra şəhərlərindən bəhs edərkən oranın əlverişli iqlim şəraitindən, əhalinin məşğuliyyətindən, hər bir şəhər və onların tabeliyində olan kəndlərin əhalisinin xüsusiyyətlərindən, məişətindən, adət-ənənələrindən də xəbər verir. O, bir çox şəhərlərin əhalisini xeyirxah insanlar olduğunu qeyd edir. O, Marağa əhalisini də bu sıraya aid edir (30, 335). Lakin Ərdəbildən bəhs edərkən bu şəhərin "əhalisinin bir zamanlar həddi aşdığını və qəriblərə hörmət etmədiyini" yazır (30, 334).

İbn Hövqələ fikrincə, Xoy əhalisi Təbriz əhalisinə nisbətən daha xoşxasiyyətli və mülayim idi (30, 336).

Gəncə şəhərindən bəhs edən müəllif əhalini mərd, səmimi, xoşxasiyyətli, gözəl əxlaqlı, qəriblərə və elm əhlinə məhəbbət bəsləyən insanlar olduğunu xüsusi qeyd edir (30, 339).

Tiflisin müsəlman şəhəri olduğunu qeyd etmiş müəllif onun gürcülərin əlinə keçdiyini, lakin buna baxmayaraq burada İslam qayda-qanunlarının qorunub saxlanıldığını və şəhərdə müsəlmanlarla gürcülərin bir-birinə qaynayıb qarışdığını yazır. Əhalinin həyat tərzindən və fərqli xüsusiyyətlərindən bəhs edən müəllif şəhərin əhalisinin sağlam, qəriblərə nəvazişli münasibət bəslədiklərini, acıq düşüncəyə və ədəbə malik olan insanlara maraq göstərdiklərini bildirir. O, şəhərin əhalisinin sünnilik tərəfdarı olduğunu, hədis elminə maraq göstərdiyini və hədis bilənlərə rəğbət bəslədiyini də göstərir (30, 340).

İbn Hövqəl öz əsərində yalnız iki şəhərin – Ərdəbil və Tiflis şəhərlərinin əhalisinin kənardan gələn qonaqlara münasibətindən və yerli-qayda qanunlardan bəhs edən xüsusi səhifə ayırmışdır (30, 334-335; 30-341).

Sərah şəhərindən bəhs edən müəllif onun sakinlərinin xeyirxah və mürvətli insanlar olduğunu bildirir (30, 352). İbn Hövqəl əhalinin həyat tərzindən danışarkən demək olar ki, bütün şəhərlərdən misallar gətirir və onların əksəriyyətinin torpaqlarına, sənətlərinə bağlılığı, əliaçıq və xeyir-

xah olmaları haqqında yazır. O, bildirir ki, iqlimin əhalisinin əksəriyyəti sağlamdır və güclüdür, yaşamaq üçün lazım olan vasitələr axtarmağa çalışırlar. Onlar bir qayda olaraq, qəflətən üz verən müsibət və bəlanı ört-basdır etməyə, unutmağa çalışırlar (10, 114).

İbn Hövqəl Azərbaycan əhalisinin həyat tərzi və məişətindən danışarkən insanarın geyimləri, paltarları, bəzək əşyaları, məişətdə işlətdikləri qızıl və gümüş qabları, xörəkləri və aşpazları haqqında da məlumat vermişdir (30, 347-348).

**Əhalnin məşğuliyyəti haqqında.** İbn Hövqəlin verdiyi məlumatlar həmin dövrdə kənd və şəhər əhalisinin təsərrüfat həyatı haqqında müəyyən fikirlər söyləməyə imkan verir. O, şəhərlərdən və onlar arasındakı yollardan bəhs edərkən yolboyu çoxsaylı kəndlərin yerləşdiyini və geniş əkin sahələrinin olduğunu yazır. Müəllif əkin sahələrinin harada çox, harada az olmasından, onların məhsuldarlığından bəhs edir. Məsələn, o, əkin sahələrinə görə Dərbəndin Ərdəbildən zəngin olduğunu, lakin meyvə məhsullarının az olduğunu qeyd etmişdir (30, 339). Azərbaycanın müxtəlif bölgələrindəki əkin sahələrində demək olar ki, bütün növ taxıl bitkiləri becərilirdi. Taxılın bolluğu şəhərlərdə məhsulların ucuzluğuna gətirib çıxarırdı. Xüsusilə, çörəyin ucuz olması qeyd edilməlidir. Məsələn Ərdəbildə 50 lavaşı bir dirhəmə almaq olardı (30, 335).

Bərdə əhalisinin məşğuliyyətindən bəhs edə müəllif onun zəngin əkin sahələrinə, hər cür məhsulları olan bağlara malik olduğunu yazır. Taxıl məhsullarının bolluğu çörəkçiliyin inkişafına müsbət təsir göstərmişdir. Müəllif yazır ki, təkcə Bərdədə 1200-dən artıq çörəkçi var idi. Lakin bir qədər sonra müəllif təssüf hissi ilə qeyd edir ki, xarici hücumlar və Bərdənin hökmdarların diqqətindən kənarda qalması onun təsərrüfat həyatına çox ağır təsir göstərmişdir. Elə bunun nəticəsidir ki, Bərdədə cəmisi 5 çörəkçi qalmışdı (30, 337).

Azərbaycan şəhərləri və onun ətrafındakı kəndlərdən bəhs edən İbn Hövqəl əkin sahələrinin geniş yayıldığını və müxtəlif dənli məhsullar becərildiyini göstərir. Həmin taxıl məhsullarının emalından bəhs edən müəllif dəyirmanlar haqqında da məlumat verir. Ümumiyyətlə, müəlifin verdiyi məlumatlara əsasən iqlimdə və ətraf ərazilərdə üç növ dəyirmanlarından istifadə olunmuşdur; Əl dəyirmanları, su dəyirmanları və külək dəyirnmanları. Məsələn o, Tiflis şəhərindən bəhs edərkən onun Kür çayı

üzərində yerləşdiyini, burada su dəyirmanları olduğunu və həmin dəyirmanlarda buğda üyüdüldüyünü yazır (30, 340). İbn Hövqəl Sərah şəhərindəki dəyirmanlar haqqında da məlumat verir (30, 352).

Əhali bağçılıq və bostançılıqla geniş şəkildə məşğul olurdu. Elə buna görədə şəhərlərə daşınır və burada ucuz qiymətə satılırdı. İbn Hövqəl Marağa kəndlərindən birində Xorasan qovunundan da şirin olan "ərdəhriyyə" adlanan qovun yetişdirildiyini göstərir (30, 335).

Bərdədə yaxınlığında Kəznə və Tasub arasında "Əndərab" adlı yerin gözəl və səfalı olmasından bəhs edən müəllif burada fındıq, şabalıd və üzümün bol olduğunu yazır. İbn Hövqəl onun üçün qəribə olan "ruqal" (zoğal) adlanan meyvədən də bəhs edir. O, Tasub əncirinin ən yaxşı əncir növü olduğunu qeyd edir (30, 338).

Əhalinin maldarlıqla, balıqçılqla, arıçılıqla məşğul olmasına işarə edən ibn Hövqəl ətin, yağın, balın bolluğundan və ucuzluğundan bəhs edir (30, 335).

Tiflis şəhəri və ətraf ərazilərdə arıçılığı inkişafına işarə edən müəllif burada balın çox ucuz olduğunu göstərir. Hətta bir şəxs oradan 20 rətldən artıq balı 1 dirhəmə aldığını bildirmişdi (30, 340).

Bərdənin Kür çayının 3 fərsəxliyində yerləşdiyini yazan İbn Hövqəl burada əhalinin balıqçılıqla da məşğul olduğunu yazır. Kür çayından, eləcə də Araz çayından "surmahi" adlı balıq tutulur, Ərdəbilə, Reyə, İraqa aparılırdı. Dadlı və ləzzətli olduğuna görə əhali, xüsusilə tacirlər onu dostalırına hədiyyə kimi aparırdılar (30 338). Burada "dəraqin" və "quşubə" adlanan balıq növləri də var idi (30, 338).

**Sənətkarlıq və ticarət:** İbn Hövqəlin haqqında bəhs etdiyi səhərlərin bir çoxu sənətkarlıq və ticarət mərkəzləri kimi məşhur idi. Müəllif öz əsərində Azərbaycan ərazisində bir sıra sənət növlərinin - dəmirçilik, dulusçuluq, misgərlik, sənətkarlıq, zərgərlik, toxuculiq, çörəkçilik və s. kimi sənət növlərinin inkişaf etdiyini yazır.

Bir sıra ərazilərdə, o cümlədən Bərdə ətrafında çoxlu tut bağlarının olması ipək qurdu saxlanmasına və ipək istehsalına imkan verirdi. Bərdədə istehsal olunan ipək Fars və Xuzistan vilayətlərinə göndərilirdi. Bərdə əhalisi ipək istehsalından çoxlu gəlir əldə edirdi (30, 338).

"Kitab surət əl-ard" əsərində Azərbaycanın daxili və xarici ticarəti haqqında faktlara rast gəlinir. Ticarət mərkəzləri və ticarət məhsulları

haqqında məlumatlar verilir. Müəllif Bərdənin məşhur “Kürki” bazarı haqqında xüsusi olaraq bəhs edir. O, bildirir ki, Bərdənin qapılarından biri “Kürd qapısı” adlanır. Onun xaricində yerləşən “Kürki” bazarı Cənubi Azərbaycandakı Gürsurə bazarı ilə müqayisə edilirdi (30, 338).

Gürsurənin Ərdəbilin 12 fərsəxliyində olduğunu qeyd edən müəllif buraya müxtəlif yerlərdən müxtəlif xalqların tacirlərinin öz məhsullarını satmaq üçün gəl-diyini yazır. O, burada qızğın ticarət getdiyini, yüksək məbləğə malik alqı-satqıların həyata keçirildiyini yazır (30, 351-352).

Dərbənd şəhəri kətan parça istehsalı üzrə məşhur idi. İbn Hövqəl yazır ki, bütün Azərbaycan, Arran və Ərminiyyədə ən yaxşı kətan paltarlar ancaq Dərbəndədir (30, 339-340). Dərbənddən ixrac olunan məhsullardan biri də zəfəran idi (34, 340).

İbn Hövqəl Azərbaycan və Arranda bir çox yerlərdə “qırmız” istehsal edildiyini və onun müxtəlif ölkələrə ixrac edildiyini göstərir. Qırmız Xəzər dənizi ilə Curcana daşınır, oradan da quru yolla Hind ölkəsinə göndərilirdi (10, 112).

İbn Hövqəl ticarətdən bəhs edərkən Dərbənddəki qul bazarı haqqında da məlumat verir. Qul alveri haqqında da yazan müəllif maraqlı faktlar verir. Dərbənddəki qul bazarına qonşu kafir ölkələrdən qullar gətirilirdi (30, 340). O, hətta qulların belə bir-birindən fərqləndirilidiyinə işarə edir və döyüşlərdə ələ keçirilən sonra isə qul kimi satılan türk mənşəli qulların daha etibarlı olduğunu yazır ( 33, 185).

İbn Hövqəlin öz əsərində müsəlman tacirlərinin, o cümlədən Azərbaycan tacirlərinin Bizans və digər Qərb ölkələri ilə ticarətində Trapezund (Trabzon) şəhərinin mühüm rolu oynadığını göstərmişdir (30, 344).

İbn Hövqəl öz əsərində məşhur tacirlər haqqında da məlumat vermişdir. O, Gürsurə bazarı haqqında bəhs edərkən yazmışdır: “Gürsurədə fəaliyyət göstərən tacirlərdən biri onun yerli sakini Əbu Əhməd ibn Əbd ər-Rəhman əş-Şizi Marağayi idi. O, Azərbaycan tacirlərinin böyüyü (seyyid ət-tüccar) idi (30, 352). Digər məşhur bir tacir Əbu İshaq əl-Məcradani idi. İbn Hövqəlin bu tacirlərlə bağlı verdiyi məlumatlar olduqca maraqlıdır və Gürsurə bazarındakı ticarətin böyük həcmindən xəbər verir. İbn Hövqəl yazır: “Əbu Əhmədin katibi Əbu əl-Fəth Mehdi ona demişdi ki, Əbu İshaq Məcradani öz qoyunlarını satıb geri qayıtmış, bizə aid olanı bizə gətirməmişdi. Əbu Əhməd soruşmuşdu: “O, nə qədər qoyun satmış-

dı”. Əbu əl-Fəth Mehdi cavab vermişdi: “100 min baş”. Mən Əbu Əhməddən bu haqda dəfələrlə soruşdum. Əbu Əhməd dedi: “...Təəccüblü deyildir. Mənim rəhmətlik atam bu bazarda dəfələrlə 1 milyon baş qoyun satmışdır. Şüeyb ibn Mehran da onun kimi satmışdır” (30, 352)

Müəllif Azərbaycanda və Arranda dövriyyədə olmuş pullar (sikkələr) haqqında az da olsa bəhs etmişdir. O, bildirir ki, bütün iqlimdə qızıl və gümüş pullar işlədilir (30, 349).

İbn Hövqəl ticarət əlaqələrindən bəhs edərkən gömrük məntəqələrindən də bəhs etmişdir. Gömrük məntəqələrində idxal və ixrac edilən məhsullardan gömrük rüsumu alınırdı. Məsələn, o, yazır ki, Azərbaycandan Reyə aparılan əmtəələr üçün nəzərdə tutulan gömrükxana Xunəc şəhərində yerləşirdi. Gömrükxanadan keçən bir sıra məhsullara vergi qoyulurdu. Bu gömrükxanadan əldə edilən gəlirlərin həcmi-nə diqqət yetirən İbn Hövqəl onun illik daimi gəlirinin 100 min dinar olduğunu bildirir. Bəzən isə onun gəliri təxminən 1 milyon dirhəmə çatırdı. O, öz təəccübünü gizlətmədən qeyd edir ki, bütün dünyada bunun bənzəri yoxdur (30, 353).

**Vergilər.** İbn Hövqəl bildirir ki, şəhərlərdən və onlar arasındakı məsafələrdən bəhs etdikdən sonra əhalinin yerinə yetirməli olduğu mükəlləfiyyətlərdən və ödəməli olduğu vergilərdən bəhs edəcəkdir. Lakin müəllif bu vergilər və onların növləri haqqında ətraflı məlumat vermir. O, bu barədə yalnız “Ərminiyyə, Azərbaycan və Arran” adlı paraqrafın sonunda məlumat verir. Müəllif göstərir ki, bu nahiyyələrin mövcud vəziyyəti ödənilən vergilərdən məlumdur. Bu vergilər bəzən artır, bəzən də azalırdı. İbn Hövqəl vergilərdən bəhs edərkən Yusif ibn Əbu Sacın vergilərdən əlavə bəzən az miqdarda hədiyyələr də qəbul etdiyini bildirir. O, Yusif ibn Əbu Sacın vergi məsələsində daha ədalətli olduğuna işarə edir. Lakin hakimiyyət Mərzban ibn Məhəmmədin əlinə keçdikdən sonra o, bu sahədə divanlar yaratdı və qanunlar tərtib etdirdi (30, 347).

Vergilərdən, onun miqdarından bəhs edən müəllif orta, həqiqətə uyğun meyar kimi 344/955-ci ilə aid vergiləri götürmüşdür. Məlum olur ki, Əbülqasim Yusif ibn Əbu Sac vergi müqvilələrinin bağlanmasını Əbülqasim Əli ibn Cəfərə həvalə etmişdi. Sonralar isə həmin şəxs Mərzban ibn Məhəmmədin maliyyə işlərinə nəzarət etmiş və onun üçün vergi müqavilələri hazırlamışdır. Əbülqasim Əli ibn Cəfər bu zaman Yusif İbn Əbu Sacın dövründə hazırladığı vergi müqavilələrini əsas götürmüşdür.

Əli ibn Cəfərin hazırladığı müqaviləyə görə vergilər aşağıdakı kimi razılaşdırılmışdı: "Şirvanşah (Şəki də buraya daxil idi)-1milyon dirhəm; Ər-Rub hakimi-300 min dirhəm və bəxşiş; Curcan hakimi-200 min dirhəm; Vayzur hakimi-50 min dinar və hədiyyələr; Əhər və Vərzaqan hakimi Əbulhica ibn Rəvvad-50 min dinar və bəxşiş" (30, 354). İbn Hövqəl digər hakimlərdən və Ərminiyyə hakimlərindən Yusif ibn Əbu Sac üçün alınan vergilər haqqında da məlumat vermişdir. Buradan məlum olur ki, ötən illərdən qalmış vergilər də ödənilməli idi. Vergilər gecikdirilərkən cərimələr də tətbiq olunurdu (30, 354-355). Ümumiyyətlə, Azərbaycan, Ərminiyyə, Arran və ətraf ərazilərdən alınan xəracın ümumi məbləği 500 min dinar idi (10, 117).

Beləliklə, X əsrdə yaşamış məşhur ərəb səyyahı və coğrafiyaçısı İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri Azərbaycan tarixinin Ərəb Xilafəti dövrünün öyrənilməsi üçün ən mühüm mənbələrdən biridir. Gələcəkdə bu əsərin tədqiqatının davam etdirilməsi yeni faktların meydana çıxmasına və bununla da Azərbaycan tarixinin daha dərindən öyrənilməsinə imkan verə bilər.

XƏRİTƏ № 1



XƏRİTƏ № 2




XƏRİTƏ № 3

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin birinci rübü). Bakı: Elm, 2007, 608 s.
2. Azərbaycan tarixi. Üç cilddə. I cild. Bakı: Azərb SSR EA nəşri, 1958, 334 s.
3. Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989, 334 s.
4. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı: BDU nəşriyyatı, 2001, 293 s.
5. Əliyeva N.A. Əs-Samaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycan mədəniyyəti tarixinə dair mənbə kimi. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2010, 224 s.
6. Mahmudov Y.M. Azərbaycan tarixi. Erkən İntibah dövrü (IX əsrin ikinci yarısı XIII əsrin əvvəlləri). Bakı: Azpoliqraf, 2008, 126 s.
7. Orta əsr ərəb məmbələrində Azərbaycan tarixinə dair materiallar. Bakı:Nurlan, 2005, 335 s.
8. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 s.
9. Şərifli M. X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm, 1978, 334 s.
10. Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 220 s.
11. Vəlixanlı N. M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
12. Vəlixanlı N. M. Xilafətin Azərbaycanda inzibati siyasəti, idarəetmə sistemi və köçürmə siyasəti. – Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı: Elm, 1998, 596 s.
13. Vəlixanlı N. M. Naxçıvan – Ərəblərdən monqollaradək (VII-XII əsrlər) Bakı: 2005, 151 s.
14. Асадов Ф. М. Арабские источники о тюрках в ранние средневековье. Ваку: Элм, 1993, 202 с.
15. Ахундова Н.Ч. Тюрки в системе государственного управления арабского халифата (VIII-сер. X вв.). Баку: «Элм», 2004, 374с.
16. Ашурбейли С. Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 344 с.
17. Буниятов З. М. Обзор источников по истории Азербайджана ( Источники арабские). Баку: Изд-ва АН Азерб. ССР, 1964, 36 с.
18. Велиханова Н. М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания. – Историческая география Азербайджа- на. Баку: 1987, 148 с, с. 47-87.
19. Жузе П. К.Биографии арабских географов и историков писавших об Азербайджане. Azərbaycan MEA-nın A. Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi, inv. 495.
20. Ибн-Хаукалъ. Книга путей и царств. Перев. Н. А. Караулова. СМОМПК, вып. XXXVIII. Тифлис: 1908, с. 7-118.
21. Колесников А. И. Завоевание Ирана арабами. Москва: Наука,1982, 270 с
22. Крачковский И. Ю. Арабская географическая литература. Изб. сочинения.В 7-ми томах, т. IV. М – Л: Наука, 1957, 919 с, с. 20-21.
23. Ramazan Şeşen. Muslimanlarda tarih-coğrafiya yazıcılığı. İstanbul: İSAR, 1998, 451 s.
24. Ramazan Şeşen. İslam coğrafiyaçılarına göre Türkler. Ankara: İSAR, 1985, 269 s, s. 162-173.
25. القران الكريم. سورة الفرقان. ايات 39-38. سورة ق. اية 12. قم 1386.
26. الأخبار الطوال تأليف ابى حنيفة أحمد بن داود الذينورى. الطبعة الأول. القاهرة.1960
27. المسالك و الممالك تأليف ابى اسهق ابراهيم بن محمد الفارسى الآصطخرى القاهرة 1381.
28. جرجى زيدان تاريخ اداب الغة. القاهرة 1957. ج 2
29 كتاب صورة الآرض تاليف ابى القسيم ابن حوقل النصيبى الطبعة الثانية . القسم الآول. طبع فى مدينة ليدن بمطبعة بريل سنة.1967

30. كتاب صورة الآرض تاليف ابي القسم ابن حوقل النصيبى الطبعة الثانية. القسم الثانى. طبع فى مدينة ليدن بمطبعة بريل سنة 1939
31. دكتر ذبيح الله. تاريخ ادبيات در ايران. ج 1 تهران 1335
32. جغرافيـــاى تاريخى سرزمين هاى خلافت شرقي. لسترنج. ترجمه محمود عرفان. تهران 1337
33. سفرنامه ابن حوقل. ترجمه جعفر شعار. تهران 1363.
34. Prefase to the first fasciculus – كتاب صورة الآرض تاليف ابي القسم ابن حوقل النصيبى الطبعة الثانية. القسم الثانى. طبع فى مدينة ليدن بمطبعة بريل سنة 1939.

**R.A. Agayev**

## IBN HOVQAL’S "BOOK OF SURAT AL-ARD" WORK AZERBAIJAN

### SUMMARY

**Key words:** Azerbaijan, state, city, population, trade

The article deals with the information about Azerbaijan given in the book “Kitab Surat al-ard” (“the book of Earth's description“) by the X century famous Arab traveler and geographer Ibn Hovqal.

This work of Ibn Hovqal was written in geographical style. However, in necessary cases it provides us with the information about the socio-political events, states, rulers, emirs, prominent persons, merchants, etc. In such cases the author compares the data in the works he had used with his own observations and puts forward some interesting considerations.

According to Ibn Hovqal he had been to Azerbaijan for two times. In his own work he gives detailed information about the borders, cities, population, trade, roads, markets, money, and also about the Saji and Salari states.

Thus, grounding on the researches one can come to such a conclusion that the X century famous Arab traveler and geographer Ibn Hovqal’s “Kitab Surat al-ard” is one of the most important sources for studying the history of Azerbaijan of the Arab Caliphate period. In future if goes research on this work, new facts on the history of Azerbaijan can be found, and thus it can allow a more thorough study of Azerbaijan history.

**Р.А. Агаев**

## СВЕДЕНИЯ ОБ АЗЕРБАЙДЖАНЕ В ПРОСВЕДЕНИЕ ИБН ХАВГАСИД «КИТАБ СУРАТ АЛЬ -АРД»

### РЕЗЮМЕ

**Ключ. слово:** Азербайджан, государство, город, население, торговли.

В статье рассматриваются и анализируются сведения об Азербайджане известного арабского путешественника и географа Ибн-Хаукала (жившего в X

веке), представленные им в труде «Китаб сурат ал-ард» («Книга об описании Земли»).

Данный труд Ибн-Хаукала носит географический характер. Но, несмотря на это обстоятельство, автор книги в необходимых случях также представляет нам сведения о социално-политических событиях, государствах, правителях, об амирах, о знаменитых людях, торговцах. В этих случаях Ибн-Хаукал сравнивает сведения, почерпнутые им из других источников, с личными наблюдениями и выдвигает определенные интересные соображения.

По словам Ибн-Хаукала, он дважды побывал в Азербайджане. В указанном труде путешественника-географа представлены обстоятельные сведение о границах Азербайджана, о городах, населении, торговли, торговых путях, базарах, денежных единицах страны, а также о государствах Саджидов и Саларидов.

В результате исследования автор представленной статьи пришел к такому выводу, что труд известного арабского путешественника и географа Ибн-Хаукала «Китаб сурат ал-ард» является одной из самых значительных первоисточников для изучение истории Азербайджана VII-IX вв. Считаем, что последующее исследование этого труда выявит новые факты и таким образом появятся новые возможности в деле углубленного изучение истории Отечества.

# СОЦИАЛЬНО-ПРАВОВОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ГОСПОДСТВА АРАБСКОГО ХАЛИФАТА (ПО МАТЕРИАЛАМ АНГЛОЯЗЫЧНОЙ ИСТОРИОГРАФИИ)

**Ламия Кафар-заде***
lamiya_qafar-zadeh@mail.ru

С включением исторических земель Азербайджана в состав Арабского халифата в I половине VII в. немусульманское население Азербайджана было причислено к разряду зиммиев, т.е. «людей Писания» (*ахль аль-китаб*). Как известно, население Аррана в большинстве своем было христианским, а население Адурбадагана, являвшегося исторической областью распространения зороастризма, исповедовало зороастризм. Хотя, согласно Корану, к зиммиям относились лишь христиане и иудеи[†], на практике этим статусом пользовались и зороастрийцы. Как отмечает А.Триттон, по договору с Азербайджаном арабы обязались никого не убивать, не пленять, не разрушать храмы огня и предоставить народу Шиза свободу в отправлении религиозных обрядов [27, с.44]. Этот факт свидетельствует о стратегической важности Закавказья, областью которого как тогда, так и поныне является Азербайджан, в борьбе халифата с Византией [9, с.87-88; 28, с.51]. Как сообщает А.К.С.Ламбтон, юридической основой взаимоотношений арабской администрации с покоренными народами являлись договора о защите и безопасности (*зимма*), заключенные между арабскими завоевателями и немусульманскими государствами, согласно которым покоренные народы обязывались повиноваться халифату и платить поземельную подать (*хараджж*) и установленную для немусульман подушную подать (*джизья*), принимать на постой странствующих мусульман. Взамен арабы гарантировали им внутреннюю автономию, свободу вероисповедания, неприкосновенность личности и имущества [17, с.5; 25, с.84]. Также за ме-

---

* Ламия Расим кызы Кафар-заде – Докторант Института Истории НАНА

† Автор выражает большую благодарность теологу Казымову С.Ю. в оказании помощи в области коранистики.

стной знатью, вскоре принявшей ислам ради сохранения своих прежних прав и привилегий, было признано право владения землей на условиях выплаты вышеуказанных податей. Так, можно констатировать, что широко распространенное мнение о том, что завоеванные арабами народы стояли перед выбором между исламом и мечом, не соответствовало исторической действительности [8, с.200-201].

Джизья взималась с мужчин-иноверцев раз в год соответственно их достатку. Наряду с детьми, женщинами, стариками, нищими, нетрудоспособной частью населения от джизьи были освобождены первоначально и монахи. По словам З.Буниятова, привилегии духовенству делались арабской администрацией для удержания населения в повиновении с помощью религии [9, с.117]. Кроме того, исламизация покоренных народов не была главной целью халифата, ибо, согласно К.Ирвингу, несмотря на то, что боевым кличем арабских завоеваний были послания пророка Мухаммеда, в начале завоевания носили скорее военный характер, чем религиозный. Вторжения привели к установлению арабской власти, но не ислама [15, с.98]. Э.Браун же утверждает, что пропаганда ислама превратилась в простые грабительские набеги, основной, если не единственной, целью которых был захват добычи [8, с.232-233]. Мысль о прагматической цели, движущей арабскими завоеваниями, поддерживает и К.Армстронг [1, с.29-30]. Как отмечает Б.Льюис, поначалу ислам был арабской религией, а халифат - Арабским королевством, и лишь с VIII в. халифат постепенно трансформировался из Арабского в Исламский, где вера была важнее происхождения, и ислам перестал быть «национальным культом» арабских завоевателей [20, с.5-6]. Как повествует Ф.Хитти, арабы вторглись в страны как представители «национальной теократии». Арабизм, а не религия Мухаммеда, сперва одержал победу, и вплоть до II-III вв. хиджры народы Сирии, Месопотамии и Персии (в период арабских завоеваний исторических земель Азербайджана последний входил в состав Сасанидской империи), не исповедовали ислам [13, с.61]. Мнение Б.Льюиса о том, что во времена первых мусульман религиозная вера и политическая власть были неразрывно связаны: первая санкционировала вторую, а вторая поддерживала первую [19, с.40], оправдывает «пассивность» арабской администра-

ции в процессе исламизации покоренных народов, по крайней мере, в I в. хиджры. Вероятно, что именно поэтому даже в последующие века мавали, являвшиеся «инородным элементом» общества в понятии арабов, так и не сумели стать полноправными членами мусульманской *уммы*. Помимо вышеуказанных фактов для арабской администрации зиммии являлись источником обогащения государственной казны, ведь общеизвестно, что налоги с немусульман в первое время составляли основную часть доходов халифата [6, с.84; 20, с.57; 12, с.37; 27, с.2]. Поэтому, как сообщает В.Минорский, арабская администрация была более заинтересована в финансовых поступлениях, нежели в обращении в ислам [22, с.242].

Арабы, находясь на более низком уровне общественного развития сравнительно с покоренными цивилизованными народами, в том числе и с Азербайджаном, оставили нетронутыми как социально-экономические отношения, так и административно-фискальный аппарат, и кроме ислама и своего языка ничего нового не привнесли [5, с.141-142; 9, с.90]. Управление населением выражалось главным образом во взимании налогов и подавлении вооруженных протестов местного населения. Так, религиозные общины зиммиев сохранили внутреннее самоуправление в гражданской и религиозной администрации и управлялись своими духовными главами [20, с.57; 26, с.89]. Но все же зиммии не избежали пренебрежительного отношения. Они не имели права владеть оружием, воздвигать новых религиозных сооружений, открыто проявлять свою религиозную принадлежность, свидетельствовать на суде против мусульман, ездить на лошади, жениться на мусульманке, служить в армии, занимать государственные посты. К ним применялись разные формы дискриминации, подчеркивающие их «второсортное» положение, особенно в период правления Умара II: запрет жить в домах выше одного этажа, обязанность носить отличительную одежду и свинцовую печать на шее. Унизителен был и сам процесс оплаты джизьи [6, с.88-89; 14, с.269; 27, с.5-6]. В социальной стратификации мусульманского общества Б.Льюис помещает зиммиев между свободными и рабами, указывая на их политическую бесправность. Ссылаясь на один из аятов суры из Корана о том, что следует сражаться «…с теми, кто не верует в Аллаха…, пока

они не дадут откупа своей рукой, будучи униженными», можно смело предположить, что отношение арабской администрации к зиммиям априори не могло быть толерантным [16, с.163-164].

Нередко единственным выходом из удручающего положения зиммии видели в принятии ислама, ибо, как указывают исследователи, налоги с мусульман были куда более легкими, нежели с немусульман [6, с.85; 8, с.233]. П.Кроун правильно подметила, что в хрониках редко встречается другой тип новообращенных в ислам [10, с.52]. Как отмечает Т.Арнольд, число обращений в ислам увеличивалось пропорционально отягчению налогового бремени немусульман [2, с.68-69]. Следовательно, со временем участившееся принятие ислама покоренными народами представляло собою вынужденную меру, но никак не религиозное рвение. Согласно М.Ходжсону, ислам стал религией массы людей на волне «экономической экспансии» [14, с.301]. В качестве ответной реакции арабская администрация стала препятствовать переходу зиммиев в ислам, примером чему являются меры правителя Ирака Хаджаджа [12, с.77]. Так, покоренные народы, даже те из них, кто принял ислам, так и остались в глазах арабов низшим слоем общества. Не зря У.Мьюир констатирует, что раса, язык, родовое происхождение и политические привилегии арабов играли первостепенную роль на протяжении многих поколений [23, с.176].

Неомусульмане, приняв ислам, примыкали к определенному арабскому племени, переходя под его покровительство и становясь его «клиентами» - *мавали* [26, с.90]. Но даже статус «мавали» не ставил новообращенных в равноправное положение с мусульманами-арабами, т.к. арабская родоплеменная аристократия, попирая принцип равенства всех мусульман независимо от происхождения, указанного в самом Коране [16, с.423], предохраняла завоевателей от смешения с покоренным населением [4, с.233]. Неслучайно арабы селились в изолированных от инородцев военных лагерях – амсарах. Об обособленности арабов свидетельствуют слова М.Боннера: поселения мусульман-арабов разрослись до размеров малых островов, раскинутых в необъятном океане «людей Писания». Мусульмане-арабы, ревностно относившиеся к своим статусу и жалованиям

(*ата*), предпочитали удерживать «посторонних» на берегу [6, с.89]. Даже мавали, служащие в мусульманской армии, не числились в диване [14, с.270], т.к. арабы боялись лишиться привилегированного положения в обществе [20, с.58].

Арабы причисляли мавали к второсортному классу. Мавали считались равными мусульманам-арабам, но лишь теоретически. Как повествует Дж.Хоутинг, отделение арабов от неарабов являлось основным принципом государства, установленного в результате захватов [12, с.4]. Ислам в то время идентифицировался с «арабизмом» и считался «собственностью» завоевателей [12, с.4; 20, с.58; 26, с.76]. Наряду с религией принадлежность к «арабской расе» была главным критерием дискриминации среди покоренных народов [26, с.76]. Как отмечает Б.Льюис, Омейадское общество было основано на доминировании арабов, сформировавших не столько нацию, сколько наследственную социальную касту, в которую можно было войти лишь по происхождению [20, с.69]. Помимо «арабского шовинизма», как выразился Ф.Хитти [13, с.96], основную роль в отстранении мавали от пользования всеми правами и привилегиями мусульман-арабов сыграл экономический фактор. Ведь, согласно Б.Льюису, вся структура Арабского государства была основана на том, что меньшинство арабов должно было управлять большинством налогоплатящих немусульман. Следовательно, экономическое уравнение мавали с мусульманами-арабами одновременно означало бы уменьшение доходов государства [20, с.72], поэтому политика Умара II «уравнять» мавали, в частности освобождение их от хараджа и джизьи, включение их в диван, была безуспешна. На этот счет примечательно мнение Б.Льюиса о том, что противоречия между завоевателями и мавали, хотя и совпадали в определенной мере с этническим различием между арабами и неарабами, но в значительной степени были экономическими и социальными [20, с.73].

Хотя христианство и зороастризм быстро потеряли свое господствующее положение в обществе, т.к. местная знать, землевладельцы и купцы в большинстве своем приняли религию завоевателей, но все же пережитки этих двух религий сохранились, в частности, у крестьян [14, с.308], что в дальнейшем проявилось в массовом

народно-освободительном движении хуррамитов Азербайджана. В связи с движением хуррамитов хотелось бы отметить, что слова Б.Льюиса и К.Брокельманна об окончании в I веке Аббасидского правления исключительной гегемонии арабской аристократии и создании равных возможностей для многих рас в новом социальном и политическом порядке [18, с.222; 7, с.106], не имеют места быть, по крайней мере, в Азербайджане, ибо одной из основных причин, вызвавших это движение, было недовольство местным населением экономическими, социальными и политическими условиями, в которых оно жило. Как говорит П.Кроун, восстания против арабской администрации в Азербайджане свидетельствуют о том, что Арабский халифат так и остался в глазах местного населения «иностранным колонизатором» [10, с.72]. Вполне вероятно, что одной из причин сохранения, по сведениям А.Триттона и Т.Арнольда, вплоть до IV в. хиджры в Арране и Азербайджане многочисленных храмов огня [27, с.44; 2, с.179], и, по сообщению В.Бартольда, христианства в Шабране и Шеки в конце X в. [3, с.142], являлся не факт мирного и добровольного принятия ислама, как на том настаивает Т.Арнольд [2, с.180], а преграды, чинимые арабской администрацией немусульманам в становлении полноправными мавали, во избежание утраты «источника» финансовых поступлений казны в лице зиммиев. Так, арабская администрация руководствовалась материальной выгодой, но никак не кораническими предписаниями.

Таким образом, проанализировав общественно-правовое положение населения Азербайджана в период господства Арабского халифата на основе материалов англоязычной историографии, можно смело сделать вывод, что, в целом, все завоеванные народы, будь то население исторических земель Азербайджана, то других областей халифата, были не только политически бесправными, но и постоянно испытывали на себе как социальный, так и экономический гнет арабской аристократии. И даже статус мавали, считавшихся в Коране равными мусульманам-арабам, не облегчил их долю. На протяжении многих веков покоренные народы так и остались в глазах арабской администрации представителями низшей ступени социальной лестницы. Р.Николсон отмечает, что к ним относились с презрением,

они подвергались всем видам социальной деградации и, даже став мавали, они продолжали выплачивать постоянно увеличивавшиеся налоги, взимаемые с немусульман [24, с.248]. На деле ни кораничеcкие предписания, ни заключенные между завоевателями и представителями местной власти договора не регулировали отношения арабов к инородцам. Как правильно констатировал сложившуюся ситуацию того периода А.Триттон, арабские завоеватели относились к покоренным народам как того сами желали [27, с.223]. Нельзя не упомянуть слова П.Кроун о том, что отношения арабской администрации с завоеванными народами были исключительно «фискальными» [10, с.54].

Следует отметить, что результатом безграничного «арабизма» в завоеванных странах стало культурно-политическое движение в Арабском халифате – *шуубия* [11, с.137], зародившееся в VIII в. Среди неарабских народов и отрицавшее претензии арабов на руководящую роль в культурной (иногда и в политической) жизни стран ислама.

В целом, англоязычная историография объективно отражает социально-правовое положение населения Азербайджана в период господства Арабского халифата.

**ИСТОЧНИКИ И ЛИТЕРАТУРА**

1. Armstrong K. Islam. A Short History. New York: The Modern Library, 2002, 230 p.
2. Arnold T.W. The Preaching of Islam. Westminster: Archibald Constable & Co., 1896, 388 p.
3. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку: Общество обследования и изучения Азербайджана. Историко-этнографическая секция, 1924, 150 с.
4. Бартольд В.В. Мусульманский мир / Сочинения, т.VI. Москва: Наука, 1966, с.207-297
5. Беляев Е.А. Арабы, ислам и Арабский халифат в раннее средневековье. М.: Наука, 1966, 279 с.
6. Bonner M. Jihad in History. Doctrines and Practice. Princeton, Oxford: Princeton University Press, 2006, 197 p.
7. Brockelmann C. History of the Islamic Peoples. London: Routledge & Kegan Paul Ltd, 1949, 508 p.
8. Browne E.G. A Literary History of Persia From the Earliest Times Until Firdawsi, London, Leipsic: T.Fisher Unwin, 1909, 521 p.
9. Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку: Изд-во АН Азерб. ССР, 1965, 380 с.
10. Crone P. Slaves on Horses. The Evolution of the Islamic Polity. Cambridge, London, New York: Cambridge University Press, 2003, 302 p.
11. Goldziher I. Muslim Studies. Vol. I. london: George Allen & Unwin Ltd, 1967, 254 p.

12. Hawting G.R. The First Dynasty of Islam. The Umayyad Caliphate AD 661-750. 2nd edition. London, New York: Routledge, 2000, 151p.
13. Hitti Ph.K. The Arabs: A Short History. Chicago: Regney Co., 1966, 263 p.
14. Hodgson M.G.S. The Venture of Islam. Vol. I. Chicago, London: The University of Chicago Press, 1977, 532 p.
15. Irving C.Crossroads of Civilization. 3000 years of Persian History. London: Weidenfeld and Nicolson, 1979, 223 p.
16. Коран / Перевод и комментарии И.Ю.Крачковского. Баку: Язычы, 1990, 744 с.
17. Lambton A.K.S. Islamic Society in Persia. London: School of Oriental and African Studies, 1954, 32 p.
18. Lewis B. Islam in History: Ideas, Men and Events in the Middle East. New York: The Library Press, 1973, 349 p.
19. Lewis B. State and Society under Islam // The Wilson Quarterly. Vol.13, №4, 1989, pp.39-53
20. Lewis B. The Arabs in History. Oxford: Oxford University Press, 1993, 240 p.
21. Lewis B. The Political Language of Islam. Chicago, London: The University of Chicago Press, 1988, 168 p.
22. Minorsky V. Persia: Religion and History / Iranica. 20 articles. Vol.775. London: Stephen Austin & Sons Ltd, 1964, pp.242-259
23. Muir W. The Caliphate: its rise, decline, and fall from original sources. Edinburgh: John Grant, 1924, 604 p.
24. Nicholson R.A. A Literary History of the Arabs. London: T.Fisher Unwin, Adelphi Terrace, 1907, 500 p.
25. Nicolle D. The Great Islamic Conquests AD 632-750. Oxford, New York: Osprey Publishing Ltd, 2009, 96 p.
26. The Cambridge History of Islam. Vol. 1A / Ed. by P.M. Holt, Ann K.S Lambton, B. Lewis. Cambridge: Cambridge University Press, 1977, 523 p.
27. Tritton A.S. The Caliphs and Their Non-Muslim Subjects. London: Oxford University Press, 1930, 240 p.
28. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 120 s.

**Lamiyə Qafar-zadə**

## ƏRƏB XİLAFƏTİNİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏHALİSİNİN SOSİAL-HÜQUQİ VƏZİYYƏTİ (İNGİLİSDİLLİ TARİXŞÜNASLIĞIN MATERİALLARI ƏSASINDA)

## XÜLASƏ

Təqdim olunmuş məqalə Ərəb Xilafətinin ağalığı dövründə Azərbaycan əhalisinin sosial-hüquqi vəziyyətinin ingilisdilli tarixşünaslığın materialları əsasında öyrənilməsinə həsr edilib. Məlum olduğu kimi, yalnız Azərbaycanın yox, həmçinin Ərəb Xilafəti tərəfindən fəth edilmiş digər bölgələrinin əhalisinin vəziyyəti K.Brokelmann, V.Myuir, A.Tritton, P.Kroun və B.Lyuis kimi görkəmli qərb şərqşünaslarının daim elmi maraq sahəsinə daxil idi.

Azərbaycanın tarixi ərazilərinin qeyri-müsəlman əhalisinin vəziyyəti, xüsusilə ərəb hakimiyyəti ilə bağlanmış can və mülk təhlükəsizliyi və toxunulmazlığı müqaviləsi

əsasında onlara verilmiş hüquqlar və azadlıqlar, istər zimmilərin, istərsə də məvalinin müsəlman ərəblərlə müqayisədə hüquq bərabərsizliyi təhlil edilmişdir. Arranda xristianlarının və Adurbadaqanda Zərdüşt davamçılarının digər xalqların olduğu kimi, ərəb aristokratiyası tərəfindən müsəlman cəmiyyətinin bərabər hüquqlu üzvləri kimi yox, Ərəb Xilafətinin "gəlir mənbəyi" kimi qəbul edilməsi xüsusi olaraq vurğulanmışdır. Ərəb ağalığının Azərbaycanda bərqərar edilməsindən hətta III-IV əsr keçəndən sonra belə yerli dini etiqadların qorunub saxlanılmasını müəllif zahiri tolerantlığla yox, məhz yuxarıda göstərilmiş faktla əlaqələndirir. Beləliklə, qeyri-ərəb xalqlarının, hətta islamı qəbul etmiş olsalar belə, hüquqsuz vəziyyətin səbəbi ərəbçilik olmuşdur.

**Lamiya Qafar-zadeh**

## THE SOCIAL AND LEGAL CONDITION OF THE POPULATION OF AZERBAIJAN UNDER THE RULE OF THE ARAB CALIPHATE (BASED ON MATERIALS OF THE ENGLISH-LANGUAGE HISTORIOGRAPHY)

### SUMMARY

The given article is devoted to the problem of studying of the social and legal condition of the population of Azerbaijan under the rule of the Arab Caliphate in English-language historiography. As is known, the state of the peoples not only of Azerbaijan, but other regions of the Caliphate conquered by the Arabs, has always been entering into scientific interests of such distinguished western orientalists as C.Brockelmann, W.Muir, A.Tritton, P.Crone and B.Lewis.

The state of non-Muslim population of historic lands of Azerbaijan, in particularly rights and freedoms given them by the agreement on the security and immunity of life and property, concluded with the Arab administration, unequal status both of dhimmis and mawali in comparison with Muslim Arabs, was analysed. The main emphasis was made on the fact that Christians of Arran and Zoroastrians of Adurbadagan, as well as other peoples, were considered by Arab aristocracy not as equal members of Muslim *ummah*, but as a "source" of treasury income of the Arab Caliphate. Author attributes preservation of local religious survivals even III-IV centuries after the establishment of Arab rule in Azerbaijan to aforementioned fact, but not to imaginary tolerance. Thus, unequal state of non-Arabs, even those who adopted Islam, was caused by Arabism.

# AZƏRBAYCANDA İSLAM ELMİ MÜHİTİNİN İLKİN ÇAĞLARI

**Nərgiz Əliyeva**

**Açar sözlər:** islam, fəthlər, xəlifə, mədəniyyət, ərəb dili, ziyalı

Azərbaycan şəhərləri, islam fəthləri nəticəsində dərussülh (1, s.152 ) məkanına daxil oldu. Bu ərazidəki əhli-kitab (yəhudi, xristian və zərduştilər nəzərdə tutulur) əhl-əz-zimmə (himayədə olanlar) sırasına daxil edilir, müahidənin şərtini gözləməklə onların şəxsi və mülki toxunulmazlıqlarına zəmanət verilirdi. Müahidəyə görə başqa yerlər kimi, Azərbaycanın da müsəlman dünyası qarşısında təəhhüdləri yerinə yetirmək, islam dininin təlimi və mərasimlərini təbliğ etmək, ona etiqad, islam dünyasına qarşı müharibə aparmamaq, bu dinin tərəfdarlarına qarşı müharibələrdə iştirak etməmək, vergi-xərac vermək əsas sayılırdı. Xilafət isə öz siyasətində onları xarici hücumlardan müdafiə etməli, əhalinin siyasi hüquqlarının və etiqad azadlıqlarının qorunub saxlanmasına təminat verməli, onların daxili həyatına və dini işlərinə qarışmamalı, mülkiyyət hüquqlarına, şəxsiyyətlərinə hörmət etməli idi. Bəzi müəlliflər on il müddətinə bağlanan müqavilənin şərtlərinin yerinə yetirilməməsini şəhərlərin xərac verməkdən yayınması ilə əlaqələndirirlər. Lakin məlum tarixi faktdır ki, müsəlman fütuhatından əvvəl ara verməyən Bizans-İran müharibələri, xəzər və digər köçəri xalqların ölkəyə hücumu nəticəsində dağıdılmış təsərrüfat, zəifləmiş məhsuldar qüvvələr Azərbaycan, xüsusilə Arranın əhalisini yoxsul vəziyyətə salmışdı. “Vergi yükü, xüsusilə ərəblərin işğallarının ilk onilliklərində yumşaldığına görə” əhali müsəlmanlığın bu dövründə daha yaxşı yaşayırdı (2, c.157). Hələ Xəlifə Əbu Bəkr (632-634) ərəb fütuhatının ilk dövründə ərəb qoşunlarına belə əmr etmişdi: “Düşmənləri şikəst etməyin, nə kiçik uşaqları, nə çox qoca adamları, nə də qadınları öldürməyin; xurma ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa, qoyun, inək və dəvələri kəsməyin. Siz, hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz: onları rahat buraxın və məşğələlərinə mane olmayın” Sonra əmrdə deyilirdi: “Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar. Onlarla aranızda

bir hədd olmaq üçün bac qoyun ki, onlar öz din və torpaqlarında qalsınlar. Sizi qəbul etməyənlərlə müharibə edin" (3, 79). Bütün islam tədqiqatçıları qeyd edirlər ki, ərəblərin fəth etdikləri ölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul edirdilər, ona görə ki, Rozenin sözləri ilə deyilsə, "ərəblər öz sadəliyi və qeyri-mürəkkəbliyi baxımından möhtəşəm olan yeni dinin daşıyıcıları idi". Təqib və çəkişmədən əziyyət çəkmiş xalqın sosial övqatına uyğun gələn islam dini həmçinin kütlələrin ağır yadelli işğalçıların zülmündən qurtuluş idealı idi. Belə ki, fəth olunmuş ölkələr ərəblərin hökmranlığını qəbul etdikləri təqdirdə, onların həyatını təmin edən daha dözümlü şərtlər vəd edilirdi(4, c.140) . Doğrudur, islamı silah gücünə qəbul etmiş bəzi tayfaların, xüsusilə bədəvi ərəblərin əqidəsində dini etiqad dəyərincə möhkəm yer tutmamışdı. Azərbaycanda da belə olmuşdur. İslamlaşmanın ilk mərhələsində könüllü qəbul edilmiş islam dini yalnız müəyyən vaxt keçdikdən sonra, öz mədəni təsirilə həqiqi inam kimi mənimsənilmiş tam elmi əqidəyə çevrilmişdir. Ona görə də, Azərbaycanda, başqa yerlərdə olduğu kimi bu din kütlələri birdəfəyə fəth etməyib. Xilafət əleyhinə çıxışlar müahidədən sonra da davam edib. Buna görə də, Məhəmməd peyğəmbər (s.a.s) və onun ardıcılları yeni dini etiqadın əqidədə tam möhkəmlənmədiyi dövrdə bu dinin təbliğində və onu qəbul edənlərlə ehtiyatlı olmağı tövsiyə edirdi. Quranın "əl-Hucurat" surəsinin 14-cü ayəsi də bunu təsdiq edir (5, s. 516) .

VIII əsrin əvvəllərində sərkərdə Əbdüləziz ibn Hatim ən-Numan əl-Bəhilinin Azərbaycana yürüşü nəticəsində Azərbaycan şəhərləri yenidən digər yaşayış məskənləri ilə birlikdə Xilafətə birləşdirildi. IX əsr ərəb tarixçisi əl-Bəlazuri Əbdüləziz ibn əl-Bəhilinin Azərbaycanda quruculuq işlərindən bəhs edir. Müəllif sərkərdənin bu fəaliyyətini işğal edilmiş şəhərlərin tamamilə dağıdılması ilə əlaqələndirir (6, 242).

İslam mədəniyyətinin yayılmasını öncələyən islamlaşma prosesi çox çətin və uzun sürən bir proses olmuşdur. Hətta əvvəllər fəth olunmuş ölkələrdə dini bayramlara toplaşan müsəlmanlar özləri ilə silah götürürdülər. Ensiklopedik alim Əbu Həfs Ömər ibn Məhəmməd ən-Nəsəfinin (460-537/1068-1142) Türkiyənin Süleymaniyyə kitabxanasının fondunda ərəb dilində olan əlyazmasındakı məlumatda islamı yaymağa gələn fatehlərlə həmin ölkələrin başçılarının danışdıqlarından bəhs edilir.

Orta əsrlərdə Azərbaycanın şəhər həyatına həsr olunmuş əsərlərin çoxu, Akad.V.V. Bartoldun sözləri ilə desək, "Monqol hücumları zamanı, hətta sonrakı mənbələrin də iz qoymayaraq birdəfəlik yox olduğuna" görə də bu dövrə aid analoq əsərlərin məlumatlarından istifadə etmək məcburiyyətində qalırıq (7, c.60-61). Bizcə, ərəblərin fəth etdikləri ölkələrlə bağladığı müqavilələrin oxşarlığı, analoji mənbələrə müraciət etməyə əsas verir. Bu müqavilələrə görə islamı yaymağa gələn missionerlər yəhudi, xristian və zərdüştiləri yeni dini qəbul etməyə məcbur etmirdilər. Əbu Həfs yazırdı: "Quteybə ibn Məsləmə Buxaranı mühasirəyə alarkən, oranın dehqanı ona aşağıdakı məzmunda məktub göndərmişdi: Mənim ölkəmdə bir alim var. Mən onu sənin yanına göndərəcəyəm ki, o səninlə söhbət edərək səni dinləsin. Əgər sən onu öz həqiqətinə (inamına) çağıra bilsən, mənə bu haqda bildir ki, sənin arxanca gedim. Yox, əgər sənin sözlərin nahaq olarsa, onda mən sənin tərəfində olmayacağam və səninlə müharibə edəcəyəm". Həmin dehqan Xuştiyarı onun yanına göndərdi. Quteybə onu islamı qəbul etməyə dəvət edərək bizim peyğəmbərin (s.a.s.) xüsusiyyətlərindən danışdı. Xuştiyar başa düşdü ki, o haqlıdır və islamı qəbul etdi. Bu xəbər dehqana çatdı, o bundan üzüldü, qorxuya düşdü və türklərin ölkəsinə qaçdı, şəhər əhalisi isə islamı qəbul etdi. Sonradan Xuştiyarın ən-Nadir adlı oğlu Nəsəfə gəlmiş və orada öz nəslini davam etdirmişdir" (8, c.111).

Başqa fəth olunmuş ölkələrin əhalisi kimi, azərbaycanlıların da islama keçməsi ərəb dilinin öyrənilməsi məcburiyyətini ortaya çıxarırdı. Yerlı əhali Quranın həqiqətlərindən xəbərdar olmaq üçün ilk növbədə müqəddəs kitabın yazıldığı ərəb dilini öyrənməyə məcbur idi. Digər tərəfdən, bu məcburiyyəti səbəbləndirən amillərindən biri müsəlmanın yerınə yetirməsi vacıb olan namazın yalnız Quranın dilində qılınmağın məqbul sayılması idi. Tərcümə yolverılməz hesab edilirdi. İslam dini mərasimlərinin hər yerdə ərəb dilində icra edilməsi, qalib ərəb orduları ilə ünsiyyət saxlamaq üçün zəruri olaraq ərəb dilindən istifadə olunması, Xilafətin divan işlərinin ərəb dilində aparılması və s. tədricən bu dilin hakim dilə çevrilməsinə şərait yaradırdı. Ərəb dili islam aləmində latın dilinin Avropada oynadığı rolu oynayırdı (9, s. 8).Odur ki, qısa müddətdə ərəb dili fəth olunmuş ölkələrin əhalisinin dilini sıxışdırmağa başlayır, ədəbi məclislərin, ziyalılarının rəsmi dili ərəb dili olur. Bu işdə Xəlifə Əbdülməlik ibn Mərvanın (65-86/685-705) əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin

Xilafətin rəsmi dili elan edilməsi sahəsində həyata keçirdiyi tədbirləri Xilafətin tərkibində olan xalqların da dinini, mədəniyyətini, yazılı abidələrini əvvəlkindən daha artıq sıxışdırmağa başladı. Bir sözlə, ərəbləşdirmə siyasəti son dərəcə sürətlə aparılırdı. Akad.V.V. Bartold göstərirdi ki, ərəb dili nəinki islam dinini qəbul etmiş ölkələrin əhalisi arasında, həm də müsəlman olmayanlar arasında da dövlət dili kimi yayılmağa başladı (10, c. 25). Xəlifələ Əbdülməliyin Azərbaycanda siyasəti xalqın dilini dəyişdirməsə də, ideologiya, elm və mədəniyyətə təsir edirdi. Belə ki, Xilafətin dil siyasəti yerli ziyalıların öz xalqından ayrılmış imtiyazlı zümrəsinin formalaşmasına olduqca əlverişli şərait yarandı. Bu imtiyazlı zümrəyə daxil edilən məvalilər, müsəlman adları ilə yazıb yaradırdılar. Mavlə (məvali-cəm) termini islamdan əvvəlki Ərəbistanda geniş yayılmışdı. Bu termin tez-tez müxtəlif asılı kateqoriyadan olan əhaliyə şamil edilirdi. Məfhum çoxmənalı (qan qohumlarından tutmuş həmiliyə qəbul edilmiş özgə xalqlardan və azad edilmiş qullara qədər) olduğuna görə mavlə sözünün qrammatik məna kimi real məzmununu yalnız kontekstən çıxış edərək açmaq olar (11, c.25-33).Ərəb fəthləri dövründə məvla termini yeni məzmun kəsb edir. Onlar yeni müsəlmanlar kimi ərəb ordusu tərəfdə döyüşən müsəlman-ərəblərlə bərabər tutulurdu. Qənimətlərin bölgüsündə də bu təbəqədən olanlar ərəblərlə eyni pay alırdı. Ayrı-ayrı ərəblərə təhkim olan bu qeyri-ərəblər Xılafətin həyatında önəmli rol oynamağa başladı. Onlar təhkim olunduqları qəbilə başçıları və onun qəbilə üzvləri ilə birlikdə fəth olunmuş yerlərə gedir, onu hərbi əməliyyatlarda müşayət edirdilər (12, c.173).

Bioqrafik ədəbiyyatın nümayəndələri onların hərbi fəaliyyətləri haqqında yazmasalar da, şairlik fəaliyyəti haqqında məlumat verirlər. İbn Qüteybənin "Əl-Məarif vəl-lataif" əsərində ziyalıların daxil olduğu ərəb qəbiləsinin adı xüsusi qeyd edilir. Öz doğma yurdundan ayrı düşmüş və ərəblərin mühitində yaşayan bu zümrə islamlaşmış yerli xalqların bayraqdarı hesab edilir. İbn Quteybəyə əsaslanan M.Mahmudov yazır ki məvali-şairlər (Musa Şəhəvat, Əbul-Abbas, İsmayıl ibn Yasar və onun qardaşları) VII əsrin sonlarında və VIII əsrin I yarısında yaşayıb yaratmışlar. Onlar ictimai ziddiyyətlərin son həddə çatdığı Əməvilər dövründə (h.41-127/661-749) öz mənafelərinə uyğun olaraq bu və ya digər siyasi dəstənin tərəfində dururdular (13, s.11). Həmin siyasi qruplar da öz növbəsində məvalilərin xidmətindən həvəslə istifadə edirdilər. Azərbaycanda islam

mədəniyyətinin yayılmasında böyük rolu olmuş Xəlifə Əbdülməlikin özü ədəbiyyata böyük maraq göstərmişdir. O, əhalinin toplandığı yerlərdə şeir oxumaq və şairlərdən söhbət açılması barədə əmr vermişdi (14, s.70).

Sözsüz ki, bu şairlərdən Əməviləri, o cümlədən bu sülalənin nümayəndəsi olan Əbdülməliyi tərifləmək, haşimilər və xilafət fikrinə düşən başqa nəsilləri isə pisləmək tələb olunurdu (15, s. 92). Onların arasında azərbaycanlı şairlər də var idi. O dövrdə Mədinədə yaşayan Əbul-Abbas, Musa Şəhavat, Fərrux Yassar kimi məvaliləri Y.Belyayev mədəni səviyyələrinə görə iran və arami mədəniyyəti varisləri kimi ərəb-müsəlmanların ilk nəsillərindən ölçüyə gəlməyən dərəcədə üstün hesab edirdi. Onun fikrincə, bu, ərəblərə onlardan savad tələb olunan yerlərdə- müəssisələrdə, qoşunda və təsərrüfat sahələrində istifadə etməyə əsas verirdi (4, c. 194). Məvali şairlərin yaradıcılığını təhlil edən M.Mahmudov da təqribən belə nəticəyə gəlmişdi. Alimə görə, Azərbaycan xalqının həmin dövrdəki bədii təfəkkürü digər müsəlman xalqlarının mədəni səviyyəsindən heç də geri qalmamış, bir çox millətlərin birgə səyi nəticəsində meydana gəlmiş ərəbdilli poeziyanın yeni keyfiyyətlər kəsb etməsində, forma və məzmunca dərinləşməsində, ictimai və siyasi həyata dərindən nüfuz etməsində öz faydasını əsirgəməmişdir (15, s.76).

Ərəblərin islamlaşmanın ilk mərhələsində dil siyasətinə üstünlük verməsini Quranın və Quran haqqında ədəbiyyatın öyrənilməsinə və yayılmasına kömək edən tədbir kimi başa düşmək olar. Zaman keçdikcə islamın yayılması sayəsində təşəkkül tapmış yeni müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq oyatmağa başlamışdı. Quran özü «bilənləri», «bilməyənlərdən» üstün tutmaqla müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirirdi. Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimləri peyğəmbərin varisi hesab edirdilər (16, s. 27). Buna görə də islam aləmində alimlərə hər yerdə ehtiram göstərilir, onların rəyi ilə hesablaşırdılar. Hökmdarlar müxtəlif elm nümayəndələrinə himayədarlıq göstərir, elmin inkişafına verdikləri sərmayənin həcmi ilə fəxr edirdilər (17, s. 115).

Müsəlman Şərqində artıq VIII-IX əsrlərdən etibarən elmlərin inkişafı xeyli sürətlənməyə başladı. 132/750-ci ildə Xorasanda, Şərqi İranda baş vermiş mühüm siyasi hadisə-Əbu Müslim hərəkatı Əməvilərin devrilməsi

və ərəb əyanları ilə fəth olunmuş qeyri-ərəb aristokratiyasının hüquqlarının bərabərləşməsi ilə nəticələndi (18, c. 30). Əməvilərin taxt-tacına sahib olan Abbasilər eyni dərəcədə həm həmyerlilərinə, həm idarə edən sülaləyə mənsub olmayan ərəb əyanlarına, həm də fəth edilmiş ölkələrin sakinlərinə arxalanırdılar (19, c. 6-7). Nəticədə, "ərəblər tutduqları mövqeyə görə imperiyanın tərkibinə daxil olmuş çoxsaylı xalqlardan birinə çevrildi" (20, c.273). Bu isə, öz növbəsində ərəblərlə fəth olunan ölkələrin ziyalıları arasında qarşılıqlı mədəni əlaqələrin daha da gücləndirdi.

IX əsrin əvvəllərində Xilafətin mədəni- dini həyatı xüsusilə inkişaf edir, özünün çiçəklənmə dövrünü keçirirdi.

A.Yakubovskiyə görə, bu dövrdə artıq Xilafətin Bizans, Bağdadın isə Konstantinopol üzərində üstünlüyü haqqında danışmaq mümkündür (21, c. 34). Mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcümə olunması da elmin və mədəniyyətin inkişarına təkan verirdi. Hələ Harun ər-Rəşidin dövründə Bağdadda təsis edilmiş, Xəlifə əl-Məmunun adı ilə bağlı "Dərul-hikmə" və ya "Xəzinət əl-hikmə" («Hikmət evi» və ya «Hikmət xəzinəsi») adlandırılan elmi mərkəz elm və mədəniyyətin inkişafına daha böyük imkanlar yaratmış, müxtəlif dillərdə (xüsusilə yunan və siryani) yazılmış əsərlərin ərəb dilinə tərcüməsi sahəsində mühüm işlər görmüşdür (22, s. 261). Bu yüksəliş Xilafət əyalətlərində, o cümlədən, Azərbacanda əks-səda tapırdı. VIII-IX əsrlərdən ərəb dilinə tərcümə olunan Aristotelin, Hippokratın və Platonun əsərləri Azərbaycanda da yayılmağa başlamışdı.Bu, özünü Azərbaycan şairi Xaqani Şirvaninin əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə əks olunmuşdur.

Azərbaycan Əlyazmalar İnstitutunda qorunan bir çox əlyazmalarının əsas mənbələri antik yunan təbiblərinin traktatlarıdır. Fondda qorunan daha bir əlyazma əsli Cənubi Azərbaycanın Zəncan şəhəri yaxınlığındakı Əbhər adlı yerdən çıxan Əsirəddin Mufaddal ibn Ömər əl-Əbhərinin (v.e.1265) isgəndəriyyəli neoplatonlu Porfiri Tirskinin (232-304) o vaxtlar Aristotelin məşhur "Məntiq" əsərinə Giriş kimi yazdığı "İsağuci" əsərnin əlyazmasıdır. Müəlliflə yanaşı əlyazmanın üzünü köçürən (Əbdülğəni ən-Nuxəvi ibn Hacı Məhəmməd də azərbaycanlıdır.

Beləliklə, Azərbaycanda islamlaşma, Quranın öyrənilməsi və Qurana aid ədəbiyyatın geniş yayılması ilkin mədəniyyət ocaqlarının tədris müəssisələrinin təşkilinə rəvac verdi. Azərbaycan şəhərlərində islamı daha

geniş yaymaq məqsədilə şəhərlər salınarkən və ya bərpa edilərkən dini binaların, o cümlədən məscid və mədrəsələrin, ruhani məhəllə məktəbləri, mədrəsələr, təkyələrin tikintisi xeyli dərəcədə artdı. Bu isə nəticə olaraq Azərbaycanda islam mədəni mühit çərçivəsinin genişlənməsinə şərait yaratdı.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**


1. Dərüssülh: Müsəlmanların müharibə yolu ilə deyil, sülh və müahidə bağlamaq yolu ilə işğal etdikləri ərazilər belə adlanırdı. Bax: İslam, tarix, fəlsəfə, ibadətlər / Məsul redaktorları akad. Z.Bünadov və fəls.e.d. R.Əliyev. Bakı: Elm, 1994.
2. Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленицкий А.М. История Ирана с древнейших времен до конца XVIII века. Л.: Ленинградский университет, 1958.\
3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989.
4. Беляев Е.А. арабы, ислам и арабский халифат в раннее средневековье. Изд.второе. М.: Наука, 1966 г.
5. Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.Məmmədəliyev. Ön söz V. M.Məmmədəliyev, qeyd və şərhlər Z.M.Bünyadovundur. Bakı: Olimp konserni
6. Bəlazuri, Kitabu- Futuh əl-Buldən, 1866
7. Бартольд В.В.Туркестан в эпоху монгольского нашествия. Соч. в 9-ти томах, т. 1, М.: Изд-во вост.лит., 1963
8. Ан-Насафи Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад. Ал-Канд фи зикр улама Самарканд //Общественные науки в Узбекситане. Таншкент, 1997, № 9-10-11
9. Məmmədəliyev V.M. Kufə qrammatika məktəbi, Bakı: ADU-nun nəşri, 1988
10. Бартолъд В.В. Кулътура мусулъманства. Петроград, Огни, 1918
11. Негря Л.В. К вопросу о значениях понятия мавла в Аравии У-УП вв.-«Вестник МГУ». I (1977)
12. Колесников А.И. Завоевание Ирана арабами. Изд-во «Наука», Москва, 1982
13. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) Bakı: Elm, 1983
14. İbn Qüteybə. Əl-Məarif vəl-lataif. Leyden, 1908
15. Azərli Məmməd. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan(685-705-ci illər). B., 1964. Tarix İnstitutunun elmi arxivi, №5678
16. Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm. Elm və həyat nəşriyyatı, B.,1998
17. Paşazadə A. Şeyxulislam. Qafqazda islam. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1991
18. Босворд К.Э. Мусульманские династии. М.: Наука, 1971
19. Фильштинский И.М. Арабская литература в средние века (VIII-IX вв.), М.: Наука. Главная редакция восточной литературы, 1978
20. Ханна аль-Фахури. История арабской литературы. В 2-х томах, т. I. М.: Изд-во Иностранной литературы. 1959-1961г., t.1
21. Якубовский А.Ю. Ирак на грани VIII-IX вв. (черты социального строя халифата при Аббасидах) // Труды Первой сессии арабистов 14 - 17 июня 1935г.Л., 1937
22. Azərbaycan tarixi. II c. Bakı, 1998

**Nargiz ALIYEVA**

## PRIMARY PERIOD OF ISLAMIC SCIENTIFIC ENVIRONMENT IN AZERBAIJAN

### SUMMARY

**Key words:** Islam, conquests, caliph, culture, Arabic language, intelligent

Formation of primary period of islamic cultural environment in Azerbaijan as a continuation of spreading process of islam is analyzed in the article. It shows that during islamization, Arabic language became the predominant language make its position stronger in the country, inducing, stimulated people who joined Arabs though educational process in Arabic, so long as learning of Koran, Muslim rituals were conducted in Arabic and literature concerning to Koran was written in Arabic language. It is noted, later on in VIII-IX centuries establishments of cultural centers conditions to expansion of framework of islamic cultural in Azerbaijan.

**Наргиз АЛИЕВА**

## НАЧАЛЬНЫЙ ПЕРИОД РАЗВИТИЯ ИСЛАМСКОЙ КУЛЬТУРНОЙ СРЕДЫ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

**Ключевые слова:** ислам, завоевания, халиф, исламская культура, арабский язык

В статье анализируется начальный этап возникновения исламской культурной среды, как результат процесса распростронения ислама в Азербайджане. Указывается, что в процессе исламизации арабский язык занял господствующие позиции в стране, что побудило часть местного населения, примкнувшего к арабам, заниматься творчеством на этом языке, поскольку изучения Корана, мусульманские ритуалы проводились на арабском языке и литература, связанная с Кораном, писалась по- арабски. Отмечается, что последовавшая затем, в VIII-IX вв., организация культурных центров, привела к расширению рамок исламской культурной среды в Азербайджане.

# TİFLİS VƏ ƏTRAF ƏRAZİLƏRDƏ TÜRK TAYFALARI (e.ə. IV – b.e. VII əsrlər)

**Rəşad MUSTAFA**[*]

**Açar sözlər:** Tiflis, türk tayfaları, buntürklər, xəzərlər, albanlar, sabirlər, barsillər, hunlar

Tiflis bölgəsi adlandırdığımız ərazinin ərazi sərhədlərini müəyyənləşdirmək üçün başlıca olaraq aşağıdakı amillər əsas götürülmüşdür. 1) Əsrlər boyu tədqiq edilən ərazilərdə türk tayfalarının yayıldığı areal. 2) Xilafət dövründəki inzibati bölgü. Xilafət idarəçiliyinin inzibati təcrübəsi olmadığından özündən əvvəlki, xüsusən Sasani dövründəki inzibati bölgülərə və etnik sərhədlərə toxunmamışdılar, demək olar ki, onları olduğu kimi qoruyub saxlamışdılar. 3) Sonrakı vaxtlar həmin türk tayfalarının tərkibində yaşamış olduğu Tiflis əmirliyinin müxtəlif tarixi dövrlərdə əhatə etdiyi ərazilər. 4) Borçalı elinin torpaqları

Xilafətin inzibati idarəçilik cəhətdən təcrübələri çox az olduğu üçün özlərinə qədər bu əraziləri idarə edənlərin təcrübələrini əsas götürərək Cənubi Qafqazı 4 Ərməniyyəyə[†]* bölürlər. I Ərməniyyəyə ərəblərin Arran adlandırdıqları tarixi Albaniya ərazisi- əs-Sisəcan, Arran, Bərdə, Beyləqan, Qəbələ, Şərvan və ən əsası Tiflis daxil idi. II Ərməniyyəyə isə Curzan, Suğdəbil, Bab Feyruz Qubad, əl-Lakz daxil idi (18, 18). Bu bölgüyə əsasən məqalədə Tiflis və ətraf əraziləri tarixi Azərbaycanın – Arranın bir bölgəsi olaraq tədqiq edilməyə çalışılmışdır. Əmir İshaqın (ö. 852) dövründə Tiflis əmirliyinin sərhədləri qərbdə Qarsa qədər uzanırdı (69, 266). Qərbdə əmirlik Trialetiylə sərhədlənirdi. X əsrdə buranı Rati Baqvaşı idarə edirdi (25, 50). X-XI əsrlərdə Tiflis əmirliyinin şimal sərhəddi Diqom vadisinə qədər uzanırdı. Msxeta bəzən onların nəzarətində bəzən isə nəzarətdən çıxan bir ərazi olurdu. Təxminən 853-cü ilə aid Diqom düzənliyin-

---

Rəşad Əziz oğlu Mustafa – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

*Ərməniyyə - Şərti addır, ərəb müəllifləri Albaniya-Arran, gürcülər və ermənilər yaşayan ərazini bir inzibati vahiddə birləşdirir, gah "Ərməniyyə", gah da tarixi Azərbaycanın cənubu ilə birgə "Azərbaycan" adlandırıdılar. İlk belə Ərminiyyə adı altında bölgünün təşkil edilməsi 536-cı ildə Bizans imperatoru I Yustiniana aiddir. (18, 29). Güman ki, ərəblər bölgünü təşkil edərkən Bizansı nümunə götürmüşlər. Sasanilər dövründə tarixi Azərbaycanın şimal sərhədlərinin Dərbəndədək uzandığı barəsində həmin şəhərin hasarlarındakı pəhləvi yazıları məlumat verir; bu yazılar 553-cü ildə Azərbaycandakı Sasani mərzbanı Bərzini tərəfindən tərtib edilmişdir (4, 136).

dəki Maçxan kilsəsinin divarında Tiflis əmirinin məmuru Huməd ibni Kitrin adının yazılması bu ərazilərin Tiflisə aid olduğunu deməyə əsas verir (28, 341). Şərqdə əmirlik İsani düzənliyini, Avçalanı, Qabırrı çayının (İori) qərb sahillərini əhatə edirdi və burada sərhədi Qabırrı çayı təşkil edirdi. Şərqdə əmirliyin qonşusu Şəki məlikliyi idi (5, 120, xəritə 5). Cənubda isə Rustavi, Dumanis, Şəmşəddil (Samşvilde) və Loru (Lori) torpaqları bu əraziyə daxil idi. Məhz Samşvilde və Dumanis qalaları üstündə əmirliyin tez-tez Taşir feodal bəyliyi ilə münaqişələri düşürdü. Bundan əlavə Tiflis əmirliyinə tabe olan və Rustavi, Dumanis, Hunanda oturan əmirlər də var idi (28, 341). Belə ki, Tiflis bölgəsi müasir Gürcüstanın

Kaxetiya istisna edilməklə bütün şərq və cənub torpaqlarını, Türkiyənin şərq və şimal-şərq torpaqlarının bir hissəsini əhatə edirdi. Bütün bu məlumatları birləşdirəndə müasir dövrdə Borçalı adlandırdığımız torpaqlar, qarapapaq türklərinin yayıldığı areal göz önündə canlanır.

Tiflis və ətraf bölgələrdə yaşayan türk əhalinin yayıldığı əraziləri və sərhədləri göstərən ən əhəmiyyətli mənbələrdən biri də "Kitab-i Dədə Qorqud"-dur. Bu dastanda haqqında məlumat verilən oğuzlar Gürcüstanla sərhəddə yaşayırlar. "Salur Qazanın evinin yağmalandığı boy"-da ova getmək istəyən Salur Qazana at ağızlı Aruz qoca belə deyir: "Ağam Qazan, sası (mundar) dinli Gürcüstan ağzında oturarsan. Ordunun üstünə kimi qoyursan?" (6, 42). Uruz atası Salur Qazanın özünə görə bikef olduğunu görəndə atası oğlunun varlığından bikef olmasın deyə qonşuluqda yerləşən "Qan Abqaz elinə mən gedərəm, Altun xaça mən əlimi basaram" deyir (6, 68). Oğuz igidləri başqa yerlərə yürüşə çıxarkən gürcü casusları həmişə onları izləyər, imkan tapan kimi, xırda bir boşluq görən kimi təkura bu haqda məlumat verər, oğuzların soydaşları qıpçaqlarla birgə Oğuz elinə hücum edərdilər. Məhz adını çəkdiyimiz boyda da qıpçaq Şöklü Məlik gürcü aznauru ilə birgə Oğuz elinə yürüş edir (6, 43). Gürcü casusları əsasən Başı açıq (Kutaisi) Tatyan qalası, Aqsəqa (Axıska) qalasında otururdular (6, 69). Belə bir casusluq hadisəsinin bənzərini biz 1139-cu ildə Gəncə zəlzələsi zamanı görürük. Belə ki, zəlzələdən sonra müdafiəsiz qalan şəhərin vəziyyəti barədə tezliklə məlumat alan gürcülər I Dmitrinin başçılığında hücum edir və şəhəri talan edirlər. Hətta, qənimət olaraq Gəncə qala qapılarını da özləri ilə aparırlar (16, 218).

Oğuzlar yürüş etdikləri, ilhaq etdikləri, gəzib gəldikləri ərazi adları içində Qara dəniz sahilində yerləşən qalaları da sayırlar. Qazılıq qoca üzərinə yürüş etdiyi Qara dəniz sahilindəki Düzmürd qalasında əsir saxlanılır (6, 94). Qanturalı qız bəyənməyə Trabuzana (Trabzon) gedir (6, 85). Qazan xan düşmən əsirliyində özünü belə öyür: "Arqıç qırda yıqandır (sahilləri yuyulur) Əmman dənizində (Qara dənizdə), Sarb (qayalıq) yerlərdə yapılmış kafər şəhəri… Ol qələyi, altı baş ərlə mən vardım, Altı günə qoymadım, mən aldım" (6, 118). Beyrək atasına hədiyyə gətirən bəzirgan-tacirləri Qara Dərbənd (Dəryal keçidi) ağzındakı Evnik qələsinin kafirlərindən xilas edir (6, 53). Bütün bunlar göstərir ki, müasir şərqi və cənubi Gürcüstan əraziləri tarix boyu gürcülərin nəzarəti altında olmayıb. Oğuzlar gürcülərlə qarşılaşmaqdan ötrü olduqları yerlərdən bir az da qərbə və şimal-qərbə getmək məcburiyyətində qalıblar.

Bu ərazidə yaşayan əhalinin kimliyi barədə gürcü mənbələrində kifayət qədər məlumat var. Gürcü mənbələri "Moksevai Kartlisai" (Gürcüstanın dönüşü) və Leonti Mrovelinin "Kartli çarlarının həyatı" əsərlərində təxminən eyni məzmunlu belə bir hissə var. "O vaxt ki, çar Aleksandr Lot törəmələrini qarşısından qaçmağa məcbur etdi və onları yarı qaranlıq ölkəyə göndərdi, onda o, ilk dəfə Kür sahilindəki dörd şəhər və onun ətrafında yaşayan qəzəbli buntürk tayfalarını gördü. Bu şəhərlər Sarkine, Kaspi, Urbnisi və Odzraxe şəhərləri idi. Qalaları isə böyük qala Sarkine, idarəçi qalası Kaspi, Urbnisi və Odzraxe qalaları idi. ... Çar onlarla mübarizə aparmağın mümkün olmadığını görüb buradan uzaqlaşdı. Bu vaxt isə buraya xaldeylərdən aralanan döyüşkən hon tayfaları gəldilər və buntürklərin başçısından vergi ödəmək qarşılığında məskən istədilər və Zanavidə məskən saldılar. Onlar əvəzində vergi ödədikləri yeri idarə etdilər və bura Xerki adlanır." (27, 28; 30, 9; 35, 28). Salnamə əlyazmalarının birində buntürklərin 28 min ev olması yazılmışdır (3, 168). Əlimizdə gürcü mənbələrindən başqa mənbə olmasa, yalnız buradakı məlumatlar bəs edər ki, ərazidə iki böyük türk tayfasının – buntürklər və hunların yaşadığı təsdiq olunsun. Mənbənin ardında belə qeyd edilir: "Xeyli vaxtdan sonra geri qayıdan İskəndər buntürklərin üç şəhərini tutub dağıtdı, Sarkineni isə yalnız üç aylıq mühasirədən sonra çətinliklə ələ keçirdi… Buntürklər qayalarda açdıqları lağımla mühasirədən çıxıb Şərqə çəkildilər… İskəndər Sarkineni özü ilə gəzdirdiyi Arian – Kartli şahzadəsi Azoya bağışladı…"

Məhz Şərqə çəkilməni Azərbaycan tarixçisi Kərəm Məmmədli Tiflis şəhəri ilə əlaqələndirir və Tiflisin də buntürklər tərəfindən salındığını qeyd edir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, buntürklər yaşayan ərazidə Armaz şəhərinin salınması da e. ə. IV əsrdə yaşayan Azonun xələfi Farnavazla (e.ə. 302 – e.ə. 237) əlaqələndirilir (30, 10).

Buntürk adındakı türk sözü əlbəttə ki, tam aydındır. Lakin, bu türk xalqının əvvəlindəki "bun" sözü bir çox müzakirəyə səbəb olmuşdur. Takaişvili turanlılar, Marr avtoxton turklər, Çxartişvili nizəli türklər, Mirəli Seyidov türk tayfası kimi, Süleyman Əliyarlı isə bunalmış, digər türk tayfalarından ayrı düşmüş kimi tərcümə edir (19, 298; 26, 709-713). "Bun" sözünü biz qədim türk abidələri olan Kitab-i Dədə Qorqudda və Kültigin abidəsində tapırıq. Kitab-i Dədə Qorqudda "Basatın Təpəgözü öldürdüyü boy"-da Təpəgözə yemək bişirməsi üçün Bunlu qoca və Yapağlu qoca verilir (6, 99). "Bəkil oğlu İmran boyu"-nda ovda yaralanan Bəkil oğluna belə müraciət edir: "Bəylər bəyi Qazan xanın əlini öpgil, ağsaqqallı babam bunlu degil" (6, 107). Kültigin abidəsində isə belə bir ifadə var: "… (Türk xalqı,) Ötükəndə oturub karvanlar göndərsən heç bir bunuğ yox (dərdin olmaz)" (17, 218). Hər iki abidədə "bun" sözünün işlənmə mənasına baxdıqda Süleyman Əliyarlının ifadəsinin daha məntiqli versiya olduğunu görmüş oluruq.

Bu hadisəni dəstəkləyən bir mənbə də Leonti Mrovelinin "Kartli çarlarının həyatı" əsərində rast gəlmək olur. Mənbəyə əsasən türklər Msxetadan qərbdəki torpaqları bəyənir və burada Msxeta hakimi ilə razılaşaraq məskunlaşırlar. Sarkine adlı böyük qala ucaldırlar (27, 28). Msxetadan qərbdəki ərazilərin İberiyada olmaması, əksinə, Albaniyadakı yerli türklərinin və ya albanlara yaxın türk dilli tayfaların əlində olması gürcü mənbələrinə əsasən də öz sübutunu tapır. Bu da onu sübut edir ki, gürcülər Msxetadan bir az da Şimal və qərbdə, əsasən İmeretiya – İberiya ərazisində yaşamış, Msxeta kimi sərhəd şəhərlərdə isə müəyyən funksiya daşıyan güclü qalaları olmuş və bu kimi ərazilərdə digər türk tayfaları ilə qarışıq şəkildə, lakin türk tayfalarının üstünlüyü şəraitində yaşamışlar.

Albaniya və albanlar haqqında bunu qeyd etmək lazımdır ki, Orta Asiya və Qazaxıstanda indi də Alban adlı türkdilli tayfalar yaşamaqdadır (14, 195). Belə ki, onlara qazaxlar, qırğızlar, türkmənlər, özbəklər, qaraqalpaqlar arasında rast gəlmək olur (22, 74). Əhalişünas S.İ.Bruk "Dünya

əhalisi" adlı əsərində Çin Xalq respublikasının ərazisində olan türkdilli qazaxların arasında albanların da adını çəkir (10, 52). Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstanda albanlarla bağlı çoxlu toponimlərə rast gəlmək olur. Azərbaycan respublikasının ərazisində Şəkidə Albanlar məhəlləsi, Malıbəylidə Alıvanlar məhəlləsi, Qaxın Ləkit kəndində Alban qalası, Quba rayonunda Alpan kəndi, Göyçayı Qəbələ ilə birləşdirən Alvandərə düzü (22, 67; 8, 127) və s. Gürcüstanda indi də Albani adlı yaşayış məntəqəsi, Alvani düzü, Alonqverdi, Alaverdi yer adları mövcuddur ki, bunların albanlarla əlaqəsi mübahisəsizdir. Bu adların hamısı Tiflis ərazisi adlandırdığımız areala daxildir. Bundan əlavə XIX əsrdə Gürcüstanda Alpani adlı iki toponim də mövcud olub. XIX əsr məlumatlarına əsasən Batum vilayətinin Artvin qəzasında Alvanikala adlı dağ və xarabalıq adına da rast gəlinməkdədir (22, 67). Bu məlumatlar eyni zamanda müasir Gürcüstan-Azərbaycan sərhədindən fərqli olaraq, İberiyanın Albaniyadan şimal-qərbdə deyil, qərbdə yerləşdiyinin isbatıdır.

Qeyd etmək lazımdır ki, türk adı heç də bu ərazilərdə yeni ad deyil. Roma müəllifi Pomponi Mela 43-cü ildə yazdığı "De Situ Orbis" əsərində turkae – türk adlı bir qövmdən bəhs etməkdədir. Yenə Romalı Plini 23-79-cu illərdə yazdığı "Təbiət tarixi" əsərində sarmat irqinə mənsub qövmlər içərisində turkaeləri də saymaqdadır (21, 27). Güman ki, gürcü mənbələrində qeyd edilən bu buntürklər e.ə. VIII əsrdən etibarən Qafqaza daxil olan kimmer-iskit-sak tayfa birliyinə daxil olmuşlar.

Burada xüsusilə orta əsrlərdə Tiflisə yaxın ərazilərdə yaşayan sanar və Albaniyanın Girdiman – Qardaban vilayətində yaşayan qardabanlıları-albanları qeyd etmək lazımdır. Mehranilərin torpaqları olan Girdiman (gürcü mənbələrində Qardaban) ərazisində məskunlaşmış qardabanlılar sonradan gürcülərin Kaxetiya adlandırdıqları əraziləri də tutaraq Şəki çarlığına birləşmişdilər (5, 113) və beləliklə IX-X əsrlərdə yenidən tarixi Albaniyanı bərpa etməyə nail olmuşdular.

Albanların türk olması öz əksini "Kitab-i Dədə Qorqud"-da da tapmışdır. Belə ki, "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"-da kafir casusu Qazanı "albanlar başı-albanlar hakimi Qazan xan" adlandırır (6, 69).

Məhz Qardabanda yaşayan albanlar və eyni zamanda sanarlar müasir Şərqi Gürcüstanda ərəblərə qarşı inadlı mübarizə aparmış, bir çox hallarda Tiflis əmirliyinin müttəfiqi olmuşdular. Qardabanlıların və sanarların

barsil və ya sabir türklərinin törəməsi ehtimalı da böyükdür, çünki, Bizans mənbələrinin veriyi məlumatlara görə 576-cı ildə külli miqdarda sabir hunnları Gəncə və ətraf ərazilərə köçürülmüşdü (4, 172). Sabir türkləri VI əsrdən etibarən tarix səhnəsinə hunların bir qolu olan və hun tayfalarını idarə etmədə onoqurları əvəzləyən tayfalar kimi çıxmışdı. Onlar tez-tez Dərbənd və Dəryal keçidlərini aşaraq Ön Asiyaya qədər yürüşlər edirdilər (23, 67). Ərəb mənbələrində də adları çəkilən siyasicilər, səvardilər, siyavurdilər deyiləndə də çox güman ki, sabir türkləri nəzərdə tutulurdu (1 – s.154, s.156, s.164, s.186, s.191). Erməni mənbələrində onların adı sevordiklər kimi çəkilir (31, XLV). Bunu da qeyd etmək lazımdır ki, Tiflisdəki ərazilərdən birinin adı məhz sabir türkləri ilə əlaqədar olub, Saburtala adlanmaqdadır. Bu da sabir türklərinin Tiflis və ətrafına qədər yaşadıqlarını göstərirdi. Tala sözünü biz Şimal-Qərbi Azərbaycanda Tala, Zaqatala, İki tala, Kor tala və s. kimi yaşayış məntəqələrinin tərkibində də rast gəlirik. Sabirlərin başçısı Balaxın dul qalmış qadını Boanın – Buq Aruq xatunun hakimiyyəti altında 100 min hun var idi (23, 73; 13, 126).

568-ci ildə Sasani hökmdarı Keyxosrov (I Xosrov) tərəfindən məğlubiyyət uğradılan sabir türklərinin on min nəfərə qədəri Kür-Araz bölgəsinə köçməyə məcbur olur, onların 28 evdən ibarət olan bir bölümü 576-cı ildə Msxetaya qədər gəlirlər (19, 298). Sabirlərlə bağlı Azərbaycanda Biləsuvar adlı şəhər və Şəki rayonu ərazisində Suvar dərəsi adlı məntəqə var (8, s.132, s.157). Bunu da qeyd etmək lazımdır ki, sabirlərin buralarda rahat məskən salmasının səbəblərindən biri I Göytürk imperiyası–türkütlərin rəhbəri İstemi xaqanın 567-571-ci illər ərzində Şimali Qafqazı imperiyaya birləşdirməsi idi (15, 60). Məhz göytürklərin köməyi sayəsində bizanslıların əlaltısı Quaram Baqratuni İberiyada hakimiyyətə gəlmişdi (15, 63).

Əl-Bəlazuridə Xosrov Ənuşirəvanın türk padşahı-xaqanı ilə Bərşəliyyə adlanan yerdə görüşü haqqında məlumatlar var (12, 154). Türk hökmdarın buradan öz ölkəsinə qayıtması və Xosrovun burada Dərbənd qalasını inşa etməsi ilə birgə bu torpaqların Dərbəndə qədər uzanması məlum olur. Süleyman Əliyarlı məhz bu Bərşəliyyə adının Borçalı ilə bağlı olmasını misal göstərir (2, 179). Belə ki, bu adların yaranmasının səbəbi bu dövrdə Azərbaycanda kütləvi şəkildə məskunlaşan barsil türkləri ilə bağlı idi. Eyni zamanda Bazaleti adlı göl və kənd adları da məhz barsillərin adı ilə bağlıdır. əslində Barsillərin tarixi daha qədimə gedir.

Belə ki, Movses Xorenli barsillərin xəzərlərlə birgə Vnasep Surxapın başçılığı altında çar Valarşın dövründə (197-215) II əsrdə müasir Kür çayı sahillərində məskunlaşdığını qeyd edir (23, 14).

Ümumiyyətlə, II əsrdən etibarən Qafqazda hunlar adı altında türklərin böyük bir qisminin peyda olması müşahidə edilir (23, 13). 395-ci ildə və 448-ci ildə hunların Cənubi Qafqazdan keçərək Ön Asiyaya qədər yürüş etdikləri məlumdur (23, 36). Məhz bu dövrdə Azərbaycanda onoqur hunlarının başçılığında oğur, saraqur (və ya sarıqur), utiqur, kutriqur, çen və digər tayfalar məskunlaşır. VI əsr Bizans tarixçisi Aqafiyanın verdiyi məlumata görə Kutaisi şəhərinin yaxınlığındakı qalardan birinin adı Onoquris adlanırdı və bu məhz onoqurlarla bağlı idi (37, 2). Alban şəhəri olan lakin, indi Gürcüstan sərhədləri daxilində qalan Telavi yaxınlığındakı Asquri kəndi, Axalsıx rayonundakı Azqur kəndini, Aspinza rayonundakı Onqor kəndini də qur sonluğu daşıyan hun tayfaları ilə əlaqəlidir (37, 4). Bu bölgəyə yaxın Tovuz rayonunda isə Ağacəri adlanan bir kənd var ki, bu kəndin adı da "akatzir" və ya "axatsir" hun tayfalarının adından götürülmüşdür (8, 126).

Bundan əlavə Tiflis bölgəsi ətrafında çoxlu ağ hun-eftalit-abdal tayfalarının yaşadığı da məlumdur. Belə ki, V əsr Suriya mənbəsi qeyd edir ki, Bizans imperatoru Arkadinin dövründə (395-408) iver olan Farsman imperatriçə Yevdoksiya ilə intim münasibətləri üzə çıxanda öz ölkəsinə qaçdı və ağ hunların köməyi ilə hakimiyyətə çıxdı. "O iverlər üzərində hakimiyyətə çıxanda özü ilə iverlərin qonşusu olan ağ hunları götürdü" (29, 37). Bunu da qeyd edək ki, Musa Kalankatlının "Albaniya tarixi" əsərində Albaniyada, Uti, Lpiniya, Kaspiya, Çola keçidinə qədər uzanan torpaqlarda qarqar və kamiçik eftalitlərin – ağ hunların yaşadığı və xristian missionerlərin mərkəz kimi özlərinə Kiş kəndini seçmələri göstərilir (9, 31-32). Bu da bölgələrdə yaşayan türk tayfalarının, ağ hunların albanlardan olmasını isbat edir. Qeyd etmək lazımdır ki, müasir Azərbaycan respublikasında Abdal dağı (Laçın rayonu), Abdal (Ağdaş və Tovuz rayonu), Abdallar (Oğuz rayonu), Çoban Abdallar (Göygöl rayonu) və s. kimi yaşayış məntəqələri məhz ağhunlar-eftalitlərlə bağlıdır (8, 126). Abdallı adı ilə bağlı müasir Gürcüstan respublikasında da yer adı olmuşdur (11, 36).

Qarqar etnoniminə gəlincə isə bu etnosun adının da türklərlə bağlı olması ehtimalı böyükdür. Belə ki, Qarqarçay, Qarqar sıra dağları və Qarqar düzü etnonimlərinə əsaslanaraq Mil-Qarabağ düzənliklərində yaşayırmışlar. Qarqarların Albaniyada yaşamasını Moisey Xorenli və Musa Kalankatlı da təsdiq edir. Heç təsadüfi deyildir ki, Bartold Orta Qazaxıstanda, Tyan-Şanda Qarqar toponiminin olmasını qeyd edir. X əsrə aid "Hüdud əl-Aləm" əsərində isə Orta Asiyada Qarqar əyalətinin adı çəkilir (8, 138). Qarqar adına türklərin kompakt yaşadığı ərazilərdə belə rast gəlinməsi onların türk əsilli olmasını istisna etmir. Çox maraqlıdır ki, əsasən Albaniyada yaşayan qarqar tayfasının adına XIX əsrin məlumatlarına əsasən Tiflis quberniyasının Tianeti və Axalsıx qəzalarında məhz Albaniyada olduğu kimi Qarqar adlı çay və Qarqaris adlı dağ adında rast gəlinir. Qarqar adına Dağıstanda və Şimali Qafqazda da əsasən Karkar şəklində rast gəlinir (8, 138).

VI əsrdə müasir Gürcüstan ərazisində kütləvi şəkildə türklərin yaşadığını sübut edən maraqlı faktlardan biri Q. S. Qordeyev imzalı müəllifin, özünün söylədiyi kimi, monastır məxəzlərinə və digər yazılı qaynaqlara istinad edərək qələmə aldığı və "Tiflisskiye vedomosti" qəzetinin "Səyahətlər" rubrikasında çap etdirdiyi bir məqaləsində əks olunur. Məqalədən aydın olur ki, VI yüzildə Gürcüstanda Kürün sağ sahilində yaşayan türklərin başçısının adı Babakər olub və Azərbaycanla Gürcüstan dövlətlərinin sərhəd zolağında ucalan David Qareca (Keşişdağ) monastır kompleksində ilk kilsəni o inşa etdiribdir. Şübhəsiz ki, Borçalıda yerləşən Babakər dağının adı da o şəxsin adı ilə əlaqəlidir (19, 299).

Bütün bu məlumatları ümumiləşdirdikdə məlum olur ki, bu dövrdə Tiflis və ətraf bölgələrdə yaşayan əhali, xüsusilə Albaniyanın Qardaban vilayətində yaşayan qardabanlılar II əsrdən etibarən buralarda məskunlaşan türk tayfalarından başqaları deyildi. Bunların arasında güman ki, sabir və barsil türkləri üstünlük təşkil edirdi. Bunu da qeyd etmək lazımdır ki, müasir Gürcüstan ərazisində və ümumiyyətlə Qafqazda o qədər çox türk tayfaları məskunlaşmışdı ki, gürcülər yaşayan ərazilərdə istifadə edilən 6 dildən biri məhz xəzər dili idi (19, 299). Əgər yunan, yəhudi, Suriya, erməni dili dini nöqteyi nəzərdən, gürcü dili ana dili olaraq işlədilirdisə, bu dillərlə yanaşı gürcülərin xəzər dilini işlətməsi bizə bu ərazilərdə türk tayfalarının nüfuzunun nə dərəcədə güclü olduğunu isbat edər. Heç

təsadüfi deyildir ki, Gürcüstandakı Kazareti yaşayış məntəqəsi də məhz xəzərlərlə əlaqəlidir.

Qardabanlılar Alban dövləti 705-ci ildə dağıldıqdan sonra və albanlar İslamı qəbul etdikdən sonra yavaş-yavaş Bərdə mərkəzli xristianlıqdan uzaqlaşmış, Şəki mərkəzli Albaniyaya tabe olmağa başlamışdılar. Bunun əsas səbəbi dini və məzhəb fərqləri idi. İslam dininin yerli əhali tərəfindən kütləvi şəkildə qəbulundan sonra xristianlar arasında da məzhəb fərqlilikləri özünü büruzə verməyə başladı. Diofizit olan qardabanlılar hələ VIII əsrdə monofizitliyi üstün tutan Bərdədən uzaqlaşmağa başlamışdılar. Ziya Bünyadov Albaniyada məhz Girdiman və Balasakanı diofizit pavlikianların vətəni hesab etmişdir (4, 215). Belə olan halda qardabanlıların sonralar diofizit olan Xalkedon gürcü kilsəsi ilə yaxınlaşması tam təbii bir hal kimi qəbul etmək lazımdır. Yaxınlaşma xüsusilə VII əsrin 20-ci illərində Albaniyada Viro adlanan xalkedonçu Albaniya katolikosunun fəaliyyətləri və Bizans imperatoru İraklinin Mehrani Varaz-Qriqoru xaç suyuna salmasından sonra daha parlaq görünür (4, 49). Bu yaxınlaşma nəticəsində XII əsrdə müsəlman cəbhəsinə qarşı birləşmə zərurətindən qardabanlılar tərəfindən Kartli hökmdarı IV David ümumi xristian hökmdar kimi qəbul edilir. Buna baxmayaraq Şəkidə və Kaxetiyada hələ uzun müddət gürcülərə qarşı mübarizə aparılır. Onu da qeyd etmək lazımdır ki, Kirakos Gəncəli monofizitliyə qarşı vuruşan və knyaz xanımı Sparamanın Albaniya katolikosu təyin etdiyi Nersesin Girdiman yepiskopu olduğunu bildirmişdir (34, 10-cu bölmə, 158)

Eyni zamanda ərəb mənbələrində Xilafət yürüşləri zamanı Arranın və Cürzanın xəzərlərə tabe olması, Qəbələnin həm də Xəzər adlandırılması, Arran və Cənubi Azərbaycanın bəzən bir yerdə "Xəzərlər ölkəsi" adlandırılması burada çoxlu miqdarda xəzər türkünün yaşadığını söyləməyə imkan verir (24, 5; 4, s.172, s.173). Yeri dəqiq bilinməyən müasir Dağıstan sərhədləri daxilindəki Bələncər şəhəri və bu adla bağlı Tiflisin yaxınlığında Balaçaur məntəqəsi, Adıgen rayonunda Balacur kəndi, Abşerondakı Biləcəri məntəqəsi, Zəngilan rayonundakı Biləcər yaylağı xəzərlərin bu ərazidəki varlıqlarının açıq isbatıdır (37, 4; 8, 130). Bundan əlavə Xəzər dənizi, Gürcüstanda Kazareti məntəqəsi, Azərbaycanda Füzuli rayonunda Xəzər dağı, Ordubad rayonunda Xəzəryurd oronimi, Babək rayonunda Xəzərqluk oronimi də şübhəsiz ki, xəzərlərlə bağlıdır (8, 161). Bundan əlavə Kirakos Gəncəli Albaniya katolikosu Vironun Xəzər yabqusunun

oğlu Şadın şərəfinə altı şəhərin – Şatarh (müasir Goranboy yaxınlığındakı Şətəl), Şəmkir, Şəki, Şirvan, Şamaxı, Şaporan (Şabran – Sabiran – Sabirlər yaşayan ərazi-R.M.) şəhərlərini inşa etdirdiyini bildirir (34, 10 – cu bölmə [158]; 7, 27). Mərvanın hakimiyyəti illərində Samur ilə Şabran arasına xəzərlərin köçürüldüyü məlumdur (4, 110). Qeyd etmək lazımdır ki, türk əsilli Xilafət sərkərdəsi Buğa da yürüşlərindən sonra Şəmkir və ətrafına çoxlu miqdarda xəzər türkünü yerləşdirmişdi (32, 30). Yuxarıdakı məlumatlarda görünür ki, hun, barsil, xəzər və sabir türklərinin adları ilə bağlı məlumatlarda Azərbaycanın əsasən şimal, qərb və şimal-qərb ərazilərindəki şəhərlərin adı hallanır. Bu da həmən ərazilərdə, eyni zamanda bura qonşu olan Tiflis və ətraf bölgələrdə çoxlu miqdarda hun, barsil, xəzər və sabir türklərinin məskunlaşdığının göstəricisidir.

Antropoloji araşdırmalar da bu ərazidə çoxlu miqdarda türksoylu insanların yaşadığını təsdiq edir. Tiflisə çox yaxın olan Dumanis ərazisindən tapılmış qədim insan qalıqları bölgənin antropogenez zonasına daxil olduğunu sübut edir. Borçalıda antropoloji araşdırmalar aparmış gürcü alimi M.Q.Abduşelişvili bölgə əhalisinin bütün Azərbaycan türkləri kimi Oğuz (Kaspi) tipinə aid olduqları qənaətinə gəlmişdir. Başkeçid (Dmanis) rayonunun Qomaret kəndindən morfoloji quruluşuna görə uzunbaşlı, ortoqnat və kəskin burun çıxıntılı Oğuz antropoloji tipinə aid olunan insan qalıqları aşkar olunmuşdur (33).

Bunu da qeyd etmək lazımdır ki, Herodot keçmiş Kolxidanın yerli xalqını kolxları qara dərili, qıvrım saçlı və Misir əsilli göstərməkdədir. Bu gün həmin ərazidə bu antropoloji tiplə yanaşı xalq arasında qumral sarışın, açıq rəngli dərisi olan və rəngli gözlü xalqın olması gürcülərin yerli və daha sonradan gəlmə türklərlə qarışmasının isbatıdır (21, 174).

Tiflisdəki yer adları da türklərin burada yaşadıqlarının bir başqa sübutudur. Ortacala, Şeytanbazar, Tatar Meydanı, Xarpux, Bəzəkli hamam, Cümə Məscidi, Təklə karvansarası, Müsəlman məzarlığı, Koroğlu qayası, Saburtala, Cırtdahan, Çaylaq, Narınqala (onun İsfahan, Təbriz bürcləri), Gəncəqapısı, Basqallar, Şıxlı, Şahtaxtı, Seyidlər, Müctəhid, Avçala, Nəftuluq toponimləri bir başa türk dili və İslam dini ilə bağlı olan toponimlərdir (36, 3).

Tiflis əhalisinin müəyyən bir hissəsi əmirlik mövcud olduğu vaxtlar güman ki, ərəblər olmuşdur. Ərəblərə burada idarəçi aristokratiyanın, hər-

bi birləşmələrin, tacirlərin və İslam dininin təbliğçiləri arasında rast gəlmək olardı. Heç də təsadüfi deyildir ki, Tiflis müsəlman əmirliyini idarə edənlər böyük əksəriyyətlə ərəb əsilli əmirlər olmuşdur.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989 – 325 s.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Red: t.e.d., prof., əm. elm xad. Süleyman Əliyarlı. Bakı: "Azərbaycan" nəşriyyatı, 1996. – 869s.
3. Azərbaycan tarixi: 7 cilddə. Bakı: Elm, 1998. II cild (III-XIII əsrin I rübü). – 596 s.
4. Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə. Bakı: Azərnəşr, 1989 – 336 s.
5. Hacıəli Ş. Şimal–Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək). Bakı: Təhsil, 2007. – 277 s.
6. Kitabi-Dədə Qorqud. Bakı: "Yazıçı", 1988 – 265 s. + 12 yap. şək.-19
7. Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə (Tarixi-arxeoloji tədqiqat). – Bakı: Elm, 1992. – 110 s. mətn + 92 s. şəkillər və s.
8. Məmmədov N. G. Azərbaycanın yer adları (oronimiya). Bakı: "Azərnəşr", 1993 – 184 s.
9. Moisey Kalankatuklu – Albaniya tarixi. Mxitar Qoş – Alban salnaməsi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur. Bakı, 1993. – 269 s.
10. Nizamülmülk. Siyasətnamə, - Bakı: "Elm", 1989. – 212 s.
11. Nuriyev E. B. Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası. Bakı: "Elm", 1989 – 112 s.
12. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. I. Kufi, s. 11 – 101. II. Ət-Təbəri, s. 101-149, III. Əl-Bəlazuri, s. 149-199, IV. Əl-Yaqubi, s. 199-247, V. Əl-Qəlqəşəndi, s. 247-290. Vətən tarixi seriyası. AMEA akad Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı: "Nurlan", 2005. – 336 s.
13. Özdək R. Türkün qızıl kitabı. 1-ci kitab. Bakı: Yazıçı, 1992 – 184 s.
14. Piriyev V. Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim nəşriyyatı, 2006 – 148 s.
15. Qumilyov L. N. Qədim türklər. Bakı: "Gənclik", 1993 – 536 s.
16. Şərifli M. X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Bakı: Elm nəşriyyatı, 1978. – 344 s.
17. Şükürlü Ə. C. Qədim türk yazılı abidələrinin dili. Bakı: "Maarif" nəşriyyatı, 1993 – 336 s.
18. Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974 – 223 s.
19. Hacıyev F. V. Gürcüstan coğrafyasında eski türkler: Buntürklerden Karapapaklara. I. Uluslararası Uzak Asya'dan Ön Asya'ya Eski Türkçe Bilgi Söleni, Afyonkarahisar, 18-20 Kasım 2009 – 297 – 307 s
20. Minorski V. Tiflis. İslam Ansiklopedisi. 12/1.Cilt. İstanbul: Milli Eğitim Basımevi. – Ss. 264-279
21. Önder A. T. Türkiyenin etnik yapısı (Halkımızın kökenleri ve gerçekler). Ankara: Baskı-Zirve Ofset LTD şirketi, 1999 (3.baskı) – 228 s.
22. Гейбуллаев Г. А. К этногенезу азербайджанцев, т. I – Баку: Издательство «Элм», 1991. – 552 с.
23. Джафаров Ю. Р. Гунны и Азербайджан. Баку: «Азернешр», 1993 – 107 с.

24. Из соч. Баладзори. Книга завоевания стран. Текст и перевод проф. П. К. Жузе. Баку: Издание О-ва , 1927. – 42+28 с.
25. Лордкипанидзе М. Д. История Грузии XI – нач. XIII вв. Тбилиси: Издательство «Мецниереба», 1974 – 212 с.
26. Меликсет-бек Л. М. К истории появления гуннов восточным Закавказьи. Доклады АН Аз.ССР, т. XIII, №6 – 1957 –128 с.
27. Мровели Леонти. Жизн Картлийских царей. Перевод с древнегрузинского, предисловие и комментарии Г. В. Цулая. Москва, 1979 – 104 с.
28. Очерки истории Грузии (в 8-и т.). Т.II. Грузия в IV-X веках/[Ред.: М. Лордкипанидзе, Д. Мусхелишвили]. Тб., Издательство «Мецниереба»: 1988 – 580с.
29. Пигулевская Н. Сирийские источники по истории народов СССР. Москва – Ленинград: Издательство Академии наук СССР, 1941 – 170 с. Gürcüstanın dönüşü (rusca)- http://www.nplg.gov.ge/ dlibrary/collect/ 0001/ 000032/ Obrashenie_Gruzii.pdf
30. İohan Drasxanakertsi-Ermənistan tarixi (ingiliscə) - http://rbedrosian.com/YD/ydh.html
31. Kartli Salnaməsi. Tərcümə Tsulaya Q. V. (rusca)
32. http://www.nplg.gov.ge/dlibrary/collect/0001/000030/Letopis_kartli.pdf
33. Kərəm Məmmədov. Dumanis Tarixi mənbələrdə, -http://qarapapaqlar.borchali. net/index .php?cat=oxu&id=61
34. Kirakos Gəncəli. Ermənilərin tarixi (ingiliscə) - http://rbedrosian.com/kgtoc.html
35. Leonti Mroveli. Kartli çarlarının həyatı (rusca) http://www. vostlit.info/Texts/ rus8/Mroveli/ text.phtml?id=959
36. Şurəddin Məmmədli, Gürcüstan Azərbaycanlıları - http://ebooks.preslib.az /pdfbooks/ azbooks/gurcazz.pdf
37. Yunusov Arif. Axıska (Mesxeti) türkləri: İki dəfə deportasiya edilmiş xalq (rusca, pdf formatda) http://ahiskaliyuh.biz/ahiska_tarihi/tarih1.pdf


**R.A.Mustafa**

## TURKIC TRIBES IN TIFLIS AND NEARBY AREAS (B.C. IV – A.D. VII CC)

### SUMMARY


For determine the boundaries of the area of the so-called region of Tiflis and nearby areas those have been taken basicly: 1) Areas which Turkic tribes spread for centuries. 2) Territories of Tiflis Emirate. 3) An administrative division of the Caliphate. According to the above all south and east regions of modern Georgia except Kakheti region belonged to Tiflis region: Albanian kingdom of Shaki was a neighbor to the east. According to Georgian sources first turkic tribes settled here were Bunturks. Besides them were the Hunns. Supposedly they were members of Kimmer-Iskit-Sak tribe unions. Moreover, according to antique sources and local Albanian references these areas were inhabited by Hunns, Sabirs and Barsils. Later Arabian sources write about Khazar turks being here. All these information give us rights to claim this area to be one of main locations of turkic inhabitations.

**Р.А.Мустафа**

# ТЮРКСКИЕ ПЛЕМЕНА ТИФЛИСА И ЕГО ОКРЕСТНОСТЕЙ (IVвв до н.э.-VII вв н.э.)

## РЕЗЮМЕ

Для определения границ, так называемой, области Тифлис и его окрестностей за основу были приняты: 1) Области, на которые тюркские племена распространялись на протяжении веков. 2) Территории Тифлисского эмирата. 3) Административное деление халифата. В соответствии с вышеуказанными все южные и восточные регионы современной Грузии, кроме Кахетии принадлежали к региону Тифлис: Албанское царство Шеки было соседом на востоке. Согласно грузинским источникам, первыми тюркскими племенами проживающими тут были бунтюрки. Вместе с ними упоминаются и гунны. Предполагается что они входили союз племен киммер-искит-сак. Кроме того в античных и местных албанских источниках указывается процесс заселения тут племен гуннов, сабиров и барсилы. А в последующей эпохе в арабских источниках упоминаются также хазарские тюрки. Опираясь на эти источники, можем утверждать что этот регион был одним из основных ареалов заселения тюрков.

# QAFQAZ İSLAM ORDUSUNUN BAKININ AZAD ETMƏSI UĞRUNDA BIRINCI HÜCUMU

**Mehmet Kılıç***
mhmkilic28@gmail.com

Bakı yaxınlığındakı döyüşlər, 3 avqustda qarşılıqlı pulemyot atəşi ilə davam etdi. Cənub qrupu ordu birləşmələri 4 avqustda Bakı cəbhəsinə çata bilmişdi. Puta stansiyasına çata bilən ordunun piyada və topçu qüvvələri Şimal qrupunun sərəncamına verildi. Türk ordu birlikləri, başlanılacaq həlledici hücuma hazırlıq ilə məşğul ikən, düşmən qüvvələri ani bir həmlə ilə Qurd qapısı təpəsini ələ keçirdi. Şərq Cəbhəsi Komandanlığı, bütün birliklərə göndərdiyi əmrdə, düşmənə, 5 avqust 1918-ci il tarixində sübh saat 4-də, basqın şəklində bir hücum təşkil ediləcəyini bildirdi. Hücum planına görə, əsl qüvvə mərkəzi yenə də cəbhənin sağ cinahında, yəni Bakının aşağısındakı yüksəkliklərin önündə yerləşən birliklərdə olacaqdı. Mürsəl Paşa bu bölgənin ərazi strukturunun şəhərdəki uzun mənzilli toplar ilə gəmilərdəki toplardan açılan atəşin təsirini qırdığını düşünürdü. Türk ordusunun sol cinahının yerləşdiyi bölgənin şəhərə daha uzaq olması səbəbiylə, yüksəkliklərin keçilməsindən sonra qarşıdakı düz ərazinin arxadan bəslənməyi çətinləşdirəcəyini, eləcə də Mehmetçiyin, düşmən topçusunun açıq hədəfi halına düşəcəyini hesab edirdi. Düşmən cəbhəsinə ilk həmlə, süngü hücumu şəklində ediləcəkdi. Cəbhədən yarılaraq geri oturdulan düşmən birləşmələri tamamilə dağıdıldıqdan sonra, şəhərə giriləcək və ehtimal olunan küçə döyüşlərindən sonra, Bakı ələ keçiriləcəkdi. Əsl hücum birlikləri şəhərə girərkən, Bakının qərbindəki Bayıl yüksəkliklərinə çıxarılacaq səhra topu ilə limandakı sərnişin gəmisi və dənizdəki gəmilərin qaçmasına fürsət verilmədən batırılacaqdı

Hacıqabul-Mərəzə xəttində baş verən döyüşlərdə bolşevik qüvvələri arasında ingilis əsgərlərinin də varlığı məlum olmuşdu. Odur ki, vaxt itirmədən planlaşdırılan hücumla Bakının ələ keçirilməsinə qərar verilmişdi. Bununla yanaşı, təcili şəkildə hərəkət edilməsini zəruriləşdirən digər səbəb isə, Almaniyanın Bakının türk birlikləri tərəfindən ələ

* Mehmet Kılıç – Gəncə Dövlət Universitetinin doktorantı

keçirilməsinə qarşı cəbhə alması idi. Qafqaz İslam Ordusu komandanlığı polkovnik Biçeraxovun qüvvələri ilə birlikdə Bakını tərk etməsini yaxşı fürsət kimi dəyərləndirirdi. Belə olduqda əksəriyyətini ermənilərin təşkil etdikləri Bakı müdafiə qüvvələrinin artıq müqavimət göstərməyəcəyini düşünürdü (3, BDH kolleksiyasi, k. 3819, d. 6, f. 69-2).

Şiddətli top atəşinin dəstəyi ilə 1918-ci il avqust ayının 5-də saat 04.25-də başlayan türk hücumu qarşısında erməni, rus və ingilislərdən ibarət Bakı müdafiə birlikləri mövqelərini əldən verməmək üçün çox böyük güc sərf etdilər. Ancaq getdikcə şiddətlənən türk hücumu bu müqaviməti qırmağa başlamış, düşmən birlikləri addım-addım Bakı istiqamətində geri çəkilməyə məcbur olmuşdu. Şimal qrupu birlikləri şəhərə yaxın və möhkəmləndirilmiş Bayıl tərəfdə yerləşən yüksək təpələri ələ keçirmişdi. Müqavimətinin qırıldığı başa düşülən düşmənin cəbhəsinin mərkəzi olan Salxana (Sallaqxana) və qəbristanlığa doğru qaçışa bənzər şəkildə geri çəkildiyi görünürdü. Türk toplarının Bakıdakı qışlaları hədəfə alması, qeyri-müsəlman əhali arasında qorxu və çaxnaşma salmış və sakinlər gəmilərə minib şəhərdən uzaqlaşmaq üçün limana yığışmışdı. 18 mart 1918-ci ildə türklərə qarşı qırğın törədən erməni və rus əhalisindəki bu çaxnaşma düşmən cəbhəsində də özünü göstərirdi. Dinlənilən düşmən rabitəsindən polkovnik Əzizov adlı hissə komandirinin Bakı müdafiə birliklərinin komandiri olan general Kornilovun təcili telefona gəlməsini, müqavimətlərinin qırıldığını, türklərin şəhərə girmək üzrə ol-duqlarını, bu vəziyyətdə hərəkət tərzlərinin necə olacağını, təlaş və dəhşət içində generaldan əmr gözlədiyini bilmək olurdu. Bu danışıqdan düşmənin sağ və sol cinah birliklərinin vəziyyətinin çox pisləşdiyi və sol cinahın pərişan bir vəziyyətdə olduğu başa düşülürdü. Şərq cəbhəsi komandanı Mürsəl Paşa Qafqaz İslam Ordusu komandanlığına yuxarıdakı məlumatları verəndən sonra hücumun çox müvəffəqiyyətli şəkildə irəlilədiyini, Bakıda hər hansı bir yanğının baş vermədiyini, şəhərin yanğınsız və zərərsiz ələ keçiriləcəyinə ümid etdiyini də bildirirdi (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 61).

Belə şərtlər daxilində şəhərin alınması an məsələsi idi. Düşmənin birinci müdafiə xətti qırılmış və ələ keçirilmişdi. İkinci müdafiə xəttinə yaxınlaşılmış, beləliklə, Bakının qurtuluş gününə az qalmışdı. Ancaq, hücuma kifayət qədər top mərmisi tədarük edilmədən başlandığına görə, topçunun irəliləyən piyadalara verdiyi atəş dəstəyi getdikcə azalmağa

başlamış və avqustun 5-i günortadan sonra top sursatı tamamilə tükənmişdi. Top atəşinin kəsilməsi ilə vəziyyəti başa düşən düşmən 38-ci alay və 60-cı tabor cəbhələrinə qarşı hücuma başlamış, döyüşə ehtiyat bölüklərinin müdaxiləsi ilə düşmənin hücumunun qarşısı alına bilinmişdi. Düşmənin top və pulemyotları həm 38-ci alayı, həm də 13-cü alayı şiddətli və dəqiq atəş altına almışdı. Eyni şəkildə top dəstəyindən məhrum olaraq irəliləməyə cəhd göstərən 10-cu alay da düşmənin şiddətli atəşi ilə qarşılaşmışdı. Bu vəziyyətdə çox itki verilmiş, eyni zamanda piyadanın tək dəstəyi olan güclü pulemyot yuvası dəqiq nişan alınaraq istifadəsiz hala salınmışdı. Düşmənin üstün qüvvələrlə hücumuna qarşı Şimal qrupu ehtiyatının vaxtında döyüşə daxil edilə bilinməməsi səbəbilə 13-cü alay geri çəkilməyə məcbur olmuşdur (3, BDH kolleksiyası, k.3819, d.6, f.61-l).

5 avqust hücumunda türk birliklərinin fədakarlıqla və qəhrəmancasına döyüşmələrinə baxmayaraq, top mərmisi tükəndiyinə görə irəliləmə durmuş, düşmənin əks hücumu ilə Cənub və Şimal qruplarının birlikləri Bakının 4 kilometrliyində olan Bibiheybət-Biləcəri dəmiryolunun qərbindəki xəttə geri çəkilmək məcburiyyətində qalmışdılar. Əlavə qüvvə və döyüş sursatı gələnə qədər bu xətt möhkəmləndirilərək müdafiə olunmağa çalışılacaqdı (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 61-1, 69-2). 5 avqust döyüşündə düşmən ölü və yaralı olaraq cəmi 2000 itki vermiş, Qafqaz İslam Ordusunun hücumunda iştirak edən qüvvələrdən isə 9 zabit şəhid olmuş, 19-u yaralanmış, 139 əsgər şəhid olmuş, 444-ü isə yaralanmışdı (3, BDH kolleksiyası, k.3819, d.6, f.67-l).

Kifayət qədər sursat təmin edilmədən başlayan 5 avqust hücumunun uğursuzluqla nəticələnməsindən sonra Bibiheybət-Biləcəri dəmiryolu xəttinin qərbinə dağınıq vəziyyətdə geri çəkilən Şimal və Cənub qrupları birliklərinin yığışıb toplanması 6 avqust səhərinə qədər davam etmişdi. Avqustun 6-sında düşmən yenidən hücum etsə də, qələbə əldə edə bilməmişdi (2, s. 146).

Şərq cəbhəsi birliklərinin əsas döyüşən hissəsini əmələ gətirən 5-ci Qafqaz diviziyası Gəncəyə gəlişindən Bakı hücumuna qədər keçən vaxt ərzində çox döyüşlərdə iştirak etmişdi. Bu döyüşlərdə şəhid və yaralı olaraq verdiyi itkilər canlı qüvvə baxımından əhəmiyyətli azalmalara səbəb olmuşdu. Bununla yanaşı, dizinteriya və vəbadan da ölənlərin sayının çox olduğu düşünülərsə, Bakı qarşısında yalnız 3500-ə qədər döyüşən

əsgər qalmışdı. Qafqaz İslam Ordusunun say baxımından vacib hissəsini təşkil edəcəyi ümid edilən Azərbaycan milislərinin döyüş qüdrəti çox deyildi. Qarşılaşdıqları ciddi döyüşlərdə fərarilik etmələri təbii hala gəlmişdi. Bu vəziyyət Osmanlı əsgərlərinin döyüş şövqünü qırdığı kimi, ruhdan da salırdı (3, TAR kolleksiyası, k. 1, d. 1, f. 1-109).

Türk qüvvələrinin Bakı hücumunun boşa çıxması, düşmən cəbhəsində əhval-ruhiyyəni yüksəltdi. Erməni və rus birlikləri general Denstervillin komandanlığı altındakı ingilis birliyi möhkəmləndirildiyi kimi, avqustun 6-dan etibarən Bakıda müxtəlif ünsürlərdən əli silah tutan 16-65 yaş arasında olan kişilər də əsgər çağırılmış, məcburi olaraq silah altına alınmışdılar. Bu tədbirə qarşı çıxan, əsgər olmaq istəməyən müsəlmanlardan 600-ü edam edilmişdi (3, BDH kolleksiyasi, k. 3824, d. 26, f. 24; ATASE arxivi, BDH kolleksiyası, k. 3819, d. 6, f. 69-2). Bu hadisələr Şərq cəbhəsi birliklərinin mövcud imkanla Bakını ələ keçirə bilməyəcəklərini göstərir, əlavə qüvvələrin göndərilməsi zəruri hala çevrilirdi.

Bu uğursuzluqdan sonra Bakı cəbhəsinə gəlib, birliklərin halını yerində görən Qafqaz İslam Ordusunun qərargah rəisi, polkovnik-leytenant Nazim bəyin təəssüratları çox da ümidverici görünmürdü. Əsgərlər yorğun və ruhdan düşmüş halda idi. Döyüşdə çox itki verilmiş, zabit və əsgərlərin sayı azalmış, davam edən döyüşdə 5-ci Qafqaz diviziyası şəxsi heyətinin yarısını itirmişdi. Mövcud birliklərin hər nə qədər ərzaq və su sıxıntısı olmasa da, hərbi sursat olmadığına görə mümkün bir düşmən hücumu qarşısında çox pis vəziyyətə düşə bilərdi. Odur ki, 15-ci piyada diviziyası ilə Gəncə və digər yerlərdə başqa məqsədlərlə qulluq edən bütün birliklərin təcili olaraq cəbhəyə göndərilməsi lazım idi (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 63-3).

Nazim bəyin cəbhənin vəziyyətini Qafqaz İslam Ordusu komandanı Nuru Paşaya bildirməsindən sonra III ordu komandanlığından yardım istənildi. Qafqaz İslam Ordusunun hazırlayacağı yeni hücumla Bakını ala bilməsi üçün yaxşı təlim görmüş 5000 əsgər, düşmənin dənizdən döyüş gəmiləri ilə açdığı atəşin qarşısını almaq üçün dörd ağır top batareyası, hava hücumlarına qarşı bir təyyarə eskadrası, müxtəlif çaplı 28000 top mərmisi, 1500 sandıq tüfəng gülləsi, teleqraf və telefon rabitəsini rahat şəkildə yaratmaq üçün lazımi avadanlıq və 20 hərbi nəqliyyat vasitəsinə təcili ehtiyac olduğu bildirilmişdi (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 69-2).

Mövcud vəziyyətdən açıq-aşkar aydın olurdu ki, Bakıya qarşı ikinci hücuma başlamazdan əvvəl əsgər, silah və sursat ehtiyacları təmin edilməli idi. Əks təqdirdə müharibənin sonunun yaxınlaşdığı bu aylarda üçüncü hücum fürsəti heç bir zaman ələ keçməyə bilərdi.

Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa 25 may 1918-ci ildə qərargahını qurmaq üçün Gəncəyə gəlsə də, hələ əsaslana biləcəyi qüvvəyə sahib deyildi (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 69-2). Azərbaycanın müxtəlif məntəqələrində erməni hücumlarının qarşısını almağa çalışan Azərbaycan milislərini əsaslı bir qüvvə kimi görmək mümkün deyildi. Bakının idarəsini ələ keçirən bolşeviklər və bolşeviklik adı altında öz məqsədlərini həyata keçirməyə çalışan ermənilər Azərbaycan torpaqlarının bu müdafiəsiz vəziyyətindən istifadə edərək Gəncənin şərqindəki Göyçay qəsəbəsinə qədər irəliləmək imkanı əldə etmişdilər. 5-ci Qafqaz diviziyasının Gəncəyə köçməsi ilə əks hücuma keçən Qafqaz İslam Ordusu birlikləri 17 iyundan avqustun əvvələrinə qədər apardığı döyüşlərdə Gəncə və Bakı arasındakı bölgəni işğaldan azad etmiş, bolşevik, erməni və rus qüvvələrini Bakının bir neçə kilometr qərbinə qədər çəkilməyə məcbur etmişdi. Əsas hissəsi erməni və bir qismi də bolşevik ruslardan olan düşmən avqustun əvvəllərindən etibarən bütün fəaliyyətini Bakının müdafiəsini möhkəmləndirmək üçün cəmləşdirmişdi. Çünki, 18 mart 1918-ci ildə Bakıda törətdikləri qətliyamda öldürülən minlərlə türkün intiqamının alınacağı qorxusu və təlaşı ilə Bakının müdafiəsi üçün bütün güclərini ortaya qoyurdular (3, BDH kolleksiyası, k. 3823, d. 22, f. 7-1; 1, s. 38).

Bakıdakı erməni-rus ittifaqı daha əvvəl ingilislərin Bakıya gəlmələrinə razı olmadıqları halda, bu şəkildə Bakıda sıxışıb qalmaları və bir hücum nəticəsində şəhərin mütləq alınacağı həqiqəti əsasən erməni tərəfini Ənzəlidə olan ingilislərdən yardım istəməyə vadar etmişdi. Bu yardım istəyini ingilislər Bakı neftindən böyük ölçüdə pay alacaqlarını düşündükləri üçün qəbul etmişdilər (3, BDH kolleksiyası, k. 3824, d. 26, f. 30).

İngilis-İraq cəbhəsinin komandanlığı 17 fevral 1918-ci ildə Bakını ələ keçirmək üçün general-leytenant Denstervili kiçik bir qüvvənin başında Bağdaddan şimala yeritmişdi. Şimali İranda, Xəzər dənizinin sahilində yerləşən Ənzəli şəhəri o zaman bolşevik rusların əlində olduğu üçün Denstervil bu maneəni dəf edə bilmədən Həmədana qayıtmış, bura-

dan əlavə qüvvə götürərək yenidən Ənzəliyə gəlmişdi. Rəşt və Qəzvin bölgələrində hakimiyyət qurmağa çalışan Osmanlı tərəfdarı Kiçik xan generalın qarşısını almağa səy göstərsə də məğlub olmuş və beləcə ingilis hərbi birliyi Ənzəlini ələ keçirmişdi (1, s. 38).

Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa avqustun 8-də III Orduya yazdığı bir raportda Bakını ingilislərin də gəlməsi ilə on minə qədər düşmən əsgərinin müdafiə edəcəyinin təxmin olunduğu bildirilirdi (3, BDH kolleksiyası, k. 3819, d. 6, f. 69-2). 9-cu ordunun 13 avqust tarixli raportunda əsir alınan bir ingilis çavuşundan öyrənildiyinə görə, Bakını müdafiə etmək üçün 26 taborluq bir qüvvənin təşkil olunduğu, düşmənin arasında 1500-ə qədər ingilis əsgərinin olduğu bildirilirdi (3, TAR kolleksiyası, k. 1, d. 1, f. 1-115). Bu hadisələrdən sonra, Nuru Paşa ingilislərin Bakıya artıq əsgər göndərmələrinin qarşısını almaq üçün III Ordu komandanlığına Təbrizdən Ənzəliyə qoşunun göndərilməsi və ya bu mümkün olmasa, Kiçik xana yardım etmək təklifini vermişdir (3, BDH kolleksiyasi, k. 3819, d. 6, f. 54).

7 avqust tarixli Bakı qəzetlərində əli silah tutan hər kəsin əsgərə çağırılacağı xəbəri yer tuturdu (3, BDH kolleksiyası, k. 3824, d. 26, f. 24). Bakının müdafiəsini möhkəmləndirmək üçün alınan bütün bu tədbirlərə baxmayaraq, ikinci Bakı hücumunun baş verəcəyi tarixdə şəhəri qoruyacaq qüvvələrin sayı 10000 əsgərə yaxın idi (3, BDH kolleksiyasi, k. 3819, d. 6, f. 63-3).

Üç tərəfdən mühasirəyə alınan Bakı artıq qurudan yardım almırdı. Ancaq əhalinin və əsgərlərin ehtiyacı olan qida maddələri böyük ölçüdə Ənzəli və Lənkərandan dəniz yolu ilə gəlirdi. Əsgərlər qida sıxıntısı çəkməsə də, əhali bu yoldan bəzi çətinliklər çəkirdi. Əhalinin dözümünü qırmaq və şəhəri təslim olmağa məcbur etmək üçün müvəkkillər Qubadan Bakıya gələn içməli suyu avqustun 19-u kəsmişdilər. Bakıdan qaçan bir türkdən alınan məlumata görə, şəhərdə çörək qıtlığı olduğu üçün qadınların etiraz mitinqi təşkil etdikləri, türklərin Xəzər dənizinə sualtı qayıqlar endirəcəkləri, beləliklə, şəhərin dənizdən yardım almasına mane olunduğu halda vəziyyətin daha da pisləşəcəyi haqqında əhalinin narahatçılıq keçirdiyi və bununla qarışıqlığın daha da artdığını göstərən xəbərlər alınmışdı. Bununla yanaşı, ingilislərin əgər hakimiyyət onların

əlinə keçsə, heç kimin ac qalmayacağı və vəziyyətin düzələcəyi haqqında vədlər verdikləri də gələn xəbərlər arasında idi (2, s. 150,161).

Bu hadisələri qiymətləndirən Şərq cəbhəsinin komandanı Mürsəl Paşanın çətin günlər yaşayan Bakı ermənilərinin sülh imzalamağa və şəhəri təslim etməyə niyyətli olduqlarını Qafqaz İslam Ordusunun komandanlığına bildirməsinə baxmayaraq bu istiqamətdə hər hansı irəliləyiş olmamışdır (3, BDH kolleksiyasi, k. 3819, d. 6, f. 37, 37-1).

İkinci Bakı hücumu yaxınlaşdıqca türk top batareyalarının şəhərdəki qışlalara istiqamətlənən bombardmanı artmışdır. Bu bombardmanda liman yaxınlığında yerləşən ingilis qərargahı da hədəfə alınmış və 200 əsgər döyüşdən kənarda qalmışdı (1, s. 194).

Bakıya 1500 ingilis əsgərinin gəlməsi erməniləri nə çox sevindirəcək, nə də türkləri çox qorxudacaq qədər əhəmiyyətli bir hadisə deyildi. İngilislərin neft şəhəri sayılan Bakını və erməniləri qoruyacağı görüşü çox qısa müddətdə yerini qorxu və ümidsizliyə vermişdi. Qafqaz İslam Ordusunun gücləndirilməsi, silah və sursat əksikliklərinin aradan qaldırılması ilə hücum gücü artdığından, Bakıdakı türklərin erməni qatillərin zülmündən qurtarılması çox yaxınlaşmışdı.

### MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT

1. Berkok İ. Büyük Harpte Şimali Kafkasyadaki Faaliyetlerimiz ve 15. Fırkanın Harekatı ve Muharebeleri (94 sayılı Askeri Mecmua'nın 44 sayılı Tarih Kısmı). İstanbul: Askeri Matbaa, 1934, 348 s.
2. Türker Rüştü. Büyük Harpte Baku Yollarında 5. Kafkas Piyade Fırkası (93 Sayılı Askeri Mecmuanın 34 Sayılı farih Kısmı). İstanbul: Askeri Matbaa, 1934, 548 s.
3. Türkiye Silahlı Kuvveleri Genel Kurmay Başkanlığı Askeri Tarih ve Strateji Etüd başkanlığı arşivi (ATASE).
4. Birinci Dünya Harbinde Türk Harbi Kafkas Cephesi. 3ncü Ordu Harekatı. Cilt II. Ankara, Genelkurmay Basımevi, 1978, 686 s.

**M. Kılıch**

### THE FIRST ATTACK KAKAZSKOY ISLAMIC ARMY DURING THE LIBERATION OF BAKU

### SUMMARY

Fighting near the city of Baku , with gradual gun fire lasted 3 August . Military Connection South Group 4 August smogshli come to Baku front. Foot soldiers and

Artillery troops reaching the station Puta rasporyadenie were given in the Northern Group .

From the current situation was clearly evident before the second attack in the city of Baku army and the army should be provided by people , ammunition and equipment . Otherwise, in the final months of the war and veti months that could be grated and attempts and can not be .

But constant despite all this , in a short period of strengthening the Caucasian Islamic Army , due to lack of ammunition and equipment increased force attack, approaching the time to sleep Armenians from Baku korovoprolitiya .

**М. КЛЫЧ**

## ПЕРВОЕ НАСТУПЛЕНИЕ КАКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ В ХОДЕ ОСВОБОЖДЕНИЯ БАКУ

### РЕЗЮМЕ

Бои вблизи города Баку, с постепенными пулеметными обстрелами 3 августа продолжались. Военные соединения Южной группы 4 августа смогшли подойти к Бакинскому фронту. Пешее войско и артилерийское войско дойдя до станции Пута были даны в распорядение Северной группы.

Из сложившейся ситуации ясно было видно, что до второго наступления в город Баку войско и армия должна быть обеспечена людьми, боеприпасами и снаряжениями. В противном случаи в конечных месяцах войны и вэти месяцы могло быть что и тертьей попытки и не может быть. Но несморя на все это, в короткий период усиление Кавказской Исламской Армии, из-за нехватка боеприпасов и снаряжений усилилась сила наступления, приближалась время чтобы спати Бакинских армян от коровопролития.

# TÜRK DÜNYASININ TARİXİ0 TALEYİ: SİYASI ÖZÜNÜTƏŞKİLİN ƏSAS MƏQAMLARI

**Cavanşir FEYZİYEV***

Türk dünyasının zaman-zaman dalğalandığı məkan – planetin ən böyük kontinentinin özəyi – Mərkəzi Avrasiyadır. Türkün bu zaman və məkan vəhdətində yaratdığı böyük tarix – onun ölməz və yenilməz Ruhunun Salnaməsidir. Hələ dünya tarixində heç bir ulus türklər qədər uzun zaman müddətində və geniş məkan çevrəsində planetin bu qeədər əngin ərazisinə sahib olmayıb. Türk sivilizasiyasının zamanları bir-birinə bağlayan möhtəşəm tarixini bir daha göz önündə canlandırsaq və Türk Dövlətləri Birliyi ideyasının gerşəkləşməsinə doğru bu tarixin təkamül məntiqindən çıxış etsək, türk dünyasını vəhdətə gətirən həqiqətlərin artıq geniş perspektivlərə və fəaliyyətlərə yol açdığını görə bilərik. Bu perspektivə türk xalqlarının və dövlətlərinin milli iradəsi səviyyəsində yanaşılmasını və eyni zamanda, beynəlxalq birliyin türk dünyasının özünütəşkil prosesinə optimist münasibətinin formalaşdırılmasını türk dövlətlərinin birlikyaratma perspektivinin ilkin şərtləri hesab etmək olar.

Tarix boyu Avrasiyada yaratdığı sosial-siyasi quruluşların arxetipik oxşarlığı olan türklər sanki elə öz dövlətləri ilə bir yerdə doğulmuşlar. Bir etnos olaraq onların tarixi – elə dövlətlərinin tarixi ilə başlayır. Türklərin qurduğu, dünya tarixinin inkişafında, Avrasiyanın etnosiyasi coğrafiyasının son üç min ildə dəyişərək indiki şəkil almasında başlıca transformativ rol oynamış əsas dövlətləri bunlardır: Sak imperiyası, Böyük Hun imperiyası, Qərbi Hun imperiyası, Şərqi Hun imperiyası, Ağ Hun imperiyası, Göy Türk imperiyası, Avar imperiyası, Xəzər imperiyası, Uyğur imperiyası, Qaraxanlılar dövləti, Qəznəvilər dövləti, Böyük Səlcuq dövləti, Azərbaycan Atabəylər dövləti, İraq Səlcuq dövləti, Suriya Səlcuq dövləti, Kirman Səlcuq dövləti, Anadolu Səlcuq Dövləti, Xarəzmşahlar dövləti, Türk-Monqol imperiyası, Qızıl Orda (Altın Ordu) imperiyası, Sibir, Kazan, Krım, Noqay, Qasım, Astarxan xanlıqları, Məmluk dövləti, Os-

---

* Cavanşir Əyyub oğlu Feyziyev – f.ü.f.d. Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü

manlı imperiyası, Moğol imperiyası, Dehli Türk Sultanlığı, Qaraqoyunlu dövləti, Ağqoyunlu dövləti, Səfəvilər imperiyası və ardınca Azərbaycan xanlıqları... Bu dövlət və imperiyaları yaratmış türk superetnosunun bir mühüm xüsusiyyəti də həlledici əhəmiyyət kəsb edir: türk superetnosu əzəldən yekcins olmamış, həm daxili etnik quruluşunu təkamül etdirməkdə, həm də yabançı ulusları öz etnik sisteminin ayrılmaz bir parçasına çevirməkdə açıq universallıq ölçülərindən çıxış etmişdir. Lakin hər zaman dövlətyaratmanın ağır yükünü və məsuliyyətini türklər öz üzərinə almışdır. Yaratdığı dövlətdə məhz onlar – etnosistemin sütunu və birləşdirici komponenti olmuşdur. Nə zaman ki, etnosistemin bu “qızıl qaydası” itirilmiş, dövlətin dayaqları da laxlayaraq çökmüşdür. Etnosistemin türk passionarlığı – onu hər zaman ulusyaradıcı, dövlətyaradıcı fəaliyyətlərin böyük meydanına çıxarmış, ona cahangirlik və fatehlik missiyası vermişdir. Ən qədim zamanlardan eramızın V əsrinə qədər hunlar başda olmaqla, antik Mərkəzi Asiyanın, demək olar ki, bütün əsas etnobirlikləri türklərin kök-etnos kimi öz təkamül mərhələsini başa çatdıran genealoji ağacında tərkiblənmişdir. Sonrakı tarixi proseslərdə (xüsusilə V-VII əsrlərdə) hun-türk superetnosunun daxili təkamülü türk başlanğıcını önə çıxarmış, beləliklə, türklər artıq VII-VIII əsrlərdə Mərkəzi Asiyanın dominant xalqına və hərbi-siyasi gücünə çevrilmişlər: tarixi baxımdan Avrasiyanın Böyük Hun ənənəsi Böyük Türk Epoxası ilə əvəz olunmuşdur.

Türklərin, təqribən, 3000 illik tarixi – həm də onların öz dövlətlərini imperiya təsisatlarına çatdırmaları tarixidir. Avrasiya kontinentinin qlobal siyasi özünüdərkinin başlanğıc mərhələsindən türksoylu xalqlar bu ərazidə imperiyalararası güc balansını yaratmağa qadir olmuşlar. Milada qədərki və miladdan sonrakı ilk əsrlərdə (təqribən dörd yüz il) Çin Han imperiyasının Asiya üzərində hökmranlığa can atması ilk dəfə onların geopolitik maraqları ilə toqquşub. Aralıq dənizi hövzəsindən Şərqə doğru istilalarını getdikcə gücləndirən Roma imperiyasının da həm cənubdan, həm də şimaldan Asiyanın mərkəzinə istiqamətlənməsi qaçılmaz şəkil almışdı. Ancaq türklər elə etdilər ki, Çin və Roma imperiyaları tarixdə heç zaman üz-üzə gəlmədilər. Avrasiyanın Şərqi ilə Qərbinin bu qlobal toqquşmasına yalnız hun-türk qüdrəti mane oldu: Hun imperiyası şərq istiqamətində Çin, qərb istiqamətində isə Roma imperiyası ilə döyüşərək, onların heç birinin Avrasiyanın Mütləq Hökmranı olmasına imkan vermə-

di. Şərqdə Çini, Qərbdə Romanı əzdi. Bununla da, Pax Turcica (türk dünyasının universal hakimiyyəti) – Pax Sinica (Çin dünyasının universal hakimiyyəti) və Pax Romana (roman dünyasının universal hakimiyyəti) qarşısında əsil Avrasiya iradəsinin nə olduğunu nümayiş etdirdi. Bundan sonra daha heç kimin Avrasiyada mütləq hökmranlığına imkan verilmədi. Qarşıdakı iki min ildə bu böyük məkanda dövlət və imperiyalarını qurub genişləndirən də türklər və onların yaratdığı birliklər oldu.

Qədim türklərin etnik-tarixi diferensiasiyası onları tədricən Avrasiya hərbi-siyasi proseslərinin, eyni zamanda, daxili sosial strukturlaşmanın yeni üfüqlərinə çıxardı. Bu proseslər 552-ci ildə adında "türk" etnonimini daşıyan ilk dövləti – Göy Türk imperiyasını meydana gətirdi [1]. Göytürklər tarixdə ilk dəfə olaraq ümumtürk siyasəti və ideologiyasını daşıyan dövlət qurdular. Göy Türk imperiyası özündən əvvəlki və özündən sonrakı türk dövlətlərinin genetik bağlılığını yaradan birləşdirici həlqə oldu. Bu, artıq siyasətini mədəniyyət, mədəniyyətini siyasət səviyyəsinə qaldıran, sosial-siyasi sistemin bütün əsas atributlarını və keyfiyyətlərini özündə ehtiva edən funksional dövlət idi!

Bizim eranın yeni minilliyini türklər Şərqin Yeni Tarixi ilə başladı. Birinci və ikinci minillikləri qovuşduran tarixi mərhələdə türk superetnosunun qıpçaq, bulqar, karluk, uyğur, çuvaş və yakut qollarına mənsub xalqları əsasən Mərkəzi Asiya və ona yaxın regionlarda qaldılar. Başlıca olaraq, türklərin bu dövrdə ən passionar qolu – oğuzların (onlar XI əsrdə 24 boydan ibarət idilər) Yaxın Şərqə ekspansiyası burada yeni türksoylu dövlətlərin yaranması ilə nəticələndi. Böyük əksəriyyətlə islamı qəbul etmiş türklərin geriyə – Mərkəzi Asiyaya dönüşü burada da (əsasən, Türküstanda) türk-islam dövlətlərinin təşəkkülünə səbəb oldu. Pax Turcica varisliyi Mərkəzi Asiyada sonrakı əsrlərdə Uyğur-Türk (745-840-cı illər) və Türk-Monqol imperiyalarının (1230-1310-cu illər) həyatında davam etdirildi. Lakin Pax Turcica Asiyanın qərbinə – Avropa ilə Asiyanın bitişdiyi həlledici geopolitik məkana doğru hərəkətində daha böyük nailiyyətlər qazandı [2, s.37-43]. Türk-İslam İttifaqı ilə Pax Turcica – özünün Pax Turanica və Pax Ottomanica modifikasiyalarında türk superetnosunun imperiya həyatının yeni erasını başladı. Avropa, Asiya və Afrika kontinentlərinin bütün qədim sivilizasiyalarının yarandığı regionları çevrələyən və XV-XVI əsrlərdə dünya əhalisinin çox böyük hissəsinin yaşadığı üç

əzəmətli Türk İmperiyası – Osmanlı (1300-1922), Səfəvi (1501-1722) və Moğol imperiyaları (1526-1858) – türk hərbi, siyasi və sivilizasion fatehliyinin Triadasını yaradırdı... Türk superetnosunun bütün Avrasiyaya yayılmış və nəticədə, fərqlilik keyfiyyətləri qazanmış, lakin kökünü saxlamış təməl qatı üzərində qurulan orta əsr türk-islam dövlətləri bu kontinentin yeni türk imperiyalarına çevrilməklə, həm də böyük dövlətçilik təcrübəsini meydana gətirmişdilər [3]. Ərəb-islam dünyasının sonuncu imperiya-səltənəti – Abbasi xilafəti süquta uğrayandan sonra, Yaxın və Orta Şərqin fatehi – nə ərəblər, nə farslar, nə bizanslılar deyil, yalnız türklər idi!..

Bu gün biz türk dövlətlərinin yüzillikləri əhatə edən təkamül prosesinin ümumi mənzərəsini nəzərdən keçirsək, görərik ki, onların arasındakı tarixi-siyasi münasibətlərin dinamikası həmin dövlətlərin sabit və əlverişli regional-geopolitik konfiqurasiyada yerləşməsini və qərarlaşmasını təmin etmişdir. Onların arasındakı "vertikal" münasibətlər – ən qədim dövrdən müasir dövrümüzə qədər tarixi dövlətçilik ənənələrinin ötürülməsinə, "horizontal" münasibətlər isə – eyni dövr dövlətlərinin müxtəlif səviyyələrdə və imkanlar həddində qarşılıqlı maraqları güdən əlaqələrinə əsas yaratmışdır.

Dünya tarixində yeniləşmə (modernləşmə) dövrünün başlaması ərəfəsində qüdrətli türk imperiyalarının çökməsi, milli dövlətlərə, hətta xanlıqlara parçalanması bir çox tarixi-siyasi səbəblərlə şərtlənmişdir. Yəqin ki, bu səbəblərin başında – həmin imperiyaların zamanın modernləşmə tələbləri ilə (halbuki onlar miladın ikinci minilliyinin başlanğıcından buna qadir olmuşdular) ayaqlaşa bilməmələri dayanmışdır. Həmin tarixi zamanda Avropanı qüvvətləndirən amillər Asiyanı zəiflədən amillərlə tən gəlmişdir. Hətta bu ağır zamanda da, dünya imperializminin Asiya ekspansiyası qarşısında böyük sarsıntılar keçirən və bir çox hallarda dövlətçiliyini belə itirən türk dünyasını xilas etməyə qadir olan qüvvə – onun yenilməz mənəviyyatı və öz köklərinə bağlılığı olmuşdur. Yalnız bu mənəviyyat və milli əxlaq üzərində Türk Birliyi ideyasının toxumları əkilmişdir. Göy Türk epoxasından sonra bu ideyanın tarixi təkamülünün ikinci böyük dirçəliş mərhələsi türk dövlət və imperiyalarının tənəzzül dövrünün sonlarından – XIX əsrin ortalarından - yəni türklərin dünya tarixində geriləməsi səbəbləri və bu prosesi dayandıraraq, yenidən özünütoparlama

üçün dayaqların tapılması üzərində ciddi düşüncələrin bir-biri ilə sarmaşdığı dövrdən başlayır. Bu isə artıq klassik türkçülüyün bütün türk dünyasında tədricən universallaşması prosesini meydana gətirir. Ulusal kimliyin belə bir universal təsdiqinə türk siyasi mədəniyyəti özünün davamlı birlik ideyası ilə və sonradan bu ideyanın konseptual ideologiyaya çevrilməsi ilə nail olur.

XX əsrin əvvəllərindən türkçülük islamçılıq təmayüllərini öz içərisində arxa plana keçirərək, daha sonra isə görünməz edərək, türk dünyasının kardinal ideoloji-siyasi-mədəni dünyagörüşü kimi müəyyənliyini tapır. Daha sonrakı konseptuallaşma prosesində həmin dünyagörüşünün sistemləşən xarakterinə uyğun olaraq, türkçülüyün – ideoloji türkçülük, siyasi türkçülük və mədəni türkçülük kimi bir-biri ilə sıx bağlı olan tendensiyaları şaxələnir. Klassik türkçülükdə olduğu kimi, müasir türkçülüyün də əsas məqsədi – müstəqil türk dövlətlərinin bir fövqəldövlətə və ya konfederasiyaya çevrilməsi yox, beynəlxalq sistemin suveren subyektləri kimi birliyidir. Türkçülük – Türklüyümüzün təsdiqidir. Türklüyümüz isə – bizim milli özünüdərkimizin nüvəsidir. Türklüyümüz – Milli İdrakın elə bir universal miqyasına çıxmaqdır ki, buradan türk dünyasının coğrafi və mənəvi sərhədləri, siyasi çevrəmi, bu günündən bütün taleyinə açılan qapıları, tarixindən doğulan gələcəyi tam aydınlığında görünür. Türkçülük mədəniyyəti – özünün rasional ideya əsasları olan və daim inkişaf edən, yeni-yeni yanaşmalarla quruluşunu təkmilləşdirən, məzmununu dərinləşdirən canlı, dinamik bir sistemdir. O bu gün də mütərəqqi ideyalarla zənginləşmək və özəyində dayandığı milli türk mədəniyyətlərini zənginləşdirmək ənənəsini uğurla davam etdirir.

Dünya tarixini türk tarixi olmadan təsəvvür etmək mümkün olmadığı kimi, dünya mədəniyyəti də türk mədəniyyəti olmadan təsəvvür edilə bilməz. Dünya mədəniyyəti tarixinin antik zamanlardan ta müasir dövrümüzə qədər hansı dövrünə baxsaq, orada türk mədəniyyətinin özünəməxsus yerini görəcəyik. Ümumtürk mədəniyyətini seçkin sivilizasiya nümunəsi kimi təşəkkül etdirən tarixi-coğrafi şərait lap əvvəldən elə formalaşıb ki, bu şəraitdə onun zaman-zaman özünü inkişaf etdirməsi, böyüyərək genişlənməsi üçün türk superetnosunun yaradıcı-passionar enerjisi kifayət qədər bol və coşqun olub. Türk mədəniyyəti inkişaf etdikcə, daha dolğun sivilizasiya keyfiyyətləri və ölçüləri əldə edib. Lakin türk sivilizasiyası nə

qədər genişlənib zənginləşsə də, yeni əlamət və xüsusiyyətlər qazansa da, nüvəsindəki türk mədəniyyətinin ulusal qaynağını heç vaxt itirməyib. Türk superetnosunun tarixi diferensiasiyası – yəni bu superetnosa mənsub xalqların yaranması və onların milli mədəniyyətlərinin formalaşması Avrasiyanın universal etnomədəni sistemini də daim təkamül etdirən prosesə çevrilib. Ayrı-ayrı milli türk mədəniyyətləri – ümumtürk mədəniyyətinin etnogenetik nüvəsini hifz edərək özündə yaşadıb. Bununla da, həmin mədəniyyətlər arasında diferensiallaşmanın zəruri məqamlarda inteqrallaşması eyni prosesin özünəqayıdışı kimi təbii və ahəngdar olub.

Deməli, türk dövlətləri və imperiyalarının yaradıcıları – həm də türk sivilizasiyasının yaradıcılarıdır. Çünki bu siyasi quruluşlar türk superetnosunun çox geniş Avrasiya məkanında sivilizasiya yaratmasına böyük imkanlar açıb. Türk sivilizasiyasının ən qüdrətli, ən yenilməz, tarixin bütün sınaqlarından çıxaraq, daim təkmilləşməyə qadir forması da – yenə Türk Dövləti, Türk Dövlətçiliyidir. Türk Dövlətçiliyi – türk sivilizasiyasının onurğa sütunudur. Dünya mədəniyyətinin inkişafı tarixində türklərin ən böyük rolu da başlıca olaraq onların dövlətçilik ənənələri ilə bağlıdır. Dünyanın türklərlə münasibətdə olmuş xalqları bu dövlətçilik ənənələrini mənimsəmiş və özlərinin siyasi praktikasında istifadə etmişlər.

İslam sivilizasiyasının passionar təməli olaraq təşəkkül tapan türk sivilizasiyası Göy Türk epoxasından sonra özünün ikinci və həlledici dalğasında doğma türk dilini – Sivilizasiya Dili kimi İslam Şərqinin beynəlxalq ünsiyyət vasitəsinə çevirmişdir. Göy Türk imperiyasının şah əsəri, türk azadlığının, türk birliyinin və türk dövlətçiliyinin abidəsi olan Orhon yazıları da bu dildə yazılmışdır. Türk birliyi ideyasını tarixdə ilk dəfə olaraq dövlət siyasəti səviyyəsində və yazılı material-sənədlər şəklində irəli sürən, əsaslandıran və təsdiq edən Orhon abidələri ümumən türk mədəniyyətinin inkişafında, xüsusilə onun siyasi təməllərinin yaradılmasında misilsiz əhəmiyyət kəsb edir. Orhon abidələrini xüsusilə türk dünyasının siyasi-mədəni taleyi üçün aktuallaşdıran kardinal zərurət odur ki, bu yazılar – qeyd etdiyimiz kimi, adında "türk" etnonimini daşıyan ilk dövlətin – Göy Türk imperiyasının tarixi sənədlər külliyyatıdır; bütün müasir türk dillərinin əcdadı sayılan ulu türkcədə – göytürkcədədir; birbaşa türk millәti və dövlətçiliyinin etnogenezisinə, türk sivilizasiyasının, siyasi mədəniyyətinin Avrasiyadakı tarixi təkamülünə aydınlıq gətirən ilk başlıca

qaynaqdır; erkən orta əsrlərdə türk etnosiyasi sisteminin inkişafı nəticəsində meydana çıxmış bir dövlətin (Göy Türk) böyük imperiyaya çevrilməsi situasiyasında Avrasiya dövlətlərinin hərbi, siyasi və diplomatik münasibətlərində onun öz milli mənafelərini və geopolitik tarazlığı hədəfləyən konkret siyasətinin faktıdır; türk dünyasının birliyini yaratmaq ideallarına xidmət edən bütün tarixi-klassik ideologiyalarımızın sələfidir.

Müasir türk xalqlarının belə möhtəşəm təməllər üzərində ("Orhon abidələri", "Oğuz Kağan", "Kitabi-Dədə Qorqud", "Manas", "Əmsali-Türki", "Divanü Lüğat-it-Türk" "Qutadğu Bilig", "Divani-hikmət", "Oğuznamə", "Müqayisət-ül-lüğəteyn" "Şəcəreyi-Tərakimə" və s.) inkişaf edən milli mədəniyyətləri – dünya mədəniyyətini özünəməxsus koloriti, forma və məzmunu ilə zənginləşdirən fenomendir. Dünya mədəniyyətinin "türk komponenti" onu daim inkişaf etdirməyə qadir olan mənəvi-estetik gücü konsentrasiya edərək, insan fəaliyyəti və əxlaqının, duyğu və düşüncələrinin ən parlaq, ən üstün keyfiyyətləri ilə ümumbəşəri dəyərləri yaratmağa, yaymağa və bəşəriyyətin humanitar mədəniyyətinin özüllərinə çevirməyə təkan verir.

Türk sivilizasiyasının çiçəklənməsində, türk dövlətçiliyinin və siyasi dünyagörüşünün universallaşmasında heç şübhəsiz, Böyük İpək yolu misilsiz rol oynamışdır. Türk sivilizasiyası həm Böyük İpək yolu, həm də digər vasitələrlə min illər ərzində Mərkəzi Asiyanın özək sivilizasiyası olaraq Uzaq Şərq istiqamətində Çin və yapon sivilizasiyaları ilə, Cənubi Şərq istiqamətində hind sivilizasiyası ilə, Yaxın Şərq istiqamətində islam (başlıca olaraq ərəb və İran) sivilizasiyası ilə, Qərb istiqamətində Avropa və slavyan sivilizasiyaları ilə davamlı münasibətlərdə olmuş, amma tarixən, onların ayrılıqda hər birindən daha çox multikulturalizm məkanını yaratma funksiyasını həyata keçirə bilmişdir. Türk dünyasının Böyük İpək yolu ilə orqanik bağlılığı isə tarixən üç səviyyədə baş vermişdir: (1) Böyük İpək yolu yan-yanaşı türk ölkələrinin min kilometrlərlə ərazisindən keçdiyindən, türk etnocoğrafiyasının toponimik izləri bu yolun koordinatlarına hopmuşdur; (2) Böyük İpək yolu üzərində aparılan ticarət və mədəniyyət əlaqələrinin əsas tərəfdaşı, iştirakçısı, həm də təşkilatçısı və ortağı uzun tarixi zamanlar ərzində türklər olmuşlar; (3) türk dövlətləri və imperiyaları Böyük İpək yolunun Trans-Avrasiya kommunikasiya sistemi kimi funksionallaşmasının tarixi missiyasını həyata keçirmiş, bu yolun iki

min iki yüz illik tarixinin əhəmiyyətli kəsimində və müəyyən regional hüdudlarında ona nəzarəti öz əllərində saxlamışlar [4]. İpək yolu siyasəti – türk sivilizasiyasının və siyasi mədəniyyətinin fundamental dəyərləri sırasında yer almışdır. Buna görə də qloballaşma proseslərinin zəruri aktı kimi İkinci və Üçüncü minilliyi kəsişdirən tarixi epoxada Böyük İpək yolu ideyası müasir nəqliyyat texnologiyalarının yüksək səviyyəsi bazasında yenidən bərpa edilmək imkanları əldə etməkdədir: "Yeni İpək yolu" – tarixi "Böyük İpək yolunun" bərpası olaraq, TRASEKA (Avropa – Qafqaz – Asiya Nəqliyyat Dəhlizi) layihəsi çərçivəsində həyata keçirilir. Müasir beynəlxalq həyatda Böyük İpək yolunun yenidən aktuallaşması dünya inkişafının tarixi qanunauyğunluğudur: bu o deməkdir ki, çağdaş Avrasiyanın siyasi, iqtisadi, mədəni həyatında yenidən Böyük Siyasətə qayıdan türk dünyasının rolu aktuallaşır. Böyük İpək yolunun tarixi qoruyucuları olan türklər bu gün onun qurucuları missiyasında çıxış edir.

Tarixi nəticə isə bundan ibarət olur ki, Avrasiya – türk dünyası ilə özünün geopolitik bütövlüyünü qazanır. Asiya və Avropa – türklərin qovuşdurduğu və orqanikləşdirdiyi fərqli sivilizasiya "komponentləri" olaraq, özlərinin vahid sivilizasiya meqasistemindəki münasibətlərini qururlar. Əgər Avrasiya – Avropa (Qərbi və Şərqi Avropa), Yaxın və Orta Şərq, Qafqaz, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya "bloklarından" ibarətdirsə, onların da ortaq geopolitik məkanını məhz bu günkü türk dövlətləri yaradır. Bu gün müstəqil türk dövlətlərindən formalaşmaqda olan Türk Dövlətləri Birliyindən başqa heç bir siyasi sistem həmin regionların geopolitik koordinasiyasını yaratmaq reallığında, imkanında və funksiyasında deyil. Təbii-coğrafi amillərlə şərtlənən və heç kimin şərik ola bilməyəcəyi bu reallığı, imkanı və funksiyanı türk dövlətləri uzun tarixi-siyasi proseslərin nəticəsi olaraq əldə etmişlər. Avrasiyanın tarixi geopolitikası bilavasitə həmin proseslərin kardinal istiqamətindən – yəni Asiya ilə Avropa arasındakı münasibətlərin tarixi transformasiyası və burada türk dövlətlərinin rolundan həlledici dərəcədə asılı olmuşdur.

Ümumiyyətlə, türk geopolitikasının təqribən iki min il davam edən inkişaf dinamikasında diqqəti cəlb edən əsas cəhətlərdən biri də bundan ibarətdir ki, türklərin tarixi-geopolitik dixotomiyasının və həmin budaqlanma üzrə özünütəşkilinin nəticəsi olaraq təşəkkül tapan Şərqi Türküstan və Qərbi Türküstan türk etnosiyasi sisteminin iki mühüm qolu kimi for-

malaşır: Şərqi Türküstan – Mərkəzi Asiya türk dövlətlərinin geopolitik zolağını, Qərbi Türküstan isə – getdikcə Avropaya doğru istiqamətlənən Qərbi Asiya türk dövlətlərinin geopolitik zolağını yaradır. Hər iki istiqamətdə türk dövlətləri özləri ilə qonşuları arasında nə qədər müxtəlif konfiqurasiya vəziyyətləri yaratsalar da, Türk Elinin Bütövlüyü etnogenetik yaddaşın təməlində dayanmaqda davam edir. Türk dixotomiyasının qərb istiqaməti – Avropa ölkələri ilə, şərq istiqaməti isə – cənub-şərqi Asiya dövlətləri ilə münasibətlərdə fəallıq nümayiş etdirirlər. Klassik Asiya imperiyalarından heç birinin – nə Çinin, nə Hindistanın, nə İranın, nə Ərəbistanın edə bilmədiklərini məhz türklər edir: onlar Asiya – Avropa münasibətlərində birincinin geopolitik üstünlüyünə əsaslanan siyasi düzəni ta yeni zamanlara qədər qoruyub saxlaya bilirlər. Qlobal yanaşma paradiqmasından çıxış edərək deyə bilərik ki, Avrasiya geopolitikasının bütün inkişaf məntiqi də bilavasitə Mərkəzi Asiya və Qafqaz da daxil olmaqla, kontinental türk geosiyasi sisteminin orqanikləşməsi və təşkilatlanması prosesi ilə bağlı olub. Yeddi respublikasından beşinin türk dövləti olduğu bu "ikitağlı" geopolitik məkan Sovet İttifaqının çökməsindən sonra ilkin təşəkkülünün lap başlanğıcından həmin məntiqin qarşısıalınmaz şəkildə gerçəkləşməsinə doğru inkişaf edib. Türkiyədən Qazaxıstana qədər bütün türk cəmiyyətləri aydın şəkildə dərk ediblər ki, tarixi qanunauyğunluğu əks etdirmək baxımından, hər hansı regional və beynəlxalq təşkilatlarda təmsilçilik – türk dövlətlərinin özlərinin birliyi qədər əhəmiyyətli, dialektik və məntiqli ola bilməz. Çünki ən qədim zamanlardan müasir dövrümüzədək Avrasiyanın daxili inkişaf stimullarını hərəkətə gətirə biləcək qüvvənin, məhz türk dünyası olduğu şübhəsizdir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Giraud R. Gök Türk İmparatorluğu. İstanbul: Ötüken, 1999
2. Findley C.V. The Turks in World History. Oxford University Press, 2005
3. Beckwith Ch.I. Empires of the Silk Road. A History of Central Eurasia from the Bronze Age to the Present. Princeton University Press, 2009
4. Brockelmann C. İslam Ulusları və Devletleri Tarihi. Türkceye çevirən N.Çağatay. Ankara: Türk Tarihi Kurumu Basımevi, 2002

**Djavanshir Feyziyev**

## THE HISTORICAL DESTINY OF THE TURKIC WORLD: MAIN POINTS OF THE POLITICAL SELF-ORGANIZATION

**SUMMARY**

The article follows the process of the historical evolution of the Turkic ethno-political system, identifies the coordinates of Turkic ethno-geography, and deeply reviews the layers of Turkic political culture. Reviewing the historical destiny of Turkic world in the general context, the author comes to the conclusion that common history and culture created by the Turkic nations provides enough solid foundation (basement) for the integration of the states of these nations in the new geo-political conditions.

**Джаваншир Фейзиев**

## ИСТОРИЧЕСКИЕ СУДЬБЫ ТЮРКСКОГО МИРА: ОСНОВНЫЕ МОМЕНТЫ ПОЛИТИЧЕСКОЙ САМООРГАНИЗАЦИИ

**РЕЗЮМЕ**

В статье прослеживается процесс исторической эволюции тюркской этнополитической системы, определяются координаты тюркской этногеографии, исследуются самые глубинные слои тюркской политической культуры. Рассматривая общую панораму исторических судеб тюркского мира, автор приходит к выводу, что общая история и культура, созданные тюркскими народами, является достаточно прочной основой для осуществления интеграции их независимых государств в новых геополитических условиях.

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN ŞİMALİ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ HƏYATINA TƏSİRİNƏ DAİR

**Rəna ƏSƏDOVA***

Birinci dünya müharibəsi lap başlanğıcından bütün imperiya miqyasında iqtisadiyyatın dinc dövrdə qərarlaşmış ahəngini pozdu, iqtisadi əlaqələrin normal fəaliyyət göstərməsini əngəllədi. Bu da əksər istehsal sahələrində şərtlərin əhəmiyyətli dərəcədə dəyişməsinə, həm də, demək olar ki, bütün hallarda ümumi vəziyyətin ciddi surətdə pisləşməsinə gətirib çıxardı. Təqdim edilən məqalədə çoxlu sayda sənəd və materiallar, dövri mətbuat və digər mənbələr, eləcə də tarixi və iqtisadi xarakterli tədqiqatlar əsasında müharibə dövründə vergilərin artırılması istiqamətində hökumətin tədbirlərinin, səfərbərliklər nəticəsində işçi qüvvəsinin çatışmamasının Şimali Azərbaycanda müxtəlif təsərrüfat sahələrinə təsiri, inflyasiya, gündəlik tələbat məhsullarının bahalaşması və s. bu kimi məsələlərin araşdırılması nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, bu mövzuya Azərbaycan tarixşünaslığında yalnız qismən toxunulmuşdur. Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev və H.N.Həsənovun monoqrafiyalarında (20, 12, 9, 10), Azərbaycan tarixinə aid ümumi xarakterli əsərlərdə (6, 7) XX əsrin başlanğıcında sosial-iqtisadi sahədə baş verən dəyişikliklərdən də bəhs edilmişdir. Həmçinin keçmiş ittifaq miqyasında bu mövzuya aid ayrı-ayrı faktlar və statistik materiallar A.P.Poqrebinski, A.L.Sidorov, P.A.Xromov və digər müəlliflərin tədqiqatlarında (15, 18, 21) şərh olunmuşdur.

Müharibə dövründə əmək qabiliyyətli kişi əhalisinin əhəmiyyətli bir hissəsinin hərbi səfərbərliyə alınması və cəbhəarxası işlərə cəlb edilməsi istehsal sahələrində işçi qüvvəsinin, əsasən də ixtisaslı işçilərin çatışmaması problemini kəskinləşdirdi. Bakı və Gəncə quberniyalarından 52600 nəfərin hərbi səfərbərliyə alınması (17, 49) xüsusən sənaye sahələrində işçi qüvvəsinə, həm də texniki və mühəndis işində sıxıntılar yaratdı. Bundan əlavə, çar II Nikolayın 1916-cı ilin iyunun 25-də imzaladığı fərmana əsasən "qeyri-xalqların", yəni müsəlmanların 18-43 yaşında olan kişiləri-

RənaBəylər qızı Əsədova – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

nin cəbhəarxası işlərə səfərbər edilməsi (19, kit.2, 142) nəticəsində ölkəmizin əmək qabiliyyətli əhalisinin əhəmiyyətli bir hissəsindən məhrum olması sənaye ilə yanaşı, kənd təsərrüfatında da ciddi şəkildə işçi qüvvəsi çatışmazlığına gətirib çıxardı. Belə ki, 1916-cı ildə Şuşa qəzasında təsərrüfat işi ilə məşğul olmaq üçün əmək qabiliyyətli kişi əhalisinin cəmi 13 faizi qalmışdı (6, c.II, 803).

Müharibə dövründə taxıl əkini sahələrində müəyyən artım olsa da, taxıl məhsulları istehsalı ildən-ilə azalmaqda idi. Taxıl məhsulları istehsalı bütövlükdə bütün Şimali Azərbaycan üzrə 1914-cü ildə 50,5 milyon puddan 1917-ci ildə 26 milyon puda düşmüşdü (7, c.5, 181).

Müharibə illərində taxıl əkini sahələrinin və taxıl məhsulu istehsalının belə kəskin şəkildə azalmasının əsas səbəbləri: işçi qüvvəsinin və əkin alətlərinin, nəqliyyat vasitələrinin, xüsusən də qoşqu heyvanlarının çatışmaması, toxumluq taxılın azlığı, vergi və mükəlləfiyyətlərin kəskin şəkildə artırılması və s. idi. Həm də müharibə uzandıqca bu amillər özünü daha aydın şəkildə göstərirdi.

Artıq 1915-ci ilin yayında Qafqaz canişini taxıl biçini dövründə işçi qüvvəsi çatışmamasının məhsul itkisinə səbəb olmaması üçün Cənubi Qafqazda quberniya və vilayət rəislərinin tədbirlər görmələrini tələb etmişdi (2, siy.1, iş 184, 8). Bununla əlaqədar, yerlərdə bütün mövcud qüvvələrin məhsul toplanmasına cəlb edilməsi, əsgər ailələrinə taxıl biçinində yardım göstərilməsi üçün hakimiyyət nümayəndələrindən və nüfuzlü şəxslərdən ibarət komissiyalar – Xüsusi Müşavirələr yaradıldı. Gəncə qubernatorunun 25 iyun 1915-ci il tarixli məlumatına görə, quberniyanın rus, erməni və yunanlar yaşayan kəndlərində kənd cəmiyyətləri öhdələrinə götürmüşdülər ki, həmin kənddən hərbi xidmətə çağrılanların ailələrinə müharibə qurtarıncaya qədər taxıl biçini, ot toplanması və digər təsərrüfat işlərində yardım göstərəcəklər (2, siy.1, iş 184, 8-9). Eyni zamanda azərbaycanlılar yaşayan kəndlərdə də tatar süvari alayında qulluq edən könüllülərin ailələrinə təsərrüfat işlərində geniş yardım edilirdi.

Bununla belə, artıq 1915-ci ilin yayında bütün Şimali Azərbaycanda işçi qüvvəsinin çatışmaması hiss edilirdi. Bunun da bilavasitə nəticəsi günəmuzd işçilərin daha çox pul tələb etmələri oldu. Həmin il Gəncə quberniyasında taxıl biçini zamanı işçilər bir günlük iş üçün 2 rubl məbləğində pul və sahibkarın hesabına yemək verilməsini tələb edirdilər (2, siy.1, iş

184, 11). Gəncə qubernatoru bu məsələdə qayda yaradılması üçün qəzalarda təşkil edilmiş Xüsusi Müşavirələrə tapşırıq verdi ki, taxıl biçini və döyülməsi, ot yığımı işinə görə işçiyə bir gündə 1,2-1,8 rubl məbləğində pul və sahibkarın hesabına yemək verilsin (2, siy.1, iş 184, 34).

Müharibə dövründə ordu üçün müxtəlif yüklərin daşınmasının çox böyük həcmdə artması ilə əlaqədar çar hökuməti imperiya miqyasında iş heyvanlarının: at və öküzlərin əhalidən zorla müsadirəsinə başlamışdı. Bu da kənd təsərrüfatı işlərində ciddi çətinliklər doğurdu. Məsələn, 1916-cı ildə Qaryagin qəzasında kəndli təsərrüfatlarının 55 faizi, Göyçay qəzasında isə 47 faizi iş heyvanından məhrum olduğu üçün, öz torpaq sahələrini becərə bilməmişdi (6, c.II, 803). Həmin il Gəncə quberniyası üzrə kəndlilər müharibə ərəfəsində əkib-becərdikləri pay torpağının yalnız dörddə bir hissəsini şumlaya bilmişdilər (8, 68).

Müharibə dövründə Şimali Azərbaycanın əkinçilik təsərrüfatına ziyanvericilər və digər təbii fəlakətlər də ağır zərbə vururdu. Məsələn, Göyçay qəzasının yerli aqronomu 1916-cı ildə məlumat vermişdi ki, çöl gəmiriciləri qəzada həmin il əkilmiş payızlıq arpanın 20 faizini, bütün buğda tarlalarının 80 faizini məhv etmişdir (10, 28). Taxıl zəmilərinə çəyirtkələr də ciddi ziyan vururdu. Əhalinin bu cür bəlalara qarşı səmərəli mübarizə aparması üçün hakimiyyət orqanları heç bir köməklik göstərmirdi.

Müharibənin kənd təsərrüfatına, xüsusən də taxılçılıq sahəsində yaratdığı digər böyük çətinlik torpaqdan istifadəyə görə alınan vergi və rüsumların kəskin surətdə çoxalması idi. Çar II Nikolayın 1914-cü il dekabrın 24-də imzaladığı qanuna görə, torpaq vergisinin ümumi məbləği xüsusi sahibkarlar üçün 100 faiz, kəndlilər üçün 50 faiz artırılmışdı (19, bölmə 1, 9.I.1915, say 8, 110). Dövlət kəndlilərindən toplanan yerli idarəçilik üçün vergi də müharibə dövründə 20 faiz artırılmışdı. Bakı Xəzinə Palatasının 1915-ci il 23 iyun tarixli hesabatına görə 1914-cü il ərzində Bakı quberniyası əhalisindən vergi və rüsum kimi 509 917 rubl vəsait, 57617 pud taxıl toplanmışdı (1, siy.4, iş 441, 2-4). 1915-ci il ərzində isə Bakı quberniyasının əhalisindən 713318 rubl miqdarında vergi və rüsumlar toplanmışdı (1, siy.4, iş 548, 3-6). Bu isə 1914-cü ilə nisbətən 1,5 dəfə çox idi.

Müharibə başlandıqdan sonra çar hakimiyyəti nümayəndələri Şimali Azərbaycanın müsəlman əhalisindən, o cümlədən İrəvan quberniyası, Borçalı qəzası və Dərbənd bölgəsinin azərbaycanlı əhalisindən hərbi vergi

toplanmasına diqqəti artırdılar. Müsəlman əhalisindən hərbi xidmətə çağrılmamaq əvəzinə toplanan hərbi vergi 3 hissəyə bölünür və may ayında 1-ci hissə, sentyabr ayında 2-ci hissə, növbəti ilin yanvarında isə 3-cü hissə və əvvəlki hissələrin qalıq vergi borcu yığılırdı. Bakı quberniya idarəsinin məlumatına görə, 1915-ci il yanvarın 15-dən mayın 15-nə kimi

Quba qəzası əhalisindən 40 487 rubl,
Şamaxı qəzası əhalisindən 21 215 rubl,
Lənkəran qəzası əhalisindən 20 886 rubl,
Göyçay qəzası əhalisindən 23 962 rubl,
Cavad qəzası əhalisindən 13 550 rubl,
Bakı qəzası əhalisindən 3 402 rubl vergi toplanmışdı (1, siy.4, iş 449, 4-5, 7-8, 11-12, 18-19, 22-23, 26-29, 32).

Bakı quberniyası üzrə göstərilən dövr ərzində bütövlükdə 123 502 rubl hərbi vergi yığılmışdı. Bu isə o demək idi ki, 1915-ci il ərzində Bakı quberniyasının müsəlman əhalisi 370 506 rubl hərbi vergi ödəməli idi.

Vergi və mükəlləfiyyətlərin belə kəskin şəkildə artırılması əhalinin maddi vəziyyətini kəskin surətdə pisləşdirmişdi. Bunu vergiləri ödəmək imkanı olmayan kəndlilərin hakimiyyət orqanlarına bir-birinin ardınca müraciətlər etməsi aydın göstərir. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin 44, 61 və 62 saylı fondlarından bu məzmunda yüzlərlə xahişnamə aşkar edilmişdir (1, siy.4, iş 527, 3-7, 19-26; 2, siy1, iş126, 12; iş 130, 47; iş132, 12,28; 3, siy.1, iş 132, 38,41və s.).

Çar hakimiyyət orqanları isə vergi və rüsumların vaxtında toplanmasına diqqəti daha artırırdı. Bakı və İrəvan Xəzinə Palataları 1915-ci ilin əvvəlindən etibarən vergi ödəmələrini 1 il 6 ay gecikdirən şəxslərin əmlakının müsadirə edilməsi məsələsini qaldırdı (2, siy.1, iş 145, 1, 44-45). Məsələn, İrəvan Xəzinə Palatası 1915-ci il mayın 1-də Gəncə quberniya idarəsinə müraciət edərək Şuşa qəzasının Seyidli kəndinin sakini Mirbaba Mirbağırovun ticarət-sənaye müəssisələrindən 2 faiz rüsum ödəmək haqqında Qafqaz canişininin göstərişini yerinə yetirmədiyini əsas götürərək ona məxsus mağazanın müsadirəsi məsələsini qaldırmışdı (2, siy.1, iş 137, 1, 4). Nuxa qəza rəisi isə Gəncə qubernatoruna ünvanladığı 18 yanvar 1916-cı il tarixli raportunda borclu şəxslərdən borcunu faizləri ilə birgə toplamağa başladığını bildirmişdi (2, siy.1, iş 137, 8).

Müharibə dövründə vergi və mükəlləfiyyətlərin kəskin surətdə artırılması ilə yanaşı cəbhənin ehtiyaclarını ödəmək üçün tez-tez əmlak müsadirələri keçirilməsi də təsərrüfat həyatına ağır zərbə vururdu. Çar II Nikolayın 1914-cü il noyabrın 3-də verdiyi fərmana görə kənd cəmiyyətləri öz taxıl ehtiyatlarının beşdə birini cəbhənin ehtiyacları üçün ianə etməli idilər. Qafqaz canişinliyi 1915-ci il 24 fevral tarixində Bakı, Gəncə, İrəvan, Kutais və Tiflis qubernatorlarına göstəriş verdi ki, yerlərdə həmin qərarın yerinə yetirilməsini təmin etsinlər (1, siy.4, iş 391, 3).

1915-ci ilin payızında imperiya miqyasında ərzaq təminatında çətinliklərin artması ilə əlaqədar Ərzaq işi üzrə Müşavirənin həmin il sentyabrın 11-də keçirilən iclasında qərara alındı ki, cəbhəyə çağrılmış şəxslərin ailələrinin ərzaq mükəlləfiyyətindən azad edilməsi haqqında qanun yalnız həmin şəxsə şamil edilsin, ailənin digər üzvləri isə ümumi əsaslarla ərzaq mükəlləfiyyətini icra etsinlər. 1915-ci il sentyabrın 15-də isə daxili işlər naziri bütün qubernatorlara sərəncam göndərdi ki, bu qərarın icrasını təmin etsinlər (1, siy.4, iş 391, 60).

1916-cı ilin payızında Qafqazda əkin sahələrinin azalması, taxıl məhsulları çatışmazlığının kəskin şəkil alması hakimiyyət orqanlarını müxtəlif addımlar atmağa vadar etdi. Qafqaz Kənd təsərrüfatı cəmiyyəti şurası bütün quberniyaların aqronomlarına müraciət etdi ki, yerlərdə əhalinin taxıl əkini sahələri və toxumluqla təmin edilmələri, iş heyvanları, nəqliyyat vasitələri ilə təmin olunmalarının vəziyyətini müzakirə etmək üçün müşavirələr keçirsinlər və materiallarını noyabrın 12-nə kimi bu quruma göndərsinlər (4, siy.1, iş 47, 242).

1916-cı ilin dekabrında isə Qafqaz canişininin əmrinə əsasən, Cənubi Qafqazdakı bütün quberniyaların aqronomları öz quberniyalarında kənd təsərrüfatı cəmiyyətləri və yerli şəraitə bələd olan digər qurumların iştirakı ilə müşavirələr keçirməli idilər. Məqsəd yerlərdə kənd əhalisinin əkin sahələrini azalması səbəblərini aydınlaşdırmaq, bütün Cənubi Qafqazda əkin sahələrini genişləndirmək üçün zəruri tədbirləri müəyyən etmək idi. 1917-ci ilin yanvarında keçirilən müşavirələrdə işçi qüvvəsi, iş heyvanı, əhalinin toxumla təchizi, zəruri məhsulların dəmir yolu ilə daşınması, tərəvəzçiliyin inkişafı və tərəvəz məhsullarının texniki emalı məsələləri müzakirə edildi (4, siy.1, iş 47, 234). Lakin bu toplantı və müşavirələrin,

qəbul edilən qərarların kənd təsərrüfatında, o cümlədən də taxılçılıqda ağır vəziyyəti düzəltməyə ciddi təsiri olmadı.

Şimali Azərbaycanda kənd təsərrüfatının müxtəlif sahələrinə müharibənin mənfi təsiri xüsusən sonrakı illərdə daha kəskin hiss edilməkdə idi. Kənd təsərrüfatının ayrı-ayrı sahələrində 1913-cü il göstəriciləri ilə 1916-cı ilin sonuna aid statistik məlumatların müqayisəsi zamanı bu xüsusilə aydın görünür. Məsələn, bu dövr ərzində ölkə üzrə taxıl əkini sahələrində ciddi azalma nəzərə çarpmasa da, bütövlükdə taxıl məhsulları toplanması 2 dəfəyə yaxın azalmışdı. Pambıqçılıq və üzümçülükdə isə bu illər ərzində həm müvafiq əkin sahələri, həm də məhsul toplanmasında ciddi surətdə azalma baş vermişdi. Müharibənin maldarlıq təsərrüfatına mənfi təsiri daha çox iş heyvanlarının (at, öküz və kəllərin) hərbi ehtiyaclar üçün müsadirəsi ilə bağlı idi. Artıq müharibənin ilk iki ili ərzində bu müsadirələr nəticəsində ölkəmizdə iş heyvanlarının sayı 50 faiz azalmışdı (11, 9). Bu da ilk növbədə kəndli təsərrüfatlarının iş heyvanları ilə təminatının pisləşməsinə gətirib çixardı. Məsələn, 1916-cı ildə keçirilmiş kənd təsərrüfatı siyahıyaalmasına görə, Bakı və Gəncə quberniyalarında həmin il hər kəndli təsərrüfatına orta hesabla 0,5 at, 1 inək düşürdü, 55 min kəndli təsərrüfatının isə ümumiyyətlə iş heyvanı yox idi (16, buraxılış II, 152-153).

Müharibə illərində kənd təsərrüfatının bütün sahələrində istehsalın azalması, əhalinin dolanışıq şəraitinin ağırlaşması Şimali Azərbaycanın hər yerində kəsbkarlığa gedənlərin sayının artmasına səbəb oldu. Həm də torpaqsız kəndlilərlə yanaşı, aztorpaqlı kəndlilərin də çoxu malik olduqları kiçik torpaq sahələrini başlı-başına buraxıb muzdurluğa başlayırdılar. 1917-ci ildə 120 min kəndli öz təsərrüfatını tərk edib sənaye mərkəzlərinə getmişdi. Təkcə Bakı neft sənayesində çalışan azərbaycanlı fəhlələrin sayı bu dövrdə Azərbaycanın müxtəlif qəzalarından gəlmiş kəndlilərin hesabına 24-25 faiz artmışdı (8, 75).

Müharibə illərində Şimali Azərbaycan əhalisinin ərzaqla və digər zəruri tələbat malları ilə təchizi kəskin surətdə ağırlaşmışdı. Müharibə başlandıqdan dərhal sonra bu məhsulların satış qiymətləri bahalaşmışdı. Bahalaşmanın əhalinin dolanışıq şəraitini ağırlaşdırmasını nəzərə almağa məcbur olan Bakı şəhəri rəisi P.İ.Martınov ticarət və sənətkarlıqla məşğul olan şəxsləri və kirayə ev verən sahibkarları 1915-ci il oktyabrın 8-də

şəhər dumasının binasına toplayaraq gündəlik tələbat mallarının və mənzil kirayəsi qiymətlərinin gündən-günə bahalaşmasının yolverilməz olduğunu bildirdi. Şəhər rəisi qiymətlərin süni surətdə şişirdilməsinin qarşısını almaq üçün xüsusi komissiya yaratdı, alıcı şikayətlərini polislə birlikdə araşdırmağı tapşırdı (14, 9.X.1915, say 223). Lakin bu komissiyanın çox az səmərəsi oldu.

1915-ci ilin payızında ərzaq mallarının qiymətinin bahalaşmasının səbəblərindən biri ərzaq alveri ilə məşğul olan tacirlərin qəsdən qıtlıq yaratmaları idi. "Kaspi" qəzetinin məlumatına görə, Lənkəran qəzasında unun topdan satışı ilə məşğul olan iki tacir unu anbarlarında qəsdən gizlətmişdilər. Bundan xəbər tutan Bakı qubernatorunun əmri ilə həmin tacirlər inzibati qaydada 1 ay müddətinə həbs edilmişdi (14, 26.XI.1915, say 264). Bu hadisədən sonra Lənkəran qəzasında unun və taxılın qiyməti normaya düşmüşdü.

Müharibə illərində Şimali Azərbaycan əhalisinin ərzaqla təminatını ağırlaşdıran amillərdən biri də ölkəmizdə istehsal edilən bəzi məhsulların əsas hissəsinin ordunun təchizinə yönəldilməsi idi. Əkinçilik nazirinin Bakı quberniyasında ordu üçün düyü tədarükü üzrə müvəkkilinin 25 noyabr 1916-cı il tarixli məlumatına görə Ağabala Quliyev, Şteyner, Skobelev qardaşları və digər sahibkarlara məxsus çəltiktəmizləmə zavodlarının istehsal etdiyi düyü vaqonlarla ordu korpuslarının ərzaq şöbələrinə və intendant mağazalarına göndərilirdi (4, siy.1, iş 47, 216-217).

1916-cı ildə Bakıya Şimali Qafqazdan buğda, un və digər ərzaq məhsulları gətirilməsi kəskin surətdə ixtisar edildiyi üçün, Bakı şəhər idarəsi yanında Ərzaq müşavirəsi tacirlərin Bakıdan qəza mərkəzlərinə ərzaq göndərmələrini kəskin surətdə məhdudlaşdırdı. Məsələn, Bakı Ərzaq müşavirəsi 1916-cı il aprelin 26-da keçirilən iclasında tacir Hacı Hüseynbəy Hüseynbəyovun Şəki şəhər əhalisi və ipək emalı müəssisələrinin 8 min işçisi üçün aldığı 4 vaqon şəkərin Bakıdan çıxarılmasına (5, siy.1, iş 18, 75), 1916-cı il sentyabrın 16-da keçirilən iclasında isə Şuşa taciri Hüseyn Niftəli oğlunun Şimali Qafqazdan Bakıya gətirtdiyi 2 vaqon aşağı növlü unun Şuşaya aparılmasına icazə verməmişdi (5, siy.1, iş 18, 6).

Müharibənin uzanması əhalinin ərzaq və digər gündəlik tələbat malları ilə təminatının daha da ağırlaşmasına səbəb oldu. 1916-cı ilin sonu – 1917-ci ilin başlanğıcında dəmir yolu ilə Şimali Qafqazdan ölkəmizə

ərzaq məhsulları gətirilməsinin kəskin surətdə ixtisar edilməsi yeni bahalaşmalara gətirib çıxartdı.

Dövlətin iqtisadi həyatda tənzimləmə tədbirləri bütünlüklə ona yönəlmişdi ki, bütün iqtisadiyyat sahələrinin gərgin işləməsinə nail olmaqla müharibənin davam etdirilməsi üçün maksimum vəsait əldə edilsin. Bu da sadə xalqın həyat səviyyəsinin kəskin surətdə pisləşməsinə gətirib çıxardı. Ərzaq böhranı, inflyasiya, bahalğın artması, nəqliyyat əlaqələrinin pozulması bütün Rusiya imperiyası miqyasında , o cümlədən də Şimali Azərbaycanda iqtisadi böhranın dərinləşməsinə, sosial ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxardı. Bunun da qanunauyğun nəticəsi mütləqiyyət qurluşunun devrilməsi ilə başa çatan 1917-ci il Fevral inqilabı oldu.

### MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. AR DTA, f.44 – Bakı quberniya idarəsi
2. AR DTA, f.61 – Yelizavetpol (Gəncə) quberniya idarəsi
3. AR DTA, f.62 – Yelizavetpol (Gəncə) qubernatorunun dəftərxanası
4. AR DTA, f.287 – Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsi
5. AR DTA, f.512 – Bakı şəhəri Ərzaq Müşavirəsi dəftərxanası
6. Azərbaycan tarixi: 3 cilddə, II c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1964, XI, 998 s.
7. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: Elm, 2001, 672 s.
8. Hüseynov C.X. Birinci dünya müharibəsi illərində Azərbaycanda aqrar münasibətləri / Azərbaycanda inqilabi hərəkatın sosial-iqtisadi zəmini. (XIX əsr-XX əsrin əvvəli). Elmi əsərlərin tematik məcmuəsi. Bakı: ADU nəşri, 1983, s. 67-77
9. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 256 s.
10. Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце ХЫХ – начале ХХ вв. Баку: Тахсил, 2007, 224 с.
11. Гусейнов Дж.Х. Положение и классовая борьба крестьян Азербайджана в период первой мировой войны (июль 1914 – февраль 1917 гг.). / Автореферат дисс. … канд. ист. наук. Баку,1967, 30 с.
12. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализ-ма. Баку: Элм, 1982, 116 с.
13. Исторический опыт трех российских революций. Кн. 2. Свержение самодержавия. / Гл. ред.: Голуб П.А. и др. М.: Политиздат, 1986, 415 с.
14. Каспий, 1914-1917 гг.
15. Погребинский А.П. Государственные финансы царской России в эпоху империализма. М.: Финансы, 1959, 168 с.
16. Предварительные итоги Всероссийской сельскохозяйственной переписи 1916 года. Пг., 1917, 788 с.
17. Россия в мировой войне 1914-1918 гг. (в цифрах). М.,1925, 264 с.

18. Сидоров А.Л. Финансовое положение России в годы первой мировой войны. М.: изд-во АН СССР, 1960, 579 с.
19. Собрание узаконений и распоряжений правительства, издаваемое при правительствующем сенате. Отд.1, 1914-1917 гг.
**20.** Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане. М.: Наука, 1972, 254 с.
**21.** Хромов П.А. Экономическая история СССР. Период промышленного и монополистичес-кого капитализма в России. М.: Высш. школа, 1982, 240с.

**Rena Asadova**

## INFLUENCE of FIRST WORLD WAR on the SOCIAL AND ECONOMIC LIFE of the NORTHERN AZERBAIJAN

### SUMMARY

As a result of complex research of changes formed in economy under influence of war it is found out, that war everywhere has led to reduce of manufactures, shortage of products, to a rise in price, deterioration life a condition of people. Steps undertaken by the government on redulation of economic  life as a whole, have been directed to a life by sharp increase of taxes to get necessary means for continuation of war. By the end of war rise in price of first necessity products, shortage of bread, inflation, decomposition of transport communications has even more aggravated life of the population.

**Рана Асадова**

## ВЛИЯНИЕ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКУЮ ЖИЗНЬ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В результате комплексного исследования вызванных войной изменений в экономике страны выявлено, что война везде привела к сокращению производства, нехватке продуктов, подорожанию, ухудшению жизненных условии людей. Шаги, предпринимаемые правительством по урегулированию экономической жизни, в целом были направлены на то, чтобы путем резкого увеличения налогов получить необходимие средства для продолжения войны. К концу войны удорожание продуктов первой необходимости, нехватка хлеба, инфлияция, нарушение транспортных связей еще больше усугубили положение населения.

# BAKIDA SOVET HAKİMİYYƏTİNİN QURULMASI MƏSƏLƏSİ (1917-ci il noyabr-1918-ci il iyul)

**Vaqif ABIŞOV**
vaqif.abishov1955@gmal.com

**Açar sözlər:** S.E.Sef, “Müsavat”, Bakı Soveti, BXKS, bolşevik.

## Giriş

Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması problemini öyrənmək üçün XX əsrin 20-ci illərin tədqiqatalrı xüsusi əhəmiyyət kəsb edir. Məhz bu illərdə, birinci dəfə olaraq, problemin dövrləşdirilməsi müəyyən qədər azad və yaradıcılıq müzakirələrin predimetinə çevrilməyə başlamışdır. Artıq 1920-ci illərdə problemin öyrənilməsilə əlaqədar oçerklər, xatirələr və məqalələr həsr olunmağa başlanılmışdı. 1920-ci illərin sonlarından başlayaraq problemin tədqiqatına başlanmışdır. Bunu birinci mərhələ kimi qəbul etmək lazımdır. I. Bakıda Sovet hakimiyyətinin qurulması məsələsinə (1917-1918-ci illər).

1917-1918-ci illərdə Bakıda Sovet hakimiyyətinin qurulması məsələsinə aydınlıq gətirmək üçün ilk növbədə, Sovet tarixçisi Sefin əsərlərinə müraciət etmək lazımdır. Çünki problemlə bağlı, XX əsrin 20-ci illərində yazılmış tədqiqat əsərlərinin içərisində Sefin tədqiqatları daha çox diqqəti cəlb edir.

S.E.Sef ilk dəfə olaraq Cənubi Qafqazda siyasi vəziyyət və bolşevizmin Bakı rayonunda siyasi hakimiyyət uğrunda apardığı mübarizə ilə bağlı geniş məlumat verən sovet tarixçilərindən birincisidir desək, məncə yanılmarıq. Məhz onun əsərlərində problemin tarixşünaslığı geniş şərh olunmuş və ondan sonra gələn sovet tarixçiləri üçün həmin əsərlər həm mənbəşünaslıq, həm də tarixşünaslıq bazası olmuşdur.

Sefin 1927-ci il fevralın 16-da Azərbaycan Kommunist (b) Partiyası Bakı Komitəsinin yığıncağında etdiyi məruzəsi, elə həmin ildə də kitab halında çap olunmuşdur. Həmin kitab “1917-1918-ci illərdə Bakı rayonunda bolşeviklər hakimiyyətə necə gəlmişdilər” adlanır (1). Bu kitabı, onun problemlə bağlı çap olunmuş ilk əsəri hesab etmək olar. O, burada 1917-ci ilin fevral inqilabından sonra Zaqafqaziyada tarixi proseslərin öyrənilməsində tarixçi-marksistlərin çətin vəziyyətlə üzləşdiyini qeyd

etmiş və bu çətinliyi doğuran səbəbləri milli və sinfi münasibətlərin gərgin olması ilə əlaqələndirmişdi.

Sef bolşevizmin Bakı rayonunda hakimiyyətə gəlməsi yollarının metodoloji məsələlərinin həllinin 1927-ci ildə bir dəfəlik tapılması mümkün olmadığını və hadisələrə qiymət verilməsində çətinliklərlə üzləşdiyini qeyd etmişdir. Bunula bağlı Sef yazırdı: "Əgər Piter, yaxud Moskva rayonunda sinfi münasibətlər Oktyabr inqilabı dövründə tam açıqlığı ilə qarşıda dururdusa və sinfi mübarizə hər-hansı başqa kənar təsirlərlə çətinləşmirdisə, Bakı rayonunda vəziyyət tamam başqa cür idi". Onun sözlərinə görə, "bolşevizm Bakı Oktyabrının önündə getdiyi dövrdə, üç milli qrupun mövcudluğu şəraitində öz fəaliyyətini genişləndirmək məcburiyyətində idi" (1, s. 4). Sef üç qrup deyəndə türk, erməni və rus milli qruplarını nəzərdə tuturdu. Bununla əlaqədar olaraq o, yazırdı: "erməni milli fikrini "daşnaksütyun", türkləri "müsavat" təmsil edirdisə, sağ eser təşkilatı isə rusların milli arzularını təmsil etməyə cəhd göstərirdi" (1, s. 5).

Daha sonra Sef bolşeviklərin oktyabr 1917-ci ildən – mart 1918-ci il arasında hakimiyyətə doğru, yuxarıda qeyd olunan milli hərəkatın dalğasında, apardığı mübarizənin formalarından bəhs etmiş və müəyyən anlarda bolşeviklərin milli qruplardan istifadə etdiyini və bir qrupun başqa qrupa qarşı və ya əksinə istifadə etdiyini də etiraf etmişdir (1, s. 5).

Sef "Bakı Oktyabrına" qədərki hadisələrin dövrləşdirilməsi məsələsinə də münasibət bildirmişdi.

Sef bolşevizmin hakimiyyətə doğru yolunun birinci mərhələsi kimi bolşevizmin "1917-ci ilin oktyabr-noyabr aylarında Fəhlə və Əsgər Deputatları Sovetində rəhbərliyi ələ keçirmək uğrunda apardığı mübarizəni" göstərmişdi (1, s. 6). Onun sözlərinə görə "bu hələ hakimiyyət uğrunda mübarizə deyildir" (1., s. 6).

Sef ikinci mərhələ kimi "1917-ci ilin noyabrın sonu – dekabr aylarını əhatə etdiyini" qeyd etmişdir (1, s. 6). O, həmin dövrü hakimiyyətin dinc yolla ələ keçirilməsi uğrunda mübarizə kimi dəyərləndirmişdi. Sef sonuncu, yəni üçüncü mərhələnin "1918-ci ilin yanvarından başlandığını" qeyd etmiş və bu mərhələ "hakimiyyətə dinc yolla gəlmək illüziyasının aradan qalxması, "antibolşevik" qrupunun güclənməsi, inkişafı və bolşeviklərin silahlı çevrilişə hazırlıq dövrü kimi" qiymətləndirmişdi (1, s. 6).

O, eyni zamanda hər bir mərhələnin ayrıca xarakteristikasını da vermişdi.

Sef birinci mərhələnin xarakteristikasını göstərərkən, "bu mərhələdə bolşevizmin hakimiyyətə doğru irəlliləməsinin nə qədər çətin olduğunu" qeyd etmişdir (1, s. 6). Sef bu çətinliyi, əsasən, bolşeviklərin fəhlə və əsgərlər tərəfindən kifayət qədər müdafiə olunmadığı ilə əlaqələndirmişdi. Sef yazırdı ki, "şəraitin çətinliyi ondan ibarət idi ki, Fəhlə və Əsgər deputatlarının Bakı Sovetində vəziyyəti bu dövrdə bolşeviklər partiyasının Sovetdə çoxluğuna imkan verməmişdir. Hətta, oktyabr ayında bolşevizmin üstünlüyündən danışmaq mümkün deyildir. 1917-ci ilin oktyabr ayında Bakı Sovetinə seçkilər göstərdi ki, birinci yerdə milli türk qruppası olan "Müsavat", onun ardınca erməni "daşnaksütyun", yalnız üçüncü yerdə bolşeviklər gedirdi" (1, s. 6).

Sef Fəhlə və Hərbi Deputatlar Sovetində bolşeviklərin üstünlüyü ələ almaq yolunda 1917-ci il oktyabrın 15-də Sovetin genişləndirilmiş iclasını önə çəkir. "Oktyabrın 15-də Sovetin genişləndirilmiş yığıncağında mandat komissiyasının hesablamasına görə Sovetin 250-dən çox həqiqi üzvündən 99 nəfəri iştirak edirdi.

Menşeviklər yetərsayın olmamasını əsas gətirərək iclasın səlahiyyətli olmadığını göstərmişdir. İclasda iştirak edən 371 nəfərin yalnız 99 nəfəri Sovetin üzvü idi. Lakin Şaumyan Fəhlə və Hərbi Deputatlar Sovetinə yenidən seçkilərə qədər konfrasın səlahiyyətli olması qərarını keçirə bilmişdir (1, s. 7). Sef bunu Sovetdə hakimiyyət uğrunda mübarizədə son dərəcə "qətiyyətli addım" (bolşeviklər tərəfindən-A.V.) hesab etmişdi.

Lakin "1917-ci il oktyabrın 15-də hakimiyyətin Sovetə verilməsinin vacibliyini qəbul edən Sovet, oktyabrın 27-də hakimiyyətin Sovetə ötürülməsi məsələsini inkar etmişdir. Yenə də həmin Sovet oktyabrın 31-də, sonra noyabrın 2-də hakimiyyəti yenə də Sovetə verilməsinin zəruriliyi haqqında qəti qərar qəbul etmişdir. Bunula belə, nəzərə almaq lazımdır ki, 1917-ci il oktyabrın 15, 27, 31-i və noyabrein 2-də keçirilən bütün bu yığıncaqlar əslində Sovetin yığıncağı hesab olunmurdu. Həmin yığıncaqlar əsgər kütlələrinin nümayındələri və mədən-zavod komitələrinin nümayəndələri ilə birgə azlıqda qalan köhnə Sovetin yığıncağını təmsil edirdi" (1, s. 8-9). Sef "Bu proses Sovetdə hakimiyyətini möhkəmləndirilməsi baxımından bolşevizmə ... çox şey" (1, s. 8-9) verdiyini də qeyd etmişdir.

Ümumiyyətlə, bolşeviklərin, eləcədə eser-menşeviklərin Sovetə belə önəm verməsinin əsas səbəbi, onun fəhlə və əsgərlər arasında yeganə hakimiyyət forması kimi qəbul edilməsi idi. Bir halda ki, 1905-ci ildən başlayaraq Sovet fəhlə və əsgərlər arasında nüfuza malikdirsə, onda başqa bir qrumun yaradılmasına nə ehtiyac vardı. Digər tərəfdən, həmin dövrün hadisələrini dərindən araşdırarkən aydın olur ki, o vaxtlar bolşeviklərin yeni bir hakimiyyət forması yaratmağa nə vaxtları vardı, nə də gücləri. Ona görə də bolşeviklər Sovetdə hakimiyyəti təcili ələ keçirmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdılar.

Sef bolşeviklərin hakimiyyətə gəlməsinin ikinci mərhələsi kimi 1917-ci ili noyabr-dekabr aylarını göstərmiş və onun da xarakteristikasını vermişdir.

Sef tərəfindən ikinci mərhələ (noyabr-dekabr) "1917-ci ildə, hər şeydən əvvəl, İctimai Təhlükəsizlik Komitəsinin ləğvi və bəzi vahid rəhbərediciliyin əsaslarının yaradılması uğrunda mübarizə kimi" xarakterizə olunmuşdur (1, s. 10). O, bu mübarizənin "həddən artıq çətin olmasını, çətinliyin əsas səbəbi kimi isə sağ sosialist qruplarının təşkilatda (Sovetdə - A.V.) mövqelərinin kifayət qədər möhkəm olması ilə" əsaslandırmışdı (1, s. 10).

"İctimai təhlükəsizlik komitəsinin ləğv edilməsi uğrunda mübarizə ilə bərabər, bolşeviklər bu dövrdə müxtəlif idarəetmə sahələrində də öz təsirlərini genişləndirməyə çalışmışdılar. Lakin bu çox vaxt mümkün olmamışdı" (1, s. 11). Sefə görə "ikinci mərhələdə də bolşeviklər Bakı rayonunda hakimiyyətə (1917-ci ilin noyabr-dekabr ayları) tam sahib ola bilməmişdilər" (1, s. 11).

Sef yazırdı: "İctimai təhlükəsizlik komitəsi ləğv olunandan sonra bolşeviklər öz hakimiyyətini möhkəmləndirmək üçün Şəhər Duması ilə də mübarizə aparmalı olmuşdur. Əlbəttə, bu dövrdə bolşeviklərin qarşısında duran ən vacib məsələ, hər şeydən əvvəl, Sovetdə öz üstünlüklərini və təsirini qoruyub saxlamaq və möhkəmləndirməkdən ibarət idi" (1, s. 11).

Bolşeviklər Sovetdə hakimiyyəti ələ keçirəndən sonra Sovetə yenidən seçkilər uğrunda geniş kompaniyaya başlamışdır. Sef, "bu kompaniyanın çox çətin olduğunu və yeni, böyük maneiələr və təhlükələrlə nəticələnə biləcəyini" vurğulamışdır (1, s. 11).

Yeni Sovetə seçkiləri keçirməli olan Seçki komissiyası bolşeviklərin əlində deyildi. Orada müxtəlif partiyaların nümayəndələri var idi. Bu seçki

komissiyası yeni Sovetə seçkilər üçün seçki sistemi yaratmışdır. Sef yazırdı ki, "o vaxtlar bizim üçün (yəni bolşeviklər üçün – A.V.) son dərəcə əlverişli deyildi. Bu seçki sistemi, hətta bolşeviklərə köhnə Sovetdə əldə etdikləri qüvvələr nisbətini qoruyub saxlamaq zəmanəti vermirdi" (1, s. 11).

Bolşeviklər çoxpartiyalı seçki sisteminin əleyhinə idilər. Çünki, onlar demokratik seçki yolu ilə hakimiyyətə gəlmək gücündə deyildilər. Digər bir tərəfdən isə bu dövrdə bolşeviklərin fəhlə və əsgərlər arasında nüfuzu olduca zəif idi.

Sef yazırdı ki, "ikinci mərhələnin sonunda Bakı Sovetində cəmi 58-60 səsə malik olan bolşevizm öz üstünlüyünü sonradan genişləndirmək və inkişaf etdirmək imkanı əldə etmiş oldu. Bu mübarizəni elə müvəffəqiyyətlə genişləndirdi ki, 1918-ci ilin martında hakimiyyətə gəlməyə bacardı" (1, s. 12).

Sef bolşeviklərin üstünlük qazanmasının səbəblərini araşdırarkən ilk olaraq, onların azlıqda olmasına baxmayaraq, milli məsələdə gah bir milli qrupdan, gah da başqasından istifadə edərək çox məharətlə manevr etdiklərini göstərmişdi.

Sef bolşeviklərin Sovetdə üstünlüyünün köklərini daxili proseslərdə axtarmağın vacibliyini önə çəkmişdi. O yazırdı ki, "Sovetdə müxtəlif milli qruplaşmalar sağdan sola parçalanırdılar" (1,s.13). Sef burada bolşeviklər partiyasının üzv olan fəhlələrdən deyil, bu və ya digər milli qrupların tərəfində olan fəhlələri nəzərdə tutmuşdu. Onun sözlərinə görə "mühüm məsələlərdə onlar öz səslərini bolşeviklərə verirdilər" (1, s. 13). Sef məhz bu inamın nəticəsində bolşevizmin üstünlüyünün genişləndiyini əsas kimi vurğulamışdı.

Sef üçüncü mərhələnin xarakteristikasını verərkən "1917-ci ilin dekabrın sonlarında vəziyyətin tamamilə dəyişdiyini, sosial və milli ziddiyyətlərin kəskinləşdiyini və bolşevizmin Bakı rayonunda dinc yolla hakimiyyətə gəlmək illuziyasının aradan qalxdığını göstərmişdi" (1, s. 14).

Sef bunun səbəbini özünəməxsus formada şərh etmişdi. O yazırdı: "Əgər yanvar ayına qədər bolşevizmə aydın deyildi ki, əksinqilab haradan hücuma başlayacaq. Şamxor (Şəmkir-A.V.) hadisəsindən sonra heç bir şübhə qalmamışdır ki, əksinqilab türk milli qruplaşması tərəfindən olacaqdır" (1, s. 15). Sefin sözlərinə görə "bu andan hakimiyyətə sülh yolu ilə gəlməyin mümkünlüyü illüziyası aradan qalxmışdır. Bolşevizm qızğın surətdə silahlı mübarizəyə hazırlaşmağa başlamışdı" (1, s. 15).

Daha sonra Sef yazırdı: “1917-ci il dekabrın ikinci yarısında artıq Bakıda iki iri bolşevik hərbi təşkilatın mövcudluğunu görmək mümkündür. Bunlardan birincisi, bu dövrdə Tiflisdən Bakıya köçmüş, Ölkə Qafqaz Ordu Sovetinin bolşevik hissəsi olan Qafqaz ordusunun Hərbi-İnqilabi Komitəsidir. İkincisi isə, əksinqilabla mübarizə aparmaq üçün yaradılmış hərbi təşkilat – 1917-ci ilin dekabrında təşkil olunmuş Bakı Sovetinin Hərbi-İnqilabi Komitəsidir” (1, s. 15).

Sef “1918-ci ilin yanvar-mart ayları dövrünü partiyanın sürətlə çıxışa (bolşevikin silahlı çıxışı nəzərdə tutulur-A.V.) hazırlaşdığı dövr kimi qiymətləndirmişdi” (1, s. 15).

O, bolşeviklər tərəfindən Bakı Sovetinin varlığına və fəaliyyətinə bu qədər böyük diqqət verməsinin səbəblərini də açıqlayır. Onun sözlərinə görə “məhz bu təşkilat (Bakı Soveti nəzərdə tutulur – A.V.) Bakı rayonunda proletariatın həyatında müşahidə edilən dolaşıq və həddindən artıq çətin prosesləri özündə əks etdirmişdi” (1, s. 16).

O, bolşeviklərin müxtəlif manevrlər etməklə Sovetdə üstünlüyü ələ aldığını, sol eserlərin bolşeviklərin tərəfində durmasını, onları müdafiə etmələri, xüsusi olaraq vurğulamışdır. Sef, eyni zamanda bolşeviklərin Sovetdə olan müxtəlif meyilli və milli qruplar arasında, eləcədə ayrı-ayrı qrupların öz daxilində olan ziddiyyətlərdən məharətlə istifadə etməklə üstünlük əldə etdiklərini göstərmişdi (1, s. 16-17).

Sef, üç milli qrup heç vaxt bolşevizmə zərbə vurmaq üçün birgə çıxış edə bilmədiklərini qeyd etməklə yanaşı, üçüncü mərhələnin xarakteristikasının sonluğunu belə göstərmişdi: “Beləliklə, üçüncü mərhələ: 1) bir tərəfəndən sosial ziddiyyətlərin artması, sülh yolu ilə hakimiyyətə gəlməyin nisbi mümkünlüyü illüziyasının aradan qalxması, silahlı mübarizəyə əksinqilab və inqilabi qüvvələrin hazırlaşması kimi xarakterizə olunur; 2) milli ziddiyyətlərin artması həmin anda milli qruplaşmanın hər-hansı birinin silahsız hakimiyyəti ələ keçirməsinə rəhbərlik etməyi mümkünsüz edirdi; 3) fəhlə kütlələrinin rəğbətinin artmasının davam etməsinə, tamamilə bizim (yəni bolşeviklərin – A.V.) arxamızca gəlməməsinə baxmayaraq, onlar öz hərəkətləri və proletar təşkilatında nümayəndələrinin hərəkətləri ilə milli qruplaşmaları daha da zəiflədir və beynəlmiləlçiliyi gücləndirirdi” (1, s. 18).

Sefin sözlərinə görə, "mart hadisələri vaxtı bolşeviklər iki milli qüvvənin (rus və erməni qüvvələrindən bəhs olunur – A.V.) üçüncü milli qüvvəyə qarşı ("Müsavat"ın rəhbərlik etdiyi müsəlman qüvvələri nəzərdə tutulur – A.V.) istifadə etmişdir". O, bu iki qüvvənin köməyi ilə bolşevizmin 1918-ci ilin martında hakimiyyətə gəldiyini etiraf etmişdir (1, s. 26-27).

Sef Qərbi Zaqafqaziyada baş vermiş hadisələrin Bakı rayonunda sinfi mübarizə prosesinə təsir etməsinə aydınlıq gətirmişdi. O, bununla əlaqədar olaraq 1917-ci ilin dekabrında fəhlə və ordu deputatlarının 2-ci Ölkə qurultayında gürcü menşeviklərinin əks-inqilabçıların tərəfini saxlamasını, Tiflisdə Zaqafqaziya hökumətinin təşkil olunması Bakı rayonunda milli ziddiyyətlərə aydılıq gətirdiyini, Şamxor (indiki Şəmkir – A.V.) hadisəsinin Bakı rayonunda bolşevizmlə mübarizə aparmaq üçün türk əksinqilabının silahlandığını, Bakıda "daşnaksütyun" və sağ eserlərin mövqelərindəki tərəddüdləri də qeyd etmişdir (1, s. 27).

Lakin Sef "bolşevizmlə mübarizə aparmaq üçün türk əksinqilabının silahlanmasından" nifrətlə yazdığı halda, bolşeviklərin silahlanmasını vacib saymış və ona haqq qazandırmışdı. Şübhəsiz, burada Sef sinfi mövqedən çıxış etmiş və onun üçün təmsil olunduğu bolşeviklər partiyasının prinsinpləri tarixi həqiqətlərdən üstün idi. Sefə görə (ümumiyyətlə, bu prinsiplər tək Sefə yox, bütün sovet tarixçilərinə aid etmək olar – A.V.) öz məqsəd və məramlarına uyğun mübarizə aparan bütün qüvvlər bolşevizmin düşmənidir.

Sef ilk dəfə olaraq "mart çevrilişini" (Sef mart hadisəsini bolşevik çevrilişi adlandırmış və bolşevizmin hakimiyyəti silahlı çevriliş yolu ilə ələ keçirdiyini göstərmişdi – A.V.) "Bakı Oktyabrı" adlandırmışdı. Daha sonra o, "Bakı Oktyabrını Bakı Kommunası uğrunda mübarizə kimi də dəyənləndirmişdi" (1, s. 28).

Sef bəzən tarixi həqiqətləri olduğu kimi vermişdi. Məsələn, O, müsavatın bolşevizmi tənqid etməsini, mart hadisələrini milli qırğın saymasını, bolşeviklərin "daşnaksütyun" qarşısında təslim olmasını qeyd etməsini, türk xalqına öz müqəddəratını azad surətdə təyin etmək imkanı verilməməsinin tənqid etməsini də başa düşülən saymışdı (1, s. 28). Bununla yanaşı o, bir sovet tarixçisi kimi bolşeviklərin apardığı "inqilabi" mübarizəni müdafiə etmişdir.

Sef yazırdı: "Müsavat"ın proqram maddəsində məsələ tamamilə aydın qoyulurdu. Orada göstərilirdi ki, bolşevizm beynəlmiləlçi deyil, milli rus qruplaşmasıdır, amma daha çox rusların sol qruplaşmasıdır ("Müsavat"ın inqilabın ilk günlərində bolşevikləri müdafiə etmələrinin səbəblərində biri elə bu amil olmuşdur-A.V.). Lakin, bu sol qruplaşmanın nümayəndələri son anda kadet-daşnak mövqelərinə təslim olmuşdular" (1, s. 29). Sefdən sonra heç bir Sovet tarixçisi bəhs olunan dövrün hadisələrinə bu qədər açıq və obyektiv yanaşmamışdır.

Daha sonra Sef, "mart çevrilişində" iştirak edən qüvvələrdən hansının, sosialist partiyalar blokunun – "daşnaksütyun"unmu, yoxsa bolşeviklərin hakimiyyətə gəlməsi məsələsinə də toxunmuşdur. Onun sözlərinə görə "bu məsələ olduqca vacibdir" (1, s. 29).

Sef yazırdı ki, "hakimiyyəti ələ keçirdikdən sonra bolşeviklərin fəaliyyətindəki ilk addım proletar inqilabının qələbəsini möhkəmləndirilməsi olmuşdur"(1, s. 29). O, çevrilişin müttəfiqləri və köməkçiləri hakimiyyəti bolşeviklərlə bölüşdürəcəklərini zənn etmələri tamamilə başa düşülən olduğunu, lakin onlar ciddi səhv etdiklərin göstərmişdi. Bolşeviklər və sol eserlərdən başqa Bakı Xalq Komissarları Sovetində daşnaksütyuna və bütün sağ sosialist partiyalarına bir yer belə verilməmişdir (1, s. 29).

Sef "Bolşeviklər hakimiyyəti hər hansı bir qüvvə ilə bölmək fikrində olmadığını" göstərmişdi (1, s. 29). O, "mart çevrilişində" fəhlə kütlələrinin iştirak edib-etməməsi məsələsinə də toxunmuşdu. Sef sual edirdi ki, doğrudanmı bu çevriliş özgələrin əli ilə deyil, öz əllərimizlə həyata keçirmişik? Daha sonra Sef, öz sualına özü də cavab verərək yazırdı ki, çevriliş "bütün Bakı rayonunun zəhmətkeşlərinin əli ilə həyata keçirilmişdi" (1, s. 30). Sef kitabının əvvəlində mart çevrilişinin daşnaksütyun və sağ sosialist partiyaların yaxından köməyi ilə baş tutduğunu yazırdısa, sonradan bu fikri inkar edərək, çevrilişi fəhlələrin və xırda burjua əsgər kütlələrinin əlləri ilə baş verdiyini yazmışdı. Halbuki, tarixi sənədlərdən, həmçinin Şaumyanın çıxışlarından və həmin dövrdə nəşr olunan müxtəlif yönümlü qəzetlərdən, hətta bolşevik mətbuatından da məlumdur ki, mart hadisələrində Bakı Sovetinin bolşevik rəhbərliyinə siyasi dəstəyi eser, menşevik və daşnaksütyun partiyaları, hərbi köməyi isə erməni silahlı dəstələri vermişdilər. Bu silahlı dəstələrin əsas hissəsi "Daşnaksütyun" və Erməni Milli Şurasına, müəyyən bir hissəsi isə Bakı Sovetinə tabe idi.

Sonradan bolşeviklər tərəfindən yaradılan drujinalar isə hələ yenicə formalaşırdı ki, onun da əsas tərkibi erməni və ruslardan ibarət idi.

Əlbəttə, "doğrudanmı bu çevriliş özgələrin əli ilə deyil, öz əllərimizlə həyata keçirmişik"? sualına cavab verən Sef, tarixi faktları bilə-bilə saxtalaşdırmışdı. O, yaza bilməzdi ki, bolşeviklər özgələrin köməyi ilə hakimiyyətə gəliblər. Çünki, məsələyə bu cür yanaşma bolşevizmin prinsiplərinə zidd idi. Sefin tarixi həqiqətləri saxtalaşdırması sonrakı sovet tarixçilərin üçün əsas meyar olmuşdur.

Daha sonra Sef, Bakıda fəaliyyət göstərən sol eserlərlə Moskvadakı sol eserlərin fəaliyyətini təhlil edərkən yazırdı: "Moskvada sol eserlərin qiyamı baş versədə, Bakı sol eserləri axıra kimi bolşeviklərlə birgə hərəkət etmişdilər" (1, s. 31). Sef bunu da olduqca vacib fakt kimi qiymətləndirmişdi. Çünki, Bakı Sovetində az səsə malik olan bolşeviklər sol eserlərin səsinə hər zaman möhtac olmuşdur.

Sef bolşeviklərin çətin anlarda siyasi mübarizə meydanında tək qaldıqlarını, hətta fəhlə sinfinin onları müdafiə etmədiklərini vurğulamışdı. O, yazırdı: "Əgər bolşeviklər bilsəydi ki, proletariat onu müdafiə edəcək, o, Soveti qova bilərdi və onun qərarlarını tanımazdı. Lakin bolşevikləri müdafiə edən qüvvə yox idi. Bolşevizm həmin anlarda proletariata dayaq kimi baxa bilməzdi. Sovet formal olaraq, hüquqi baxımdan onların əleyhinə qərar qəbul etmişdir, cəbhə müdafiəsiz qalmışdı, daşnaklar, milli qruplaşmalar ingilislərin dəvət olunmasını təbliğ edirdilər və s." (2, s. 38). Sovet tarixçisi Sefin real həqiqətlərə söykənən bu faktları bir daha onu göstərir ki, bolşeviklərin 4 ay təbliğat aparmalarına baxmayaraq, nə fabrik-zavod fəhlələri, nə əsgərlər, nə də ki, kəndlilər arasında özlərinə möhkəm dayaq tapa bilməmişdir. Ancaq, Sovet tarixşünaslığında 70-il bunun əksini, yəni bakı proletariatının, əsgərlərin və kəndlilərin guya bolşeviklərin avanqard dəstələri olduğunu göstərmək istəmiş və təbliğ etmişdilər.

Sefin əsəri problemin daha da dərindən araşdırılmasına kömək edir. Əsərdə bolşeviklərin siyasi hakimiyyətə gəlməsində fəhlələrin rolunu o qədər də qabardılmamışdır.

Sef bolşeviklərin ayrı-ayrı milli qruplaşmalar arasında ziddiyyətlərdən istifadə edərək, çevik manevrlər nəticəsində Bakı Sovetinin rəhbərliyində çoxluğu müvəqqəti olaraq öz xeyrinə həll etdiyini göstərmişdi.

Bolşeviklər müharibənin törətydiyi çətinliklərdən istifadə edərək həm ordu, həm də fəhlələr arasında özlərinə güclü dayaq yaratmaqla, nəinki Bakıda, ümumiyyətlə Azərbaycanda hakimiyyətə tam sahibi çıxmaq fikrində idilər. Lakin bolşeviklər Bakıda dinc yolla, yəni demokratik seçki yolu hakimiyyətə tam sahib olmaq üçün real gücə malik olmadığından, zorakı üsula əl atmağa qərara aldı.

Digər tərəfdən, Cənubi Qafqazda, o cümlədən Bakıda siyasi vəziyyətin getdikcə gərginləşməsi və xalqı öz ətrafında daha çox toplayan "Müsavat" partiyasının real gücə çevrilməyə başlanması, onların muxtariyyat çağırışları nəinki bolşevikləri, eləcədə daşnaksütyun, eser, menşevik və digər imperiyapərəst qüvvələri çox narahat edirdi.

Bolşeviklər yaranmış vəziyyətdən istifadə edərək, özlərinə əsas rəqib bildikləri "Müsavat"ın sosial dayaqlarını məf etmək və özlərinin təkhakimiyyətlərini yaratmaq üçün erməni hərbi birləşmələri və eser-menşevik qüvvələrindən öz ətrafında birləşdirdi. Bunun nəticəsi olaraq, Bakı Sovetinin erməni-rus silahlı birləşmələri Bakı və onun ətraf kəndlərində dinc türk-müsəlmanlara qarşı törətdikləri qətliamlar nəticəsində 12 mindən çox insan amansızcasına öldürüldü. Sef bu qətliamı "Bakı Oktyabrı" adlandırmış və yalnız bundan sonra bolşeviklərin özlərinin təkhakimiyyətlərini yaratdıqlarını qeyd etmişdir.

**Nəticə**

Beləliklə, qoyulan problemlə bağlı Sefin "1917-1918-ci illərdə Bakı rayonunda bolşeviklər hakimiyyətə necə gəlmişdilər" adlı əsərini təhlil edərkən gəlinən nəticələr: 1. Bolşeviklər 1917-ci il oktyabrın 31 və noyabrın 2-də eser, menşevik və daşnakların çoxluq təşkil etdikləri Bakı Sovetinin yalnız rəhbərliyini ələ keçirsə də bu hələ hakimiyyətə tam sahib olmaq demək deyildir; 2. bolşeviklər yalnız "mart çevrilişindən" sonra hakimiyyətdə müvəqqəti olaraq möhkəmlənə bilmişdir; 3. bolşeviklərin çətin günlərində fəhlə, kəndli və əsgərlər onları müdafiə etməmişdir; 4. Bakıda türk-müsəlman əhalisinə qarşı törədilən qətliamlarda bolşeviklərin əsas "zərbə qüvvəsini" erməni silahlı dəstələri təşkil etmişdir; 5. müəllif tərəfindən Bakıda türk-müsəlmanlara qarşı törədilən kütləvi qətliamları "Bakı Oktyabrı", "mart çevrilişi " kimi dəyərləndirmişdir.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**

1. Сеф С.Е. Как большевики пришли к власти в 1917-18 гг. в Бакинском Районе. Баку, АЗГИЗ, 1927, 62 с.

**Vagif Abishov**

**THE ISSUE OF THE ESTABLISHMENT OF SOVIET POWER IN BAKU IN (1917-1918)**

**SUMMARY**

**Key words:** S.E.Sef, "Musavat", Baku Soviet, Baku Soviet of People's commissariat, Bolshevik.

S.E.Sef is one of the soviet historians who had provided for the first time with broad information about the political situation in South Caucasus and the Bolsheviks' struggle for political power in the Baku region. Namely in his works the historiography of the problem has been described. Those works has become for the soviet historians coming after him as the base source studying and historiography. In the article was made use of S.E.Sef's work "How Bolsheviks came to power in 1917-1918 in Baku region".

It should be noted in particular that this work written in Russian is the first research relating to the problem. The author is trying to investigate Bolsheviks' struggle for power in 1917-1918 years thoroughly, in most cases presents the real facts as is, without distorting them. The work helps to clarify the nature of the intense struggle among the parties for seizure the political power in Baku, as well as their relations with each other in the mentioned period, and in-depth study of the problem.

S.E.Sef has given specific characteristics of the political parties existing in Baku and the struggle among them. He assessed the advantage gained on October 31 and November 2, 1917 in the management of Baku Soviet by the Bolsheviks as a first step in the way of seizing the real power. At the same time, he noted that the Bolsheviks had not had the real power absolutely yet. Author showed that after the "Baku October" in 1918, (the author called the massacre of more than 12 thousand Turkish-Muslim civilians in Baku in March 1918 by the Armenian armed forces as the "Baku October") could have gained temporary say in Baku Soviet. Then he assessed the "Baku October" as a struggle for the Baku commune as well. In one place of the article introducing the March massacre as "the March coup" S.E.Sef emphasizes that albeit temporarily this "victory" consolidated Bolsheviks in power. However, the role of the workers in bringing the Bolsheviks to the political power is not given protuberantly in the work.

**Вагиф Абышов**

## К ВОПРОСУ ОБ УСТАНОВЛЕНИИ СОВЕТСКОЙ ВЛАСТИ В БАКУ (1917-1918 ГГ.)
## РЕЗЮМЕ

**Ключевые слова:** С.Е.Сеф, «Мусават», Бакинский Совет, БСНК, большевик.

С.Е. Сеф является одним из первых советских историков, представивших обширную информацию о политической ситуации на Южном Кавказе, и борьбе большевизма за политическую власть в бакинском районе. Именно в его произведениях широко трактуется историографический аспект проблемы. Эти произведения явились как источниковедческой, так и историографической базой для последующих поколений советских историков.

В статье была использована написанная в 1927 книга С.Е. Сефа «Как большевики пришли к власти в 1917-1918 гг. в бакинском районе». Особо следует отметить то, что этот труд Сефа на русском языке является первым исследовательским произведением по данной проблеме. Автором предпринята попытка на достаточно глубоком уровне исследовать борьбу большевиков за власть в 1917-1918 гг., большей частью не прибегая к искажению реальных фактов. Исследование помогает прояснить многие нюансы напряжённой борьбы за власть между политическими партиями в Баку, выявить сущность их взаимоотношений друг с другом, а также глубоко изучить проблему.

Сеф даёт конкретную характеристику политическим партиям и шедшей борьбе между ними. Он оценил победу Бакинского Совета от 31 октября и 2 ноября 1917 года как первый шаг на пути к захвату реальной власти. В то же время, он показал тот факт, что власть ещё не находилась полностью у большевиков. Автор отмечал временное преимущество большевиков в Бакинском Совете после «бакинского Октября» 1918 года («бакинским Октябрём» автор назвал убийство армянскими вооружёнными формированиями в марте 1918 года более 12 тысяч мирного населения тюрков-мусульман в Баку). Позже, он оценил «бакинский Октябрь» как борьбу за Бакинскую Коммуну.

В другом месте своего исследования, назвав мартовские погромы «мартовским переворотом», Сеф подчёркивает, что это было хотя и временное но, упрочение позиций большевиков во власти. Однако в произведении не преувеличивается роль рабочего класса в приходе большевиков к политической власти. Анализ исследовательского произведения С.Е. Сефа «Как большевики пришли к власти в 1917-1918 гг. в бакинском районе» способствует более глубокому и тщательному изучению данной проблемы.

# ŞİMALI AZƏRBAYCANDA MÜLKƏDAR TORPAQ SAHİBLİYİ KƏNDLİ İSLAHATINDAN SONRAKI DÖVRDƏ

**Fazil BAXŞƏLIYEV**[*]
baxsaliebfazil@yahoo.com

*Şimali Azərbaycanda mülkədar torpaq sahibliyi iki əsrin qovuşuğunda xəzinə torpaq sahibliyilə müqayisədə bəzən üstünlük təşkil edirdi. İslahatdan sonra mülkədar torpaq sahibliyinin durumunda yaranmış yeni cəhətlərdən biri bu idi ki, mülkədar təsərrüfatlarında əmək məhsuldarlığı kəndli pay torpaqlarında, kəndlilərin ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda olduğuna nisbətən bir qədər yüksək idi. XIX əsrin 70-ci illərindən yerli idarəçilik orqanları mülkədarların təsərrüfatçılığın yeni metodlarına keçmələrini mümkün qədər stimullaşdırmağa çalışırdılar. 30 ilə yaxın bir müddətdə malikanələrin ümumi sayının 4600-dan 8411-ə çatması və onların torpaqlarının 742 min desyatindən 798 min desyatinə çatması, mülkədar torpaq sahibliyi daxilində gedən proseslərin nəticəsi idi.*

İslahatdan sonra Şimali Azərbaycan kəndində baş vermiş bütün dəyişikliklərə baxmayaraq 8130685 desyatin ümumi torpaq fondundan, xüsusi sahibkarlara məxsus olan torpaqlar 1168386 desyatin, islahatdan sonra XIX əsrin sonunadək kəndlilərin satın ala bildikləri pay torpaqları 43086 desyatin, sahibkarlardan hələ də pay torpaqlarını satın ala bilməyən və onları ağır şərtlərlə icarəyə götürən kəndlilərin istifadəsində isə 900 min desyatindən bir qədər çox idi(5-s.31).

Bakı və Yelizavetpol quberniyalarında, habelə Zaqatala dairəsində yüzlərlə desyatindən başlamış 90 min desyatinə qədər həcmdə xüsusi torpaq sahələri var idi. Şimali Azərbaycanda ümumi torpaq fondunun təxminən 3175 min desyatindən çoxu xəzinə və mülkədar torpaqları fonduna daxil olsa da, bunun təxminən 1/3-dən bir qədər çoxu-2,2 milyon desyatindən çoxu xəzinəyə aid idi və buna müvafiq olaraq, mülkədar torpaqlarını pay torpaqları şəklində icarəyə götürmüş sahibkar kəndliləri xəzinə kəndlilərindən təxminən iki dəfə az idi (19-s.68-69,s.90-91 ).

---

Fazil Baxşəliyev – t.ü.f.d. Bakı Dövlət Universitetinin dosenti

İki quberniya üzrə ayrı-ayrı qəzalarda mülkədar torpaq sahibliyi iki əsrin qovuşuğunda bəzən xəzinə torpaq sahibliyilə müqayisədə üstünlük də təşkil edirdi.

İslahatdan sonra uzun müddət ərzində mülkədar torpaq sahibliyinin durumunda yaranmış yeni cəhətlərdən biri də bu idi ki, mülkədar təsərrüfatlarında əkin sahələrinin suvarılan və dəmyə yeri olmasından, hansı məhsulun becərilməsindən asılı olmayaraq, əmək məhsuldarlığı kəndli pay torpaqlarında, kəndlilərin çox az miqdarda satın almağa nail olduqları və ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda olduğuna nisbətən bir qədər yüksək idi (6-s.92). Bunun səbəbləri içərisində ilk növbədə hələ əsrin 60-cı illərindən başlamış olan mərzləşdirmə prosesi zamanı mülkədarların öz ixtiyarlarında su mənbələrinə yaxın, münbit torpaq sahələrini saxlamaları, öz təsərrüfatlarında mütərəqqi aqrotexniki qayda və metodlardan istifadə etmələrini və s. göstərmək lazımdır (11-s.291).

Şimali Azərbaycanda bütün mülkədarların cəmi 70 %-dən bir qədər çoxunu təşkil edən torpaq sahibi olan bəylərin hər birinin cəmi 25 desyatinə qədər ümumi torpaq sahəsi var idi və bunun da yalnız orta hesabla hər birində cəmi 6,3 desyatini əkinə yararlı vəziyyətdə idi (2-vv.3-4). Bəy və ağaların cəmisi 16 %-dən bir qədər çox hissəsinin 25-100 desyatin arası torpaq mülkü var idi və bunlarda orta hesabla hər birində əkinə yararlı torpaq sahəsi 45,6 % idi. Ən nəhayət, hər birində orta hesabla 160 desyatinə yaxın əkinə yararlı torpaq sahəsi olan cəmi 8 % mülkədarlar 100-500 desyatin arası torpaq sahələrinə malik idilər (2-vv.6-7). Ən sonda, Şimali Azərbaycan mülkədarlarının yalnız 4 %-i 500 desyatindən yuxarı torpaq sahəsinə və hər biri orta hesabla 1580 desyatin münbit torpağa malik idi. Rəqəmlərdən göründüyü kimi, ali müsəlman silkinin cəmi 1000 nəfər nümayəndəsi təxminən 1500 desyatin əkinə yararlı torpaq sahəsinə, çox böyük sayda – 14 min nəfərdən çoxu isə 6,3-180 desyatin arası münbit torpaq sahəsinə malik idi (2-vv.8-9).

Mülkədar və digər xüsusi mülkiyyət kateqoriyasından olan 2168 386 desyatin torpaqlardan ən çox torpaq mülkünə sahib olanlar 200-ə yaxın idi (1-vv.14-16).

Bunlar Gəncə qəzasında Zülqədərovlar, Məlikbəyovlar, Zəngəzur qəzasında Usmiyevlər, Şuşa qəzasında Vəzirovlar, Quba qəzasında Mirzəyevlər, Qaryagin qəzasında Cavanşirovlar, Cavanşir qəzasında Ağalarov-

lar, Rüstəmbəyovlar, Naxçıvanskilər və Kəngərlinskilər, Lənkəran qəzasında Talışinskilər və digərləri idi. Bu mülkədarların hər birinin torpaq sahələri min desyatindən də çox idi. İri mülkədarlardan Zülqədərovların 35 minə, Usmiyevlərin 40 min, Cavanşirovların 18 min desyatinə yaxın torpaq mülkləri var idi (22-s.10).

Mülkədarların gəlirlərinin böyük bir hissəsini pay torpaqlarında çalışan asılı kəndlilərin ödədikləri məhsulun malcəhət vergisi təşkil edirdi (18-s.15). Kəndlilərdən hər desyatin üçün alınan 30 qəpikdən çox pul vergisi də mülkədarların gəlirlərinin artırılmasına xidmət edirdi (9-s.412-413).

Bəy və ağaların gəlir dərəcəsi onların torpaq sahələrinin və orada yaşayan asılı kəndlilərin sayından çox dərəcədə asılı olduğu üçün onlar hər vasitə ilə torpaq mülklərinin sahəsini genişləndirməyə çalışırdılar (7-s.31). XIX əsrin 60-70-ci illərində mülkədar təsərrüfatlarının daha da genişlənməsində iki amilin rolu xüsusi qeyd edilməlidir. Əvvəla, Cənubi Qafqazda kəndli islahatını həyata keçirməyə hazırlaşan müstəmləkə hökumətinin torpaqların mərzləşdirilməsi üçün 1863-cü ildən başlayaraq gördüyü işlərin gedişində Gəncə qəzasında Məlikbəyovlar, Cavanşir qəzasında Ağalarovlar, Rüstəmbəyovlar və digərlərinin öz mülklərinin yaxınlığında yerləşən yüzlərlə desyatin xəzinə torpaqlarını da ələ keçirmişdilər. İkincisi isə 1870-ci il 14 may Kəndli Əsasnaməsinin müəyyən etdiyi qaydaların tətbiqindən sonra mülkədarlar torpaqların ən azı 1/3 hissəsini özlərində saxalamaq hüququndan istifadə edərək, 5 desyatindən artıq olan kəndli pay torpaqlarını «kəsiklər» adı ilə öz mülklərinə birləşdirərək öz gəlirlərini bir qədər də artırmaq imkanı əldə etmiş oldular (3-vv.4-6).

XIX əsrin 70-ci illərindən başlayaraq, kənd təsərrüfatında kapitalist münasibətlərinin genişlənməsinə bütün imperiyada baş vermiş dəyişikliklərin təsiri nəticəsində yerli idarəçilik orqanları da əmtəə-pul münasibətlərinin artırılmasında maraqlı olaraq mülkədarların təsərrüfatçılığın yeni metodlarına keçmələrini mümkün qədər stimullaşdırmağa çalışır, kreditlər verir, kənd təsərrüfatı maşınları gətirir və s. tədbirlər görürdülər (17-s.376).

Lakin on illərlə sahibkar kəndlilərin əməyinin istismarı yolu ilə böyük sərvət qazanan və kəndlilərdən alınan vergiləri ilbəil artıran mülkədarlar təsərrüfatçılığın yeni metodlarının tətbiqində o qədər də maraqlı deyildilər (10-s.245).

İslahatdan sonrakı 3 onillik ərzində ilk növbədə əhalinin təbii artımı və digər səbəblərdən mülkədar mülklərinin bölünməsi hesabına torpaq sahiblərinin kateqoriyalarında ciddi say dəyişiklikləri baş verir. Belə ki, 25 desyatinə qədər torpağı olan malikanələr əsrin sonunda artıq 6000-dən çox idi. 500 desyatinə qədər torpağa malik malikanələr isə 2 dəfə artaraq 2045, 500 desyatindən çox torpağa malik olan mülkədar malikanələrinin sayı isə artaraq 3434 olmuşdu (4-v.40). Rəqəmlərdən göründüyü kimi, bəhs edilən və həm də çox da böyük olmayan vaxt ərzində birinci kateqoriyaya daxil olan və nisbətən az torpağa malik mülkədarların sayı 43,3 %, orta kateqoriyaya daxil olan mülkədar malikanələri 67,5% və nəhayət, iri mülkədar malikanələri 64,7 % artmışdı (hesablamalar özümündür). Rəqəmlərdən də göründüyü kimi ən az inkişaf dinamikası nisbətən kiçik mülkədar malikanələrinə, ən çox isə orta kateqoriyadan olan mülkədar malikanələrinə aid idi.

Belə bir fakt da xüsusi maraq doğurur ki, təxminən 30 ilə yaxın bir müddətdə malikanələrin ümumi sayının 4600-dan 8411-ə çatması ilə eyni vaxtda onların mülkiyyətində olan torpaqların həcminin 742 min desyatindən 798 min desyatinə çatması, yəni cəmi 56 min desyatin artması mülkədar torpaq sahibliyi daxilində gedən müəyyən proseslərin nəticəsi idi. Burada ehtimal edilən mülahizələr içərisində daha çox tutarlı görünən mülkədar ailələrinin daxilindəki təbii artım prosesi idi. Lakin bu, heç də, yeganə səbəb kimi qəbul oluna bilməz.

Digər bir cəhət. Ortahəcmli mülkədar malikanələrinin də təxminən 1,5 dəfə artmasını və onların daxilində cəmi 38129 desyatin sahənin əkinə yararlı, bunların sahiblərinin ailə üzvlərilə birlikdə 9596 nəfər olduğunu nəzərə alsaq, onda birinci kateqoriyadan olan mülkədar təsərrüfatlarında bir mülkiyyətçiyə orta hesabla 4 desyatindən bir qədər çox torpaq sahəsinin düşdüyü məlum olur (12-s.22).

Orta təbəqəyə daxil olan, təxminən 5053 mülkədarın (ailə üzvləri ilə birlikdə) 219725 desyatin torpaq mülkü var idi. Bu, bir mülkədar malikanəsinə təxminən orta hesabla 120 desyatin, bir ailə üzvünə isə 42,38 desyatin torpaq düşməsi demək idi (19-s.38-43).

Birinci və ikinci kateqoriyadan olan mülkədar torpaq sahibliyi üçün ümumi cəhət onların malikanələrinin sayının müvafiq olaraq 43,3 və 67,5 % artdığı halda torpağın ümumi sahəsinin dəyişməz qalması idi. Demək,

burada bir ailə üzvünün torpaq sahəsi isə təxminən 2 dəfəyə yaxın azalmışdı (hesablamalar özümündür).

Üçüncü kateqoriyaya daxil olan və 500 desyatindən çox torpaq sahəsinə malik olan mülkədarların vəziyyəti isə bir qədər başqa idi. Belə ki, bu kateqoriyadan olan və əsrin 70-ci illərinin əvvəlində 230, 90-cı illərində isə 343 iri mülkədar malikanəsinin (ailə üzvləri ilə birlikdə 1205 nəfər) mülkiyyətində 540316 desyatin torpaq var idi. Bu isə buraya aid olan hər bir malikanəyə təxminən, orta hesabla, 1580 desyatin əkinə yararlı torpaq sahəsi, bir ailə üzvünə isə 448,4 desyatin torpaq sahəsi düşməsi demək idi (19-s.40-45).

Mülkədar torpaq sahibliyinin kateqoriyalarından asılı olaraq onların kənd təsərrüfatı istehsalı sahələrində iştirak dərəcələri də bir-birindən fərqlənirdi(8-s.493).

Məsələn, XIX əsrin sonlarında xırda mülkədar sahibliyinə aid torpaqların həcmi xüsusi mülkiyyətdə olan torpaq fondunun cəmi 5 faizini təşkil edirdi (19-s.32-37). Bu kateqoriyadan olan mülkədarların torpaq sahələrinin azlığı,xüsusilə əkin üçün yararlı torpaq sahələrinin orta hesabla cəmi 4-6 desyatin təşkil etməsi onların istehsal faliyyətini çətinləşdirir, gəlir səviyyələrini xeyli aşağı salırdı. Xırda mülkədarların torpaqlarının becərilməsi səviyyəsi, istifadə etdikləri əmək alətləri və ümumiyyətlə, təsərrüfatçılıq fəaliyyəti adi sahibkar kəndlilərin pay torpaqlarında olan vəziyyətdən çox az fərqlənirdi.

XIX əsrin sonunda sayı 2045-ə çatan orta səviyyəli mülkədarların torpaqları ümumi xüsusi mülkiyyət kateqoriyasına daxil olan torpaqların 29 faizini təşkil edirdi və bu, xırda mülkiyyətçi mülkədar torpaqlarından, təxminən, 4 dəfə çox idi.

Nəhayət, iri torpaq sahibləri olan mülkədar malikanələrinin sayının 343 olmasına baxmayaraq, onların torpaqlarının xüsusi mülkiyyətə daxil olan torpaq fondunun 68 faizini təşkil etməsi, yaxud, xırda və orta miqyaslı torpaq mülklərinə malik mülkədarların torpaqlarından təxminən 2 dəfə çox olması əhəmiyyətli fakt idi. İri mülkədarın 198-nin 1000 desyatindən çox, 145-nin 1000 desyatinə qədər xüsusi mülkiyyət torpağı var idi (19-s.36-46).

XIX əsrin 60-70-ci illərində islahata hazırlıq və onun həyata keçirilməsi gedişində mülkədarlar yüzlərlə, bəzən minlərlə desyatin xəzinə və digər kateqoriyadan olan torpaqları ələ keçirdikdən sonra təsərrüfat fəaliy-

yəti sahələrilə daha çox məşğul olmağa başladılar və onların sayı ilbəil artırdı (16-s. 251-252).

1894-cü ildə statistika idarəsinin əməkdaşı İ.L.Seqalın Yelizavetpol quberniyasının Cavanşir qəzasında topladığı materiallar əsasında qəzada mülkədarların xüsusi mülkiyyətində olan 63100 desyatindən çox torpağın idarə edilmə qaydaları və ya formaları haqqında konkret nəticələr əldə etmək mümkün olmuşdur. Araşdırmalardan məlum olmuşdur ki, qəzanın 76 mülkədar təsərrüfatından 69-da mülkədarlar özləri öz təsərrüfatlarının idarəçiliyi ilə məşğul olmuşdular, qalan 7 təsərrüfatda torpaqlar müxtəlif şərtlərə icarəçi kəndlilərə və digər şəxslərə icarəyə verilmişdi. 76 mülkədar malikanəsindən birinin 8 min desyatinə, 28-nin 10-dan 100 desyatinə, 31-nin 100-dən 500 desyatinə, 5-nin 500-dən 1000 desyatinə qədər, 9-nun 1000-dən 2000 desyatinə, birinin isə 8 min desyatinə qədər xüsusi torpaq mülkiyyəti olmuşdu (19-s.40-45).

Mülkədarların özləri tərəfindən idarə edilən bir neçə müxtəlif malikanənin təsərrüfatçılıq fəaliyyətinin tam nəzərdən keçirilməsi malikanə sahiblərinin çoxsahəli təsərrüfatçılıqla məşğul olduğunu göstərirdi. Məsələn, 1680 desyatin torpaq sahəsi olan bir malikanə daxilində 490 desyatin torpaqda taxıl, 15 desyatində çəltik əkilmiş, daha sonra 5 desyatini meyvə bağlarından, 75 desyatini meşəlik sahədən, 500 desyatini biçənək və 500 desyatin isə otlaq sahəsindən ibarət idi. Qəzanın 76 mülkədar malikanəsindən ən kiçiyi-20 desyatin torpaq sahəsi olan malikanədə isə 9 desyatində taxılçılıq məhsulları, 2 desyatində üzümlük, 1,5 desyatində biçənək və 7,5 desyatində otlaq sahələri mövcud idi (19-s.43-45).

1894-cü ildə Cənubi Qafqaz Statistika İdarəsi tərəfindən araşdırma aparılmış Ərəş və Quba qəzalarının mülkədar malikanələrinin göstəriciləri də xüsusi maraq doğurur. Belə ki, Ərəş qəzasında 30 min desyatin xüsusi mülkiyyət təşkil edən torpaqların yalnız 11 min desyatindən bir qədər çox hissəsi mülkədarların öz istifadəsində, 19 min desyatinə yaxın olan hissə isə ən çox torpaqsız və aztorpaqlı kəndlilərin icarəsində olmuşdur. Araşdırma aparılmış 63 malikanə arasında 6-nın 1000-dən 3000 desyatinə qədər, 8-nin isə 100 desyatinə qədər xüsusi torpaq mülkü var idi. Qalanlar digər həcmdə torpaq sahələrinə malik olanlar idi (19-s.40-45).

Ərəş qəzasında Cavanşir qəzasına nisbətən icarə torpaq sahələrinin daha çox olması diqqəti ilk növbədə cəlb edir. Ərəş qəzasında iri mülkə-

darların hətta torpaqlarının bir hissəsini icarəyə verdikdən sonra belə, qalan hissədə ən çox biçənək və otlaqların olması diqqəti cəlb edir.

XIX əsrin 90-cı illərində Şimali Azərbaycanda təxminən 4220-ə yaxın mülkədar malikanəsinə məxsus olan 285 000 desyatin suvarılan torpaqlardan 104976 desyatin sahədə müxtəlif məhsullar əkilmişdi. Bu torpaqların 83596 desyatinində taxılçılıq və bostançılıq, 352 desyatinində yemçilik və qalan 4588 desyatinində digər bitkilərin yetişdirilməsilə məşğul olmuşdular (13-s.36-38).

Rəqəmlərdən göründüyü kimi, Cavanşir qəzasındakı mülkədar malikanələrinin əksəriyyətində taxıl əkini sahələri 100-500 deysatin arasında, Ərəş qəzasında 10-250 desyatin arasında dəyişirdi (13-s.45-46).

Yelizavetpol qəzasında 130 mülkədar malikanəsində suvarılan 33150 deysatin torpaq sahəsinin 10120 desyatinində taxıl məhsulları (təxminən 1/3-də) becərilirdi. Eyni zamanda, qəzada 23 mülkədar təsərrüfatında 2500 desyatin, 46 malikanədə isə 4600 desyatin suvarılan torpaq sahəsi taxılçılıq üçün ayrılmışdı (20-vv.63-75). Bütövlükdə isə taxıl əkini sahələri Şimali Azərbaycan qəzalarında hər bir mülkədar malikanəsinin payına orta hesabla 50-60 desyatin düşməklə bərabər, ümumi mülkədar torpaqlarının 34,4 faizini, suvarılan və əkinçilik məhsulları üçün nəzərdə tutulmuş torpaqların isə cəmi 12,56 %-ni təşkil edirdi (21-vv.20-35).Ayrı-ayrı qəzalar üzrə ümumiləşdirilmiş rəqəmlər mülkədar malikanələrində hansı fəaliyyət sahəsinin üstünlüyünü müəyyən etməyə imkan verir.

Yelizavetpol qəzasında 130 mülkədar malikanəsində 33150 desyatin suvarılan torpaqdan 10120 desyatinində taxıl məhsulları becərilirdisə, Quba qəzasında vəziyyət bir qədər başqa idi və burada 354 malikanədə 19337 desyatindən 2274 desyatində, Göyçay qəzasında 85 malikanədə 14180 desyatindən 13812 desyatində, Zəngəzur qəzasında 917 malikanədə 3491 desyatindən 2561 desyatində, Zaqatala dairəsində 243 malikanədə 762 desyatindən 62 desyatinində taxıl məhsulları əkilmişdi. (14-s.125).

Mülkədar malikanələrində kənd təsərrüfatı fəaliyyətinin hansı sahəsinin öndə getməsi məsələsi də müəyyən maraq doğurur. Belə ki, XIX əsrin 90-cı iləlrin də mülkədar malikanələrində 5853 desyatində çəltikçiliklə məşğul olmuşlar və bunun təxminən 1/4-i Cavanşir qəzasının (1500 desyatini) payına düşürdü. Yenə həmin dövrdə 454 desyatin mülkədar torpağında pambıq əkini olmuş və bunun təxminən 30 faizi və ya 135

desyatini Ərəş qəzasında idi. Quberniyada 10118 desyatin mülkədar torpaqlarında bağçılıq və bostançılıq sahələri yerləşmişdi və bunun 1406 desyatini Yelizavetpol qəzasının payına düşürdü (15-s.604).

### MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi. f.387, siy.1,iş 295
2. yenə orada, f. 387,siy.1, iş 300
3. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi. f.43, siy.1, iş 3
4. yenə orada, f.43, siy.1, iş 119
5. С.Л.Авалиани. Крестьянский вопрос в Закавказье. т.IV. Издательство Тбилисского Государственного Университета. Тифлис 1920 г.225с.
6. С.Л.Авалиани. Крестьянский вопрос в Закавказье. т.V. Издательство Мецниеребаха..Тбилиси. 1986., 121 с.
7. T.T.Vəliyev. XX əsr Azərbaycan tarixi. I cild. Bakı.Təhsil nəşriyyatı. 2009. 560 s.
8. Гугушвили П. В. Сельское хозяйство и аграрные отношения в Закавказье на рубеже XIX-XX вв.., Издательство Академий Наук Грузинской ССР., Тбилиси. 1955. 698 с.
9. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. ч. II. Издательство Академии Наук СССР. М-Л. 1936. 479 с.
10. В.Д.Мочалов. Крестьянское хозяйство в Закафказье к концу ХЫХ в. Издательство Академии Наук СССР., М.1958., 492 с.
11. А.Н.Медушевский.**П**роекты аграрных реформ в России. XVIII - начало XX вв.Издательство Наука. Москва 2005 г. 641 с.
12. МИЭБГКЗК., т. IV, ч.1, Издательство А.А.Михельсона. Тифлис, 1886, 763 с.
13. МИЭБГКЗК., т. VII. ,ч. I, Издательство А.А.Михельсона. Тифлис, 1886, 841 s.
14. МИЭБГКЗК., т. VI. ,ч., II., Издательство А.А.Михельсона. Тифлис, 1887, 763 s.
15. МИЭБГКЗК., т. I., Издательство А.А.Михельсона. Тифлис, 1886., 478 s.
16. А.А.Умаев. Процессы капиталистического хозяйства в сельском хозяйстве Азербайджана в конце XIX –начале XX вв. с.250-251., Издательство Элм., Баку 2002., 529 с.
17. Под ред.А.Н.Сахарова. История России с начала XVIII – до конца XIX вв. Издательство АСТ. Москва 2001. 544 с.
18. Сборник статистических сведений о Кавказе., Типография Канцелярий Главноначальствующего гражданской частью на Кавказ., Тифлис. 1898., т.1., 743 с.
19. Сборник статических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Типография М.Шарадзе. Тифлис, 1899., 841 с.
20. ЦГИА РФ, ф.573,оп.25, д.64,лл.63-75;
21. ЦГИА РФ, ф.573,оп.25д.313, лл.20-35
22. Ə.C. Rəhimov. Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Azərbaycan SSR EA-nın nəşriyyatı., Bakı 1962.,131 s.

**F.Bakhshaliyev**

## LANDLORDISM AFTER THE PEASANT REFORM OF MAY 14, 1870

### SUMMARY

The article elaborates the changes in the position of landlordism in the countryside of Northern Azerbaijan possessory posledovavschiesya immediately after the reform. Indicated landowners and lords of the North Azerbaijan, even after the reforms maintained a dominant position on land tenure. Gradually deprived of the old hands, or they gave their land on lease to different persons, or themselves become to his farm on the new capitalist rules. Place the process of selling and laying the landlords' land banks. Sometimes landowners and lords resorted to the use of hired labor on their farms.

**Ф.Бахшалиев**

## ПОМЕЩИЧЬЕ ЗЕМЛЕВЛАДЕНИЕ ПОСЛЕ КРЕСТЬЯНСКОЙ РЕФОРМЫ ОТ 14 МАЯ 1870 ГОДА

### РЕЗЮМЕ

В статье подробно излагается все изменения в положении помещичьего землевладения во владельческой деревне Северного Азербайджана последовавщиеся сразу после реформы. Указывается помещики и беки Северного Азербайджана даже после реформы сохраняли свое господствующие положение в области землевладения. Постепенно лишившиеся прежних рабочих рук они или отдавали свои земли в аренду разным лицам, или сами стали вести свое хозяйство по новым капиталистическим правилам. Происходил процесс продажи и закладывание помещичьих земель в банках. Иногда помещики и беки прибегали к использованию наемного труда в своих хозяйствах

## 1988-Cİ İL SUMQAYIT HADİSƏLƏRİ VƏ MƏRKƏZİ HAKİMİYYƏT ORQANLARININ MÖVQEYİ

**İbrahim MƏMMƏDOV***

1988-ci ilin fevralın 28-i və 29-da Sumqayıtda müxtəlif qruplar, əsasən də dəfələrlə mühakimə olunmuş retsidivistlərdən ibarət olan qruplar ermənilərin yaşadığı mənzillərə hücum edərək adamları öldürməyə, zorlamağa və qarət etməyə başladılar. İki günlük talanlar nəticəsində Sumqayıt şəhərində 26 nəfər milliyyətcə erməni olan Azərbaycan vətəndaşı, 6 nəfər isə azərbaycanlı həlak oldular, 200 mənzil talan edildi, 50-dən artıq mədəni-məişət obyekti dağıdıldı, 40-dan cox avtomobil zədələndi və yandırıldı, dövlətə o zamankı qiymətlərlə 7 milyon rubl məbləğində maddi ziyan vuruldu.

Talanlara antierməni xarakter verilmişdi və azərbaycanlıların ermənilərə hücumu kimi təqdim olunurdu. Ermənilər mərkəzi hakimiyyət orqanlarındakı himayədarları vasitəsilə Əhməd Əhmədov və daha üç azərbaycanlı üzərində Moskvada tələsik açıq məhkəmə təşkil etməklə anti-azərbaycan əhval ruhiyyəsini daha da gücləndirdilər. Məhkəmənin gedişi zamanı SSRİ rəhbərliyi tərəfindən paytaxtda həftələrlə mitinq keçirən ermənilərə hər cür imkanlar yaradılmışdı. Şübhəsiz bu hadisə yalnız Azərbaycanın milli maraqlarının əleyhinə idi və onun düşmənlərinə hücum üçün əlavə arqumentlər verirdi. Sonralar istintaqın gedişi və çox mətləblərin aydınlaşması nəticəsində bu böyük təxribatın gizlinləri açılmağa başladı. Beləki, talanların araşdırılması təhqiq olunmamış çoxsaylı müəmmaların ortaya çıxması ilə nəticələndi. Ən birinci müəmma talanın başlanmasının səbəbkarının və talan zamanı bilavasitə 6 nəfəri şəxsən öldürmüş və zorlamış şəxsin Eduard Qriqoryan adlı erməninin olması idi. Onun Dağlıq Qarabağdan gəlmiş ermənilərlə əlaqələri, əlində ermənilərin yaşadığı evlərin siyahısının olması, talan üçün retsidivistlərdən ibarət qrupu formalaşdırması, zorakılıq və qətlləri mümkün qədər nümayişkəranə həyata keçirməyə cəhd göstərməsi haqda cinayət materillarında kifayət qədər faktların

---

* İbrahim Məmməd oğlu Məmmədov – AMEA A.A.Bakıxanov adına Tasrix İnstitutunun dissertantı

olmasına baxmayaraq istintaq onları araşdırmayıb. İstintaq həm də talanın arxa planda qalmış, amma istintaqa əlamətləri bəlli olan təşkilatçılarını axtarmağa cəhd göstərməyib. Həm də nəinki cəhd göstərməyib, əksinə, onları ört-basdır etməyə çalışıb. İstintaq materiallarında təşkilatçılarla bağlı bütün izlər Yerevana, Stepanakertə, Daşkəndə və Moskvaya qədər uzanaraq oralarda itir. Biz bu izləri və istintaqın araşdırmadığı başqa suallara cavab axtarmağa çalışacağıq.

Öncə ilk baxışdan adi görünən belə bir fakta diqqətinizi çəkmək istərdim: Talan və qarətlərin qarşısını almaqda çətinlik çəkən yerli hüquq-mühafizə orqanları vəziyyətə nəzarət etmək üçün şəhərə göndərilmiş general-leytenant Krayevə Sumqayıt yaxınlığındakı Nasosnı qəsəbəsindəki hərbi hissələri Sumqayıta yeritməklə talanların qarşısını almaq xahişi ilə müraciət edirlər. General Krayev «beş-on xuliqanın öhdəsindən də gələ bilmirsiniz» deyib köməkdən imtina etmişdi. Halbuki, o məhz sabitlik yaratmaq üçün Sumqayıta göndərilmişdi. Bilavasitə bu hadisələrin qarşısının alınması üçün məsul olan bir generalın etinasız, arxayın cavabı çox mətləblərdən xəbər verir ki, bizim araşdırmalarımızın da məqsədi məhz bu istiqamətdə - bu hadisələrin mərkəzi hakimiyyətdən qaynaqlanan izlərinin müəyyənləşdirilməsi olacaq.

Əlimizdə olan Sov.İKP MK Siyasi Bürosunun M.S.Qorbaçovun sədrliyi ilə keçirilmiş 29 fevral 1988-ci il tarixli "Azərbaycan və Ermənistan SSR-də baş verən hadisələrə əlavə tədbirlər haqqında" məsələnin müzakirəsi məqsədilə keçirilmiş iclasının stenoqramı bir çox gizli məqamların üzərinə işıq salmağa imkan verir ki, araşdırmamızın gedişində bu mühüm sənədə yeri gəldikcə müraciət olunacaqdır. Bu sənəd, eləcə də, hadisə ilə əlaqəli olan bütün şəxslərin verdiyi ifadələr hadisələr zamanı SSRİ rəhbərliyi tərəfindən baş verənlərə seyrçi münasibətin qəsdən göstərildiyi və bununla da talanın baş tutmasına əlverişli şəraitin yaradılması məqsədi güdüldüyü kimi nəticələrə gəlməyə əsas verir.

Sənəddən görünür ki, DTK-dan Kremlə real vəziyyəti əks etdirməyən məlumatlar verilirdi. Belə ki, fevralın 28-də Sumqayıtda talanların və qətllərin baş verdiyi faktdır. Ancaq fevralın 28-də DTK-nın sədri Çebrikov Mixail Qorbaçova zəng edib Sumqayıtda vəziyyətin normal olduğunu deyir. Bununla bağlı Mixail Qorbaçov fevralın 29-da Siyası Büronun iclasında məlumat verir və məsuliyyəti Çebrikovun üzərinə qoydu. Ancaq

bununla belə Qorbaçov özü də qəti qərar qəbul edilməsində maraqlı deyildi. O, hadisələrin bu istiqamətdə inkişaf etməsində DTK-nı ittiham edir və DTK-nı ölkədə vəziyyətə nəzarət etməməkdə günahlandırırdı. Çebrikov isə vəziyyətdən istifadə edərək Qorbaçovun yenidənqurma siyasətinin uğursuzluğunu nümayiş etdirməyə çalışırdı (1). Hadisələri bir qədər qabaqlayaraq bu faktın gətirilməsindən məqsəd əvvəlcədən oxucuda onların hansı səviyyədə himayə və idarə olunduğu barədə təsəvvur yaratmaq olduğundan, indi də baş verənlərin mahiyyətini açmağa kömək edəcək faktlara qayıdaq.

Tədqiqatçı Armen Marukyanın şahidliyinə görə «Müdafiə və Daxili İşlər nazirliklərinin hissələri fevralın 28-də axşam Sumqayıta gəlməyə başladılar, amma bir sutkadan sonra, axşam saatlarında artıq təxminən 10 erməni öldürülmüşdü, onlarla ev talan edilmişdi. Qoşunlar Sumqayıta daxil olanda adamlar döyüş maşınlarına doğru qaçıb kömək istədilər. Hərbçilər isə cavabında onlara bildirdilər ki, onlarda baş verənlərə qarışmaq haqda əmr yoxdur. Belə olan halda ortaya sual çıxır: qoşunlar nə üçün şəhərə yeridilmişdi?» (2).

ABŞ-dakı Con Hopkins universitetinin Mərkəzi Asiya və Qafqaz araşdırmaları İnstitutunun baş direktoru Svante Kornellin yazdığına əsasən, «Sovet ordu hissələrinin və daxili qoşunların Sumqayıt şəhərində yerləşməsi heç nəyi dəyişmədi; ordu sadəcə kənardan talanların necə baş verdiyini izləyəirdi. Sovet hakimiyyəti nəinki qan tökülməsninin qşarşısını almaq niyyətində deyildi, əksinə çalışırdılar ki, iki icma arasında münaqişə yaratsınlar» (3).

Əsgərlər və hərbi maşınlar şəhərdə görünsə də heç nəyə müdaxilə etmirdilər və hətta talanın baş verdiyi gün də kənar müşahidəçi kimi qalmağa üstünlük verdilər və düz fevralın 29-dək bu mövqedə qaldılar. Həm də nəinki seyrçi mövqedə qaldılar, hətta hazırlıq vəziyyətində olan şəxsi heyəti də buraxmaq haqda əmr verdilər.

O zaman Azərbaycan SSR DTK-nın baş əməliyyat müvəkkili, hazırda istefada olan polkovnik-leytnant Qalasılkin Yuri Stepanoviç bu barədə belə deyir: «Həmin gün şəhərdə baş verə biləcək hadisələrin qarşısının alınması üçün xüsusi qruplar da yaradılmışdı. Saat 11 radələrində əmr aldıq ki: «hər şey qaydasındadır, şəxsi heyəti buraxın» Amma bir neçə saatdan sonra hadisələr başlandı (4).

Hərbçilərin münasibəti də təəccüb doğurmaya bilməzdi. Məsələ ondadır ki, hərbçilər şəhəri nəzarətə götürənə qədər 5-6 adam öldürülmüşdüsə, hərbçilərin şəhəri tam nəzarətə götürməsindən, yerli polis və inzibati qurumların fəaliyyəti dondurulduqdan sonra ölənlərin sayı 32-yə çatdı.

Sov.İKP MK-nın partiya-təşkilat şöbəsinin müdirinin müavini olmuş Qriqori Xarçenko deyir: «Mən o zaman SSRİ DTK-nın sədrinin 1-ci müavini Filip Bobkovla Sumqayıta gəldim. Biz şəhərə gələndə orada artıq 15 nəfər öldürülmüşdü». Məsələ ondadır ki, bundan sonra, yəni şəhər Moskvadan gələnlərin nəzarətinə keçdikdən sonra 17 nəfər öldürüldü.

Q.Xarçenko da Sumqayıtda 32 nəfərin öldürüldüyünü, onların 6 nəfərinin azərbaycanlı olduğunu təsdiq edir. «O zaman Ermənistanda belə fikirlər səslənməyə başladı ki, guya Sumqayıtda az qala min nəfər öldürülüb. Amma mən sübut etməyə çalışırdım ki, Sumqayıtda 26-28 fevral hadisələri zamanı 32 nəfər həlak olub, onlardan 6-sı azərbaycanlılar idi. Axı məndə həlak olanların siyahısı da vardı» (5).

Həmin vaxt başı qruplaşmalar arası mübarizəyə qarışmış Siyasi Büro, Qorbaçov baş verənlərdə dolayısıyla Dövlət Təhlükəsizlik Komitəsinin sədri Çebrikovu günahlandıraraq, onu məlumat verməməkdə ittiham etmişdi. Guya ki, DTK baş verənlər barədə susur, Siyasi Büro isə baş verənlərdən xəbərsizdir (6).

Eyni fikri SSRİ DTK-nın 5-ci İdarəsinin şöbə rəsi Vladimir Lutsenko da təsdiqləyir: «Təssüf ki, bizdə heç nə alınmadı. Ona görə ki, DTK-nın baş verənlərlə bağlı bir mövqeyi vardı, ölkənin rəhbərliyinin isə tamamilə başqa. Bizə heç kim qulaq asmırdı. Bizim məlumatlarımıza fikir verilmirdi. Amma biz əvvəlcədən xəbərdarlıq etmişdik ki, orada proseslər yetişir, hər tərəfdən millətçilik özünə yol açır» (7). Yalnız iki gündən, talan hadisəsi baş tutduqdan sonra mərkəzi hakimiyyət orqanları işə qarışaraq cinayətkarları həbs etməyə başladılar.

Ancaq DTK-nın Sumqayıta ezam etdiyi şəxslər təşkilatçılarla bağlı istintaqçıların qaldırdıqları məsələləri araşdırmır, sorğular isə cavabsız qalırdı. Bu barədə Vladimir Kaliniçenko deyir: “Mən talanların birbaşa iştirakçısı olmuş kəsləri dindirdiyim zaman, onlar kütləni idarə edənlərin əlamətlərini təsvir edirdilər. Mən bunu çox yaxşı xatırlayıram. Sonra təsvir edilən şəxslər barəsində arayış almaq üçün sorğu göndərirdim ki, filan adamın dediyinə görə, həmin kəslər filan görünüşə malikdir, əyinlərində

filan-filan geyim var. Bu sorğulara təxminən belə cavablar alırdım: "tərəfimizdən aparılan çevik tədbirlər nəticəsində həmin kəslərin müəyyənləşdirilməsi mümkün olmadı" (8).

Yeri gəlmişkən, Kaliniçenkonun DTK-nın təşkilatçılar və Sumqayıt hadisələrinin təşkilatçısı olan Qriqoryanla əlaqədə olmuş erməni vasitəçilərlə bağlı istintaqçıların sorğularını müxtəlif bəhanələrlə rədd etmələri haqda sözlərini 1988-ci ildə Azərbaycan DTK-nın Sumqayıt şəhər şöbəsinin cəmi iki azərbaycanlı əməliyyat müvəkkilindən biri olmuş Aisif Cəbrayılov da təsdiqləyir. Oxşar vəziyyətlə o da dəfələrlə üzləşmişdi: "Bütün hallarda Moskva DTK-sından gəlmiş yüksək rütbəli zabitlərə məruzələr edilirdi. Biz öz tərəfimizdən bu məruzələri edərkən onlar deyirdilər: "bizim tərəfdən bu məsələlərə aydınlıq gətiriləcək". Çox təəssüflər olsun ki, bir neçə gün keçdikdən sonra onlar bizə bildirdilər ki, "bu məlumatlar təsdiq edilmədi, tapılmadı", yaxud "prosesə heç bir aidiyyatı yoxdur" (9). Azərbaycan və SSRİ prokurorluğu, DTK əməkdaşlarının dəfələrlə Ermənistana istintaq üçün göndərdikləri sorğuların da cavabsız qaldığı sənədlərlə sübut olunur. Sov. İKP MK Siyasi Bürosunun 1988-ci il fevralın 29-da keçirilən iclasında Siyasi Büro üzvlərinin təcili açıq məhkəmə keçirib günahkarların cəzalandırıldıqlarını nümayiş etdirmək qərarını qəbul etməsi də Sovet hakimiyyətinin ən yuxarı dairələrinin baş vermiş hadisəyə münasibətinin ən bariz nümunəsi idi.

Sumqayıt hadisələrini təhqiq etmiş stintaq qrupunun üzvü olmuş Niyazi Vəlixanov da bu barədə belə deyir: «1988-ci ilin, səhv etmirəmsə, dekabr ayında Sumqayıta SSRİ baş prokurorun müavini Aleksandr Katusev gəlmişdi. O, işlərin vəziyyəti ilə maraqlanırdı və keçirilmiş iclasda o belə bir göstəriş verdi ki, həmin hadisələrlə əlaqədar tutulmuş şəxslərin barəsində istintaq tamamlanmalı, qısa bir müddətdə işlər məhkəməyə göndərilməlidir. Bu da o demək idi ki, digər məsələlər, yəni aydınlaşdırılmalı olan və aydınlaşdırılmayan məsələlər kənarda qalırdı, çünki bütün qüvvə yönəlirdi ona ki, həbsdə olanların barəsində işlər məhkəməyə getsin» (10).

Sumqayıt hadisələri barədə sonralar həmin hadisələrin təşkilatçılarının verdikləri müsahibələrdən baş verənlərin hakimiyyətin ən yüksək dairələrində baş alıb gedən xaosun, bi-biriylə mübarizə aparan ayrı-ayrı qruplaşmaların əks tərəfi ittiham etmək üçün arqument əldə etmək məqsədilə təşkil etdikləri bəlli olur. Beləki, M.Qorbaçovun yaxın adamlarından

biri, ermənilərə xüsusi simpatiyası ilə seçilən, yenidənqurma siyasətinin ideoloqu olmuş Aleksandr Yakovlev Sumqayıt hadisələrindən dörd il keçdikdən sonra bu haqda sensasiyalı bəyanat verdi. Moskovskie novosti qəzetinə 1992-ci ildə verdiyi müsahibədə A.Yakovlev deyir: «Dnestryanı və Sumqayıt hadisələrini SSRİ DTK-sı təşkil etmişdi». Azərbaycan televiziyasına müsahibəsində də Yakovlev anoloji etirafda bulunaraq deyir: «Sumqayıt və Bakıda olan hadisələrə gəldikdə, düşünürəm ki, bu, sırf təxribat idi – hərbi sənaye kompleksinin təxribatı! Sumqayıt hadisələrində bu, ilk növbədə Dövlət Təhlükəsizlik Komitəsinin təxribatı idi. Bu, M.Qorbaçov hakimiyyəti üçün qurulmuş bir sınaq idi» (11).

DTK-da isə əksinə, Yakovlevi millətlərarası münasibətləri qızışdırmaqda, münaqişə ocaqları yaratmaqda ittiham edirdilər. Məsələn, SSRİ DTK-nın sədrinin 1-ci müavini Filip Bobkov deyir: «O, əsas rolda olan kəs idi. Əvvəla, ideoloq, ikincisi isə, bu həmin o kəs idi ki, hər yerdə milli hissləri alovlandırırdı. Latviya və Litvada münaqişəni kim qızışdırdı? Yakovlev! Yakovlev litvalıları ruslarla toqquşdurdu. Gürcüstanda da eynilə... Yakovlev!» (12).

Siyasi Bürodakı müzakirələrin stenoqramı isə göstərir ki, Qorbaçov özü də vəziyyətin gərginləşdirilməsində və dərinləşdirilməsində maraqlı tərəf idi. Ona vəziyyəti nəzarətə götürməyi və qan tökülməsinin qarşısını almağı təklif etdikdə o, fəhlə sinfinə arxalanmağı, drujinaçılardan istifadə etmək kimi qeyri-real amillərdən danışır. Halbuki siyasi büroda çıxışı göstərirdi ki, hər şeydən xəbərdar idi. Amma Qorbaçov qərar qəbul olunmasını gecikdirməklə praktik olaraq qan tökülməsinə, talanların baş tutmasına şərait yaradırdı. Siyasi Büroda isə məhz Çebrikovun ona hadisələrlə, proseslərlə bağlı səhv məlumat verdiyinə işarə edir, günahı Çebrikovun üzərinə qoyurdu (13).

Beləliklə, DTK Sov.İKP-nı lazımi qərarları qəbul etməməklə qan tökülməsinə şərait yaratmaqda, Sov.İKP isə DTK-nı yenidənqurma siyasətinə, liberal islahatlara mane olmaq üçün münaqişələr yaratmaqda ittiham edirdilər. Amma bu qarşı-qarşıya qoyulmuş xalqların taleyində heç nəyi dəyişmir. Ona görə ki, həm DTK, həm də Siyasi Büronun bu münaqişələrdən yararlanmağa çalışdığı göz qabağındadır.

Bütün sadalanan sənədlər və gətirilən faktlara əsasən belə nəticəyə gəlmək olur ki, Sumqayıt hadisələrinin təşkilatçılarının gizlədilməsində və cinayətlərin ört-basdır edilməsində, onun tam araşdırılmamasında Sov.

İKP MK-nın Siyasi Bürosu, şəxsən Mixail Qorbaçov, DTK, Ermənistan və Dağlıq Qarabağın elitası maraqlı idilər. Siaysi Büro və M.Qorbaçov fevralın 29-da keçirilmiş iclasda birbaşa və birmənalı olaraq bu talanların xuliqanlıq edən elementlərin işi olduğunu deməklə təşkilatçıları axtarmağa ehtiyac olmadığı haqda siyasi göstəriş vermiş oldu.

1988-ci il Sumqayıt hadisələri erməni millətçiləri ilə sovet imperiyasının xüsusi xidmət orqanlarının iki əsas məqsədinə xidmət edirdi və onlar bununla əvvala bütün azərbaycanlıları Ermənistandan birdəfəlik deportasiya etməklə azərbaycanlılarsız Ermənistan yaratmağa, ikincisi, azərbaycanlıları Dağlıq Qarabağdan sıxışdırıb çıxarmaq və Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün əlverişli siyasi zəmin formalaşdırmağa nail oldular.

Bu hadisəni şəxsi nəzarətinə götürmüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan dövlətinin Sumqayıt hadisələrinin araşdırılmasında maraqlı olduğunu bəyan edib: «1988-ci ilin fevralında Sumqayıtda baş vermiş hadisələr əslində Azərbaycan xalqına qarşı törədilmiş təxribatdır. Ona görə də hazırda mənim göstərişimlə bu məsələ haqda cinayət işi yenilənib. İstintaqın hədəfi təxribatın təşkilatçılarını müəyyənləşdirməkdir. İstintaq hərəkətləri tam başa çatdıqdan sonra bu hadisəyə siyasi qiymət veriləcək. Azərbaycan dövləti bu cinayətin açılmasında və təşkilatçıların müəyyənləşməsində maraqlıdır və bu işdə əməkdaşlıq etmək istəyən şəxslər, təşkilatlar və dövlətlərlə əməkdaşlığa açıqdır» (14).

**MƏNBƏ VƏ ƏDƏBİYYAT**


1. MSQM (Müasir Sənədlərin Qorunma Mərkəzi), məxfilikdən azad edilmiş sənədlər kolleksiyası, "Rodina" jurnalı, №4, 1994-cü il, s.82-90.
2. Bax: Армен Марукян. Правовые аспекты геноцида армян на территории Азербайджана в 1988-1990 гг. на примере Сумгаита.
3. Bax: Сванте Корнелл. Конфликт в Нагорном Карабахе: динамика и перспективы решения.
4. «Azteleradio» QSÇ. "Sovet imperiyasının gizlinldəri. Qriqoryanın işi» sənədli filmi üçün o zaman Azərbayçan SSR DTK-nın baş əməliyyat müvəkkili işləmiş, hazırda istefada olan polkovnik-leytnant Qalasılkin Yuri Stepanoviçin müsahibəsindən.
5. www.vesti.az.
6. «Sovet imperiyasının gizlinləri. Qriqoryanın işi» sənədli filmi üçün o zaman SSRİ DTK-sı 5-çi idarəsinin siyasi əks-kəşfiyyatın rəisi işləmiş Filip Bobkovun müsahibəsindən; (F.Bobkov. KQB i Vlast).
7. http://vesti.az/news.php?id=50712.

8. «Sovet imperiyasının gizlinləri. Qriqoryanın işi» sənədli filmindən.
9. Yenə orada.
10. Yenə orada.
11. Yenə orada.
12. Yenə orada.
13. MSQM (Müasir Sənədlərin Qorunma Mərkəzi), məxfilikdən azad edilmiş sənədlər kolleksiyası, "Rodina" jurnalı, №4, 1994-cü il, s.82-90.
14. «Sovet imperiyasının gizlinləri. Qriqoryanın işi» sənədli filmindən.

## ЦЕНТРАЛЬНЫЕ ОРГАНЫ ВЛАСТИ И СУМГАИТСКИЕ СОБЫТИЯ 1988 ГОДА

### РЕЗЮМЕ

В статье на основе стенограммы заседания Политбюро ЦК КПСС от 29-го февраля 1988 года, посвященного ситуации в Азербайджане и Армении, а также других документов, рассматривается позиция центральных органов власти, занятая ими во время сумгаитских событий 28-29-го февраля 1988 года.

## CENTRAL AUTHORITIES AND SUMGAYIT EVENTS 1988 YEARS

### SUMMARY

On the basis of the transcript of the meeting of the Politburo of 29 February 1988 on the situation in Azerbaijan and Armenia, as well as other documents considered the position of the central authorities, they occupied at the time of the events in Sumgait on 28-29th February 1988.

# XX ƏSRDƏ ŞİMALİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALINDA YAŞAYAN AZƏRBAYCANLILARIN DEPORTASIYASI VƏ SOYQIRIMITARİXİNİN TARIXŞÜNASLIĞI

**Bəxtiyar ƏHMƏDOV***

XX əsrin əvvəllərində (1918) müsəlman dünyasında ilk dəfə olaraq öz müstəqilliyini elan edən Azərbaycan Cumhuriyyəti 1920-ci ildə Rusiya imperiyasının varisi olan Sovet Rusiyası tərəfindən işğal olundu. Lakin onillər boyu bu və ya digər formada sovet totalitar rejiminə qarşı mübarizə aparan Azərbaycan türkləri XX əsrin sonlarında yenidən öz müstəqilliyini bərpa etdi.

Dövlət müstəqilliyi xalqımıza öz milli mənsubiyyətini ifadə etmək, milli mənafelərini maksimum dərəcədə reallaşdırmaq imkanı vermişdir. Eyni zamanda müstəqillik qazandıqdan sonra xalqımız öz tarixi keçmişini obyektiv yazmaq imkanı əldə etmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş, faktlar dəfələrlə təhrif edilərək sovet ideologiyasının qurbanına çevrilən tariximiz yenidən obyektiv şəkildə yazılmağa başlanmışdır.

Azərbaycan tarixinin gizli saxlanılan, uzun illər boyu təhrif edilən tarixi səhifələrindən biri də Azərbaycan türklərinə qarşı dəfələrlə törədilmiş, lakin indiyə qədər özünün hüquqi və siyasi qiymətini almamış soyqırımıdır. Azərbaycanlıların soyqırımı tarixi Sovet imperiyası dövründə qeyri obyektiv şəkildə tədqiq edilmişdir. Müstəqillik dövründə tariximizin bu hissəsi daha obyektiv və fundamental şəkildə araşdırılmağa başlanmış və bu sahədə ciddi nəticələr əldə edilmişdir.

Məlum olduğu kimi Azərbaycan türklərinin soyqırım və deportasiyası XIX əsrin birinci yarısından başlanmış XX əsrdə isə bu faciə kütləvi xarakter almışdır.

XX əsrdə Azərbaycanın ermənilər tərəfindən soyqırım və deportasiyaya məruz qalmış əsas bölgələrindən biri də Göyçə mahalı olmuşdur. Tarixlər boyu Azərbaycanın bir hissəsi olan bu bölgədə, ermənilər tərəfindən mütəmadi həyata keçirilən etnik təmizləmə və deportasiya nəticəsində Azərbaycan türkləri məhv edilmiş, bu ərazilərdə erməni dövləti yaradılmışdır.

---

* Bəxtiyar Şahveləd oğlu Əhmədov – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

Azərbaycan xalqının ermənilər tərəfindən soyqırıma məruz qalmasının canlı şahidi olmuş dahi mütəfəkkir ziyalılarımızdan Ordubadinin "Qanlı illər" (9) və Nəvvabın "1905-1907-ci illərdə erməni-müsəlman davası" (10) əsərləri erməni vandalizmi haqqında ən qiymətli əsərlərdir. Erməni vəhşiliklərini öz gözləri ilə görmüş bu şəxslər, azərbaycanlıların ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilməsini, onlara verilən işgəncələri, qadınların və uşaqların kütləvi işgəncələrə məruz qalmasını öz əsərlərində qələmə almışlar. Bu əsərlər azərbaycanlıların soyqırım tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Azərbaycanlıların soyqırım və deportasiya tarixinin öyrənilməsində görkəmli alim İ. Məmmədovun da böyük xidmətləri vardır. Onun üç cildlik "Трилогия Панарменизма" (16) əsərində,panarmenizmin yaranması, siyasi və strateji mahiyyəti, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi, "Erməni məsələsi"nin gündəmə gəlməsi,xüsusilə də XX əsrdə azərbaycanlıların soyqırımı və deportasiyaya məruz qalması tarixi faktlar və rəsmi sənədlər əsasında geniş şərh olunmuşdur.

Onun "Tariximiz, Torpağımız, Taleyimiz" (13) əsərində də erməni separatizminin oyanışı, Türklərin tarixi torpaqlarında "Erməni dövləti" qurmaq proqramı, I dünya müharibəsi illərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi məkrli siyasət və bu siyasətin qanlı nəticələri elmi faktlarla sübuta yetirilmişdir. O, həmçinin Azərbaycanın Qərb bölgəsində, o cümlədən Göyçə mahalında ermənilərin törətdiyi cinayətlər və azərbaycanlılara qarşı vəhşilikləri arxiv sənədləri əsasında tutarlı faktlarla izah etmişdir. Bu kitabda öz əksini tapan onlarla axiv sənədlərindən biri olan, "Erməni qoşunlarının Göyçə mahalında müsəlmanlara qarşı törətdikləri vəhşiliklər haqqında Gəncə qəza rəisinin göndərdiyi məktubda deyilir: "60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmışdır". 1918-1920- ci illərdə Yeni Bayazidvə İrəvan qəzasında didərgin salınmış azərbaycanlıların sayı 200 min nəfərə yaxın olmuşdur ( 13, səh 398).

İ. Məmmədovun "Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu" (15), «Об истории, исконной земле и горькой судьбе Азербайджанцев, изгнанных из нынешней Республики Армения» (17) əsərlərində də XX əsrdə İrəvan quberniyasında yaşayan əhali, onların etnik tərkibi, o cümlədən Göyçə mahalının daxil olduğu Yeni Bayazid qəzasının demoqrafik vəziyyəti,

xüsusi ilə də bu bölgədə ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti geniş şəkildə tədqiq olunmuşdur.

Eyni zamanda İ. Məmmədovun S. Əsədovla birlikdə nəşr etdirdiyi "Ermənistan Azərbaycanlıları və onların acı taleyi" (14) və "Терроризм: Причина и следствие» (18) əsərləri də Göyçə mahalında ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini əks etdirən fundamental monoqrafiyalardan biridir.

Göyçə mahalının tarixi coğrafiyasını, inzibati-ərazi bölgüsünü və sosial-demoqrafik vəziyyətinin öyrənilməsində "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" (20) əsərinin əhəmiyyəti olduqca böyükdür. Akademik Budaq Budaqovun rəhbərliyi ilə nəşr olunan bu əsərdə Göyçə mahalının tarixi coğrafiyası, inzibati- ərazi bölgüsü, bu bölgədə yaşayan əhalinin etnik tərkibi, həmçinin demoqrafik vəziyyəti haqqında qiymətli məlumatlar toplanmışdır.

Akademik B. Budaqovun və tarixçi-alim Qiyasəddin Qeybullayevin birgə nəşr etdirdiyi "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" (4) adlı elmi monoqrafiyada, Göyçə mahalının tarixi cöğrafiyası və toponimləri haqqında olduqca geniş məlumatlar toplanmışdır.

Bu tipli əsərlərdən biri də İ. Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (5) əsəridir. Bu əsərdə konkret faktlara istinad edilərək Qərbi Azərbaycan ərazisində türk mənşəli toponimlər toplu halda əks olunmuş, bu bölgəyə ermənilərin köçürülməsi, yerli türk əhalisinin müxtəlif dövrlərdə ermənilər tərəfindən soyqırıma məruz qalması aydın şəkildə göstərilmişdir.

Göyçə mahalının tarixi coğrafiyası haqqında məlumat verən əsərlərdən biri də tarixçi-alim V. Piriyevin "Azərbaycanın tarixi-siyasi coğrafiyasi" (21) əsəridir. Zəngin tarixi dəlillər əsasında yazılmış bu əsərdə Azərbaycanın müxtəlif dövrlərdəki əraziləri, sərhədləri, inzibati bölgüsü şərh olunur torpaqlarımızın itirlmə dinamikası izlənilir.

Qərbi Azərbaycanda Azərbaycan türklərinə qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin öyrənilməsində A.Ə.Paşayevin əsərlərinin də olduqca əhəmiyyəti vardır. Bu əsərlərdə 1948-1953-cü illərdə Qərbi Azərbaycan bölgəsindən köçürülən 100 min azərbaycanlının acı taleyi haqqında geniş məlumat verilir (27, 28,29).

Azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsində V. Arzumanlı və N.Mustafanın “Tarixin qara səhifələri: Deportasiya, Soyqırım, Qaçqınlıq” (3) əsərinin də əhəmiyyəti böyükdür. Bu əsərdə 1905-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım siyasəti, 1948-53-cü illərdə azərbaycanlıların deportasiyası, 1980-ci illıərdə erməni şovinizminin dirçəlməsi və azərbaycanlıların diskriminasiyası hadisələri elmi dəlillər əsasında işıqlandırılmışdır.

Azərbaycanlıların soyqırımı və deportasiyasının tədqiqatçılarından biri də tarixçi B. Nəcəfovdur. Onun “Düşmənin iç üzü. XIX əsrin sonları XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi” (11) və “Deportasiya” (12) əsərlərində sərsəm “Böyük Ermənistan” ideyasının siyasi tərəfləri, erməni millətçiliyinin Cənubi Qafqazda kök salması, zaman-zaman azərbaycanlıların deportasiya olunması arxiv sənədləri əsasında təhlil olunmuş və işıqlandırılmışdır.

1947-1953-cü illərdə azərbaycan türklərinin Ermənistandan deportasiyası Ə. Qurbanlının “Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953)” (7) əsərində geniş şəkildə işıqlandırılmışdır. Kitabda 1947-1953- cü illərdə Azərbaycan türklərinin Qərbi Azərbaycan bölgəsindən deportasiyasını doğurmuş səbəblər üzə çıxarılmış, baş verən proseslər tarixi hadisələr konteksində nəzərdən keçirilmişdir.

XX əsrin axırlarında azərbaycanlıların soyqırımını əks etdirən elmi monoqrafiyadalardan biri də İ. Vəlizadə və B. Muradovun “Ermənistan azərbaycanlılarının soyqırımı” (22) əsəridir. Bu əsərdə 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların öz torpaqlarından vəhşicəsinə qovulması, törədilmiş qanlı faciələr faktlar əsasında ardıcıllıqla təsvir olunmuşdur.

Uzun illər Ermənistanda rəhbər vəzifədə işləmiş T. Musayev ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş cinayətlərin canlı şahidi olmuşdur. Onun yazdığı “Ermənilər və faciələrimiz” (19) adlı kitabı ermənilərin azərbaycanlıların başına gətirdiyi faciələr, erməni şovinizmi, onun mahiyyəti, erməni nankorluğunun əsl mahiyyəti faktlar əsasında əks olunmuşdur.

Azərbaycanlıların soyqırımı haqqında fundamental tədqiqatlardan biri də V. Abışovun “Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)” (1) əsəridir. Monoqrafiyada Birinci dünya müharibəsi dövründə Qərb dövlətləri və Rusiyanın köməyi ilə Türkiyə və Azərbaycan torpaqları hesabına erməni

dövləti yaratmaq xülyası ilə dinc əhaliyə qarşı cinayətlər törədən ermənilərin cinayətkar əməlləri tutarlı arxiv sənədləri əsasında araşdırılmışdır.

Azərbaycanlıların soyqırımı tarixi ilə bağlı ümumiləşmiş-toplu əsərlərin də əhəmiyyəti böyükdür. Bu səpkili əsərlərdən biri də "Deportasiya" (6) toplusudur. Bu topluda XX əsrdə azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirilən deportasiya, soyqırımı faktlarını əks etdirən çoxlu tarixi sənədlər, materiallar toplanmışdır.

XX əsrdə Göyçə mahalında yaşayan azərbaycanlıların deportasiyası və soyqırımı əcnəbi tarixşünaslığında da bu və ya digər formada işıqlandırılmışdır. Bu mövzuya həsr olunan əsərlərin bəzilərində daha çox subyektivliyə yol verilsə də lakin siyasi hadisələr və müəyyən tarixi faktlar obyektiv surətdə əks olunmuşdur.

Rus tarixçisi N.N. Şavrovun "Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам» (23)adlı əsərində XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi hadisələr, ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi və Azərbaycanın tarixi torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ və digər ərazilərdə məskunlaşdırılması dolğun şəkildə əks olunmuşdur.

Türk tarixçisi Kamran Gürün "Армянское досье" (24)əsəri də erməni millətçilərinin siyasi fəaliyyəti, türklərə qarşı həyata keçirtdikləri terror hadisələri və digər təxribatçılıq planları haqqında geniç məlumat verir.

Azərbaycanlıların etnik təmizləmə siyasətinə məruz qalması Saleh Bəyin "Армянство» (25) əsərində də geniş şəkildə öz əksini tapmışdır. Bu əsərdə XIX əsrdə Çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi müstəmləkə siyasəti, ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi, Rusiyanın "erməni dövləti" yaratma planları öz əksini tapmışdır.

Əcnəbi tarixçilərdən biri olan Jorj de Malevil "Армянская трагедия 1915 года" əsərində (26) «Qondarma erməni soyqırımı" məsələsini araşdırmış, bu mifoloji hadisənin yaranmasını, onun ortaya atılmasının siyasi tərəflərini təhlil etmişdir.

Türk tarixçisi M.Sədi Koçaşın "Tarihde ermeniler ve türk-ermeni ilişkileri" (8) əsəri də dövrün tədqiqi üçün olduqca əhəmiyyətlidir. Bu əsərdə türk erməni münasibətlərinin kökləri, "qondarma erməni soyqırımı"nın siyasi gündəmə gəlişi, ermənilərin türklərə qarşı həyata keçirdiyi planlı terror hadisələri geniş şəkildə öz əksini tapmışdır.

Türkiyədə çap olunan "Azerbaycan Belgelerinde Ermeni sorunu" (2) əsərində 1918-1920- ci illərdə baş verən siyasi hadisələr, erməni vəhşiliyi, ermənilərin siyasi fəaliyyəti və digər riyakar planları faktlar əsasına araşdırılmışdır.

Ümumiyyətlə, XX əsrdə Göyçə mahalında yaşayan Azərbaycanlıların deportasiyası və soyqırımı yerli və əcnəbi tarixşünaslığında geniş şəkildə işıqlandırılmışdır. Bu dövrdə Azərbaycanlıların soyqırımı, deportasiya olunması, ermənilərin türklərə qarşı vəhşiliyi, bunun nəticəsində azərbaycanlıların kütləvi şəkildə məhv edilməsi bu əsərlərdə öz əksini tapmış və müqayisəli şəkildə tədqiq olunmuşdur.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**


1. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı,Nurlan, 2007, 176 s.
2. Azerbaycan Belgelerinde Ermeni sorunu (1918-1920). Ankara, BDAGM, 2001, 682 s.
3. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı, Qartal, 1998, 280.
4. Budaqov. B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, Nafta-Press, 1998, 452 s.
5. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, Qızıl Şərq, 2002,696 s.
6. Deportasiya. Bakı, ANPB, 1998, 440 s.
7. Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953). Bakı, Ağrıdağ, 2004, 116 s.
8. Koçaş M.S. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, AENP, 1998, 160 s.
9. Ordubadi Məmməd Səid. Qanlı illər. Bakı, 1991. 141 s.
10. Nəvvab Mir Möhsün. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, Azərnəşr, 1993, 124 s.
11. Наджафов Б.И. Лицо врага. Баку, Элм, 1993.
12. Nəcəfov B.İ. Deportasiya. Bakı, Çaşıoğlu, 1998, 212 s.
13. Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı, Adiloğlu, 2003,700 s.
14. Məmmədov İ.S., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, Azərnəşr, 1992, 72 s.
15. Məmmədov İ.S. Erməni kilsəsi və türk-azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu. Bakı, Nurlan, 2010,240 s.
16. Мамедов И. С. "Трилогия Панарменизма". /в трех книгах/, Баку, Адильоглы, 2006, 175 с.
17. Мамедов И. С.Об истории, исконной земле и горькой судьбе Азербайджанцев, изгнанных из нынешней Республики Армения. Баку, Гисмет, 2009, 376 с.
18. Мамедов И. С., Асадов С. Терроризм: Причина и следствие. Баку, Азернешр, 2001, 248 с.
19. Musayev T. Ermənilər və faciələrimiz. Bakı, Nurlan, 2008, 320 s.
20. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, Gənclik, 1995,464 s.
21. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, Araz, 2002, 152 s.
22. Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı, Gənclik, 172 s.

23. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку, Элм,1990, 160 с.
24. ГюрюнКамуран. Армянское досье. Баку, Язычы, 1993, 372 с.
25. Салех бей. Армянство. Баку, Элм, 1994.
26. Жорж де МалевилАрмянская трагедия 1915 года. Баку, Элм, 1990, 128 с.
27. Paşayev A.Ə. Azerbaycan belgelerinde ermeni sorunu. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri genel mücdürlüğü, 2001, 682 s.
28. Paşayev A. Ə **Açılmamış səhifələrin izi ilə.**Bakı. Azərbaycan, 2001, 536 s.
29. Paşayev A.Ə. Köçürülmə. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1995,40 s.
30. Məmmədov X., Məmmədov N. Erməni iddiaları və Azərbaycanlıların soyqırımı. Bakı, Ülvü-Həyat, 2008, 320 s.
31. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1997. 286 s.
32. Исторические факты о деяниях армян на азербайджанской земле. НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА ИНСТИТУТ ИСТОРИИ им. А.БАКИХАНОВА Баку, Нурлан, 2003, 69 с.

**Bakhtiyar Akhmadov**

## HISTORIOGRAPHY OF THE DEPORTATION AND GENOCIDE OF THE AZERBAIJANIS XX CENTURY IN THE TOWN OF GOYCHA

## SUMMARY

In the article basing on the research works and monographs, Articles and other reliable sources, have been analyzed being of Goycha district the historical territory of Azerbaijan, the historical geography of the district, population, demographic situation, toponyms, the reasons for deportation policy and genocide committed by Armenian vandals, against our people – Azerbaijanis that since the ancient times have settled in the region and the grave consequences for our nation.

**Бахтияр Ахмедов**

## ИСТОРИОГРАФИЯ ДЕПОРТАЦИИ И ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦЕВ, ПРОЖИВАЮЩИХ В МАГАЛЕ ГЕЙЧА В XX ВЕКЕ

## РЕЗЮМЕ

В статье, основываясь научно-исследовательскими работами, книгами, статьями и другими достоверными источниками были рассмотрены вопросы, связанные с исторической принадленостью магала Гекча к Азербайджану, его исторической географии, населения, демографической ситуацией, топонимами в регионе. Был также анализирован геноцид армянскихв вандалов, издревля провидимый против проживающих здесь азербайджанцев, причины и резултаты политики депортации и его бедствии для нашего народа.

# ОБ ОСОБЕННОСТЯХ ГОНЧАРСТВА В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД РАННЕГО СРЕДНЕВЕКОВЬЯ

**Нигяр Джошкунсу***

**Ключевые слова:** Гончарство, глина, поливная керамика, гончарный круг, строительная керамика

Гончарство является древнейшим ремеслом. Археологически доказано, что гончарство в Азербайджане известно с неолита. Это подтверждается фрагментами керамических изделий, обнаруженных в пещерах Аназага и Овчуларзагасы в Гобустане, а также в неолитической стоянке № 133 в долине Гянджачай – недалеко от современного Гейгельского района (1, с.7).

Азербайджанскими археологами гончарство Азербайджана стало изучаться с середины прошлого века. В разные годы Г. Ионе, Г. Ахмедов, Р. Геюшов, А. Оруджев, И. Бабаев, Г. Джабиев и др. проводили обширные археологические раскопки различных исторических городов Азербайджана. Результатами этих раскопок стали монографии и научные труды о становлении и развитии гончарного ремесла, его роли в быту населения в разные периоды истории. В этих исследованиях нашли отражение вопросы становления и развития гончарства в Азербайджане, основные центры керамического производства, начиная с самых древних времен до позднего средневековья (2, с. 388).

Об этнографических особенностях гончарства в Азербайджане сообщают авторы первой половины XIX века. Так, в трудах Н. И. Абелова, П. И. Ягодынского, Д. Кистенева, К. Хатисова и ряда других исследователей быта и культуры азербайджанцев, опубликованных в различных печатных изданиях, дается обширная информация о гончарном ремесле в Шемахинском и Геокчайском уездах Бакинской губернии, в селах Варташен (ныне Огузский район), Нидж, Кюснет Нухинского уезда, Еникенд и Испик Кубинского уезда, Сепаради, Аркиван, Шаглакюджа Ленкоранского уезда и др. Однако, сведения вышеназванных авторов носят описательный характер (1, с. 4-5).

---

**Nigar Coşqunsu –** AMEA Arxeoloqiya və Etnoqrafiya institutunun elmi işçisi

Историко-этнографические исследования гончарства имели место с середины прошлого века. (М. Гейдаров «Города и городское ремесло Азербайджана в XIII-XVIII вв.», Б. Элм, 1982. с. 223-234, А. Сумбатзаде «Промышленность Азербайджана в XIX в.», Б. Элм, 1964. с. 139-153 и др.)

Вопросы гончарства отмечены в работах этнографов, начиная с 30-х годов прошлого века: А. Алекперова, Г. Гарагашлы, Т. Бунятова, Г. Гулиева, А. Измайловой, Г. Джавадова и А. Мустафаева. Всесторонне гончарство изучено С.М. Агамалиевой. В частности в монографии автора «Гончарство Азербайджана. Историко– этнографическое исследование», опубликованной в 1987 г., на основе полевого этнографического материала с привлечением археологических материалов, архивных данных исследованы вопросы зарождения гончарства в Азербайджане, техника изготовления, способы формовки, обжига, инструментарий и другие вопросы этого древнего ремесла.

Развитие гончарства было связано, в первую очередь, с природно-географическим условиями и природными ресурсами региона. Наличие сырья, необходимого для гончарной продукции – глины, создало возможность для занятия населения этим ремеслом с древнейших времен. (2, с. 391). Еще в Раннее средневековье изготовление керамики было одним из главных отраслей азербайджанского ремесла. Здесь изготавливались керамические котлы различных размеров, большие хозяйственные кюпы, большие и малые кувшины для воды (без ручки и с двумя ручками), маслобойки, вазы на подставке, сферовидные светильники и др. (1, с. 11)

Ценные данные о гончарстве в Азербайджане раннего средневековья, несомненно, выявляют археологические раскопки, проводимые в разные годы. Керамика того периода создает обширное представление о состоянии гончарства, о производстве и сбыте гончарной продукции, а также о его роли в быту и хозяйственной жизни в исследуемый период. Некоторые исследователи отмечали некий спад гончарного производства в VII-VIII вв. Такое состояние наблюдалось в большинстве раннесредневековых городов не только Азербайджана, но и было характерно для всех регионов Южного Кавказа и Средней Азии (3, с. 29). В тот период посуда отличалась более грубыми

формами, плохим обжигом, изготавливалась, в основном, вручную или на ручном гончарном круге (4, с. 31).

Мнения относительно причин возникшей ситуации различны. Так, археолог Р. Вахидов причину спада пытался объяснить интенсивными войнами на территории Азербайджана, Р. Геюшов связывал это иностранными захватами, Г. Ахмедов – с общественно – экономическими процессами (5, с. 37).

Археологические материалы указывают на то, что после спада в гончарстве вновь наблюдался подъем. Широкое распространение получили гончарные печи, улучшилось качество изделий, появились новые центры гончарного производства (6, с. 126). В исследуемый период эта отрасль ремесла была сосредоточена, в основном, в феодальных городах Азербайджана, таких как Барда, Гянджа, Бейлаган, Нахчыван, Ардебиль, Тебриз, Марага, Шемаха и Баку (6, с. 133). Стала качественней и разнообразней неполивная керамика, значительно расширился ассортимент. На рынке, большим спросом пользовались кувшины для воды, изделия, предназначенные для перевозки и сохранения воды, кюпы, маслобойки, котлы, тарелки, светильники и др. (1, с. 11). В этом контексте усиливалась конкуренция между гончарными центрами, результатом чего явились отмеченные изменения. Гончарные изделия орнаментировались, в основном, гребенчатым, врезным и лепным орнаментами (7, с. 190, 207, 208, 212, 216, 224).

Этнографические исследования показали, что составными гончарства являются добыча глины, ее первоначальная обработка, формовка, орнаментация, обжиг и сушка.

Территория Азербайджана богата ресурсами гончарной глины. В различных гончарных центрах она не была одинакового состава. Мастера, в совершенстве знали особенности гончарной глины своего региона, и технологически, верно применяли эти особенности (8, с. 369-371).

Например, шекинские мастера готовят гончарную глину, перемешивая в определенном соотношении желтую глину с жесткой глиной, кюснетские мастера добавляют к гончарной глине, которую называют «гладкой землей» мизерную часть «жесткой земли», кубинские гончары изготавливают керамические изделия без примесей, из

так называемой «желтой земли», коей является чистая гончарная глина. В Лянкяранском регионе в состав глины, для работы на ручном гончарном круге, добавляют определенное количество мелкого песка. Добавление примесей в гончарную глину в Азербайджане имеет древнюю традицию (8, с. 371). Следует отметить, что заготовка гончарной глины обычно приходилась на весенние месяцы.

Археологически выявленная керамика отличается разнообразием, размерами, формами и т.д.Изучение такого разнообразия керамики невозможно без ее классификации. К примеру, археолог А. Оруджев, взяв за основу форму и назначение керамики, разделил ее на посуду, используемую в быту и в хозяйстве, зооморфные и антропоморфные сосуды, детские игрушки (9, с. 14).

Археолог Г. Джабиев классифицировал керамику раннего средневековья, как хозяйственную, кухонную, строительную (10, с. 279). К хозяйственной керамике относятся хозяйственные кюпы и подойники различных размеров, ковши; к кухонной керамике – кувшины, котлы, чаши, блюдца, миски, вазы, маслобойки, горшки, крышки, светильники; к строительной керамике – черепица, кирпич, водопроводные трубы и т.д. (10, с. 279-297).

В этнографической литературе гончарная продукция функционально делится на: сосуды для воды, средства для проведения водопровода (водоснабжения), посуда, используемая при обработке, приготовлении и хранении продуктов питания, средства для выпечки хлеба, кухонная и столовая посуда, хозяйственные кюпы (11, с. 94-95).

В гончарном производстве, начиная с добычи сырья и конечном процессе – обжиге, мастера традиционно пользовались различным инструментарием: лопата, кирка, решето, гончарные ножи, гончарный круг, ободки, гребни, горны и др.

Такой инструментарий идентичен в различных центрах гончарства, что доказывает, что гончарство развивалось на основе исторических традиций в независимости от региона, где оно производилось, от личности гончара (2, с. 399).

После заготовки гончарной глины, начинается с формовки изделия. Формовка гончарной продукции проводилась либо вручную, либо с помощью гончарного круга. Вручную изготавливали тендир,

другие печи для выпечки хлеба, ободы для колодцев (гуйубаши), киране и др. Они формовались способом «бад», по частям (8, с. 371). Этот способ, начиная с неолита, продолжался даже после изобретения гончарного круга (11, с. 97). Однако неопровержимым фактом является то, что переломным моментом в истории производства керамики стало изобретение гончарного круга. Археологические и этнографические исследования подтвердили параллельное использование ручных и ножных гончарных кругов вплоть до XX века (9, с. 38).

Ручные круги, как правило, состояли из деревянных или глиняных дисков. Для изготовления той или иной продукции, на станок ставился ком из глины и вращением рукой круг приводился в действие. Таким способом, постепенно формовалось изделие. Это была примитивная форма гончарного круга (10, с. 264). В ту пору пользовались методами, называемыми «ойма» и «пичене» (8, с. 371).

Ножные круги были сложнее по конструкции. Такие круги, состоящие в основном из нижнего, верхнего колес и, связующей оси, известны с III тыс. до н.э. И сегодня в различных гончарных центрах Азербайджана (Шеки, Габала, Масаллы и др.), мастера, занимающиеся кустарным гончарством, пользуются именно таким гончарным кругом (12, с. 25-28).

Быстрое вращение ножного круга сделало возможным производство разнообразных симметричных и тонкостенных сосудов в течение короткого времени. Мастер, закрепив массу на поверхности круга, ногой приводил в движение верхний диск круга, тем самым вращая его. Затем он мокрыми руками сжимал вращающуюся массу, поднимая вверх и вытягивая постепенно; дойдя до нужной высоты, правой рукой делая углубление прямо посередине, продолжал формовку. Используя вращающее движение круга, мастер мог расширять и углублять середину, тем самым придавая сосуду соответствующую форму. Эта операция, именуемая «ичачма», выполнялась с помощью указательного пальца правой руки или посредством гончарного ножа, приставленного к верхнему краю сосуда (8, с. 373).

Важно отметить, что некоторые изделия из глины традиционно формовались только вручную. Примером могут послужить, в первую очередь, тендиры и саджи. Как показали этнографические наблюдения,

изготовлением их в основном занимались женщины, что подтверждает, что гончарство изначально было женским (1, s. 47-48).

После формовки изделия следовал этап сушки. Мастера придавали особое значение этому процессу. Для чего, в гончарных мастерских, как правило, отводили специальные комнаты, называемые «габхана». Изделия выставлялись в ряд на деревянные полки, прикрывались влажной тканью, избегая сквозняков. Процесс сушки продолжался до 20-25 дней, а в осеннее время – до двух месяцев (8, с. 373).

Гончарные изделия в основном украшали резьбой, лепкой и вдавливанием, а мелкие сосуды – узорами и рисунками. Эта традиция, взявшая начало с древних времен, продолжается и ныне. (8, с. 376).

Столовую посуду покрывали глазурью. Ранее такая посуда украшалась лишь геометрическими узорами, позднее – растительным орнаментом, а также изображениями животных и птиц. Большое распространение получил штампованный орнамент, изделия с которым выявлены в Бейлагане, Гяндже (13, с. 8) и других феодальных городах. Основным мотивом штампованного орнамента являются древо жизни, человек, животные (7, с. 203-204). Большинство раннесредневековых глазурованных изделий это - посуда в форме кясы, тарелок, кюпы (14, с. 33).

Глазурованная посуда была дорогостоящей, поэтому, в определенных случаях, когда такая посуда разбивалась, ее восстанавливали и продолжали ею повторно пользоваться. К примеру, восстановленные изделия часто встречались во время раскопок в Сельбире Габалинского района (14, с. 33).

Археологические данные указывают на то, что в IX-XII вв. оседлое скотоводство занимало важное место в жизни населения, о чем свидетельствует множество археологически выявленных маслобоек (15, с. 61).

Последним процессом гончарного производства являлся обжиг изделия. Применение различных печей для обжига на территории Азербайджана в Ранее средневековье подтверждено исследователями. Первые гончарные печи на территории Азербайджана обнаружены в Кюльтепе II (16, с. 262). Находки в Аликомектепе и Чалаган-

тепе доказали использование совершенных гончарных печей местными жителями начиная с энеолита (17, с. 48).

Многочисленные печи и обломки печей раннего средневековья выявлены и в других регионах Азербайджана. Большое научное значение имеет обнаружение гончарных печей в Мингячевире, Бейлагане, Шемахе, Шабрани, Габале и Торпаггале. Во время природных разрушений и хозяйственных работ на различных территориях также выявлено множество обломков печей (10, с. 269).

Г. Ионе, исследовавший гончарные печи Азербайджана на основе мингячевирских материалов, разделил их на три группы: а) печи прямоугольной формы; б) печи в форме эллипса; в) печи круглой формы. Из них более распространены печи в форме эллипса, частично – прямоугольные (18, с. 31-79).

Этнографы делят гончарные печи по принципу их использования на открытые (dəm) и закрытые (kürə, tun). По общему мнению, являясь продуктом более древних времен открытые печи, именуемые «дэм» и считающиеся, характерными для женского гончарства, в Азербайджане использовались более широко (2, с. 399).

Наряду с этим, в некоторых гончарных центрах Азербайджана были зарегистрированы продолговатые и круглые закрытые гончарные печи (17, с. 156).

Закрытые гончарные печи состояли из двух секций, расположенных друг над другом. Одна из секций служила топкой, другая – для изделий (8, с. 377). Этнографические исследования подтвердили, что печи такого типа являлись более доступными. Печи продолговатой формы были характерны для гончарства Шекинской и Кубинской зон, а печи с круглой топкой – в Лянкяран-Астаринской зоне (11, с. 112-113).

Как и современные гончарные печи, раннесредневековые топились дровами. Это подтверждают и остатки угля внутри и вблизи, обнаруженных при археологических раскопках, печей. Гончарные мастера с этой целью использовали преимущественно такие породы деревьев, которые при сгорании давали высокую температуру. Поэтому изобилие леса считалось одним из основных факторов, обуславливающих организацию производства (10, с. 273).

Этнографические исследования женского гончарства в Азербайджане позволили выделить методы изготовления, которыми пользовались женщины: бад, пийе, пичене, люле, логана и т.д. (11, с. 98). Кроме того, в производстве керамических изделий широко применялись такие древние методы, как шерид, йахы, ойма, гулпгойма (2, с. 395).

Говоря о раннесредневековой керамике, нельзя не отметить также глиняные шары диаметром в 1 см, найденные при раскопках в хозяйственных ямах. Такие шары встречались при раскопках в Бейлагане и Габале. По предположениям специалистов, они использовались для для игр (3, с. 28).

Неоспоримым фактом является то, что в эпоху раннего средневековья в Азербайджане широкое распространение имела строительная керамика. В строениях той эпохи, в качестве строительного материала широко использовались обожженный кирпич и черепица разных размеров. Неоспорима также роль водопроводов, проведенных с использованием керамических труб и водяных колодцев, построенных из обожженного кирпича, в водоснабжении городов и крупных жилых пунктов городского типа (10, 278).

Анализ археологических данных и этнографического материала показывает, что традиционное гончарное ремесло и гончарные изделия занимали значительное место в домашнем и хозяйственном быту, во внутренних и внешних торговых связях населения, в экономике Азербайджана во все времена, в том числе и в эпоху раннего средневековья. Гончарные изделия различных исторических периодов, выступая совершенными образцами эстетического восприятия народа, его таланта, его отношения к жизни, имеют большое значение, являясь ценным источником знаний о средневековой материальной культуре.

**ИСТОЧНИКИ И ЛИТЕРАТУРА**

1. Агамалиева С.М. Гончарство Азербайджана (историко-этнографическое исследование). Баку, Элм, 1987. 136 с.
2. Cavadov Q. Talışlar. Bakı, Elm, 2004. 616 s.
3. Əhmədov Q. Orta əsr Beyləqan şəhəri (tarixi-arxeoloji oçerk). Bakı, Elm, 1979. 197 s.
4. 4. Vahidov R. Mingəçevir III-VIII əsrlərdə (arxeoloji materiallar əsasında). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1961. 16 s.

5. Nuriyev A., Babayev Ə. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlərdə). Bakı, Nurlan, 2001. 182 s.
6. Azərbaycan tarixi. 5 cilddə, V c. Bakı., Azərb. SSR EA Nəşriyyatı, 1958. 447 s.
7. Ахмедов Г. Неполивная керамика Оренкала IX-XIII вв. //Материалы и исследования по археологии СССР. № 67. М., 1959. с. 186-227
8. Azərbaycan etnoqrafiyası. 3 cilddə, I c., Bakı, Şərq-Qərb, 2007. 544 s.
9. Orucov A. Ilk orta əsrlərdə Azərbaycanda dulusçuluq (IV-VIII əsrlər). Bakı, Elm, 1989, 72 s.
10. Cəbiyev Q. Girdman tarixi. Bakı, Şərq-qərb. 2010. 616 s.
11. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı, Altay, 1999. 440 s.
12. Cəbiyev Q. Azərbaycan keramikası: XIV-XVII əsrlər. Bakı, Elm. 2003.233 s.
13. Левиатов В.Н. Керамика старой Гянджы //Аз.ФАН. Музей Истории Народов Азербайджана. Bakı, 1940. 44 с.
14. Babayev İ, Əhmədov Q. Qəbələ. Bakı, Elm, 1981. 68 s.
15. Джидди Г. Средневековый город Шемаха в IX-XVII веках. Баку, Элм, 1981. 174 с.
16. Seyidov A. Naxçıvan e.ə. VII-II minilliklərində. Bakı, Elm, 2003. 339 s.
17. Нариманов И. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, Элм. 1987. 259 с.
18. Ионе Г. О гончарных обжигательных печах из Мингечаура //Материальная Культура Азербайджана (МКА), т. ЫЫ. Баку, Изд. АН. Азерб. ССР, 1951. с. 31-79

**Nigar Coşkunsu**

## İLK ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN DULUSÇULUĞUN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

### XÜLASƏ

**Açar sözlər:** dulusçuluq, gil, sirsiz saxsı məmulatı, dulus çarxı, inşaat keramikası

Azərbaycan ərazisində təşəkkül tapıb inkişaf etmiş ən qədim sənətkarlıq sahələrindən biri də dulusçuluqdur. Müxtəlif istehsal proseslərini özündə birləşdirən ənənəvi dulusçuluq xalqın məişət həyatı və təsərrüfat fəaliyyəti ilə sıx bağlı olmaqla, dövrün iqtisadi həyatı və ticarət münasibətləri haqqında da zəngin təsəvvür yaradır. Bundan başqa, dulus məmulatı insanların estetik zövqünün, mənəvi zənginliyinin və istedadının mühüm göstəricisi kimi, mənsub olduğu tarixi mərhələdə xalqın mənəvi dünyasının və incəsənətinin göstəricisi kimi də mühüm elmi əhəmiyyətə malikdir. Məqalədə Azərbaycanın ilk orta əsrlər dövründə dulusçuluq sənətkarlığının vəziyyəti, əsas dulus istehsalı mərkəzləri, dulusçuluqda tətbiq olunan texnoloji proseslər, dulus məmulatının təsnifi və s.-lə bağlı məsələlər etnoqrafik təhlilə cəlb olunmuşdur.

**Nigar Joshkunsu**

**ON THE PECULIARITIES OF THE AZERBAIJAN CERAMICS IN THE MIDDLE CENTURIES**

**SUMMARY**

**Key words:** ceramics, the clay, potter's wheel, construction ceramics

The ceramics is one of the essential ancient handicrafts in the territory of Azerbaijan. The traditional ceramics involving various production fields is densely connected with everyday lives and economic activities of peoples and this art gives a broad information about economic field and trade relations of the period. Moreover, the potter's production is an important indicator of peoples' aesthetic taste, spiritual richness and talent. Simultaneously, it has a scientific importance as an indicator of spiritual world and art of peoples of the related historical period. In the article it is ethnographically analyzed the state of ceramics handicraft, the main centers of the potter's production, the technological processes in the potter's production, the classification of potter's production and so on in the middle centuries.

# 1917-Cİ İL FEVRAL İNQİLABINDAN SONRA GÜRCÜSTANIN SİYASİ PARTİYALARININ MİLLİ ƏRAZİ İDEOLOGİYASINA DAİR

**Şamil Rəhmanzadə***
shamil-rahman@mail.ru

**Açar sözlər:** Cənubi Qafqaz, Zaqatala dairəsi, tarixi konsepsiya, 1917-ci ildə Rusiyada inqilab, gürcü siyasi partiyaları, ərazi ideologiyası, millət-dövlət.

Təqdim olunmuş məqalədə 1917-ci ildə fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş gürcü siyasi qüvvələrinin ərazi ideologiyasının və orada Zaqatala mahalına iddiaların təhlilinə cəhd edilmişdir. Həmçinin sözügedən ideoloji yönəlişliklərin tarixi və ruhi kökləri nəzərdən keçirilmişdir.

1918-1920-ci illərdə Cənubi Qafqazda «millət-dövlətlərin» təşəkkülü prosesi baş verməkdə idi. XVIII əsrin sonları – XIX əsrin əvvəllərində bu tip dövlətçiliyin meydana çıxdığı Avropada siyasi coğrafiyanın klassik «millət-ərazi-dövlət» triadası formulə edilmişdi: o, milli-siyasi identikliyi ərazi identikliyi ilə sıx əlaqədə nəzərdən keçirirdi. Bu isə öz növbəsində sərhəd və ərazilərin təsbitini yaranmaqda olan hər bir «millət-dövlət» üçün son dərəcə aktual məsələyə çevirirdi.

Qeyd etməliyik ki, hələ Qafqaz cümhuriyyətlərinin meydana gəlmələrindən əvvəl onların hüdudları və əhatə edəcəkləri ərazilər haqqında sosial təsəvvürlər siyasi-ideoloji şüurlarda artıq bu və ya digər dərəcədə formalaşmışdı. Burada limologiya (sərhədşünaslıq) elminin aşağıdakı tərifi yada düşür: sərhədlər - yaxın dövrlərin sosial konstruktları olub, əvvəlcə sosial təsəvvürlərdə yaranır və yalnız sonra xəritə üzərinə delimitasiya olunur [**1**, 318].

Yuxarıdakı tezisdən çıxış edərək, bəzi qənaətlərə gəlmək mümükündür. 1917-1918-ci illərdə Gürcüstanda vüsət alan milli (etnosiyasi) hərəkat gedişində bu ölkənin arzu olunan məkanı və siyasi sərhədləri haqqında gürcü siyasi dairələrində müəyyən konvensional (uzlaşma) səciyyəli təsəvvürlər formalaşmışdı. Bu təsəvvürlər mənşəcə əvvəlki onilliklərə gedib çıxırdı: məhz o zaman gürcü intellektual dairələri öz ölkələrinin tarixinə və tarixi coğrafiyasına dair yetərincə bitkin konsepsiya yaratmışdılar. Bu

---

Şamil Rəhmanzadə - t.ü.f.d. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi

konsepsiya tarixi-coğrafi səpkidə olsa da, artıq öncədən qeyri-aşkar siyasi intensionallıq (məqsədyönlülük) kəsb edirdi.

Ona görə də 1917-1918-ci illərdə gürcü siyasi qüvvələrinin məramnamələrində Zaqatala mahalının yeri və mənasının şərhinə keçməzdən öncə, həmin məramnamələrdə bu bölgəyə dair siyasi iddiaları əsaslandırmalı olan və formalaşması XIX-XX əsrin əvvəllərinə təsadüf edən konsepsiya nəzərdən keçirilməlidir.

Gürcüstanın tarixi və tarixi coğrafiyası haqqında bu konsepsiya və orada Zaqatala mahalının qədim gürcü vilayəti olmasına dair qərar tutmuş təsəvvürlər öz kökləri ilə XVIII əsrin görkəmli gürcü tarixçisi və coğrafiyaçısı Vaxuşti Baqrationinin (1696-1757) əsərlərinə gedib çıxırdı.

Kartli hökmdarı VI Vaxtanqın oğlu olan Vaxuştinin 1745-ci ildə, Moskvada mühacirətdə olarkən başa çatdırdığı «Sakartvelos tsxovreba» («Gürcüstanın yaşamı») adlı əsəri digər analoji gürcü mənbələri ilə yanaşı, qeyd etdiyimiz kimi, XIX əsrin II yarısı-XX əsrin başlanğıcında gürcü intellektual qüvvələri, ilk növbədə D.M.Bakradze (1827-1890) və M.Q.Canaşvili kimi tarixçilər tərəfindən Gürcüstanın tarixinə və coğrafiyasına dair zamanın ruhuna müvafiq konsepsiyanın yaradılmasında qiymətli tikinti materialı rolunda çıxış etdi. Yeni gürcü tarixşünaslığının Gürcüstanın əzəmətli keçmişi və tarixi-coğrafi məkanına dair təqdim etdiyi narrativlər qəsdən ənənələr ilə manipulyasiya etmə mexanizminə istinad edirdi: məşhur fransız sosioloqu P.Burdyenin təbirincə, hal hazırkı məqamın tələblərinə uyğun olaraq keçmişə müraciət indinin açıq mənasını determinə etmək, fərqləndirmək, müəyyənləşdirmək məqsədi güdür [**2**, 64]. Yəni başqa sözlə desək, insanlar keçmişi ona görə yenidən tərtib edirlər ki, bu müvafiq şəkildə təfsir olunmuş keçmişə istinadən gələcəyə dair layihələr irəli sürsünlər. XIX-XX əsrlərin qovşağında gürcü milli şüuru keyfiyyətcə yeni mərhələyə qədəm basmış, etnomədəni hərəkat kifayət qədər canlanmışdı. Belə bir şəraitdə Gürcüstanın bir çox hallarda mifolojiləşdirilmiş tarixi keçmişinin retrospektiv rekonstruksiyası məhz gürcü milli oyanışının cari tələblərini legitimləşdirməyə çağırılmışdı. Eyni zamanda bununla, qeyri-aşkar surətdə olsa da perspektiv etnosiyası hədəf və oriyentirlər müəyyənləşdirilirdi.

Gürcüstanın tarixi coğrafiyası haqqında konsepsiyada Zaqatala mahalının gürcü tarixi, geosiyasi və sosiomədəni arealının ayrılmaz hissəsi

olmasına dair təsəvvürlər pərvəriş tapmışdı. Bölgənin tarixi keçmişi ilə bağlı analoji mövqeyi inqilaba qədərki rus tarixşünaslığı da sərgiləyirdi [Bu barədə bax: **3**, 252-253; **4**, 377; **5**, 3-19; **6**, 5-8]. Rus tarixçiləri ali hakimiyyətin təsbit etdiyi farvater üzrə hərəkət edərək, Cənubi Qafqazın xristian oykumenasına əzəli mənsubluğunu və müsəlmanların vəhşiliyini isbatlamağa çalışırdılar: bununla onlar regionda rus ekspansiyasına və xristian etnosların hökumət tərəfindən himayə edilməsinə, həmçinin o dövrdə intensiv şəkildə gerçəkləşdirilən ingiloyların xristianlaşması siyasətinə mənəvi-əxlaqi planda haqq qazandırmaq məqsədi güdürdülər. Öz rus həmkarlarından fərqli olaraq, gürcü tarixçiləri, qeyd etdiyimiz kimi, məhz öz – gürcü milli və mədəni (perspektivdə isə – etnosiyasi) dirçəlişləri məcrasında hərəkət edirdilər.

Bəhs olunan dövrdə Zaqatala mahalının tarixi mənsubiyyəti haqqında formalaşmış gürcü görümünün bədii və yığcam ifadəsini D.Bakradzenin «Zaqatala haqqında qeydlər» adlı məqaləsində tapırıq: «… Füsunkar təbiətə malik, qədim əyyamlarda müstəsna olaraq gürcü elementi ilə məskunlaşmış [Zaqatala dairəsi] Kaxetiyanın şimal-şərq ucqarı və Dağıstan xalqlarına qarşı daimi dayaq rolunda çıxış edirdi, lakin Gürcüstanın siyasi cəhətdən güclü nizamsızlığı dövründə, XVII və XVIII əsrlər ərzində ləzgilər (avarlar nəzərdə tutulur-Ş.R.), İran şahlarının və Azərbaycan tatarlarının yardımı ilə bir sıra basqınlardan sonra onu Kaxetiyadan tamamən qopardılar, onun köklü sakinlərinin əksəriyyətini məhv etdilər və ya dağıtdılar və onların küllüklərində bərqərar olaraq, özləri ilə bərabər öz qaydalarını gətirdilər. Gürcü əhalisinin salamat qalmış az bir qismini iqtisadi baxımdan kölə halına saldılar, ona müsəlman dinini, əxlaqını və s. sırıdılar» [**7**, 248].

D.Bakradze gürcü salnamələrini ixtiyari təfsir edərək, Heretinin əvvəlcədən gürcülər tərəfindən məskunlaşdığını söyləməklə nəinki Zaqatala dairəsinə, habelə Şəki qəzasının da böyük bir qisminə iddiada bulunurdu [**7**, 255].

Kembric «anlayışlar tarixi» məktəbinin görkəmli nümayəndəsi K.Skinnerin fikincə, hər bir söyləmə intensionaldır, yəni müəyyən məqsəd daşıyır. Başqa sözlə, sözlər – hansısa bir məqsədə çatmağa yönəlmiş siqnallar və ya alətlərdir [**8**, 151]. Yuxarıda gətirilən iqtibasa bu tezisi tətbiq etməklə, söyləyə bilərik: gürcü intellektual zümrəsinin ruhi-simvolik sfe-

rasını reprezentasiya (təmsil) edən Bakradze oxuyan kütləyə gürcü tarixinin müəyyən, ideallaşmaya meylli obrazını təlqin etmək məqsədi güdürdü. Məqalənin ana xəttini, ideal qəlibini (matrisasını) məhz böyük, əzəmətli, tarixi-coğrafi planda o zamankı (XIX əsrin sonundakı) gürcü etnik məskunlaşma arealından qat-qat nəhəng ərazini əhatə edən Gürcüstan məkanı haqqında ideya təşkil edirdi. Bakradzenin Gürcüstan ideyası millətçi diskursa (nitq praktikasına) xas bir sıra səciyyəvi cəhətləri ehtiva edirdi. Millətçiliyin iri nəzəriyyəçilərindən olan E.Smit həmin ideoloji şüura xas olan mifologemalar sırasında bu və digər xalq üçün nə vaxtsa «qızıl əsrin» mövcud olması, bu əsri ərazi itkisi, miqrasiya və başqa bənzər bəlaların baş verdiyi tənəzzül çağının əvəz etməsi haqqında inamın, həmçinin labüd gələcək dirçəlişə əminliyin olmasını qeyd edirdi [**9**, 102]. Bütün bunlara Bakradzenin məqaləsində və ümumiyyətlə gürcü romantik millətçiliyinin tarixi təsəvvürlərində də rast gəlirik: orada gürcü tarixinin «qızıl əsri» – Qurucu David və Tamaranın hökmranlığı dövrünə, tənəzzül çağı – monqolların yürüşündən sonra, ələlxüsus da XV əsrin sonlarına doğru Gürcüstanın siyasi cəhətdən üç hissəyə parçalanması ilə başlanmış dövrə, ərazi itkiləri və miqrasiya – Şah Abbasın 1616-cı ildə yürüşü nəticəsində, müəllifin təbirincə «Alazan arxası Kaxetiyanın», yəni Şimal-Qərbi Azərbaycanın bir qisminin müvəqqəti daxil olduğu gürcü siyasi və mədəni sferasından çıxmasına uyğun gəlirdi.

Mənşəcə ingiloy olan M.Canaşvili 1910-cu ildə gürcü dilində nəşr etdirdiyi «Saingilo» kitabında bölgənin ən qədim dövrlərdən XIX əsrin sonlarınadək tarixini yuxarıda qeyd etdiyimiz konsepsiya çərçivəsində nəzərdən keçirmişdi [**10**, 12].

Gətirilən faktlar gürcü intellektual-tarixi yaddaşında «Saingilo» deyə işarələnmiş bölgənin önəmini yetərincə manifestasiya edirdi. Məşhur fransız filosofu P.Rikör yaddaşın (bizim nümunəmizdə tarixi yaddaşın) ifadə vasitələrinə, təhkiyəyə ehtiyacı olduğunu vurğulayaraq, yazırdı ki, «yaddaş zamanda baş vermiş hadisələr haqqında şahidliklər funksiyasını yerinə yetirir, təhkiyə isə yaddaşı strukturlaşdırmağa imkan verir» [**11**, 8]. Bu tezisin işığında güman edə bilərik ki, adıçəkilən gürcü narrativlərində etnotarixi yaddaş strukturlaşaraq, müəyyən ideya ölçülməsi kəsb edirdi. Yəni başqa sözlə, narrativlər tarixi keçmiş haqqında xatirələrdə bulunan rəvayətləri biçimli konsepsiya halına gətirirdi.

Cənubi Qafqaz xalqları üçün taleyüklü 1917-ci il ərəfəsində Zaqatala mahalı haqqında tarixi, coğrafi, siyasi və sosiomədəni aspektləri ehtiva edən kifayət qədər bitkin gürcü konsepsiyası yaradılmışdı. O, zəngin gürcü tarixşünaslıq irsi zəminində, fəqət Avropadan gələn millətçi ideyaların, ələlxüsus da alman romantik konsepsiyasının təsiri altında formalaşmışdı və üzvü surətdə gürcü milli ideologiyasına və onun ərazi proqramına daxil olmuşdu.

1917-ci ilin fevralında Petroqradda baş vermiş uğurlu hərbi çıxış Rusiya siyasi məkanında fundamental proseslərə rəvac verdi. Analoji proseslərin cərəyan etdiyi və siyasi tranzit (keçid) dövrü kimi səciyyələndirə biləcəyimiz zamanələrdə etniklik resursu kifayət qədər aktuallaşır: o sosial-siyasi münasibətlərdə, kütlələrin təşkilatlanması və səfərbərliyində önəmli rol oynamağa iddia edir [**12**, 6].

1917-ci ilin fevral inqilabının ilk günlərindən etibarən Cənubi Qafqazda da etniklik resursunun fəallaşmasının şahidi oluruq: o çağadək bu və ya digər dərəcədə həyat əlaməti göstərən mədəni-etnik hərəkatlar sürətlə etnosiyasi hərəkatlara transformasiya olunur. Etnosiyasi hərəkatın meydana çıxması etnosun (etnik qrupun) siyasi aktora konversiyası (çevrilməsi) deməkdir; belə bir siyasi aktor (fəal subyekt) öz etnik rəqiblərinə əks təsir göstərməyə, və ya öz etnik maraqlarını dövlət siyasətinin gündəliyinə daxil etməyə çalışır [**13**, 140-141]. Hər hansı etnosiyasi hərəkatın yaranması üçün tələb olunan əsas amillərdən biri kimi etnikliyin siyasiləşməsi və səfərbər olunması çıxış edir. Siyasiləşmə prosesində etnomədəni markerlər və simvollar (dil, din, mənşə, və tarix ümumilyi, habelə ərazi haqqında təsəvvürlər və s.) intensiv etnofərqləndirici dəyər kəsb edir və etnik ideologiya dərəcəsinə yüksəldilir.

Etnosiyasi hərəkatların ideoloji özülü olan millətçiliyi, fin coğrafiyaşünası A.Paasi məhz ərazi ideologiyasının başlıca formalarından biri və dövlət quruculuğunun əsası kimi xarakterizə edir [**1**, 312]. Bu cür ideologiya çərçivəsində müəyyən ərazilər yüksək simvolik əhəmiyyət kəsb edərək, ərazi-simvollara çevrilir [**14**].

Yuxarıda gətirilən nəzəri qeydlər sözügedən dövrdə Cənubi Qafqazda, o cümlədən Gürcüstanda təşəkkül tapmış etnosiyasi situasiyaya da tam ölçüdə interpolyasiya oluna bilər. 1917-ci ilin fevral-oktyabr zaman kəsiyində digər Qafqaz xalqlarında olduğu kimi, gürcü etnik özşüurunun, özünüdərkinin siyasi komponentinin son dərəcə artması şəraitində milli-siyasi

diləк və tələblərin konseptuallaşması baş verirdi. Gələcək Gürcüstan Respublikasının partiya sisteminin əsas subyektləri – menşeviklər, sosial-federalistlər, milli-demokratlar kəskin ideya-siyasi mübarizə və mübahisələr şəraitində strateji milli məqsəd və vəzifələr barədə konsensus əldə etməyə çalışırdılar ki, onun da əsas təzahürlərindən biri konvensional anlayışların, yəni siyasi camiə (rusca «политическое сообщество») tərəfindən barələrində razılığa gəlinmiş məfhumların işlənib hazırlanması idi. Belə məfhumlar sırasında, aşağıda görəcəyimiz kimi, «Gürcüstanın arzu olunan məkanı» haqqında anlayış da yer almışdı.

Qeyd etdiyimiz kimi, fevral inqilabından sonra Gürcüstanda milli hərəkat geniş vüsət alır. Çox maraqlıdır ki, gələcək gürcü respublikasının əsas memarı, ona özünəməxsus ideya-siyasi ölçülmə verən menşeviklər ilk vaxtlar ümumiyyətlə milli hərəkatın genişlənməsinə qarşı kəskin surətdə çıxış edirdilər. Rusiya sosial-demokratlarının liderlərindən biri, gələcək Gürcüstan Demokratik Respublikasının rəhbəri Noy Jordaniya 1917-ci ilin iyunun 1-də Qafqaz vilayət sovetlər qurultayında milli məsələyə dair məruzəsində muxtariyyətdən deyil, milli özünüidarədən danışmağa üstünlük verirdi; özünüidarə isə onun diskursunda proletariatın mədəni inkişafı anlamında işlədilirdi. O, "mədəni-milli muxtariyyəti" nəzərdə tutaraq, söyləyirdi: "Əgər biz hər bir millət üçün imkanlar yaratsaq ki, millət öz milli məktəbinə, milli məhkəməsinə, zəruri təsisatlarına malik olsun, öz dilində təhsil ala və öz hüquqlarını müdafiə edə bilsin, əgər biz elə şərtlər yarada bilsək ki, onun vasitəsi ilə millət öz doğma dilində həyatın bütün sahələrində sinfi mübarizə apara bilsin, o zaman fəhlə sinfi üçün ən mühüm məsələ həllini tapmış olardı" [**15**, 29]. "Mədəni-milli muxtariyyət" konseptual yönəlişliyi Jordaniya və onun timsalında gürcü menşeviklərinin Rusiyanın gələcək ərazi quruluşuna dair görüşləri ilə çulğalaşırdı: "Rusiyada milli quruluşun bir tipi mümkündür: vahid respublika hüdudları daxilində bir sıra özünü idarə edən milli vilayətlər. Bu vilayətlərdə yerli səciyyəli bütün məsələlərə dair yerindəcə qanunlar dərc olunacaq, ümumi səciyyəli işlərlə əlaqədar isə ümumi mərkəzə tabe olacaq". Lakin menşeviklər milli məsələnin, o cümlədən ərazi quruluşunun həllini Ümumrusiya Müəssislər Məclisinin çağırılmasınadək təxirə salınmasını zəruri sayırdılar: "Biz indi milli məsələni elə də xüsusi irəli sürmürük, zira güman edirik ki, yalnız ümumi tələblərin həyata keçirilməsi milli məsələ-

nin də çözümünü mümkün edəcək... Müəssislər Məclisinə biz hazır rəy təqdim etməliyik" [**15**, 31].

Fikrimizcə, bu ondan irəli gəlirdi ki, gürcü menşevikləri 1917-ci ilin payızınadək özlərini ümumimperiya sosial-siyasi məkanının subyektləri, Rusiya fevral inqilabının aparıcı və fəal qüvvəsi kimi təsəvvür edirdilər. Məhz bu – daha universal siyasi özünüdentikləşdirmənin məntiqi onları lokal-etnik oyunçu səviyyəsinə enməkdən çəkindirirdi. Bəhs olunan dövrdə gürcü menşevikləri milli məsələnin həllini mədəni-milli muxtariyyət prinsipinin tətbiqində görür, amma məhdud səlahiyyətli milli ərazi-özünüidarə orqanlarının yaradılmasını da məqbul hesab edirdilər. Zaqafqaziya sosial demokratlarının (menşeviklərinin) 1917-ci ilin iyununda olmuş VI qurultayında sözügedən məsələyə dair qəbul etdiyi qətnamədə deyilirdi: «Ərazi özünüidarəsinin sərhədləri bu və ya digər milliyyətin real məskunlaşması prinsipi üzrə təsbit edilir, bu zaman təsərrüfat və məişət şərtləri nəzərə alınır. Milli sərhədlərin dəyişdiriləcəyi təqdirdə, sərhədlər müəyyənləşərkən mübahisəli olan yerlərdə referendum tətbiq edilməlidir» [**16**]. Söyləyə bilərik ki, 1917-ci ilin payızınadək dəyişməz qalan menşeviklərin etnoərazi məsələlərə dair bu yönəlişliyinin (ustanovkasının) «açar istilahı» «əhalinin real məskunlaşması» prinsipi idi: bu prinsip Cənubi Qafqazın perspektiv ərazi bölgüsünün kifayət qədər demokratik həllini təqdim edirdi.

1917-ci ilin oktyabrınadək menşeviklər gələcək gürcü muxtariyyəti və ya özünüidarəsinə daxil ediləcək ərazilərin konkretləşməsindən yayınırdılar ki, bu da yuxarıda vurğuladığımız səbəbdən irəli gəlirdi.

Menşeviklərdən fərqli olaraq gürcü sosial-federalistləri və milli-demokratları ən başlanğıcdan öz ölkələri üçün milli-ərazi muxtariyyəti tələb edirdilər. Məsələn, gürcü sosial-federalistləri hələ 1904-cü ildə Gürcüstanın muxtariyyəti tələbini irəli sürmüşdülər və Birinci rus inqilabı dövründə də bu şüara uyğun fəaliyyət göstərirdilər [**17**, 164-165; **18**, 129].

Sosial-federalistlər 1917-ci ildə Gürcüstan muxtariyyətinin ərazi və sərhədlərinin müəyyənləşdirilməsində menşeviklərə yaxın mövqe tuturdular; onların mayda olmuş konfransı qərara almışdı: «Gürcüstan ərazisinin sərhədlərinin müəyyən edilməsi üçün ərazi bütövlüyünün saxlanılması ilə real məskunlaşma prinsipinin əsas götürülməsini yenidən təsdiqləmək» [**19**]. Göründüyü kimi, sosial-federalistlər də real məskunlaşma prinsipinə üstünlük verirdilər, lakin onların irəli sürdükləri «ərazi bütövlüyünün sax-

lanılması» şərti əslində implisit (yığcam) formada «Gürcüstanın tarixi-coğrafi məkanı» ideyasını qismən ehtiva edirdi. Təsadüfi deyildi ki, konfrans gürcü muxtariyyətinin arzu edilən məkanını müəyyənləşdirərkən, ora Zaqatala dairəsini də daxil etmişdi [**20**]. Bu isə qətnamənin həm yuxarıda ərz olunan «real məskunlaşma prinsipi», həm də Zaqatala və Borçalının siyasi taleyi ilə bağlı ikinci hissəsi ilə ziddiyyət təşkil edirdi: «Borçalı və Zaqatala dairəsinə gəldikdə isə onlar yalnız köklü əhalinin əksəriyyətinin referendum yolu ilə buna münasibətini bildirdiyi halda Gürcüstan ərazisinə daxil ola bilər».

Gürcüstan muxtariyyətinin ehtimali ərazisi ilə bağlı 1917-ci ildə (hər halda, payızadək) gürcü menşeviklərinin və qismən də sosial federalistlərinin belə mötədil mövqe tutmaları, fikrimizcə, onların Rusiya postfevral siyasi məkanının perspektivləri ilə bağlı ümidlərindən (menşeviklərdə) və gözləmələrindən (sosial-federalistlərdə) doğurdu: Rusiyanın planlaşdırılan federativ, fəqət siyasi bütövlüyü saxlanılacaq dövlət quruluşu sistemində gürcü etnik elementinin seyrək olduğu ərazilərin Gürcüstana qatılması aşkar konfliktogenlik üzündən problematik görünürdü.

Bəhs etdiyimiz dövrdə Gürcüstanda cərəyan edən etnosiyasi proseslərin bir başqa mühüm subyekti gürcü millətçiləri – milli-demokratlar partiyası idi [Gürcüstanın milli-demokrat partiyası və onun proqramı haqqında bax: **21**, 47-48; **18**, 134]. Bu partiyanın təşkilinə hələ 1913-cü ildə başlanılmışdı: Tiflis, Kutais, Bakı şəhərlərində partiyanın qeyri-leqal surətdə yerli özəkləri fəaliyyət göstərirdi. Onun hüquqi cəhətdən təşəkkülü isə artıq 1917-ci ilin yayına təsadüf edirdi.

Milli demokratlar «bütün siniflərin gürcüləri, birləşin!» şüarını irəli sürmüşdülər və xalqı partiya, yaxud da sinfi maraqlar naminə deyil, ümumgürcü milli vəzifələrinin həyata keçirilməsi üçün birləşməyə çağırırdılar [**18**, 134]. Gürcü xalqının etnik lideri statusuna iddialı milli-demokratların bu şüarı onların öz siyasi talelərini fərdi və ya sosial-sinfi yox, etnik kateqoriyalarda qəbul etmələrindən xəbər verirdi.

Gürcü sosial-demokratları və sosial-federalistlərindən fərqli olaraq, milli-demokratlar Gürcüstanın siyasi perspektivi və ərazi ideologiyası məsələlərində daha radikal xəttin tərəfdarları idilər. Sözügedən partiyanın mətbu orqanı – «Çveni kvali» («Bizim şırım») qəzeti özünün 1917-ci il 26 iyun sayında yazırdı: «Sosial-demokratların və sosial-federalistlərin tələb

etdikləri formada gerçəkləşdirməkdənsə, Gürcüstanın muxtariyyətindən tamamilə imtina etmək daha yaxşıdır» [**21**, 49].

Partiyanın 1917-ci ilin iyununda olmuş təsis qurultayı demokratik respublika əsası üzərində Gürcüstanın siyasi muxtariyyəti tələbini irəli sürdü; əslində gürcü millətçiləri üstüörtülü formada da olsa, müstəqil dövlət qurulmasını ehtimal edirdilər. Məhz həmin qurultayda milli-demokratlar faktiki olaraq gələcək gürcü respublikasının ərazi identikliyinin ideoloji əsaslarını təsbit etdilər: onların hazırladıqları doktrinal səciyyəli «Gürcüstanın milli hüquqları» adlanan məramnamədə Gürcüstanın bir qədər öncə söz açdığımız tarixi-coğrafi hüdudlarına dair konsepsiya ideya-siyasi və funksional məna və əhəmiyyət kəsb etdi. O ənənəvi gürcü milli-tarixi narrativləri silsiləsinin məntiqi inkişaf mərhələsi sayılmalıdır. Qeyd etmək yerinə düşərdi ki, milli və tarixi narrativlər bir qayda olaraq etnik və ərazi yanaşmalarını çulğalayır. Yəni millətin tarixi haqqında təhkiyə bu və ya digər ərazinin nədən məhz ona hüquq üzrə məxsus olması haqqında hekayə ilə çulğalaşır [**22**, 17]. Milli-demokratların ərazi proqramı ümumgürcü millətçi diskursunun radikal versiyası kimi Gürcüstanın arzu olunan, ideal məkan obrazını cızırdı. Gürcü intellektual zümrəsinin romantik təsəvvürlərinə söykənən və o dövrün siyasi dairələrində tez-tez səslənən «Çariça Tamaranın səltənətinin bərpası» şüarında [**23**, 94] öz tutumlu ifadəsini tapan bu ideal məkan nəinki gürcülərin o zaman etnodemoqrafik planda əksəriyyət təşkil etdikləri əraziləri, həmçinin tarixi keçmişdə nə vaxtsa Gürcüstan çarlığına daxil olan vilayətləri də əhatə etməli idi. Gürcü millətçiliyinin simvolik coğrafiyasını təqdim edən milli-demokratların proqramında deyilirdi: «Gürcüstan ərazisi əyalətlərdən ibarətdir: Kartli, Kaxeti, Samsxe-Saatabaqo, İmereti, Quriya, Minqreliya, Svaneti, Acara və Abxaziya, özü də Gürcüstan tərkibinə, tarixən ona mənsub torpaqlar da daxil olmalıdır: Zaqatala, Artaani (Ərdahan – Ş.R.) və Oltu dairələri (sonuncu iki dairə Qars vilayətinə daxil idi - Ş.R.)» [**21**, 48]. Qeyd etməliyik ki, gürcü siyasi partiyalarından məhz milli-demokratlar ilk dəfə olaraq Zaqatala dairəsinin Gürcüstana ilhaqı məsələsini birmənalı və qəti şəkildə öz proqramlarına salmışdılar.

Beləliklə, milli-demokratların bu proqramı doktrinal səviyyədə Gürcüstanın tarixi coğrafiyasını, təbiri caizsə, siyasi coğrafiyaya konversiya etmək cəhdini təqdim edirdi. Bu zaman, qeyd etdiyimiz kimi, tarixi keç-

mişə müraciət praqmatik səciyyə daşıyırdı. Bir qədər öncə isnad etdiyimiz ingilis alimi K.Skinner XVII əsr İngiltərə inqilabı dövründə parlament və kralın hüquqları ətrafında gedən debatların timsalında göstərmişdir ki, insanlar tarixə, tarixi anlayışlara və maksimalara apellyasiya edərkən, onları keçmişin səhih mənzərəsini bərpa etməkdən daha çox siyasi mübarizədə əlavə arqumentlər əldə etmək istəyi hərəkətə gətirir [**8**, 151]. Bizim nümunədə bu o deməkdir ki, gürcü millətçiləri istər daxili siyasi (gürcü siyasi meydanında rəqibləri ilə qarşılıqlı təsir), istərsə də xarici-siyasi (başqa etnik mühitdən olan və eyni ərazilərə iddiada bulunan siyasi aktorlarla qarşılıqlı təsir) müstəvidə fəaliyyət göstərərkən mifolojiləşdirilmiş keçmişə istinadla öz niyyət və əməllərini legitimləşdirməyə çalışırdılar.

Milli-demokratların proqramında diqqəti cəlb edən digər məqam, orada öncə qeyd etdiyimiz kimi, ərazi-simvolların dəqiq işarələnməsi idi: bu qəbil ərazilər sırasında Zaqatala dairəsi də xatırlanırdı. Moskva Dövlət Universitetinin professoru A.İ.Solovyovun tərifinə görə, simvollar insanın siyasi məkanda ruhi əsasını və identikləşməsini təşkil edir, eyni zamanda sosial obyektlərə aktorların ictimai ünsiyyəti üçün zəruri mənaları verən ideal formaları təmsil edir [**24**, 6]. Yəni, Zaqatala rəmzi anlam kəsb etməklə gürcü milli-siyasi identikliyinin tərkib hissəsinə çevrilirdi və ictimai kommunikasiya üçün zəruri məna əldə edirdi.

Gürcü siyasi spektrinin yuxarıda qeyd etdiyimiz üç qüvvəsi arasında milli məsələyə dair uzlaşma əldə etmək məqsədi ilə hələ 1917-ci ilin aprelin əvvəllərində və 16-da partiyalararası müşavirə çağırılmışdı [**21**, 49-50]. Müşavirənin Gürcüstanın ərazisi ilə bağlı coşqun mübahisə şəraitində çıxardığı qərar kompromiss xarakter daşıyırdı: mübahisəsiz ərazi kimi gürcülərin əksəriyyət təşkil etdiyi ərazilər, mübahisəli kimi isə gürcülərin əksəriyyət təşkil etmədiyi ucqar rayonlar hesab olundu.

Əsas müzakirə predmetlərindən olan gürcü milli ərazi vahidinin səlahiyyətləri, onun qonşuları və Ümumrusiya mərkəzi ilə münasibətləri məsələsi milli-demokratlarla sosial-demokratlar arasında o zaman hələ də dərin fikir ayrılıqları mövcud olduğunu göstərdi: əgər birincilər Gürcüstana 1783-cü il müqaviləsinə müvafiq qaydada geniş hüquqlar verilməsinə, yəni de-fakto müstəqilliyə çağırırdılarsa, sosial-demokratlar N.Ramişvilinin dili ilə belə bir perspektivi rədd edirdilər. Ramişvili iddia edirdi: «Burada (Qafqazda-Ş.R.) biz digər xalqlarla razılaşma olmadan

hərəkət edə bilmərik və qonşularla bu qarşılıqlı münasibətlərə müvafiq forma vermək lazımdır. Ona görə də ümumi məsələlərin həlli üçün... Zaqafqaziya seymi lazımdır... Mədəniyyət məsələlərinə gəldikdə isə, onlar tamamilə milli vahidlərin səlahiyyətinə keçir» [**21**, 50-51]. Bu, menşeviklərin bir qədər bəhs etdiyimiz mədəni-milli muxtariyyət konsepsiyasından nəşət edən nöqteyi-nəzər idi.

Fəqət Ümumrusiya miqyasında siyasi böhran gücləndikcə və mərkəzlə əyalətlər arasında əlaqə zəiflədikcə gürcü menşeviklərinin muxtariyyətə münasibəti dəyişikliyə uğrayırdı. Ümumrusiya demokratik müşavirəsinin 18 sentyabr (1 oktyabr) iclasında A.Çxenkeli - gürcü sosial-demokratlarının millətçi ovqatlı qanadının təmsilçisi bəyan etmişdi: «Gürcü xalqının siyasi partiyalarında milli məsələyə dair artıq ümumi rəy mövcuddur. Onlar Gürcüstan üçün siyasi muxtariyyət tələb edərək, bu məsələdə tarixi hüquqa və ali ədalətə istinad edirlər» [**18**, 136]. Fəqət iclas iştirakçıları arasında özlərinin separatçı reputasiyasını yaratmaqdan çəkinən natiq bu sözlərin dərhal ardından gürcü xalqının bütün qüvvələrinin böyük Rusiya Respublikasının sərəncamında olduğunu təntənə ilə vurğulamışdı. Çıxışının sonunda Çxenkeli postfevral konfiqurasiyasının mövcud olduğu müddətdə gürcü menşeviklərinin ümumdövlət siyasi meydanında fəal iştiraklarını davam etdirəcəklərinə işarə ilə söyləyirdi: "Rusiya beynəlmiləl dövlətdir və Rusiya qarşısında duran məsələlərin çözümü Rusiyanın bütün millətlərinin təmsilçilərinin uzlaşdırılmış hərəkətləri olmadan ağlağasığmazdır" [**25**, 161-162].

Beləliklə, 1917-ci ilin fevral-oktyabr kəsiyində gürcü siyasi partiyalarının milli-ərazi proqramlarının ötəri nəzərdən keçirilməsi bizə söyləməyə əsas verir ki, o dövrdə yalnız milli-demokratlar əvvəlki gürcü tarixi-intellektual ənənəsinə söykənərək, daha dolğun ərazi doktrinası hazırlamışdılar: həmin proqram, qeyd etdiyimiz kimi, Zaqatala mahalına gürcülərin iddialarını təsbit edən ilk siyasi sənəd idi. Fəqət, artıq 1917-ci ilin mayında Zaqatala dairəsinin Tiflis quberniyasına birləşdiriləcəyi barədə güclü şayiələr meydana çıxmışdı: bu şayiələr o qədər ciddi idi ki, Zaqatala dairə komissarlığı Xüsusi Zaqafqaziya Komitəsinə müraciət edərək, belə bir birləşmənin yolverilməz olduğunu bəyan etmişdi. Bu arada isə dairə ilə Sığnaq qəzası arasında müsəlman-gürcü ədavəti güclənməkdə idi. Gərginliyi azaltmaq üçün 1917-ci ilin avqustun 15-də Alazan vadisində

Zaqatala dairəsi, Sığnaq qəzası və Dağıstan vilayəti nümayəndələrinin toplantısı keçirildi. Bu barədə «Açıq söz» qəzeti yazırdı: «İctima (toplantı –Ş.R.) müttəhid and ilə iki millət arasında olan mehribançılığın xələldar edilməməsini, ittifaq və qardaşlıq saxlamağa, hər cür müfəttinanə (fitnəkar-Ş.R.) çıxışları, hər hansı tərəfdən olursa olsun, təqib etməyi qərara almışdır» [**26**, 24 avqust, №549].

1917-ci ilin oktyabr silahlı üsyanı Rusiya imperiyasında dezinteqrasiya proseslərini gücləndirdi. Bolşeviklərin hakimiyyəti ələ keçirməsi faktiki olaraq Petroqradda legitim mərkəzi məhv etdi; bu, həmin mərkəz idi ki, onunla ucqarlardakı milli hərəkatlar öz federativ və ya muxtar haqları ilə əlaqədar sazişə gəlmək niyyətində idilər.

Oktyabr çevrilişi və onun bilavasitə doğurduğu siyasi və sosial nəticələr eyni zamanda gürcü sosial-demokratiyası üçün mötəbər fevral inqilabının iflasa uğraması və vahid Rusiya siyasi-hüquqi məkanının destruksiyası (dağılması) anlamına gəlirdi. Dolayı şəkildə bunun etirafını gürcü menşeviklərinin lideri N.Jordaniyanın noyabrın 11-də Cənubi Qafqazda yerli hakimiyyətin təşkili məqsədi ilə çağırılmış Tiflis müşavirəsindəki nitqi də təsdiqləyir: «Artıq 100 ildir ki, Zaqafqaziya Rusiya ilə əlbir işləyərək, özünü onunla qırılmaz əlaqədə hesab edirdi. İndi bizə bədbəxtçilik üz verib: Rusiya ilə əlaqə qırılmışdır və Zaqafqaziya tək qalmışdır. Biz öz ayaqlarımız üzərinə qalxmalı və öz-özümüzə kömək etməli, yaxud da anarxiyada məhv olmalıyıq» [**15**, 51]. Yəni yeni, bolşevik Rusiyası gürcü menşevikləri üçün ölüm və hərcmərclik rəmzi, hər hansı bir dövləti nizamın antitezisi kimi təsəvvür olunurdu.

Məhz Oktyabr inqilabı gürcü sosial-demokratiyasını etnosiyasi hərəkatda daha fəal iştirak etməyə və həmin hərəkatın rəhbərliyini öz üzərinə götürməyə sövq etdi.

Gürcüstanda milli hərəkat tezliklə müəyyən institusionallıq kəsb etdi: 1917-ci ilin noyabrın 20-də gürcü partiyalararası şurasının təşəbbüsü ilə Gürcüstanın ilk Milli qurultayı çağırıldı [Qurultayla əlaqədar ətraflı məlumat üçün bax: **27**, 126-136]. Bolşeviklərdən başqa bütün siyasi partiyaların qatıldığı bu qurultaya gürcü menşevikləri rəhbərlik edirdilər.

Bu forumun işində Zaqatala dairəsinin gürcü əhalisinin nümayəndəsi də iştirak edirdi; o, qurultayın seçdiyi və H.Jordaniyanın sədri olduğu 67 nəfərlik gürcü milli şurasının tərkibinə də daxil edilmişdi [**27**, 126].

Vahid dövlətçilik sisteminin dağılması, unifikasiyaedici siyasi strukturun tədricən aradan qalxması, Qafqazın sürətlə əlahiddələşməsi şəraitində sözügedən Şura faktiki olaraq gürcü əhalisi üçün milli hakimiyyət orqanı nüfuzu kəsb etmiş olurdu. Ona görə də onun tərkibinə Zaqatala gürcülərinin təmsilçisinin daxil edilməsi bu qurumun dairəni gələcək gürcü muxtariyyətinin (o zaman söhbət yalnız muxtariyyət haqqında gedirdi) hüdudları daxilinə qatmaq niyyətindən xəbər verirdi. Fəqət gürcü muxtariyyəti və onun dəqiq müəyyənləşdirilmiş ərazisi məsələsi 1917-ci ilin sonları - 1918-ci ilin əvvəllərində cərəyan edən proseslər fonunda hələ yetərincə aktual deyildi: qeyd olunan dövrdə Cənubi Qafqazda vahid dövlətçilik strukturlarını qoruyub saxlamaq hələ kifayət qədər zəruri idi. Bu isə azərbaycanlıların, gürcülərin və ermənilərin siyasi fəaliyyətinin koordinasiyasını şərtləndirirdi.

Belə bir şəraitdə Cənubi Qafqazın etnosiyasi hərəkatları ərazicə ayrılma məsələsini ilk vaxtlar qabartmırdılar: məsələn, 1917-ci ilin dekabrında gürcü milli şurası Zaqatala bölgəsinin müsəlman əhalisinin narazılığına yol verməmək üçün qərarlarının dairə üçün məcburi olmadığı barədə dərhal bəyanat vermişdi [**26**, 4 dekabr, №621 («Qafqaz xəbərləri»)].

Zaqafqaziya seyminin mövcudluğu dövründə Cənubi Qafqaz xalqlarının etnik özünüidarə vahidlərinin təşkili və sərhədlərinin çəkilməsi məsələsi müzakirə edilmiş, fəqət həllini tapmamışdı. Seymin 1918-ci il 15 fevralda olmuş iclasında gələcəkdə milli muxtariyyətlərin hüdudlarının müəyyənləşdirilməsi zamanı etnik məskunlaşma prinsipinin əsas götürülməsi haqqında fikirlər səslənsə də, konkret qərar qəbul edilməmişdi [**28**].

Cənubi Qafqaz xalqlarının tarixində ilk ümumi dövlət təcrübəsi – federativ Cənubi Qafqaz (Transqafqaz) Respublikası (o formal olaraq 1918-ci ilin aprelin 22-də elan edilmiş, amma faktiki olaraq fevralın 23-dən, yəni Zaqafqaziya Seyminin açılışından etibarən fəaliyyət göstərirdi) daxili etnik və siyasi çəkişmələr, habelə mürəkkəb beynəlxalq situasiya üzündən 1918-ci ilin mayın 25-də öz mövcudluğuna son verdi. Əvvəlki siyasi və sosial proseslərin məntiqi yekunu kimi gənc Qafqaz respublikaları – özünəməxsus millət-dövlətlər meydana çıxdı.

Milli dövlətlər yaranmalarına görə millətçi baxışların inkişafına borclu idilər: mütləqiyyətçi hakimiyyət prinsipinə söykənən ənənəvi dövlətlərin – imperiyaların xalq suverenliyi və milli yekcins dövlət ideyasına istinad edən

«millət-dövlətlərlə» sürətlə əvəzləndiyi XIX-XX əsrin əvvəlləri ümumiyyətlə «millətçilik əsri» kimi qavranılırdı. Burada millətçiliyin görkəmli tədqiqatçılarından olan E.Hobsbaumun aşağıdakı tərifini gətirmək istərdik: «millətçilik - siyasi proqramdır və tarixin nöqteyi-nəzərinə görə, nisbətən yeni hadisədir. Bu konsepsiyaya uyğun olaraq, özünü «Millət» kimi anlayan qruplar, fransız inqilabından sonra formalaşmış ərazi dövlətləri tipində dövlət yaratmaq hüququna malikdirlər» [**9**, 102].

«Millət-dövlət» haqqında gətirilmiş bu xarakteristika 1918-ci ildə meydana çıxmış Qafqaz respublikalarına da şamil oluna bilər. Siyasi planda bu respublikalar imperiyanın çöküşünün məhsulları idi. Onlar mövcudiyyətləri dövründə öz soydaşlarının məskun olduqları ərazilərlə yanaşı, tarixi, təsərrüfat və s. mülahizələrə istinadən, özgə etnik və sosiomədəni arealdan olan torpaqları əhatə etməyə çalışırdı (sonuncu qeyd ilk növbədə Ermənistan və Gürcüstan respublikalarına şamil olunmalıdır). Bu dövlətlərin ərazi identikliklərinin təsbitinə yönəlmiş səyləri çoxsaylı ixtilaf və hətta qanlı münaqişələrlə müşayiət olunurdu. Ümumiyyətlə, ərazi çəkişmələri müstəqil varolmalarının bütün dövründə Cənubi Qafqaz respublikalarının siyasi həyatının ayrılmaz atributuna çevrilmişdi, çünki millətçilik, məşhur ingilis antropoloqu B.Andersenin fikrincə «milləti birləşdirmək üçün daxilə, millət və onun ərazisini qonşu xalqlardan ayırmaq üçün isə xaricə hədəflənir» [**1**, 323].

Azərbaycan və Gürcüstan respublikaları arasında öz təcili həllini tələb edən bir sıra etnoərazi ixtilafları, bu dövlətlər siyasət meydanına çıxar-çıxmaz, yaranmışdı. Artıq ilk diplomatik yazışmalarda ərazi mübahisələrinin həllinə dair Azərbaycan və gürcü yanaşmalarında fərq ortaya çıxırdı: əgər Azərbaycan tərəfi münaqişələrin həllinin prinsipial əsası kimi etno-demoqrafik, yəni gürcü menşeviklərinin hələ 1917-ci ildə irəli sürdükləri «real məskunlaşma» prinsipini dəstəkləyirdisə, gürcü tərəfi «tarixilik» adlanan prinsipi əldə rəhbər tuturdu. Faktiki olaraq bununla menşeviklər – Gürcüstan siyasi sisteminin və dövləti mexanizminin dayaq elementi, milli-demokratların bir qədər əvvəl söhbət açdığımız ərazi ideologiyasını və onun «açar» anlayışını («Gürcüstanın tarixi məkanı») əxz etdiklərini nümayiş etdirmiş olurdular.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Колосов В.А., Мироненко Н.С. Геополитика и политическая география: Учебник для студ. вузов. 2-ое изд., испр. и доп. М.: Аспект-Пресс, 2005, 479 с.
2. Бурдье П. Социология политики. М.: SOCIO-LOGOS, 1993, 330 с.
3. Коцебу М.А. Сведения о джарских владениях 1826 г. // История, география и этнография Дагестана. XVIII-XIX вв. Архивные материалы. / Под ред. М.О. Косвена и Х-М. Хамшаева. М.: Изд. вост. лит., 1958, с. 252-263
4. Константинов О.И. Джаро-белоканцы до XIX столетия//Сборник газеты «Кавказ» на I полугодие 1846 г. Тифлис: Типография канцелярии наместника на Кавказе, 1847, с. 376-401
5. Посербский А. Очерк Закатальского округа//Кавказский календарь на 1866 г. Литературный отдел. Тифлис: Типография глав. управ. наместника Кавказского, 1865, с.3-60
6. Фон Плотто А.И. Природа и люди Закатальского округа // ССКГ, вып. IV. Тифлис, Типография глав.управ.наместника Кавказского, 1870, с. 1-62
7. Бакрадзе Д.З. Заметки о Закатальском округе // Записки Кавказского Отдела Императорского Русского Географического Общества (КОИРГО), книжка XIV, вып. I. Тифлис: Типография канцелярии главноначальствующего на Кавказе, 1890, с.248-281
8. Рощин Е.Н. История понятий Квентина Скиннера // Политические исследование (Полис), 2006, №3 (93), с.150-157
9. Лурье С. Национализм, этничность, культура. Категории науки и историческая практика // Общественные науки и современность, 1999, №4, с.101-111
10. Əliyev (Hacıəli) Ş. İngiloylar (tarixi-etnoqrafik tədqiqat) - T.e.n. dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya – Bakı, 2001, 184 s.
11. Рикёр П. Память, история, забвение // Перевод с французского. М: Издательство гуманитарной литературы, 2004, 728 с.
12. Язык и этнический конфликт (Под ред. М.Б.Олкотт и И.Семенова). М.: Гендальф, 2001, 150 с.
13. Аклаев А.Р. Этнополитическая конфликтология: Анализ и менеджмент. М.: Дело, 2005, 471 с.
14. Колосов В.А. Теоретическая лимология: Новые подходы // http://www. intertrends. ru/three/004.htm
15. Жордания Н.Н. За два года. Доклады и речи (с 1-го марта 1917 г. по 1 марта 1919г.). Тифлис: Типография грузинского правительства, 1919, 224 с.
16. Борьба», 1917, 21 iyun, №39
17. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку: Элм, 1997, 336 с.
18. Вахтангишвили Т.Б. Социально-экономическая структура Грузии и основные задачи общественно-политического движения в стране на рубеже XIX-XX вв. Автореф. дис. ... д.и.н., на грузин. и на рус. языках. Тбилиси, 2002, 140 с.
19. «Новое время», 1919, 17 yanvar, №13
20. «Каспий», 1917, 17 (30) may, №107
21. Ментешашвили А.М. Октябрская революция и национально-освободительное движение в Грузии (1917-1921). Тбилиси: Ганатлеба, 1987, 208 с.
22. Миллер А. Империя Романовых и национализм: эссе по методологии исторического исследования. М.: Новое литературное обозрение, 2006, 248 с.
23. Драбкина Ел. Грузинская контр-революция. Л.:Прибой, 1928, 179 с.

24. Соловьев А.И. Политическая идеология: логика исторической эволюции // Политические исследование (Полис), 2001, №2, с. 5-22.
25. Руднева С.Е. Демократическое совещание (сентябрь 1917 г.): История форума. М.; Наука, 2000, 256 с.
26. «Açıq söz», 1917
27. Махарадзе Ф. Советы и борьба за Советскую власть в Грузии. Тифлис: Госиздат, 1928, 164 с.
28. Закавказский сейм. Стенографический отчет. Сессия первая. Заседание третье. Тифлис, 15 февраля 1918г. [Б.д. и м.], с. 2-49

**Sh. Rahmanzadeh**

## ON THE NATIONAL-TERRITORIAL IDEOLOGY GEORGIAN POLITICAL PARTIES AFTER THE FEBRUARY REVOLUTION OF 1917

## SUMMARY

**Key words:** South Caucasus, Zagatala district, historical concept, Russian revolution of 1917, the Georgian political parties, territorial ideology, nation-state**.**

The aim of this article is the analysis of Georgian political parties' territorial ideologies and their claims to the Zagatala district contained in them. Within this goal are examined the historical and spiritual roots of the mentioned claims. It was noted that the emergence of nation-states, as inherent to the political processes in the South Caucasus in 1917-1920, linked the issue of national identity with the need to establish a territorial identity. We concluded that during the deployment of the national (ethno-political) movement in Georgia among the Georgian political forces gradually evolved conventional ideas about the desired area and borders. Meanwhile, the Mensheviks - the basic element of the political system in Georgia slowly assimilated the key concepts of territorial nationalist ideology.

**Ш. Рахманзаде**

## К НАЦИОНАЛЬНО-ТЕРРИТОРИАЛЬНОЙ ИДЕОЛОГИИ ГРУЗИНСКИХ ПОЛИТИЧЕСКИХ ПАРТИЙ ПОСЛЕ ФЕВРАЛЬСКОЙ РЕВОЛЮЦИИ 1917 Г.

**Ключевые слова:** Южный Кавказ, Закатальский округ, историческая концепция, революция в России в 1917 г., грузинские политические партии, территориальная идеология, нация-государство.

Целью данной статьи является разбор территориальных идеологий грузинских политических партий и содержавшихся в них претензий к Закатальскому округу. В рамках поставленной цели рассмотрены исторические и духовные корни

упомянутых претензий. Было отмечено, что становление наций государств, столь присущее к политическим процессам на Южном Кавказе в 1917-1920 гг., увязывало проблему национальной идентичности с необходимостью установления территориальной идентичности. Нами сделан вывод, что в ходе развертывания национального (этнополитического) движения в Грузии среди грузинских политических сил постепенно складывались конвенциональные представления о желаемом пространстве и границ страны. При этом меньшевики – базовый элемент политической системы Грузии постепенно усваивали ключевые концепты националистической территориальной идеологии.

# AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ GƏNCƏ ŞƏHƏRİNİN İŞTİRAKI TARİHİNDƏN (1991-2013-CÜ İLLƏR)

**Serhat AKTAŞ***
serhat@box.az

**Açar sözlər**: Azərbaycanın Türkiyə ilə mədəni əməkdaşlığı; Gəncə, Teatr festivalları; Mədəni irsin zənginliyi.

Dünya praktikasından da məlumdur ki, müstəqilliyə qovuşmuş hər-hansı bir ölkə müstəqil olduğu gündən beynəlxalq fəaliyyətini qaydaya salmağa çalışır, özünün suverenliyini tanıtmaq və möhkəmləndirmək məqsədi ilə digər ölkələrlə beynəlxalq əlaqələrin müxtəlif sahələri üzrə münasibətlər qurmağa başlayir. Məhz bu baxımdan Azərbaycan Respublikası da müstəqilliyini elan etdikdən sonra dünya dövlətləri ilə, eləcə də özünə ən yaxın olan Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə beynəlxalq əlaqələrini qurmuş və inkişaf etdirməkdədir.

Müstəqilliyin ilk günündən Azərbaycanın Türkiyə ilə qurmuş olduğu münasibətlər sahəsindən biri də mədəniyyət sahəsində əlaqələr olmuşdur. Qeyd etməliyik ki, müasir beynəlxalq praktikada xalqlar arasında qurularaq inkişaf etdirilməkdə olan mədəni əlaqələr beynəlxalq əməkdaşlıq prosesinin əsas tərkib hissəsi kimi dövlətlərin və xalqların dinc yanaşı yaşamasına güclü təsir göstərməkdədir.

Azərbaycanın Türkiyə ilə mədəni əlaqələrinin tarixi çox-çox əvvəllərə getdiyinə görə müstəqillik əldə edildikdən sonra bu əlaqələr öz tarixinə söykənərək daha da inkişaf etdirilməkdədir. Hətta bu əlaqələr yeni dünya düzümünün qayda və prinsiplərinə uyğun təşkil edilmişdir. Onu da qeyd etmək lazımdır ki, mövcud sənədlərin təhlili göstərməkdədir ki, Azərbaycanın Türkiyə ilə mədəni əlaqələrinin inkişafında respublikanın müxtəlif şəhərlərinin, xüsusən də Gəncə şəhərinin özünəməxsus iştirakı vardır.

Gəncə şəhəri hər zaman ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuşdur, həmişə olduğu kimi, Gəncəyə və gəncəlilərə olan hörmət-ehtiramını özünəməxsus səmimiliklə belə ifadə etmişdir: "Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır,

---

* Serhat Sami oğlu Aktaş – Gəncə Dövlət Universitetinin doktorantı

gözəl bir şəhərdir. Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şerini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər". [1]

Gəncə şəhərinə xüsusi qayğı göstərən Ümum milli liderin layiqli davamçısı Prezident İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri ilə 21 yanvar 2014 tarixindəki görüşdə bunu xüsusilə vurğulamışdır:

Gəncənin mədəni həyatı zəngindir. Həmişə belə olubdur. Gəncə Azərbaycanın, o cümlədən mədəniyyət mərkəzlərindən biri olmuşdur. Hazırda şəhərin mədəni həyatı kifayət qədər zəngindir. Yeni muzeylər açılır. Nizami Muzeyi, Məhsəti Gəncəvi Mədəniyyət Mərkəzi, ondan əvvəl bir neçə muzey açılmışdır, filarmoniyanın tikintisi davam edir. Hesab edirəm ki, işlər daha da sürətlə getməlidir. Bu məqsədlə əlavə tədbirlər görüləcək ki, filarmoniya da qısa müddət ərzində istifadəyə verilsin. Bilirəm ki, gəncəlilərin böyük arzusudur ki, filarmoniya olsun, olacaqdır. Artıq daş işləri başa çatmaq üzrədir. Hesab edirəm ki, biz bu il də olmasa, gələn il filarmoniyanın açılışını bərabər qeyd edəcəyik. Yəni, şəhərin çox zəngin və dolğun ictimai, mədəni həyatı vardır və bu, əlbəttə ki, məni sevindirir, çünki Gəncə Azərbaycanın qədim şəhəridir, ikinci şəhəridir, Nizami yurdudur. Əlbəttə ki, Gəncənin tarixi keçmişini, zəngin tarixi irsini qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur. [2]

Tədqiq edilən sənədlərin təhlili göstərir ki, Azərbaycanın Türkiyə ilə mədəni əlaqələrinin inkişaf etdirilməsində Gəncə şəhərinin musiqi və incəsənət kollektivlərinin rolu çox böyük olmuşdur. Bu dövrdə Gəncə şəhərindən olan azərbaycanlı müğənnilər dəfələrlə Türkiyənin ayrı-ayrı şəhərlərinin konsert salonlarında çıxışlar etmiş, Azərbaycan mədəniyyətinin möhtəşəmliyini nümayiş etdirmişdir. Məsələn, tanınmış azərbaycanlı müğənni, respublikanın xalq artisti Şahnaz Haşımova hələ sovet dönənindən Türkiyənin müxtəlif şəhərlərində təşkil etdiyi konsertlərlə tanınmışdır. O, 1991-ci ilin noyabr ayında İzmirdə[3] , 1996-cı ilin may ayında İstanbulda [4], 1998-ci ilin aprel ayında Qars şəhərində [5] , 2006-cı ilin iyun ayında isə yenə də İstanbul şəhərində [6] konsertlər vermişdir, Azərbaycan musiqisinin zənginliyini və böyüklüyünü nümayiş etdirmişdir.

Bundan əlavə Gəncə şəhərində fəaliyyət göstərməkdə olan musiqi və rəqs kollektivləri də Türkiyənin müxtəlif şəhərlərində olmuş, həm Azərbaycan, həm də türk sənətinin nümunələrindən ibarət konsertlər vermişdir. Belə kollektivlərdən biri də hələ XX əsrin 50-ci illərindən Gəncə şəhərində fəaliyyət göstərən "Sazçı qızlar" ansamblıdır ki, bu musiqi kollektivi tədqiq olunan dövr ərzində iki dəfə - 2003-cü ildə İstanbul [7], 2006-cı ildə isə Bursa şəhərlərində [8] konsertlər vermişdir.

Öz növbəsində Türkiyənin musiqi və incəsənət xadimləri də Azərbaycana, yəni Gəncə şəhərinə gələrək özlərinin musiqi nömrələri ilə insanların qəlbini oxşamışlar. Buna misal olaraq 1991-ci ildə İbrahim Tatlısəsin [9], 1992-ci ildə Sibel Canın Gəncə şəhərinin konsert salonlarındakı çıxışlarını göstərmək olar [10] .

Son zamanlar Azərbaycanda ümummilli bayram hesab olunan, mahnı və gül bayramı kimi qeyd olunan Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin doğum günü xarici müğənniləri də özünə cəlb etmişdir. Belə ki, 2013-cü il may ayının 10-da H. Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar Gəncə şəhərində təşkil olunan gül və mahnı bayramında məşhur türkiyəli ifaçı Ferhat Köçer Gəncə şəhərində 30 min insanın qatıldığı bayram şənliyində özünün cəlbedici mahnıları ilə çıxış etmişdir [11]. Bu çıxışlarında müğənni özünün repertuarı ilə yanaşı Azərbaycanda Ulu öndər H. Əliyevin şərəfinə bəstələnmiş mahnıları da ifa etmişdir. O, çıxışı ilə bütün gəncəliləri heyran etmişdir.

Azərbaycanın Türkiyə ilə mədəni əməkdaşlığının müstəqillikdən sonrakı dövrdə yaradılaraq daha da inkişaf etdirilməsində ədəbi əlaqələrin də xüsusi rolu olmuşdur. Belə ki, bu əlaqələr ta qədimliyi ilə seçildiyinə görə müstəqillik dövründə bu əlaqələr daha sürətlə inkişaf etmişdir. Ümumiyyətlə dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan Ədəbiyyatı ilə Türk Ədəbiyyatının bir-birinə inteqrasiyası işi daha da güclənmişdir. Türkiyəli ədiblərini bir mərkəz ətrafında birləşdirən "Türkiyə Elm və Ədəbiyyat Əsərləri sahiblərinin Məslək Birliyi" təşkilatı Azərbaycanda təşkil etdiyi görüşlərdə azərbaycanlı və türkiyəli şair, yazıçı, jurnalist və s. ədəbiyyat xadimləri iştirak etmişdilər. Bu da iki qardaş ölkələr arasında ədəbi əlaqələrin güclənməsi və ədiblərin qarşılıqlı fikir və yaradıcılıq mübadiləsi üçün çox əhəmiyyətli bir haldır. Belə tədbirlərdən biri də 2012-ci il oktyabr ayında Azərbaycanda təşkil olunan zaman, yəni

oktyabrın 9-da Türkiyəli ədiblər Gəncə şəhərində yerləşən Türkiyənin Baş Konsulluğunda yerli ədiblərlə görüş keçirmişdir. Görüşdə Baş Konsul Haluk Ağca Gəncə şəhərinin tarixi, mədəniyyəti və dünya şöhrətli şair və mütəfəkkir Nizami haqqında məlumat verdikdən sonra türkiyəli ədiblər Cemal Tuzçuoğulları və Salih Yılmaz Azərbaycan və Türkiyə ədəbi əlaqələri və bu əlaqələrin perspektivləri haqqında geniş nitqlə çıxış etmişdilər.Görüşün sonunda Münevver Düver Azərbaycanla bağlı şeirlərini oxumuşdur. Görüşdən sonra türkiyəli ədiblər Gəncə şəhərinin mədəni və iqtisadi həyatı ilə tanış olmuş, dünya ədəbiyyatının şah əsərlərini yazmış Nizami Gəncəvinin məqbərəsini ziyarət etmişlərdir [12] .

Beləliklə, bütün qeyd olunanları nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycanın Türkiyə ilə ədəbi əlaqələrində Gəncə şəhərinin də böyük xidmətləri olmuşdur. Belə ki, Gəncə özünün böyük ədibləri ilə dünyada səs salmış bir şəhərdir. Onu da qeyd etmək olar ki, tədqiq olunan dövr ərzində iki qardaş xalqlar arasında ədəbi əlaqələr yüksələn xətlə inkişaf edərək, şair-yazıçı jurnalist və s. ədiblərin qarşılıqlı səfərlərində, ədəbi tədbirlərin keçirilməsi, birgə ədəbi konfrans və məclislərin keçirilməsi və s. proseslərdə özünü təsdiqləmişdir. Demək olar ki, əlaqələrin bu formaları mahiyyətcə bir-birini tamamlayaraq daim təkmilləşməkdədir və çoxtərəfli əsaslarla həyata keçirilməkdədir.

Azərbaycanla Türkiyə arasında bərqərar olaraq inkişaf etmiş əməkdaşlıq formasından biri də teatr sahəsində əlaqələr olmuşdur. Bu əlaqələr teatr xadimlərinin və kollektivlərinin qarşılıqlı qastrol səfərləri, teatr tamaşalarının təşkil edilməsi, tamaşalara birgə quruluş verilməsi, tamaşalar üçün bir-birilərinin dramaturgiyalarına müraciət etmələri və birgə çalışmalar formasında həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan teatr sənətinin müxtəlif kollektivlərinin yaratmış olduqları əlaqələr ümumiyyətlə mədəni əlaqələrin hər bir mərhələsində inkişafda olmuşdur. Belə kollektivlərdən biri də C. Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının kollektivi olmuşdur.

Araşdırmalar da göstərir ki, Türkiyədə Azərbaycan teatr sənətinə həmişə xüsusi maraq göstərilmişdir. C. Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında rejissor işləyən Vaqif İbrahimoğlu Ü. Hacıbəyovun "O olmasın, bu olsun" operettasını Bursa Dövlət Teatrında Tamaşaya qoyduqdan [13] sonra Türkiyə tamaşalarında Azərbaycanın teatr sənətinə maraq daha da

artmışdır. Odur ki, həmin ilin avqust ayında Bursa Dövlət Teatrının müdiri Fethi Çələng və Türkiyə Cümhuriyyəti Dövlət Teatrları qurumunun Baş müdiri Bozkurt Faruk Azərbaycana səfər etmişdir. Onlar səfər çərçivəsində ilk olaraq Gəncə Dövlət Dram Teatrının yaradıcı kollektivi ilə görüşmüş, teatrın direktoru Vaqif Şərifovla və Baş rejissor Oruc Qurbanovla işgüzar söhbətlər aparmışdır [14]. Görüş zamanı teatrın aktyor və rəssamlarının, eləcə də təcrübə mübadiləsinin edilməsi barədə razılaşma əldə edilmişdir. Və həmin danışıqlarda qeyd edilmişdir ki, iki qardaş xalq arasında mədəni əlaqələrin daha da inkişaf etdirilməsi və dostluq tellərinin möhkəmləndirilməsi üçün ən əlverişli vasitələrdən biri məhz teatr əlaqələrinin möhkəmləndirilməsi ola bilər. Ona görə ki, teatr mədəni əlaqələrin bütün sahələrinin qovuşduğu və onu canlı şəkildə insanlara çatdırdığı bir vasitədir.

Sonrakı illərdə Türkiyənin teatr ictimaiyyətinin Azərbaycana marağı daha da artdı. Belə ki, 1991-ci ilin may ayında İstanbul şəhər Bələdiyyə Teatrı Azərbaycana qastrol səfərinə gəldi. Səfər zamanı onlar öncə Gəncə Dövlət Dram Teatrının səhnəsində tamaşalar göstərdikdən sonra Şəki və Bakı şəhərlərindən teatr səhnələrində də tamaşalar təşkil etdilər [15]. İstanbul şəhər Bələdiyyə Teatrı Gəncədə olarkən Əkrəm Rəşid Rey və Cemal Rəşid Reyin "Lüks həyat" və Villi Rasselin "Bir qadın" tamaşalarını yüksək sənətkarlıqla səhnələşdirmişdilər [16] ki, həmin tamaşalarda tanınmış türkiyəli aktyorlardan olan Cahan Ünal, Zehni Koktat, Ayişə Sarıqaya və b. əsas rolların ifaçıları olmuşdular.

Sonrakı dövrdə belə səfərlər qarşılıqlı şəkildə daha da intensivləşmişdir. Belə ki, 1998-ci ilin dekabr ayının 4-dən 11-nə kimi Ankara Dövlət Teatrı Azərbaycanda qastrol səfərində olmuşdur. Bu səfər zamanı teatr Gəncə şəhərindən başlayaraq Bakı və Sumqayıt şəhərlərində də tamaşalar vermişdir. Teatrın repertuarında olan və müvəffəqiyyətlə səhnələşdirilən "Vətən, yaxud Namiq Kamal" tamaşası tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır [17].

Azərbaycanla Türkiyə arasında Teatr sənətinə marağın qarşılıqlı olaraq artması həyata keçirilmiş qastrol səfərlərinin və festivalların sayının da artmasına səbəb olmuşdur. Azərbaycanın digər teatr kollektivləri kimi Gəncə Dövlət Kukla Teatrının yaradıcı kollektivi də bu prosesdən kənarda qalmamışdır. Belə ki, 1999-cu ul noyabrın 21-i tarixində bu teatrın kollektivi Türkiyənin İzmir şəhərində keçirilən kukla teatrlarının IX Beynəlxalq

festivalında uğurla çıxış edərək N. Gəncəvinin "Xeyir və Şər" əsərini səhnələşdirmişdir. [18]

Növbəti ildə, yəni 2000-ci ilin aprel ayında yenə də İzmir şəhərində keçirilmiş kukla teatrları festivalında Gəncə Dövlət Kukla Teatrı da iştirak etmişdir. Bu festivalda teatr kollektivi nümunəvi tamaşalar göstərdiyinə görə, həmin ilin noyabr ayında Bursa şəhərində keçirilmiş "Qaragöz" uşaq festivalına da dəvət olunmuş və teatrın kollektivi burada da yüksək səviyyəli tamaşalarla çıxış etmişdir [19].

Gəncə şəhərində teatr sənətinin öncül kollektivi sayılan C. Cabbarlı adına GDDT-rı da Azərbaycanın Türkiyə ilə mədəni-teatr əlaqələrinin daha da zənginləşməsində xüsusi xidmətlər göstərmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il 18 may tarixli sərəncamı ilə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" adlı Dövlət Proqramının qəbulundan sonra teatrla dövlət sifarişi yolu ilə tamaşaların hazırlanması tapşırılmışdır. Məhz bundan sonra Gəncə DDT-nın fəaliyyətində də yaxşılığa doğru xeyli dəyişikliklər olmuşdur. Və teatrın yaradıcı kollektivi bu yolla hazırlanmış tamaşalarla iki dəfə Türkiyədə və Başqırdıstanda qastrol səfərində olmuşdur. Belə ki, 2011-ci ildə Türkiyədə keçirilən Beynəlxalq Teatr Festivalında iştirak edən kollektiv türk yazarı Tuncer Cücenoğlunun "Gözəlçələr" əsərini səhnələşdirməklə qatılmışdır. Tamaşa yüksək səviyyədə hazırlandığına görə teatr kollektivinə xüsusi plan əsasında istirahət saatları təyin edilmişdir. Tarixi və görməli yerlərlə tanışlıqla bərabər kollektiv xarici teatr sənətçiləri ilə əlaqə qurmaq və fikir mübadiləsi aparmaq imkanı əldə etmişdir. Hətta teatrın kollektivi yerli televiziya kanallarına da dəvət olunmuşdur. Ən əsası isə göstərdikləri nəticələrə görə növbəti illərdə keçiriləcək festivallara da dəvətlər alınmışdır. Belə ki, həmin dəvətlər əsasında teatrın kollektivi 2013-cü ilin aprel ayında Türkiyənin Konya şəhərində "Bir nəfəs, bir səs" adlı türkdilli xalqların teatr festivalına da dəvət alınmışdır. Bu festivalda Azərbaycanı təmsil edən Gəncə DDT-rı M.F. Axundovun "Müsyö Jordan və Dərviş Məstəlişah" əsəri ilə çıxış etmiş və festivalın ən çox bəyənilən tamaşası olmuşdur. Teatrın direktoru Əli Qasımovun rəhbərliyi ilə festivalda böyük nailiyyət əldə edən teatr kollektivi daha çox alqışlanan kollektivlərdən olmuşdur. Belə ki, festivalda göstərilmiş 16 tamaşadan 3 tamaşa daha çox

fərqlənmişdir ki, bunlardan da biri məhz C. Cabbarlı adına Gəncə DDT-nın qoyduğu tamaşa olmuşdur [20].

Nəhayət qeyd etməliyik ki, teatr kollektivlərinin belə festivallarda iştirak etməsi onların yaradıcılıq fəaliyyətinin zənginləşməsi üçün çox böyük təkandır. Hansı ki, hər bir kollektivin özünəməxsus yaradıcılıq üslubu var. Və bu üslubun daha da zənginləşməsi və müasirləşməsi üçün digər ölkələrin belə kollektivləri ilə sıx yaradıcılıq əlaqələrində olması çox önəmlidir. Ona görə də hər hansi bir teatr kollektivinin digər ölkənin teatrları ilə əlaqədə olması müasir dövrümüzdə çox önəmlidir. Yəni teatr kollektivləri bir-birləri ilə təcrübə mübadiləsi etməsi, bir-birlərinin ortaya qoyduqları tamaşalarda iştirak etmələri, baxmaları, həmin tamaşaların müzakirələrində iştirak etmələri demək olar ki, teatr kollektivlərinin yaradıcılıq üslublarını zənginləşdirmək üçün ən gözəl vasitələrdən biridir.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, Azərbaycanın Türkiyə ilə mədəni əlaqələrində Gəncə şəhərinin iştirakı ümumi münasibətlərin və mədəni təmasların daha da zənginləşməsi üçün əvəzolunmaz bir vasitələrdən olmuş və olmaqda da qalır. Yuxarıda göstərilən bütün faktlar da göstərir ki, məhz bu əlaqələrin inkişafı iki qardaş xalqlar arasındakı birliyə və eləcə də ümumtürk birliyinə əvəzolunmaz töhfələr vermişdir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Xalq qəzeti.- 2013.- 25 aprel.- № 87.- S. 8.
2. http://president.az/articles/10858/ 21 yanvar 2014
3. "Gəncənin səsi" qəzeti, 26 noyabr 1991.
4. Yenə orada, 18 may 1996.
5. Yenə orada, 21 aprel 1998.
6. Yenə orada, 26 iyun 2006.
7. Yenə orada, 28 noyabr 2003.
8. Yenə orada, 15 oktyabr 2006.
9. Azərbaycan Respublikası MDTA. Gəncə Filialı f. 569, c. 1, iş 94, v. 927.
10. Gəncə şəhər İcra Hakimiyyəti "Mədəniyyət şöbəsi"nin cari arxivi. 1991-2013-cü illər üçün sənədlər qovluqları, № 7, v. 215.
11. http://haber.Starqazete.com/maqazin/ferhat-göçerden-azerilere-unutulmaz-birgece-751537; http:// www.sabah.com.tr./Günaydın/maqazin/2013/05/07/ferhat-göçer-binlerce-azeriyi-coşturdu.
12. Gəncə şəhər İcra Hakimiyyəti "Mədəniyyət şöbəsi"nin cari arxivi. 1991-2013-cü illər üçün sənədlər qovluqları,№ 36, v. 154; "Gəncənin səsi" qəzeti, 10 oktyabr 2012; Yalquzaq.com Tarih: 9 okt. 2012//Yorumlar, kapalı.

13. Azərbaycan Teatr Xadimləri İttifaqının cari arxivi. 1990-2013-cü illər üçün sənəd qovluqları,№ 2, v. 287.
14. C. Cabbarlı adına GDDT-nın cari arxivi, 1990-2013-cü illər üçün sənədlər qovluqları, 1990, v. 87.
15. Azərbaycan Teatr Xadimləri İttifaqının cari arxivi. 1990-2013-cü illər üçün \sənədlər qovluğu, 1991, v. 127.
16. C. Cabbarlı adına GDDT-nın cari arxivi. 1990-2013-cü illər üçün sənədlər qovluqları. 1991, v. 201.
17. C. Cabbarlı adına GDDT-nın cari arxivi. 1998-ci il üçün iş qovluğu, v. 197.
18. Azərbaycan Teatr Xadimləri İttifaqının cari arxivi. 1999-cu il üçün iş qovluğu, v. 246.
19. Yenə də orada, v. 83.
20. http://www/haber/com/Türkce-9-Teatroyla-buluşturacak-4522977-haberi/

**Serhat AKTASH**

## PRESENCE OF GANJA IN AZERBAIJAN-TURKEY CULTURAL RELATIONS (IN 1991-2013 YEARS)

### SUMMARY

**Key words**: Cultural cooperation between Azerbaijan and Turkey; the festivals of theater, Ganja; a wealth of cultural heritage.

The article analyzed the Ganja people's services on establishing and developing of cultural relations between the Republic of Azerbaijan and Turkey in the years of independence on the basis of the particular facts.

**Серат АКТАШ**

## ДАТА УЧАСТИЯ ГОРОДА ГЯНДЖИ В АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ КУЛЬТУРНЫХ СВЯЗЯХ. (1991-2013 ГОДАХ)

### РЕЗЮМЕ

**Ключевые слова:** Культурное сотрудничество Азербайджана с Турцией; Гянджа; Театральные фестивали; Богатое культурное наследие.

В статье на основе конкретных фактов были проанализированы культурные связи в годы независимости, Азербайджанской Республики с Турецкой Республикой,построение и роль города Гянджи в развитии в этих связей.

# RUSİYA İSTİLASINDAN SONRA İRƏVAN XANLIĞI ƏRAZİSİNDƏ İNZİBATİ İSLAHATLAR VƏ AZƏRBAYCANLILARIN (QARAQALPAQLARIN )BAŞ TUTMAMIŞ SÜRGÜNÜ BARƏDƏ

**Fəxri VALEHOĞLU***

**Açar sözlər:** İrəvan xanlığı, ordu, müqavilə, islahat

XIX əsrin əvvəllərində 15 mahaldan – Göyçə, Dərəçiçək, Abaran, Dərəkənd-Parçanis, Zəngibasar, Gərnibasar, Qırxbulaq, Şərur, Sürməli, Vedibasar, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad və Karbibasar (Körpübasar) mahallarından ibarət olan İrəvan xanlığının eyniadlı mərkəzi 1 oktyabr 1827-ci ildə Rusiya qoşunları tərəfindən zəbt olunur. Bundan cəmi bir neçə gün sonra İrəvanın ələ keçirilməsində xüsusi xidmətlərinə görə "Qraf Erivanski" tituluna layiq görülmüş Əlahiddə Qafqaz korpusunun komandanı general İ.F.Paskeviç xanlıq ərazisində inzibati islahatlar həyata keçirir və yeni rus üsul-idarəsinin tətbiq edilməsi, mülki işlərin aparılması üçün "İrəvan müvəqqəti idarəsi" adlanan qurum yaradır. Yerli Rusiya qoşunlarının komandanı general A.İ.Krasovski bu idarənin sədri, İrəvan qalasının müvəqqəti komendantı podpolkovnik A.Borodin və ermənilərin baş yepiskopu Nerses Aştaraketsi isə − üzvü təyin edilirlər.

Qraf Paskeviç-Erivanski tərəfindən hazırlanmış 6 oktyabr 1827-ci il tarixli "ümumi qaydalar"da müvəqqəti idarənin yaradılmasının başlıca vəzifəsinin İrəvan vilayətində sabitliyin və firavanlığın bərpa olunması, eləcə də onun düşmən hücumlarından və daxili çaxnaşmalardan qorunması olduğu vurğulanır, digər vəzifələrdən aşağıdakılar müəyyən olunurdu [6, s. 480-481]:

- Bütün növ dövlət mülkiyyətinə, əvvəlki xanlıq hökumətinin gəlirlərinə aydınlıq gətirilməsi və onların yeni hökumətin xeyrinə müsadirə edilməsi;
- Qoşunların daimi ərzaqla mümkün qədər yerli imkanlar hesabına, fəqət geri öz evlərinə qayıtmış və qayıdan yerli sakinləri talan edib tükətmədən təmin edilməsi;

---

Fəxri Valeh oğlu Haciyev – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

- Vəziyyət və düşmən həmlələri bunu tələb etsə, sakinlərə qanunun ədaləti və silahın gücü ilə himayədarlıq edilməsi;
- Rusiya hakimiyyətinin və himayəsinin Arazın o tayında yaşayan və rus təbəəliyini qəbul etmək üçün müraciət etmiş tayfalara yayılması və belələrinin Məmməd Cəfər xan Ayrumlunun düzənlədiyi şərtlər əsasında qəbul edilməsi (Qeyd edək ki, Dərəkənd-Parçanis mahalında yaşayan hər bir ayrum ailəsi öz tayfa başçıları Məmməd Cəfər xana 1 batman yağ, 1 tay saman və 1 tay odun verirdi [7, s. 991] – F.V.) ;
- Vilayətin müdafiəsi üçün daha sədaqətli yerli sakinlərdən, əsasən də ermənilərdən ibarət silahlı keşikçi dəstələrinin yaradılması;
- Müxtəlif nəsillərin və tayfaların başçılarının haqq və hüquqlarına ehtiyatla, aydın şəkildə baxılması;
- Rusiyaya sadiqliyinə görə zərər görmüş şəxslərə hamilik edilməsi;
- Vilayətin sərhədyanı türk əyalətlərində tüğyan edən taun xəstəliyindən mühafizə olunması üçün müvafiq tədbirlərin görülməsi;
- İrəvan və Sərdarabad qalalarının qarnizon və sakinlərinin tədricən bütün ehtiyaclarının təmin olunması;
- Türk paşalıqlarında qoşunların hərəkəti, eləcə də türk hökumətinin məramları haqqında düzgün məlumatların əldə edilməsi;
- Ticarət əlaqələrinin və istehsal müəssisələrinin bərpası;
- Dağlı "tatar" (Azərbaycan-türk − F.V.) tayfalarının fəaliyyətinə və intizamına nəzarət edilməsi, qiyama meylli olanların isə təcili surətdə silah gücünə tabe etdirilməsi;
- Abaran və Dəlican dərəsi vasitəsilə Gürcüstanla əlaqələrin tam təmin olunması;
- İrəvan və Sərdarabadda qacarlardan qalmış pambıq parça ehtiyatlarının əlverişli qiymətə satışı, bu məhsulun istehsalının və ticarətinin dəstəklənməsi və əvvəlki ənənəyə uyğun olaraq bir hissəsinin sakinlərdən vergi qismində toplanılması;
- Kulp duz mədənlərinin fəaliyyətinin təşviq edilməsi, çıxarılan duzun müəyyən hissəsinin sakinlərdən alınıb xəzinəyə verilməsi;
- Abbasabad qalası Şuşa qalasından dağlarla ayrılıb, ərzaqla çətin təchiz olunduğu üçün Abbasabada İrəvan vilayətindən daşınmalar

təsis edilməsinə səy göstərilməsi, bunun üçün sakinlərin yük heyvanlarından sərəncam kağızı ilə və ya daşınmanı vergi əvəzi hesablamaqla, yaxud da ki, muzdla istifadə olunması.

Müvəqqəti idarənin yaranmasından bir neçə ay sonra Paskeviçlə Krasovskinin arası dəyir. Buna səbəb sonuncu tərəfindən baş yepiskop Nersesə verilən qeyri-məhdud səlahiyyətlər nəticəsində İrəvan vilayətində milli ayrı seçkiliyi qabardan ədalətsiz, qeyri-bərabər və qərəzli idarəetmə sisteminin qurulması olur.

Paskeviçlə arasında yaranmış ziddiyyətlər Krasovskinin, eləcə də onun sağ əli Nersesin İrəvanı tərk etməsi ilə nəticələnir. Nerses Bessarabiyaya mədəni sürgünə göndərilir və 1828-1843-cü illərdə oradakı erməni yeparxiyasına rəhbərlik edir, 1843-cü ildə isə bütün ermənilərin katolikosu seçilir.

İrəvan müvəqqəti idarəsinin fəaliyyəti ilə qane olmayan Paskeviç, öz narazılıqları və buna qarşı götürdüyü ölçülər barədə baş qərargah rəisi İ.İ.Dibiçi mütəmadi olaraq yazılı şəkildə məlumatlandırırdı. Baş qərargah rəisinə ünvanladığı belə məktublarından birində Paskeviç İrəvan müvəqqəti idarəsinin rəhbərliyini onun sərəncamlarını və tapşırıqlarını yerinə yetirməməkdə suçlayır, idarənin buraxdığı səhvləri sadalayır və onlarda Nersesin böyük rol oynadığını özəlliklə qeyd edirdi:

"Çox zaman işlər baş yepiskop Nersesin qeydləri ilə başlayıb, həmişə onun rəyi ilə razılaşan general-leytenant Krasovskinin dərkənarlarının icrası ilə yekunlaşırdı. Bunun ən gözəl sübutu İrəvan tatarı tərəfindən Smirnadan (İzmirdən – F.V.) alınmış və sonra övladlaşdırılmış bir oğlanın işidir. Nerses heç bir sübut olmadan israr edirdi ki, bu oğlan erməndir və tatarın onu alması, oğlanın özünün xristianlığı qəbul etmək istəməməsi və polismeysterdən (polis rəisindən) qaçması barədə şəhadətnamə və dəlillər təqdim etməsinə baxmayaraq, Nersesin hökmünə əsasən oğlanı bu tatarın əlindən almaq qərarını çıxardılar.

Ümumiyyətlə yalnız baş yepiskop Nersesin yanına xahiş üçün qaçan ermənilər ondan razı qalırdılar, müsəlmanlar isə özlərinə qarşı etinasızlığı, hökumət tərəfindən hər bir qayğı və himayədən kənar qoyulduqlarını görüb, deyinməyə və narazılıq etməyə başlayırdılar, mən oraya tez getməsəm ən xoşagəlməz nəticələr gözləmək olardı, hansılar barədə mən artıq Sizə yazmışdım.

Ehtiyacı olan kəndlilərə yem və əkin-səpin üçün taxıl paylanılması da eyni əsaslarla həyata keçirildi. Bu halda da açıq şəkildə ermənilərə müsəlmanlardan çox üstünlük verirdi. Beləliklə 4500 çetvert taxıl paylanılmış, ancaq müsəlmanların çox hissəsi bu yardımdan məhrum olmuşdu" [6, s. 488].

Paskeviç məktubunun davamında baş qərargah rəisini məsələ ilə əlaqədar təcili surətdə həyata keçirdiyi tədbirlər barədə məlumatlandıraraq, onlar sırasında general-mayor knyaz Aleksandr Çavçavadzenin sədrliyində "İrəvan vilayət idarəsi" adlı idarəetmə qurumunun yaradıldığını vurğulayır və Nersesi bu yeni yaradılan qurumdan uzaq saxladığını bildirirdi:

"Baş yepiskop Nersesin İrəvan vilayətinin işlərinin idarə olunmasında geniş iştirak etməsi onu ermənilərə müsəlmanlardan çox üstünlük verməyə cəlb etdi, bu baş yepiskopun birtərəfli qaydada ümumi faydadan daha çox erməni ruhaniliyinin və Eçmiədzin (Üçmüəzzin) monastırının xeyrinə meyllənməsinə şərait yaratdı. Ona bütün işlərə qarışmaq üçün general-leytenant Krasovski tərəfindən verilmiş qeyri-məhdud təsir imkanları isə İrəvan vilayətinin müsəlmanları arasında davam edən narazılıqların və nizamsızlığın əsas səbəblərindən idi. Buna görə də, Nersesi İrəvan vilayət idarəsinin iclaslarından uzaqlaşdırmağı zəruri hesab etdim" [6, s. 489].

Məktubda Nersesi mülki işlərin idarə olunmasında iştirakdan da kənarlaşdırdığını, ancaq bunu nəzakətlə, azacıq da olsa təhqirə yol vermədən etdiyini vurğulayan Paskeviç İrəvan müvəqqəti idarəsinin fəaliyyətsizliyində öz səhvlərini də boynuna alır və onlardan yalnız birini − istiladan sonra İrəvan vilayətinin idarəçilik işlərinə Nersesin cəlb olunmasını nümunə gətirir:

"Mən qabaqcadan görə bilməzdim ki, Krasovski yalnız Nersesin iradəsinin icraçısına çevriləcək, mənim ona verdiyim təlimatlara məhəl qoymayıb, ilk növbədə yenicə fəth edilmiş diyarın düzənə salınmasının qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanları lazımi himayədarlıqdan və maddi yardımlardan məhrum edəcək" [6, s. 491].

Paskeviç tərəfindən knyaz Çavçavadzenin rəhbərliyi altındakı idarəyə verilən tapşırıqlardan biri İrəvan müvəqqəti idarəsi üçün müəyyən etdiyi "ümumi qaydalar"ın bəndlərindən birinin icrası − keçmiş İrəvan

xanlığının gəlirlər və vergi sisteminin öyrənilməsi olur. Bu məqsədlə mayor Meddoksun sədrliyi ilə iki İrəvan sakininin üzv olduğu komissiya yaradılır. Bu komissiyanın işinin İrəvan xanlığında əhalidən toplanan pul, taxıl və digər yığımlara dair nəticələri siyahı şəklində tərtib olunub 26 dekabr 1828-ci ildə yerli vilayət idarəsinə göndərilir. Siyahıdan bəlli olur ki, İrəvan xanı Hüseynqulu xanın sərdarlığı dövründə xanlıq ərazisində yaşayan köçəri xalqların demək olar ki, hamısı sərdarın atlı-silahlı döyüşçülərini saxlamaq öhdəliyi götürürdülərsə, yalnız Rusiya təbəəliyindəki sərhədyanı torpaqlarda məskunlaşmış və "nizami qoşunlara bənzər" şəkildə təşkil olunmuş qarapapaqlar bu öhdəlikdən azad idilər, onların yeganə vəzifəsi xanlığın hərbi cəhətdən müdafiəsindən ibarət idi.

Qarapapaqlarla müxtəlif dövrlərdə eyni tayfa birliyinə daxil olmuş çobankərəlilər barədə isə Meddoksun komissiyası aşağıdakıları qeyd edirdi: "Böyük-Çobankərəlilər əvvəllər 300 ailəyə yaxın hesab olunurdular, üçdə dördü Türkiyəyə keçdilər; Böyük-Çobankərəlilər Kərimbəyli, Qafarlı, Şıxlar, Saraşlı, Dəmirçəlli və Birukilər nəsil və tirələrindən ibarətdir. Çobankərə ildə – 350, Kərimbəyli – 150, Qafarlı – 200, Şıxlar – 100, Saraşlı – 150, Dəmirçəlli – 50 tümən ödəyirdilər, həmçinin 300 nəfərlik silahlı süvari dəstə verirdilər". Bunlardan başqa çobankərəlilər müəyyən şərtlər əsasında sərdarın mal-qarasına baxırdılar [8, s. 236-237].

Qraf Paskeviç-Erivanskinin Türkmənçay müqaviləsindən sonra təsis etdiyi İrəvan vilayəti idarəsinin qarşısında qoyduğu məqsədlərdən biri də inzibati ərazi vahidlərinin idarə olunması üçün qacarlar dönəminin təcrübəsi nəzərə alınaraq, mahalların əlverişli bölünməsinə və idarəçiliyinə dair layihə hazırlanması, bu çərçivədə ermənilərin çoxluq təşkil etdiyi mahallarda ermənilərin, müsəlmanlar çoxluq təşkil edən mahallarda isə müsəlmanların mahal bəyləri təyin olunmasına diqqət yetirilməsi məsələsi olur.

20 mart 1828-ci ildə I Nikolay Türkmənçay müqaviləsini təsdiq edir və ertəsi gün 21 martda "Erməni vilayəti"nin yaradılması haqqında Hökumət Senatına fərman verir. Fərmanda deyilir: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali Senat lazımi fərmanları öz vaxtında alacaqdır" [6, s. 488].

"Erməni vilayəti" İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi. "Erməni vilayəti" idarəsinin rəisi vəzifəsinə yerli qoşunların komandanı, keçmiş İrəvan vilayəti idarəsinin sədri Aleksandr Çavçavadze təyin edilmişdi.

Gürcüstan Milli Tarix Arxivində (GMTA) qorunan sənədlər əsasında XX əsrin birinci otuzilliyində "Erməni vilayəti"nin bəzi mahallarının rəislərinin siyahısını cədvəl şəklində təqdim edirik [1]:

| *Mahalın adı* | *Rəisin adı* | *Vəzifəyə təyin olunma tarixi* |
|---|---|---|
| Karbi (Karbibasar) və Sərdarabad | A.Kolmyanski (köməkçisi – poruçik Kazım ağa) | 28.03.1829-cu il |
| Dərəkənd-Pərçənis | Abdulla Sultan | 28.08.1830-cu il |
| Dərəçiçək | Məlik Şeko | - |
| Zəngibasar (türk kəsimi) | Əli Sultan | 20.12.1829-cu il |
| Zəngibasar (ermənilər yaşayan hissə) | Matos Aqamalov | - |
| Şərur | Əliməmməd bəy | 05.01.1832-ci il |
| Sürməli | Cəmil bəy | 29.06.1831-ci il |
| Gərnibasar | Baba Sultan | 25.08.1832-ci il |

Vilayətdəki köçəri xalqların rəisi vəzifəsinə isə poruçik Pirmurad Sultan və şadlı tayfasından poruçik Aslan Sultan (23.11.1829-cu ildən, Gürcüstanda baş idarəçi general-feldmarşal Paskeviçin təklifi ilə) təyin olunmuşdurlar.

1830-cu ildən isə "Erməni vilayəti"nə erməni əsilli knyaz general V.O.Bebutov başçılıq edirdi. Onun tərəfindən 1836-cı ildə "Erməni vilayəti"ndə yaşayan Qarapapaq ağalarının, müxtəlif adlı köçəri xalqların başçılarının saxlanması üsulları barədə əsasnamə" tərtib edilir. Bu əsasnaməyə görə, ağalar və tayfa başçıları qarşısında onların tabeçiliyində olanlar aşağıdakı mükəlləfiyyətləri yerinə yetirməli idilər [8, s. 229-230]:

1) Ağaların və tayfa başçısının evinin tikintisi və təmiri zamanı canlı qüvvə ilə kömək etmək;

2) İldə bir gün ağaların əkin ərazisini şumlamaq (hər bir ailənin özünün kotanı və cütü ilə), sonra zəmilərdən taxıl yığmaq, döymək və anbarlara daşımaq (bu qismən əkinçiliklə də məşğul olan köçərilərə şamil edilirdi);

3) Ev işləri üçün qulluqçu vermək;

4) Hərbi əməliyyatlar zamanı əldə etdikləri hərbi qənimətin 1/10 hissəsini ağalara və tayfa başçısına vermək (əgər onların rəhbərliyi altında döyüşüblərsə);

5) "Qədimlərdən" yaranmış ənənəyə görə, toy və bayram günlərində öz ağalarına və tayfa başçısına onların gözündən düşməmək üçün "könüllü" surətdə hədiyyə vermək;

6) İldə bir gün ağaların və tayfa başçısının qohumlarına işləmək və onlara ev işləri üçün qulluqçu vermək.

Qraf Paskeviç-Erivanskinin göstərişinə müvafiq kollej assesoru İ.Şopen tərəfindən 1829-1832-ci illərdə "erməni vilayəti"ndə aparılmış kameral siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 yerli erməni qeydə alınmış, ermənilərin sayında böyük artım, müsəlmanlarda, xüsusən də köçəri tayfaların sayında isə xeyli azalma müşahidə olunmuşdur. Bu azalma bir yandan 1826-28-ci illər müharibəsi ilə, digər tərəfdən isə müharibədən sonra tətbiq olunan ədalətsiz üsul-idarədən təngə gələn türk-müsəlman ellərinin sərhədlərin o tayına üz tutub Osmanlı və Qacar idarəsindəki sərhədyanı ərazilərdə məskunlaşması ilə əlaqədar idi.

Şopenin sayımında "Erməni vilayəti"ndə ömür sürən köçəri tayfalarda aşağıdakı sayda kişi xeylağı qeydə alınıb [7, s. 1]:

Şərur mahalında dəmirçəlli – 188, kərimbəyli – 199 və cəlali – 388 nəfər;

Gərnibasar mahalında saraşlı – 289, qafarlı – 333 və qarabağlı – 35 nəfər;

Vedibasar mahalında biruki kürdləri – 620 nəfər;

Zəngibasar mahalında böyük-çobankərə - 519 və qarapapaq – 8 nəfər;

Sərdarabad mahalında seyidli – 11 kənddə 449 və axsaxlı – 9 kənddə 514 nəfər.

Akademik İsmayıl Hacıyev haqlı olaraq İrəvan xanlığında işğaldan sonra xanlıq üsul-idarəsinin dərhal ləğv edilməsinin onun ərazisinin etnik tərkibinin dəyişdirilməsi ilə bağlı olduğunu hesab edir [9]. Arxiv sənədləri təsdiq edir ki, Rusiya İmperatoru yeni işğal olunmuş ərazilərdə müsəlmanların yerinə ermənilərin yerləşdirilməsi məsələsində qərarlı idi. Bu GMTA-da saxlanılan rəsmi yazışmalardan da açıq müşahidə olunur.

Belə yazışmalardan birində, Paskeviçin İrəvan müvəqqəti idarəsinin sədri Krasovskiyə yazdığı 22 dekabr 1827-ci il tarixli, 535 saylı təlimatın-

da, idarə üçün müəyyən etdiyi 06.10.1827-ci il tarixli "ümumi qaydalar"ın Rusiya təbəəliyinə keçmək məqsədilə müraciət edən tayfalara dair bəndinə tam zidd olaraq, müsəlmanların xaricdən İrəvan bölgəsinə keçməsinə icazə verilməməsi barədə "İmperator Əlahəzrətlərinin" bildirişinə riayət edilməsi barədə göstəriş verilirdi.

Məşhur Çıldırlı Nağı bəyin və ilk başda Borçalı İsmayıl xanın onlara tabe olan qarapapaqlarla Rusiya hakimiyyəti altında qalmış yurdlarına dönmə istəkləri də bu təlimata uyğun əngəllənir [2]. Hətta 20-ci piyada diviziyasının rəisi general-mayor N.P.Pankratyevin İrəvan və Şürəgəldən çıxmış bir neçə yüz ailənin ondan qayıdış-icazə bileti alıb özlərinin Rusiya hüdudları daxilində qalmış ərazilərinə qayıtdığı barədə məlumatı özündə əks etdirən raportu Paskeviçi elə hiddətləndirir və qəzəbləndirir ki, o, "Erməni vilayəti" idarəsinə 2 noyabr 1828-ci il tarixli, "məxfi" qrifli məktub yazaraq, geri qayıdanların "qaçaq və soyğunçu yığını" olduğunu və "Zati-Alilərinin yeni alınmış əraziləri müsəlmanlardan azad edərək, xristianlarla məskunlaşdırmaq göstərişini" verdiyini qeyd edir, artıq qayıdış bileti verilmiş ailələrə isə ermənilərin köçürülməsi üçün yararlı ola biləcək torpaqlara heç bir vəchlə məskunlaşmaq fürsətinin verilməməsini tələb edir [3].

Göründüyü kimi, hər nə qədər qraf Paskeviç özündən yüksək rütbəli rəsmilər qarşısında işğaldan sonra İrəvan xanlığını tərk etməmiş müsəlmanlara qarşı qərəzsiz və ədalətli mövqe sərgilənməsinin tərəfdarı olduğunu göstərsə də, müharibə zamanı xanlıq ərazisindən Osmanlı ərazisinə və qacarların tabeliyindəki bölgələrə köç etmiş müsəlmanların, xüsusən də qarapapaqların geri öz ata yurdlarına dönməsinin qarşısının alınmasında bir o qədər sərt və amansız idi. O, bir tərəfdən İrəvan vilayət idarəsi qarşısında ciddi şəkildə ermənilərə və müsəlmanlara dair məsələlərdə heç zaman birincilərə üstünlük verməmək və bitərəf mövqe tutmaq məqsədini qoyur, eyni zamanda digər tərəfdən vilayətdən xaricə keçmək istəyənlərə hökumət tərəfindən izn verildiyini elan edir və belələrinin sonradan geri dönmələrinin heç zaman, heç bir halda özünün xüsusi icazəsi olmadan mümkünsüzlüyünü bildirirdi [6, s. 490].

GMTA-da saxlanılan "Qarapapaqların Rusiyada yerləşdirilməsinə dair daxili işlər naziri və Əlahiddə Qafqaz Korpusunun qərargahının idarəsi ilə yazışma" başlıqlı sənədlər toplusundan bəlli olur ki, Paskeviçin

müharibədə Rusiya ordusuna güclü müqavimət göstərmiş qarapapaqlara qarşı nifrəti yalnız onların öz vətənlərinə dönüşlərinin qarşısını almaqla məhdudlaşmır. O, qarapapaq amilindən bir dəfəlik "yaxa qurtarmaq" üçün bu döyüşkən türk boyunun Rusiyanın daxili bölgələrinə sürülməsi məsələsini gündəmə gətirir [4].

Baş Qərargah rəisi qraf İ.Dibiçə yazdığı 24.08.1828-ci il tarixli, 495 saylı raportunda Paskeviç köçəri, çılğın və qaçaqçılığa meylli tayfa olduğu üçün qarapapaqları tabeçilikdə saxlamağın çətin olduğunu vurğulayaraq, onları Rusiyanın iç ərazilərində − Volqa boyunca, ya da digər bölgələrdə məskunlaşdırılmasını təklif edir.

Dibiç Balkan cəbhəsindən (həmin dövrdə 1828-29-cu illər türk-rus müharibəsi gedirdi – F.V.), Şumnadan yazdığı 25 sentyabr 1828-ci il tarixli, 2349 saylı cavab məktubunda qarapapaqların konkret olaraq Rusiyanın hansı bölgələrində yerləşdirilməsi imkanlarını araşdırmağı tapşırır.

Məsələ ilə bağlı Rusiyanın daxili işlər naziri general A.A.Zakrevski 7 fevral 1829-cu il 468 saylı məktubu ilə Qafqaz vilayəti, Həştərxan quberniyası və Gürcüstanın sərhədyanı və mülki işləri üzrə baş idarəçisinə köçürüləcəkləri təqdirdə qarapapaqların Rusiyanın daxili quberniyalarında hansı işlərlə məşğul ola biləcəyini və bir sıra digər məqamları araşdırmağı həvalə edir. Eyni zamanda o, bu məktubunda qarapapaqların Saratov və Orenburq quberniyalarına köçürülməsinin əlverişli olduğunu və bunun xəzinəyə faydalı, göstərilən quberniyalar üçün isə ziyanlı olmayacağını vurğulayır.

Daxili işlər nazirinə yazılan cavabda köçürülməsi nəzərdə tutulan qarapapaqların 1000 ailəyə qədər olduğu, hazırda "Erməni vilayəti"ndə yaşadıqları, Rusiyada əkinçilik və maldarlıqla məşğul ola biləcəkləri barədə məlumat verilir.

İ.İ.Dibiçin yerinə Mərkəzi Qərargahın idarəçisi vəzifəsinə təyin olunmuş general A.İ.Çernışevin Sankt-Peterburqdan general Paskeviçə yazdığı məktubda (07.08.1829-cu il tarixli) qarapapaqların Orenburqa köçürülməsi məqsədəuyğun hesab edilir.

Mərkəzi Qərargahın idarəçisinin Paskeviçə ünvanladığı başqa bir məktubunda (29 noyabr 1829-cu il tarixli) qarapapaqların köçürülmə prosesinin imperatorun göstərişiylə Türkiyə ilə müharibə sona yetənə qədər təxirə salındığı və imperatorun bunu Rusiya ilə pis münasibətdə olan dağlılara qarşı

ekspedisiya təşkil olunduqdan sonra həyata keçirməyi əmr etdiyi bildirilir.

1831-ci ildə qarapapaqların "Erməni vilayəti"ndən Rusiyaya köçürülməsi (sürgünü) məsələsi yenidən Rusiya rəsmiləri tərəfindən gündəmə gətirilsə də və məsələ ilə bağlı müvafiq məxfi yazışmalar aparılsa da, xoşbəxtlikdən yenə də müəyyən səbəblər ucundan nəticəsiz qalır.

"Erməni vilayəti" idarəsinin müşaviri Parasdovskinin "Erməni vilayəti"ndə köçəri xalqların rəisi Aslan Sultan Şadlıya 1832-ci ildə yazdığı məktubda şadlı, qarapapaq və qaraçorlu tayfalarının müharibədən zərər görmüş tayfalar kimi, 3 il müddətinə vergidən azad edilməsi barədə məlumat verilirdi [5]. 1840-cı ildə "Erməni vilayəti" buraxılır. Yerində təşkil edilən İrəvan qəzası Gürcüstan-İmeret quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bəyazid (Yeni Bəyazid) qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir və 1917-ci ilə qədər bu struktur dəyişməz qalır. Daha sonra bu qədim türk torpaqlarında Ararat Respublikası (1918-1920), Ermənistan Sovet Sosialist Respublikası (1920-1991) və indiki Ermənistan Respublikası qurulur.

Sonda acı təəssüflə qeyd etmək istərdik ki, XIX əsrin 30-cu illərində baş tutmayan qarapapaq sürgünü XX yüzil boyunca mərhələli şəkildə həyata keçirilmiş və artıq Sovetlər Birliyinin son illərində əsasən İrəvan xanlığının torpaqlarını əhatə edən Ermənistan SSR-də etnik təmizləmələr nəticəsində nəinki qarapapaqlar, ümumiyyətlə türk-müsəlman əhali qalmamışdı.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Gürcüstan Milli Tarix Arxivi (GMTA), fond 2, siyahı 1, iş № 3110.
2. GMTA, f. 2, s. 1, iş № 1969.
3. GMTA, f. 2, s. 1, iş № 2236.
4. GMTA, f. 2, s. 1, iş № 2167.
5. GMTA, f. 1452, iş № 404.
6. Акты, изданные Кавказской археогр. комиссией под ред. А. П. Берже (АКАК), т. VII., Тифлис, 1878.
7. Шопен И. Исторический памятник Армянской области в эпоху ее присоединения к Российской империи, СПб, 1852.
8. Богданова Н. К вопросу о феодальной эксплоатации кочевников в Закавказском крае в первой трети 19-го в., «Исторический архив», М., 1939.
9. Hacıyev İ. Azərbaycan ərazisində yaradılan "erməni vilayəti", "Xalq qəzeti", 3 aprel 2011.
10. Mahmudov Y., Mustafazadə T., Məmmədov S., Nəcəfli G., Mustafa N. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Bakı, 2010.

**Fakhri Valehoglu**

## ABOUT ADMINISTRATIVE REFORMS IN THE IREVAN KHANATE TERRITORY AFTER RUSSIAN INVASION AND FAILED KARAPAPAKHS EXILE

### SUMMARY

**Keywords:** Irevan Khanate, the army, the Treaty, reform

In the autumn of 1827, İrevan (Erivan) khanate was invaded by Russian forces. Separate Caucasus Corps Commander of the Russian army, general I.Paskevich urgently implements administrative reforms in the territory of the khanate. For enforcement of new administrative rules and to conduct civil affairs, firstly so called "Temporary İrevan Government", later "İrevan province governance" structures, later after Turkmenchay treaty, "Armenian Province" − consisting of İrevan and Nakhchivan khanates` lands, was created. At the same time, a correspondence between the high-ranking officials about the exile of Karapapaks (sub ethnic group of Azerbaijanis) in the internal provinces of Russian empire was implemented, as they viewed Karapapaks as serious obstacle to the establishment of the Russian governance in the new territories.

One of the main reasons of the immediate removal of khanate rule after the occupation of the İrevan khanate aimed to change the ethnic composition of its territory.

**Фахри Валехоглу**

## ОБ АДМИНИСТРАТИВНЫХ РЕФОРМАХ НА ТЕРРИТОРИИ ИРЕВАНСКОГО ХАНСТВА И НЕ СВЕРШИВШЕЙСЯ ССЫЛКИ КАРАПАПАХЦЕВ ПОСЛЕ РОССИЙСКОГО ЗАВОЕВАНИЯ

### РЕЗЮМЕ

**Ключевые слова:** Ireванское ханство, армия, договор, реформа

После завоевания Иреванского ханства осенью 1827-го года командующий Отдельным Кавказским Корпусом российской армии И.Паскевич не теряя времени начал осуществлять на территории ханства административные реформы. Для применения нового правления и ведения гражданских дел были созданы такие административные структуры как «Эриванское временное правление», «Эриванское областное управление», а после Туркменчайского договора была образована административно-территориальная единица, именуемая «Армянской областью», состоящая из земель Иреванского и Нахчыванского ханства. В то же время, велась переписка между высокопоставленными чиновниками относительно ссылки карапапахцев (субэтническая группа азербайджанцев) во внутренние губернии Российской Империи, так как карапапахцы представлялись серьезным препятствием для внедрения российской власти на новозахваченных территориях.

Одной из главных причин столь быстрых административных реформ было стремление царского правительства измененить этнический состав на завоеванных землях.

# ОРГАНИЗАЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ УЗЕИРА ГАДЖИБЕЙЛИ ПОСЛЕ УСТАНОВЛЕНИЯ СОВЕТСКОЙ ВЛАСТИ (1920 – 1938).

**Гюнель ОРУДЖЕВА***

Узеир бек Гаджибейли основоположник современного профессионального азербайджанского музыкального искусства. Он заложил фундамент композитоской школы, признанной в международном масштабе, создал её эстетические и творческие основы.

Деятельность Узеира Гаджибейли в советский период была скорее организационной и общественной, нежели политической.

В советское время он продолжил задуманное им еще в период АДР. Это создание музыкальной школы для азербайджанцев, изучение азербайджанского музыкального фольклора и т.д.

В качестве второй задачи он выдвигал «научно-теоретическую» и «художественно-практическую работу» в области народной и вообще восточной музыки. Узеир бек четко представлял себе наличие европейской и восточной музыки. Он писал: «Серьёзная и добросовестная работа в этом направлении, несомненно, поведет к тому, что восточная музыка наряду с европейской займет, наконец, то почетное место, которого она достойна». [16, 26]

Народным комиссариатом просвещения (Наркомпрос) 18 мая 1920 г. был принят Декрет «О национализации всех театров, кино, музеев, музыкальных учебных заведений». [9, 4]

Узеир бек затрагивая вопрос о музыкальном образовании, пришел к выводу что «не зная сущности звука, интервалов, гамм, ритмики, метра, нотной грамоты, мы не сумеем определить теоретическую основу своей же музыки, следовательно, не подвинем ее ни на шаг вперед». [4, 91]

Главная задача его творческой, организационной деятельности подчеркивает возможность синтеза восточной и европейской музыки, притом при сохранении (а не разрушении) своеобразия каждой.

В статье «Музыкально-просветительные задачи в Азербайджане» он ставил вопрос о подготовке национальных кадров, отвечающих тре-

---

Günel Orucova – AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun aspirantı

бованиям современного музыкального искусства, и в этой связи особо выделяет задачи музыкального образования. [17, 10-11]

В июле 1920 г. Узеир Гаджибейли назначается заведующим музыкального отдела народно-пролетарского искусства Наркомпроса Аз.ССР. В задачи этого подотделения входило запись и инструментовка народных мелодий Азербайджана и Востока, развитие и выявление восточной оперной и камерной музыки.

25 мая 1920 г. Наркомпрос и Городское отделение просвещения вынесли решение о создании двух музыкальных учебных заведений – консерватории и музыкальной академии. Первоначально организовывалось консерватория, функционально приобретая очертания Народной консерватории – основная цель ее заключалась в широком музыкальном просветительстве. В докладе У. Гаджибейли «О реорганизации Азербайджанской Государственной Консерватории» говорил: «Работа по специальному музыкальному образованию преследует такие цели как подготовка и ежегодный выпуск музыкантов, т. е. инструменталистов-солистов, оперных певцов и певиц, композиторов и. т. д., которые должны обслуживать музыкальные нужды республики. С этой целью учреждается музыкальное учебное заведение, которое называется консерваторией». [7, 224] Узеир бек был основоположником Азербайджанской Государственной Консерватории. Он составил и первый Устав консерватории, базирующийся на традиционных европейских принципах профессионального музыкального процесса. Гаджибейли создает здесь отдел восточной музыки, включивший в себя исполнительство на народных инструментах (тар, кяманча). Одновременно в стенах консерватории преподавалась традиционная игра на таре (мугамат). В учебно-воспитательную программу консерватории он вводит и предметы теоретического плана, в котором наладились принципы и правила азербайджанской музыки. [5, 26]

Значительным шагом на пути подготовки национальных музыкальных кадров явилась созданная в 1922 г. Узеир беком музыкальная школа для учащихся-азербайджанцев, которая назвалась Азербайджанской Государственной Тюркской Музыкальной Школой (А.Г.Т.М.Ш.).

В своей статье «Музыкальное образование в Азербайджане» он писал: «Музыкальный талант азербайджанских тюрков ничем не хуже османских тюрков и наших соседей иранцев. Можно сказать, что азер-

байджанские тюрки являются самыми музыкальными среди народов Кавказа». Он говорил что «одним из основных задач этой школы является с одной стороны обучение тюрков музыке, тем самым, открыв для них двери музыкального искусства, а с другой поднять восточную музыку до уровня европейской». [18, 21 - 23]

Тюркская музыкальная школа ставило своей целью подготовку художников-виртуозов и образованных музыкантов во всех областях музыкального искусства вообще и восточного в частности. [8, 75]

Воспитанниками этой школы были такие видные музыканты и композиторы как С.Рустамов, А.Зейналлы, А.Гасанов, Х.Агаева и другие – ярко проявили себя в профессиональной музыкальной жизни Азербайджана.

В 1925 г. силами учащихся школы под руководством Узеир бека была осуществлена постановка оперетты «Аршин мал алан». Трехлетнее существование Тюркской музыкальной школы показало что дело музыкального образования среди тюркского населения поставлено на прочную основу. [9; 11, 62]

Одной из важнейших заслуг этого училища было привлечение девушек-азербайджанок к систематическому музыкальному образованию. Сам Гаджибейли в своей статье писал: «С открытием этой школы мы достигли многого. Женщины, которые еще не вышли из чадры приносят к нам своих дочерей, чтобы дать им образование» [18, 23]

Таким образом, в 1925 г. тюркская музыкальная школа была преобразована в тюркский музыкальный техникум, а в 1926 техникум влилась в консерваторию, значительно увеличив численность студентов-азербайджанцев. С 1926 г. Узеир бек был назначен проректором консерватории.

Одним из важных организационно-практических достижений Узеир бека – являлся создание хорового коллектива. По инициативе Гаджибейли постановлеием Наркомпроса от 5 апреля 1926 г. в Музтехникуме был образован класс хорового пения. [9]. Но организованный композитором первый хоровой коллектив быстро распался. И только через десять лет, в 1936 г., когда появились уже национальные музыкальные кадры с высшим образованием была восстановлена. Теперь он создал хор при вновь организованной Азербайджанской Государственной Филармонии. Хор состоял из 100 молодых певцов и певиц, не имевших

ранее специальной подготовки, но вокально одаренных. Певцы набирались и в Баку и сельских районах Азербайджана.

Естественно, что в первое же время перед хором стал вопрос о репертуаре. Каждую мелодию, каждую народную песню приходилось гармонизировать для исполнения многоголосным хором. [11, 7] Руководимый Узеир беком Гаджибейли, хор быстро творчески рос. Через два года после создания хора, он стал участником первой Декады азербайджанского искусства в Москве. Сафарова З. отмечала что, «У. Гаджибейли в своей деятельности создал свой стиль, соединив в одно целое все жанры народной музыки Азербайджана – мугамат, песни, танцы и ашугское творчество. Его можно назвать стилем Узеир бека» [14, 277]

В 1928 г. в Азербайджане, как и по всему Советскому Союзу, вводятся три ступени музыкального образования – начальное (музыкальная школа), среднее (музыкальное училище), высшее – консерватория. [2, 21] У. Гаджибейли считал необходимым открытия в начальных, средних и высших музыкально-учебных заведениях «народных отделений». Открытие этого отделения позволило бы учащимся обучению игре на народных инструментах по нотам, знакомство учащихся этих отделений с курсом теории музыки. С 1930 – 1938 гг. Узеир бек является руководителем созданного им же отдела народных инструментов Азербайджана.

В 20-е годы Узеир бек Гаджибейли с Муслимом Магомаевым заложил основы музыкального фольклора Азербайджана. Они активно работают над записью народных песен по материалам, представленным Зульфугар Гаджибейли и Дж. Гарягды. И в 1927 г. был издан сборник азербайджанских народных песен, куда были включены старинные трудовые песни, колыбельные, любовно-лирические мелодии. Э. Аббасова указывала, что «фольклорная песня, постоянная спутница жизни народа, отражает всю его историю, склад характера, мышления в целях и художественного в частности». [1, 129]

Узеир бек начинает также изучение ашугской музыки. Поводом к этому послужила подготовка к первому съезду азербайджанских ашугов, который состоялся в Баку 1928 г. На этом съезде композитор выступил с докладом, в котором отмечал, что «старое общество, будучи не в состоянии дать должную оценку музыкальному, общественному значению ашуга, поддерживал его конкуренцию сазандара, круг «деятельности» которого становиться все шире и шире, охватывая не только

города, но и зажиточные деревни, оставляя ашугу скромную арену беднейшего захолустья». [16, 31] Далее он подчеркивал, что «искусство ашугов – это творчество самого народа». Он считал что «нужно помочь ашугам осознать свое достоинство и значение» [16, 33] Нужно отметить, что Гаджибейли воспринимал время в его прогрессиивном движении, в настоящем он ощущал будущее. Музыкальное искусство он воспринимал в неразрывной связи с обществом. Ибо развитие, прогресс музыки зависит от самого общества. Он жил идеей ускоренного прогресса. Узеир бек говорил: «Законы жизни и развития беспощадны. Остановить время истории, изменить его движение в другое русло, не зависит от старомыслящих людей. Люди, которые не прогрессируют, не отвечают требованиям времени в скором времени исчезнут. Это закон жизни. Если народ хочет остаться в истории, тем самым, сохранив свою историю, культуру, язык и обычаи, он должен понять в каком времени он живет, и развивать свое самосознание и жизнь по времени. В противном случае тот народ станет зависим в руках другого государства» [10, 24]

В 1931г. Узеир бек создает оркестр народных инструментов. Появление этого коллектива явилось результатом активной и плодотворной работы восточного отдела Азербайджанской консерватории, а также глубокого изучения У. Гаджиейли азербайджанских и европейских музыкальных инструментов, исследоание теоретических основ азербайджанской и восточной музыки. Исполнительный стиль оркестра базировался на «нотной системе» (отсюда его часто называли «нотным» оркестром)*.

Состав коллектива состоял из двадцати двух музыкантов. Конечно, среди них были и те, которые еще не владели нотной грамотой, но это не помешало дальнейшему развитию первого нотного оркестра. Небольшой состав оркестра включил самые распрастраненные в Азербайджане инструменты – тар, кяманчу, балабан, бубен, нагару, фортепиано. Вскоре руководство оркестром Узеир бек передал молодому талантливому музыканту – С.Рустамову, в будущем одному из крупных представителей азербайджанской музыки.[3, 10]

Одно время среди деятелей искусства начались споры насчет использования европейских инструментов в восточной музыке. В ответ на такие высказывания У. Гаджибейли всегда отвечал своими статьями. В одном из

* У. Гаджибейли в своих письмах называл этот оркестр «восточным».

таких статей, которая называлась «Восточная музыка и Западный музыкальный инструмент», он писал: «Музыкально-инструментальный потенциал Запада так велик, что многие по звучанию и форме похожи на восточные инструменты». [19, 30]

Нововведения Узеир бека настойчиво направлявшего азербайджанскую музыкальную культуру в новое русло, воспринималась положительно не всеми и не всегда. Отсюда возникла консервативно-охранительная тенденция, которая считала необходимостью «бережного» отношения к национальным ценностям, т. е. фактическая изолированность азербайджанской музыки от мирового музыкального искусства. Как говорил Гаджибейли, «именно благодаря усилиям таких людей созданный в результате огромных усилий хор, распался» [16, 46 – 47].

В 20-е годы проявилась также тенденция отрицания искусства до советского периода. ациональное музыкальное наследие досоветского периода рассматриалось лишь как этнографическая ценность, не имеющая никакого художественного значения в настоящем и перспектив в будущем.

Особенно острой была полемика по вопросам оперного искусства. На страницах таких газет как «Коммунист», «Бакинский рабочий» говорилось, что нет вообще «тюркской оперы» и мугамные оперы не выдерживают критики ни с художественной, ни с технической стороны. Противником такого искусства и особенно тюркской оперы досоветского периода был Нарком просвещения Аз.ССР М.Кулиев. Он считал эти оперы «иранского происхождения, куда были собраны иранские народные песни», и видел развитие Азербайджанского театра и оперы «использованием европейского стиля, перевод на азербайджанский язык русские оперы и отказ от мугамных опер». [6, 278] У.Гаджибейли, М.Магомаев, Ш. амедова аргументировано выступали в защиту ранних азербайджанских опер и оперетт, считая одновременно создания новых произведений. По этому поводу Ш.Мамедова писала: «…то, что еще может быть нами прекрасно использовано в качестве моста между старым народным и новым национальным музыкальным театром: сжечь мосты хорошо тогда, когда уже находишься на другом берегу; иначе может получиться положение, при котором сожженный мост отделит не от прошлого, а от будущего» [13,11]

В книге К.Керимова «Разговор об опере» говорилось что «единственным источником для развития национальной оперы, это мугамные оперы досоветского периода». [12,18]

2 ноября 1924 г. состоялась дискуссия по вопросам азербайджанского оперного искусства. В ходе дискуссий особо подчеркивалась художественное значение национального музыкального наследия, указывалась необходимость его активного развития. Принятый Наркомпросом республики декларации говорилось: «Для развития азербайджанской музыки нужно укреплять музыкальные школы и командировать за границу окончивших, собирание тюркских песен, перевод на тюркский язык европейской оперы и. т. д.» [13, 27]

В 1928 г. опять вспыхнула дискуссия по вопросам азербайджанского оперного искусства. Узеир бек был не только сторонником мугамного направления в азербайджанской опере, он считал, что как основу и источник нужно брать лишь мугамные оперы и оперетты.

30-е годы для У.Гаджибейли ознаменовалось получением почетных званий. В 1935 г. У.Гаджибеков получил звание «заслуженного деятеля искусств Азербайджана». В 1937 г. состоялась премьера оперы «Кероглы», дирижером которого был сам Узеир бек, а в 1938 г.в декаде азербайджанского искусства в Москве, эта опера была принята с большим восхищением не только зрителями, но и самим И. Сталином.

На страницах центральной прессы появлялись рецензии и ОТКлики крупных деятелей советской музыки, высоко оценившие произведение У. Гаджибейли как одну из лучших советских опер. В своем выступлении он говорил: «Наши достижения в области искусства в Азербайджане велики. Самое ценное из наших достижений – это кадры выросшие за восемнадцать лет существования Советской власти в Азербайджане». [15]

Итак, У.Гаджибейли внес большой вклад в развитие национальной музыки Азербайджана. Его напряженная, многолетняя, творческая и общественная деятельности были награждены и приняты известными людьми того периода.

**ИСТОЧНИКИ И ЛИТЕРАТУРА**

1. Абасова Э. «У. Гаджибеков». Баку, Элм, 1985
2. Абасова Э, Касимова К. А. «Очерки музыкального искусства Советского Азербайджана» (1920 – 1956), Баку, Элм, 1970

3. Abasova E. «Səid Rüstəm». Bakı, Azərnəşr, 1972
4. Агаева Х. «У. Гаджибеков», Баку. Азернешр, 1955
5. Азербайджанская государственная консерватория им. У. Гаджибекова. Баку, Азернешр, 1972
6. Vəkilov V. «Azərbaycanda mədəni inqilab». (1920 – 1940), Bakı, Əbilov, Zeynalov və oğullari, 2005
7. ААР, ф. 57, оп. 1, д. 21
8. ААР, ф. 57, оп. 1, д. 235
9. ААР, ф. 57, оп. 5, д. 29
10. Qarabağlı S. «Ü. Hacıbəyovun publisistikasında musiqi məsələləri», Bakı, Bilik, 1997
11. Дмитриев Д. «Азербайджанский народный хор». Бак. рабочий, 20 марта, 1938
12. Kərimov K. «Opera haqqında söhbət». Bakı, Azərnəşr, 1966
13. Мамедова Ш. «Пути развития азербайджанского музыкального театра». Москва, Гос. Муз. изд-во, 1931
14. Səfərova Z. Azərbaycanın musiqi elmi. (XIII – XX əsrlər), Bakı, Elm, 1998
15. Институт Рукописей, ф. 17, ед. хр. 136.
16. У. Гаджибеков о музыкальном искусстве Азербайджана. Баку, Азернешр, 1966
17. У. Гаджибеков. «Музыкально-просветительные задачи в Азербайджане». «Искусство», № 1, 1921
18. Ü. Hacıbəyov. Azərbaycanda musiqi təhsili. Maarif və mədəniyyət, № 12, 1923
19. Ü. Hacıbəyov. Şərq musiqisi və Qərb musiqi aləti. Maarif və mədəniyyət, № 4, 1926


**Gunel Orujova**

## ORGANİZATİONAL ACTİVİTY OF UZEYİR HAJİBEYLİ AFTER THE ESTABLİSHMENT F THE SOVİET REGİME (1920 - 1938)

## SUMMARY

**Key words:** Uzeyir Hajibeyli, musical culture, Azerbaijan State Conservatory, music education.

Uzeyir Hajibeyli founder of modern Azerbaijan professional music. He laid the foundation of composer school, which recognized in all word.

One of the greatest ideas of U.Hajibeyli was to establish a professional music school and in 1920 was opened Azerbaijan State Conservatoire. The school has trained Azerbaijan's finest composers such as Gara Garayev, Fikrat Amirov, Jovdat Hajiyev, Soltan Hajibeyov, Tofig Guliyev, and Vagif Mustafazade. Hajibeyli was the creator of the first operas and operettas in the Orient. In 1938, he was awarded with the title of People's Artist of the USSR, the Order of Lenin and the State Prize which he won twice.

**Г.Оруджева**

**NATIVES OF SOUTH AZERBAIJAN UNDER STALIN REPRESSIONS IN THE SOVIET AZERBAIJAN**

**SUMMARY**

The theme of Stalin reprisals which is object of research of many historians, has till now the unsolved sides. One of such sides is position of other nationalities living for various reasons in territory of the USSR, in particular in the Soviet Azerbaijan, in the conditions of reprisals 1937-1938. Object of research of given article are southern Azerbaijanians who, despite the affinity in the ethnic relation with Soviet Azerbaijanians, were exposed to cruel oppressions from the Soviet power in $20^{th}$ of XX century. Then these oppressions have turned to reprisals and deportations of these people.

# QƏDİM VƏ ANTİK DÖVR MƏNBƏLƏRİ XƏZƏR DƏNİZİ VƏ NEFT HAQQINDA. (E.Ə. VI MİNİLLİKDƏN BAŞLAYARAQ B.E. III ƏSRİNƏDƏK)

**Cəbi BƏHRAMOV***

Müasir dünya xalqlarının siyasi taleyində, sosial-iqtisadi və mədəni həyatında müstəsna rol oynayan, beynəlxalq münasibətlərdə dünya dövlətlərinin daxili və xarici siyasətlərinin müəyyənləşdirilməsində həlledici amilə çevrilən, bu qeyri-adi cəlbedici qüvvəyə malik qara “gözəl” - neft necə yaranıb və onu özünün ən başlıca enerji mənbəyi hesab edən insana o, nə zamandan məlumdur?

Dünya elmi bu sərvətin insanlara təxminən 8000 il bundan əvvəl məlum olduğunu təsdiq edir. Arxeoloq alimlərin apardıqları qazıntılar zamanı qədim insanların təxminən eramızdan əvvəl VI-IV minilliklərdə neft çalaları və hətta quyuları qazdıqları aşkar edilmişdir.

Azərbaycanın arxeoloq alimlərinin XX əsrin 50-70-ci illərində Bakıdan 7-8 km məsafədə olan Binəqədi kəndi yaxınlığında apardıqları paleontoloji qazıntılar zamanı on min illər öncə (alimlər bunu dördüncü dövrə, yəni təqribən 1 milyon il bundan əvvəl başlanan dövrə aid edirlər) burada sahilləri qara neftlə örtülmüş şirin sulu gölün əmələ gəldiyi faktiki olaraq təsdiq edilmişdir [1.27]. Ətrafda yaşayan canlılar bu gölə su içməyə gələr, lakin içməli su gölün ortalarında olduğundan heyvanlar özlərini suya çatdırmaqdan ötrü sahili bürümüş neft qatından keçməli olurmuşlar. Lakin qatı və yapışqan neft onları məngənəsinə salar və öz qoynunda dəfn edərmiş. Binəqədi neft gölü zaman keçdikcə qurumuş və qalın qır təbəqəsindən ibarət yataq əmələ gəlmişdir. Bu qəbiristanlıq – Binəqədi kəndi yaxınlığındakı qır qatlarında tarixə qədər ki dövrdə ən müxtəlif heyvanların qalıqlarının toplanmış olduğu yer beləcə əmələ gəlmişdir. Burada mağara aslanının, canavarların, nəhəng maralların, mağara ayılarının, kaftarların, kərgədanların, atların, ulaqların və nəsli kəsilmiş digər iri və xırda heyvan növlərinin qalıqları aşkar edilmişdir. Binəqədi qır gölü dünya miqyasında ən zəngin paleontoloji xəzinələrdən biri hesab olunur. Bu məkan dördüncü dövr fauna və florası, çeşidi və çoxluğu ilə bütün dünya alimlərini heyrətə gətirmişdir. Mütəxəssislər bu gölü 1875-ci ildə ABŞ-ın Kaliforniya ştatında U.Denton tərəfindən aşkar edilmiş Ranço

* Cəbi Əmirvar oğlu Bəhramov – t.ü.f.d., AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini

Lya Brea paleontoloji tapıntısı ilə müqayisə edirlər [2.13]. Geoloji tədqiqatlar göstərmişdir ki, Ranço Lya Brea faunasının yaşı pleystosen dövrünə aiddir və burada batıb qalmış heyvan qalıqlarının 35000 yaşı vardır. Müqayisə üçün bildiririk ki, Binəqədi gölündəki qalıqların yaşı bundan 2 dəfədən də çoxdur, yəni 75000 ilə bərabərdir [2.14].

Bu böyük heyvan qəbiristanlığının yaranmasının əsas səbəblərindən birinin neftdən ayrılmış qırın olması tarixəqədərki dövrlərdə Abşeron yarımadası ərazisində və o cümlədən Xəzər dənizinin sahillərinə yaxın hissələrdə neftin mövcudluğu faktını təsdiq edir.

Bəs onda bəşər tarixində insan üçün ən qədim zamanlardan bu günə qədər ən sərfəli və mühüm sayılan bu qara rəngli maye - neft necə əmələ gəlmişdir? Qeyd etmək lazımdır ki, neftin nədən və necə əmələ gəlməsi məsələsi olduqca çətin və mübahisəli məsələ hesab olunur və dünya elminin ən mühüm problemlərindən biri sayılır. Neftin mənşəyi haqqında müxtəlif nəzəriyyələr mövcuddur. Onun əmələ gəlməsinin kosmik, karbid və vulkanik fərziyyə tərəfdarları neftin qeyri-üzvi yolla yarandığını sübut etməyə çalışırlar. Neftin üzvi mənşəyə malik olması dünya elmində geniş yayılıb və alimlərin böyük əksəriyyəti tərəfindən qəbul edilmişdir. Qəbul olunmuşdur ki, neft çökmə süxurlarda yaranır. Çökmə suxurlar isə qum, qumdaşı, əhəngdaşı, gil və sair materialların qarışığından ibarət olur. Belə süxurlar isə neft geologiyası ilə məşğul olan alimlər tərəfindən kollektorlar adlandırılır. Onlar hesab edirlər ki, neft kollektoru süxur dənələrinin arasında qalan xırda boşluqlarda və çatlarda yerləşir.

Neftçi alimlər tərəfindən öyrənilmişdir ki, okean və dənizlərdə, onlara yaxın olan quru ərazilərdə çoxlu sayda müxtəlif təkhüceyrəli canlılar yaşayır və onlar da baş vermiş təbii fəlakət, okean və dənizin bionomik şəraitinin kəskin dəyişilməsi nəticəsində məhv olaraq su hövzəsinin və qurunun dibinə çökür və beləliklə də, qalın süxur qatları əmələ gətirirlər. Davamlı olaraq istiliyin və yüksək təzyiqin təsirinə məruz qalan bu müxtəlif üzvi qalıqlar son nəticədə neftə çevrilir.

Dünya alimlərindən A.Engler, H.Hefer, Y.M.Qubkin, N.D. Zelinski, R.P.Kalitski, K.Y.Zobell və digərləri neftin üzvi birləşmələrdən əmələ gəlməsi fikrini apardıqları uzunmüddətli elmi tədqiqatları ilə sübut etmişlər. Belə olan halda çox maraqlı və hamını düşündürən təbii sual ortaya çıxır: neft indi də yaranırmı?

Bu suala ilk dəfə 1925-1926-cı illərdə rus alimi V.Y.Vernadski cavab vermişdir. O, Qara dənizin dibindən götürülmüş çöküntülərə əsasən təyin etmişdir ki, hazırda da neft əmələ gəlir və proses daimidir. Bu fikir sonralar neftçi alimlər V.V.Veber, A.Y.Qorskaya və ABŞ alimi P.Smit tərəfindən də təsdiq olunmuşdur. XX əsrin 50-ci illərin sonunda Cənubi Amerikada Venesuelanın Orinoko çayı məcrasında aşkar edilmiş yeni neft yatağında aparılan tədqiqatlar zamanı bu neftin təxminən 5-10 min il bundan əvvəl yarandığı sübut olunmuşdur [2.15].

Bütün bu sual və cavablardan sonra daha bir haqlı sual ortaya çıxır. Bəs neft ilk dəfə hansı ölkədə aşkar edilmiş, insanlar ondan nə zamandan müxtəlif məqsədlərlə - yanacaq, müalicə və s. - istifadə etməyə başlamışlar?

Haqlı olaraq bu gün neftin ilk dəfə aşkar edildiyi və ondan müxtəlif məqsədlər üçün istifadə olunduğu ölkənin Azərbaycan olması bütün dünya xalqları və dövlətləri tərəfindən birmənalı şəkildə qəbul edilir. Yerin dərin qatlarından onun səthinə sızıb çıxan qara mayeyə müasir azərbaycanlıların qədim əcdadlarından biri olan midiyalılar e.ə. VII əsrdə "nafta" adını vermişlər. "Sızmaq" mənasını ifadə edən "nafta" sözü 28 əsrlik bir dövr ərzində müəyyən dəyişikliyə uğramış və indiki neft sözünə çevrilmişdir [2.16].

Azərbaycan yeganə ölkədir ki, burada neft həm quruda, həm də dənizdə çıxarılaraq istifadəyə verilmişdir. Abşeron yarımadasının və Xəzərin geoloji inkişaf tarixi, onunla əlaqədar yanar faydalı qazıntı yataqlarının varlığı, onların yerləşmə qanunauyğunluğu və insana ilk baxışda sadə görünən, lakin çox mürəkkəb bir keçmişə malik qlobal hadisələr, heç şübhəsiz, Xəzər dənizi ilə çox sıx bağlıdır.

Tarixi məlumatlara görə, Xəzər dənizinin indiyə qədər altmışdan çox adı olmuşdur. E.ə. XXI əsrin sonlarında Mesopotamiyada mövcud olmuş III Ur sülaləsinin hökmdarı Şu-Suenin yazılarının biirində bildirilir ki, onun dövlətinin inzibati ərazisi olan Zabşalı ərazisi "Anşanın hüdudlarından Yuxarı Dənizə qədər" uzanırdı. Qədim dövr tarixi üzrə mütəxəssislər hesab edirlər ki, burada Təli – Məliandan Xəzər dənizinin cənub hissələrinə olan ərazi nəzərdə tutulur. Lakin, "Yuxarı Dənizə" anlayışının Xəzərə şamil edilməsi inandırıcı görünmür. Belə ki, Mesopatamiya sakinlərinin Xəzər dənizi ilə tanışlığı e.ə. 822-ci ilə təsadüf edir və bu zaman Xəzər "Gün doğan dəniz" adlanırdı [3.27]. Bu adlardan digəri isə "Günəş gölü"dür və bu adın 2800 il bundan öncə yaşamış qədim yunan şairi Homerin Egey dənizinə həsr etdiyi mahnılarda işlətdiyi tarixdən məlumdur. Heç şübhəsiz, bu dənizə "Günəş

gölü" adından başqa, o zaman onun ətrafında yaşayan qəbilələr, tayfalar və xalqlar da öz adlarını vermişlər. Lakin o adlar haqqında heç bir tarixi yazılı mənbələr olmadığından müəyyən mülahizələr yürütmək çətindir. Doğrudur e.ə. IX-VII əsrlərdə Ön Asiyada ikinci dəfə güclü dövlət yaratmış assuriyalılar Xəzər dənizinə "Şərq" dənizi adını vermişdilər [4.5]. Onu da qeyd etmək lazımdır ki, assuriyalılar və o cümlədən əksər Ön Asiya xalqları neftdən hazırlanmış asfaltdan istifadə edirmişlər. E.ə. V əsrdə yaşamış yunan alimi Gegatey Miletski Xəzər dənizinin yerləşdiyi ərazini körfəz kimi təqdim edərək onu "Girkən" adlandırmışdı [4.5]. "Tarixin atası" hesab olunan yunan alimi Herodot (E.ə. 484-425-ci illər) isə Xəzər dənizinin cənub sahillərinə səyahət edərək burada məskunlaşmış kaspi tayfalarının yaşayışından söz açmış və dənizin "Kaspi" adlandığını yazmışdı. O, Xəzərin bütün sahillərində olmasa da, ilk dəfə onun qapalı dəniz olduğunu və avarlı gəmilərlə uzunluğunun 15 günlük (1600 km), eninin isə 8 günlük (500 km) yol olduğunu göstərmişdi [4.6].

E.ə. 384-322-ci illərdə yaşamış məşhur yunan alimi, Makedoniyalı Aleksandrın (İsgəndərin) müəllimi Aristotel (Ərəstun) də Xəzəri qapalı dəniz hesab etmişdi [4.6]. Bundan başqa, digər yunan alimi Eratosfen (e.ə. 176-194-cü illər) də Gegatey Miletski kimi Xəzər dənizini Şimal okeanının bir körfəzi kimi təsvir etmişdir. Daha sonralar Polibi (e.ə. 201-120-ci illər), siciliyalı Diodor (e.ə. 80-29-cu illər), yunanıstanlı Strabon (e.ə.53 - b.e.20-ci illəri), b.e.-nin I əsrinin birinci yarısında yaşamış Roma tarixçiləri və coğrafiyaşünasları Pomponi Mela, Kursi Ruf, Böyük Plini (b.e. 23-79-cu illər), isgəndəriyyəli Klavdi Ptolemey (90-168-ci illər) və başqaları öz əsərlərində Xəzər dənizi və onun qərb sahilləri, o cümlədən Abşeron yarımadası haqqında geniş məlumat vermişlər [4.7]. Bundan başqa, Roma tarixçisi Ammian Marçellin (təxminən 330-400-cü illər) özünün "Əməllər" adlı çoxcildli əsərinin XXIII cildində neft, asfalt və ondan istifadə haqqında məlumat verir [6.190]. Lakin çox təəssüflər olsun ki, Abşeron yarımadası və o cümlədən Bakı şəhəri haqqında erkən orta əsrlər, xüsusilə də I-VI əsrlərə aid məlumatlar həddən çox məhduddur və ya demək olar ki, yox dərəcəsindədir.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**

1. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı 2009.
2. Bəhramov C.Ə. Azərbaycan nefti. Bakı 2010.
3. Əlimirzəyev A.N. Erkən Elam Cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi. Bakı 2011.
4. Rəhmanov A., Rəhimov A. Xəzər və neft. Bakı 1961

5. Алиев К.Г., Алиева Ф.К. Древние авторы о месторождении нефти в Азербайджане. Azərbaycan Beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrində bakının rolu. III Bakı Beynəlxalq Simpoziumunun materialları. Bakı 1997.

**J.A.Bahramov**

## THE ANCIENT AND ANTIQUE SOURCES ABOUT THE CASPIAN SEA AND THE OIL (BEGINNING FROM THE VI MILLENNIUM BC UP TO THE III CENTURY AD)

### SUMMARY

The article is devoted to the analysis of ancient and antique period sources about Azerbaijan, the Caspian Sea and the oil.

The author basing on the sources known in science and to the works of scientists who summarizing the data on the Caspian Sea and the oil, tries to show the place which these concepts have in Azerbaijani people's ancient and antique period political, social, economic and cultural history.

**Дж.А.Бахрамов**

## ДРЕВНИЕ И АНТИЧНЫЕ ИСТОЧНИКИ О НЕФТИ И КАСПИЙСКОМ МОРЕ (VI ТЫСЯЧЕЛЕТИЕ ДО Н.Э. –III ВЕК Н.Э.)

### РЕЗЮМЕ

Статья посвящена анализу древних и античных источников по истории Каспийского моря и нефти. Ссылаясь на эти источники известные науке и труды ученых, использовавших эти источники, сумел обобщить и показать роль и значение Каспийского моря и нефти в древней и античной политической социально – экономической и культурной истории Азербайджанского народа.

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| Ellada Bəkirova | Antik Yunan-Roma və orta əsr gürcü mənbələrinin müqayisəsində buntürklər...................................................................... | 3 |
| Ramil Ağayev | İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri Azərbaycan haqqında | 10 |
| Ламия Кафар-заде | Социально-правовое положение населения Азербайджана в период господства Арабского Халифата (по материалам англоязычной историографии)............................................ | 31 |
| Nərgiz Əliyeva | Azərbaycanda islam elmi mühitinin ilkin çağları .................... | 40 |
| Rəşad Mustafa | Tiflis və ətraf ərazilərdə türk tayfalari (e.ə. IV – b.e. VII əsrlər)....... | 48 |
| Mehmet Kılıç | Qafqaz İslam ordusunun Bakinin azad etməsi uğrunda birinci hücumu……………………………………………………... | 61 |
| Cavanşir Feyziyev | Türk dünyasının tarixi taleyi: siyasi özünütəşkilinin əsas məqamları... | 69 |
| Rəna Əsədova | Birinci dünya müharibəsinin Şimali Azərbaycanin sosial-iqtisadi həyatina təsirinə dair................................................... | 79 |
| Vaqif Abişov | Bakida sovet hakimiyyətinin qurulmasi məsələsi (1917-ci il noyabr -1918-ci il iyul)........................................................... | 88 |
| Fazil Baxşəliyev | Şimali Azərbaycanda mülkədar torpaq sahibliyi kəndli islahatindan sonraki dövrdə..................................................... | 100 |
| İbrahim Məmmədov | 1988-ci il Sumqayit hadisələri və mərkəzi hakimiyyət orqanlarının mövqeyi............................................................... | 109 |
| Bəxtiyar Əhmədov | XX əsrdə Şimali Azərbaycanın Göyçə mahalinda yaşayan azərbaycanlilarin deportasiyasi və soyqırımı tarixinin tarixşünasliği........................................................................... | 117 |
| Нигяр Джошкунсу | Об особенностях гончарства в Азербайджане в период раннего средневековья......................................................... | 124 |
| Şamil Rəhmanzadə | 1917-ci il fevral inqilabindan sonra Gürcüstanin siyasi partiyalarinin milli ərazi ideologiyasina dair ........................... | 134 |
| Serhat Aktaş | Azərbaycan-Türkiyə mədəni əlaqələrində Gəncə şəhərinin iştirakı tarixindən (1991-2013-cü illər)................................... | 151 |
| Fəxri Valehoğlu | Rusiya istilasindan sonra irəvan xanliği ərazisində inzibati islahatlar və azərbaycanlıların (qaraqalpaqların) baş tutmamış sürgünü barədə….......................................................……... | 159 |
| Гюнель Оруджева | Организационная деятельность Узеира Гаджибейли после установления Советской власти (1920 – 1938).................... | 170 |
| Cəbi Bəhramov | Qədim və antik dövr mənbələri Xəzər dənizi və neft haqqında. (E.ə. VI minillikdən başlayaraq b.e. III əsrinədək)................... | 179 |

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Elmi Əsərlər»ində çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakılar nəzərə alınmalıdır.*

1. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi verilməlidir.
2. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.
3. Məqalələrin mətnləri 1 intervalla Times Roman AzLat – 13 ölçülü şriftlərlə yığılmalıdır.
4. Məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi və müvafiq elmi müəssisənin Elmi Şurasının protokolundan çıxarış olmalıdır (bunlar məqalə nəşr olunarkən göstəriləjəkdir).
5. Məqalənin elektron və çap olunmuş variantı ayrıja faylda təqdim edilməlidir.

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəjəkdir. Əlyazmalar geri qaytarılmır.

**Qeyd:** Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nətijələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

# ELMİ ƏSƏRLƏR
**2010, cild 34-35**

# SCIENTIFIC WORKS
**2010, volume 34-35**

# ТРУДЫ
**2010, том 34-35**

Formatı 60x90 $^{1}/_{16}$. F.ç.v. 11,75.
Tirajı 500

«Turxan» NPB MMC